بسم الله الرحمن الرحيم

RƏFAİL OĞUZTÜRK DAĞLI
**(Mustafayev Rəfail Salman oğlu)**

# SIZAN HƏQİQƏTLƏR (OĞUZNAMƏ)

**TAM HƏCMDƏ**

**Bakı – 2013**

RƏFAİL OĞUZTÜRK DAĞLI
“SIZAN HƏQİQƏTLƏR”(OĞUZNAMƏ)

Redaktor: Fuad Hüseyn
Texniki redaktor: Əhməd
Dizayner: Azər Rəsulov
Korrektor: Zeynəb Mustafazadə

Məmmədov Mehman Firudin oğlunun vəsaiti hesabına çap edilir.

Hörmətli oxucular! “Sızan həqiqətlər” oğuznaməsi Səlcuq elatının yaranması, elatın “Səlcuq elatı” və “Arslan elatı” (Qara Dağlı) kimi iki hissəyə ayrılaraq, Arslan Yabqunu hiylə işlədərək həbs etmiş sultan Mahmud Qəznəviyə qarşı mübarizəyə başlaması, uzun sürən müharibə nəticəsində böyük əraziləri idarəsi altına alması, Böyük Səlcuqlu Dövlətinin yaranması, bütün İslam dünyası üçün böyük təhlükə olan Bizans imperiyasına qarşı cihad tarixindən, siyasi çəkişmələrdən, meydan savaşlarından bəhs edən, həcminə görə dünya ədəbiyyatının ən böyük poemalarından olan, klassik poeziya ruhunda qələmə alınmış möhtəşəm əsərdir. Bütün bunlarla yanaşı, Rəfail Oğuztürk ənənəvi olaraq, bu əsəri də uzun sürən, dərin və ətraflı elmi-tədqiqat işindən sonra yazmışdır. Müəllifin 2011-ci ildə AMEA-nın Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap edilmiş monoqrafiyası “Sızan həqiqətlər” oğuznaməsinin əsas elmi istinad özüllərindən biridir.

Kitabda 20 yanvar şəhidlərinə həsr edilmiş, əruz vəznində yazılmış “Xalqın səhəri” adlı, kiçik həcmli poema, bir neçə şeir və qəzəl də yer almışdır.

**ISBN ..............................**

Rəfail Oğuztürk Dağlı, 2013

Müəllifdən
Ön söz

# *SIZAN HƏQİQƏTLƏR (OĞUZNAMƏ)*

**TAM HƏCMDƏ**

## ALLAHIN ADI İLƏ

Ey qüdrətli, Rəhim və Rəhman Allah,
Tanrı tanıdığım Yaradan Allah!
Tək Sənin qarşında çökərək dizə,
Həqiqət naminə başladım sözə.
Bilmədən səhvlərə yol versəm əgər,
Kimsəyə sözümdən dəyməsin zərər.
Yoluma nur saçsın verdiyin nemət,
Görünsün gözlərə gizli həqiqət.
Dəqiq bir ölçüylə, dəqiq nisbətlə,
Ağıla sığmayan bir məharətlə,
Müdhiş Kainatı Sən yaratmısan,
Suyuna sirr ilə sınaq qatmısan.
Nə müdhiş dəqiqlik, nə incə dövran?!
Həmd olsun, şükr olsun Sənə Yaradan!
Nə qədər möhtəşəm olsa da varlıq,
Sənə çətin deyil himayədarlıq.
Nəhənglər zərrələr hasilindədir,
Hər zərrə zərurət daxilindədir.
“Təsadüfdür” demək insana xasdır,
Hər qurduğun zərrə elmə əsasdır.
Dərgahından enər Yerə ədalət,
Hər kəs öz payını alar nəhayət.
Həzrəti Cəbrail, o böyük mələk,
Verdiyin hər əmri icra edərək,
Qədr gecəsində enərək Yerə,
Çatdırdı Quranı son peyğəmbərə.
Həzrəti Məhəmməd eylədi bəyan,
Nur saçdı Varlığa müqəddəs Quran.
Xaliqin məxluqa son nəsihəti!
Hər kəs dərk etmədi bu pak neməti!
Bu təkəbbür ki var, iblisə məxsus,
Çoxunun qəlbinə hökm etdi əfsus!

Müqəddəs Lövhədən seçilmiş Quran,
Qəlbi kor insana göründü yalan.
Haramlar naminə yalanlar əzəl,
İnsanın gözünə görünər gözəl.
İmansız gözlərə görünər məgər,
Haram şirnisində gizlənən zəhər?!
Hər nə haram üstdə olsa bərqərar,
Mütləq nəticədə fəlakəti var.
Uca Tanrım! Sənsən ölməz həqiqət!
Nurundan qəlbimə sızdı məhəbbət!
Öylə bir kürrədə yaşayırıq biz,
Hər an fəlakətdir qalsaq rəhmsiz!
Şərdən və şeytandan hifz eylə bizi,
Rəhminlə ram edək öz nəfsimizi.
Rəhimsən, Xaliqsən, mahir Yaradan,
Rəhminə baş əyir dərk edən insan.
Necə baş əyməyim qüdrətinə mən,
Ana sevgisinin xaliqisən Sən?!
Sən məni seçmisən səcdəyə layiq,
Sübhü, Başlanğıcı yaradan  Xaliq!
Axirat gününün sahibi Allah,
Qiyamət gününün sahibi Allah!
Zirvələr fəth edib haqq yolu ilə,
Verdiyin hikmətlə gələrək dilə,
İzin ver ki yazım imanlı dastan,
Qəflətdən oyansın bəlkə bir insan.
Mənə qismət olsun bu böyük şərəf,
Bir addım da gəlim mən Sənə tərəf.
Aləmlərin Rəbbi, eylə mərhəmət,
Çatsın ünvanlara öyüd-nəsihət!

# ƏSRİN YAZLMA SƏBƏBİ

Tanrı nemətidir elmim, hikmətim,
Dünyanı fəth edər söz kəramətim.
Bəs nədir əsəri yazmaqda mətləb?
Sadəcə, ruhumdan doğar bu səbəb.
Qanım da, canım da oğuzdur əgər,
Belə bir sualın yeri var məgər?!
Türk babalarımdan yazıram dastan,
Bir tərif də belə etmirəm güman.
Tarixi "Türk" adlı ulu millətin,
Elə tarixidir bəşəriyyətin.
Sanma bir tərifdir, bir şərafətdir,
Bu fikir sadəcə bir həqiqətdir.
Olubmu Tarixdə tarixçi məgər,
Türk şücaətindən verməsin xəbər?
Ulu türkün zəngin mədəniyyəti,
Bu gün də yönəldir bəşəriyyəti.
Böyük töhfələrdən dördüdür ancaq,
Vətən, dövlətçilik, ordu və sancaq.
Kimlərə ki yaddır ərən adəti,
Etiraf etməzlər bu həqiqəti.
Mən ilham alaraq nur zərrəsindən,
Çıxıram zamanın məngənəsindən.
Qaldıqca arxada əsrlər, illər,
Görünür gözümə o qədim ellər.
Çapdıqca yollarda elm adlı kəhər,
Yormaz məni əsla ən uzaq səfər.
Yenə haqqı uca tutub nəhayət,
Tanrıdan diləyib sözə kəramət,
Bir əsər yazmağa vermişəm qərar,
Burda bir ilahi yönəltmə də var.
Bir tarix yazmaqdır yenə niyyətim,
Əzəldən bəllidir məsuliyyətim.

Yazsaydım xaqani ləhcəmdə[1] əgər,
Bal kimi olardı yazdığım əsər.
Layiqli bilinsə uca millətə,
O zaman bu əsər yetər şöhrətə!
Yaradan bəxş edib bu şərafəti,
Qorudu islamı oğuz qeyrəti.
Oğuz babalarım durub səflərə,
Əgər yetməsəydi müdhiş zəfərə,
Dinsizlər atılıb bu meydanlara,
Zülm eyləyərdilər müsəlmanlara.
Yenə də tarixdən açıram söhbət,
Çünki tarixdədir önəmli ibrət.
Dərk etmək istəsən özünü kamil,
Tək Allahı tanı və tarixi bil!
Demə ki, Rəfail Oğuztürk özü,
Sanki damla-damla yazıb hər sözü.
Olmasaydı uzun hərbi xidmətim,
Üçqat böyüyərdi söz səltənətim.
Elin əsgəriyəm, şairiyəm mən,
Hərbin də, nəzmin də mahiriyəm mən.
Vətənə xidmətdir əlimdə ələm,
Bunca müqəddəsdir silah və qələm.

## *I HİSSƏ*

## SƏLCUQ ELATININ İKİ HİSSƏYƏ BÖLÜNMƏSİ

### *SIZAN HƏQİQƏTLƏR*

Zirvələr fəth edib mən zaman-zaman,
Özümü çox böyük edərdim güman.
Elə ki, Qurana yetişdi əlim,
Oyandı cansız və məğrur heykəlim.
Sözdən söz törədi, hikmətdən hikmət,
Hüdudsuz qürurdan çəkdim xəcalət.
İçimdə şübhələr, əlimdə Quran,
Açıldı qəlbimdə böyük bir meydan.
Quran zərrə-zərrə verdikcə şəfqət,
Dolurdu qəlbimə sızan həqiqət.
Gah dərəyə düşdüm, gah qalxdım dağa,
Nəhayət alnımı vurdum torpağa!
Şüursuz qorxudan gəlmədim vəcdə,
Mən Haqqın elminə eylədim səcdə!
Günbəgün artırıb ibadətimi,
İbadətlə tapdım səadətimi.
Qurandan başladı bütün hikmətim,
Mənim də var imiş böyük qismətim.
“Aliməm” deməsin hikmət oğrusu,
İmansızdan alim olmaz doğrusu.
Elmin sahibidir yaradan Allah,
Elmin beşiyidir o uca dərgah.
Hər elmin əvvəli, hər elmin sonu,
Düzgün tərtibatda dərk edir Onu!
Tanrı kəlamından doğar ilhamım,
Bəllidir özümə yerim, məqamım.
Haqq mənə Qurandan verdikcə ziya,

Hikmət damlaları yaratdı dərya.
Müqəddəs zirvədən sızan həqiqət,
Elm dəryasına dönər nəhayət.
Dəyişməz Qurandan aldıqca iman,
Könül məskənində yaratdım sahman.
Yalnız bundan sonra baxdım İncilə,
Göründü gözümə hər müdaxilə.
Keçirib hər sözü, fikri ələkdən,
Seçdim gözəlliyi ucuz bəzəkdən.
Möhkəm bünövrəli sağlam fəlsəfə,
İşin öhdəsindən gəldi hər dəfə.

## SULTAN MAHMUDUN ÇAPARI

O dövrü əhatə edir ki, əsər,
Azov dənizindən düz Çinə qədər,
Yurd yerləri idi Türk ellərinin,
O cümlədən Oğuz nəsillərinin.
Qərbdən də, şərqdən də qədimdən bəri,
Oğuzlar əhatə edib Xəzəri.
Çətin durumdaydı oğuzlar yaman,
Oğuzu sınağa çəkmişdi zaman.
Bir zaman dünyaya hökm edən elat,
İndi parça-parça olmuşdu heyhat.
Şimal-qərbə doğru tutmuş idi yol,
Əlli min çadırlıq "uz" adlı bir qol.
Altı yüz min nəfər olardı sayı...
Bu möhtəşəm elat keçib Dunayı,
Bütün Avropanı lərzəyə saldı,
Şimaldan Bizansın üstünü aldı.
Xəzərin şərqində bir neçə elat,
Yaşaya bilmirdi bir yerdə rahat.
Hər gün yeni-yeni dava-dalaşlar,
Səngimək bilməyən qanlı savaşlar,
Elləri yurdundan edir didərgin,
Hər gün qan-qadalı, hər gecə gərgin.
Yalnız Səlcuqlular adlanan elat,
Mükəmməl vəhdətlə tapmışdı nicat.
Səlcuq bəyin böyük övladı Arslan,
Qazanmışdı eldə özünə ad-san.
Hələ dəfn etməmiş qoca Səlcuqu,
Oğuzlar seçmişdi Arslanı yabqu[2].
Arslan Yabqunun üç qardaşı vardı,
Yusifi gəncikən əcəl apardı.
Mikayıl da köçdü həyatdan cavan,
Qıpçaqlarla savaş etdiyi zaman.

Bu iki qardaşı ömr etdi qısa,
Yalnız bir qardaşı qalmışdı – Musa.
Arslan oğuzlardan topladı ordu,
Özü də ordunun önündə durdu.
Yağı düşmənləri tutub hədəfdə,
Yabqu savaş etdi dörd bir tərəfdə.
Ellər fəth eylədi, torpaqlar aldı,
Böyük xaqanları qorxuya saldı.
Qaraxanilərin böyük xaqanı,
O Qadir xanın[3] da sıxıldı canı.
Mahmud Qəznəviyə[4] göndərib çapar,
Qüdrətli sultanı etdi xəbərdar:
"Əli Təgin[5] ilə birləşib Arslan,
Sərhədlərimizdə sulayır meydan.
İstədiyi yerə eyləyib səfər,
Zəfərin ardıyca qazanır zəfər.
Böylə davam etsə qısa bir müddət,
Oğuz elatları bulacaq vəhdət.
Əgər Arslan kimi ağıllı rəhbər,
Belə bir vəhdətə olsa müyəssər,
Elə bir qüdrətə yetər ki, inan,
Hələ beləsini görməyib zaman.
Sultanım, nə qədər gec deyil hələ,
Tanrı xatirinə, verib əl-ələ,
Alaq bu bəlanın qarşısını biz,
Yubansaq gec olar sonra şübhəsiz".
Tezliklə bu məktub sultana çatdı,
Xanın yazdıqları ağlına batdı.
Ordunu qaldırıb başladı hərbə,
Qadir xan da şərqdən yürüdü qərbə.
İki böyük xaqan eyni zamanda,
Təginin üstünə cumdu bir anda[6].
Məəttəl qalsa da Təgin bu işə,
Durdu xaqanlarla ağır döyüşə.

Bir tərəfdən Sultan Mahmud kimi şir,
Bir tərəfdən doğma qardaşı Qadir.
Düşmən kəsilmişdi qardaşa qardaş...
Qırğına çevrildi bu qəfil savaş.
Əli Təgin kiçik bir dəstə ilə,
Xilas olmaq üçün üz tutdu çölə.
Səlcuqlu elinə çatanda xəbər,
Bütün oğuzları bürüdü kədər.
Bilərək ki, yoxdur ona da aman,
Təcili "Gənəşmə"[7] çağırdı Arslan.
Bu dar gündə etmək üçün məsləhət,
Yabqu çadırında yığışdı heyət.
Gənəşmədə oldu müxtəlif rəylər,
Dəsturla[8], növbəylə danışdı bəylər.
Elə ki, məclisdə fikir qarışdı,
İcazə alaraq Musa danışdı:
"Bəzi bəylər verdi savaşa qərar,
Hər şücaətin də nəhayəti var.
Hindistandan tutmuş Bağdada qədər,
Mahmud Qəznəvidir dillərdə əzbər.
Bu digərlərinin deyildir tayı,
Onun ordusunun bilinmir sayı.
Tutalım otuz min toplayıb əsgər,
Qəfildən sultana vuraq bir xətər.
Bəs sonra nə olsun? O zaman məgər,
Rumlar ölkəsindən[9] ta Çinə qədər,
Taparıqmı rahat bir parça məskən?
Dəlilik etməyin bu işdə lütfən!"
Məhəmməd Toğrul bəy söylədi: "Əmi,
Bir kərə yetişir igidlik dəmi.
Qorxub çölə qaçmaq bizə yaraşmaz,
Çoxdan çox qırılar, azdan dəxi az!"
Toğrulun qardaşı Davud Çağrı bəy,
Dedi: "Əmi, məncə budur doğru rəy.

Sultanlar döyüşdə yenilmir məgər?
Bu sultan Allahdır, yoxsa peyğəmbər?”
Bu yerdə Musa bəy heyrətə gəldi,
Başını qaldırdı, beli dikəldi:
“Oğul, bu nə sözdür?! Əstəğfürullah!
Şəriksiz varlıqdır yaradan Allah!”
Bir qədər həvəssiz, bir az çarəsiz,
Toğrul təbəssümlə dedi: “Şübhəsiz,
Çağrı bəy Allaha qoşmayır şərik,
O nə bir kafirdir, nə də ki, müşrik!
Əmi, sən bilirsən necə insandır,
Haqqa səcdə edən bir müsəlmandır.
Sən Sultan Mahmudu edincə tərif,
Çağrı bəy sadəcə söylədi təklif.
Biz Səlcuq babadan almışıq təlim,
Körpəlikdən olub bizə müəllim.
Həm atamız olub, həm də babamız[10],
Adıyla adlanır bu el-obamız.
O Qəznəvilərin varsa sultanı,
Qaraxanilərin vardırsa xanı,
Səlcuq elatının öz yabqusu var,
Yad oğlu yad deyil bizə iqtidar”.
Yabqu qaşlarını çataraq bu an,
Toğrula, Çağrıya baxdı bir zaman.
Hiss olunurdu ki, dolub gözləri,
Lakin təbəssümlə axdı sözləri:
“Bəylər, bu gənəşmə qədim adətdir,
Onun da əsası müxalifətdir.
Hər kəs öz fikrini deyər, nəhayət,
Çıxar aşkarlığa əsl həqiqət.
O məsləhətlər ki, olar sarayda,
Boş-boş danışarlar... Kimə nə fayda?
Yığılıb yaltaqlar, durub yan-yana,
Təriflər deyərlər xana, sultana.

Toğrul, oğuzların sərt xasiyyəti,
Yaltaq tərifini rədd edir qəti.
Lakin xoş sözlərə layiqsə bir kəs,
Şərəfləndirməyi yubatma əbəs.
Musa bəy sultanı etməyir tərif,
Deyir ki, düşmən də deyildir zəif.
Təkəbbür, nifrətlə verilən qərar,
Heç zaman heç kimi etməz bəxtiyar.
Düşmənin gücünü öyrən mükəmməl,
Çünki ehtiyatdır zəfərə təməl".
Qızıl bəy[11] söylədi: "Yabqum, doğrudur,
Vəziyyət ağırdır, həqiqət budur.
Şimalda qıpçaqlar, şərqdə Qadir xan,
Cənubda Qəznəvi verməyir aman.
İndi savaş bizə gətirməz xeyir,
Daha önəmlidir ağıllı tədbir".
Bu vaxt alaçığa girdi bir əsgər,
Dedi: "Yabqum, çapar gətirib xəbər,
Onu Sultan Mahmud göndərib özü,
Deyir, Arslan bəyə var vacib sözü.
Yabqum, adi çapar deyil bu çapar,
Onda nə isə bir qəribəlik var".
Yabqu "Çağır gəlsin" deyə əmr etdi,
Əsgər bağır basıb, baş əyib getdi.
"Bu da tədbir özü!" söylədi Arslan...
Bu vaxt alaçığa girdi bir cavan.
Bir qədər qəribə görkəmli çapar,
Çiynindən asmışdı bəzəkli dütar.
O da bağır basıb, baş əyib durdu,
Yabqu yer göstərdi, çapar oturdu.
Yağmur bəy diqqətlə çaparı süzdü,
Qaşlarını dartıb, ağzını büzdü:
"Mərə qovat[12], kişi, çaparsan, ozan?"
Gülüb: "Yox, təbbazam"[13] söylədi cavan.

## CƏNGİ-HİSAR, BƏSTƏ-NİGAR

Cavana bir qədər yetirib diqqət,
Arslan bəy soruşdu ondan nəhayət:
“İgid, söylə görək, nə vaxtdan bəri,
Təbbazlar çatdırır vacib xəbəri?
Mütləq ki, buna bir vacib səbəb var...
Bəlkə sən etmisən bu işdə israr?”
Yenə gülümsünüb söylədi cavan:
“Mənə bu tapşırıq verilən zaman,
Çox təəccübləndim doğrusu əvvəl,
Belə bir fərmana qaldım məəttəl.
Lakin ani vaxtda düşünüb dərin,
Qəlbimdə sultana dedim “Afərin!”
Oğuz olduğumu bilir hökmdar,
Elə bu səbəbdən seçildim çapar”.
Çatıb qaşlarını, düşünüb bir an,
Arslan Yabqu dedi: “Yəqin ki, sultan,
Qeyri-adi təklif eyləyir mənə,
Yoxsa nə ehtiyac var idi sənə?”
Elçi dedi: “Yabqum, elədir ki var,
Necə söyləyibsə mənə hökmdar,
Öylə də deyirəm – şərəfli Arslan,
Əgər ki, sultana olarsa mehman,
Sultan bu gəlişdən olar bəxtiyar,
Çünki Arslan bəyə sayqıları var!”
Arslan Yabqu gülüb dedi: “Çox gözəl!
Duymamışdım böylə sayqılar əzəl.
Demək, Sultan Mahmud göstərib hörmət,
Məni mehman kimi eyləyir dəvət.
Hələ bir oğuz da göndərib çapar,
Səmimiyyətini eyləyir aşkar”.
Dərin fikirlərə dalınca Arslan,
Çadıra sakitlik çökdü bir zaman.

Az sonra elçiyə tutub üzünü,
Yabqu dedi: "İgid, tanıt özünü!"
Elçi dedi: "Yabqum, Rüstəmdir ismim,
Yazır[14] boyundandır, oğuzdur əslim.
Hisar[15] şəhəridir baba məskənim,
İndi Qəznədədir yurd-yuvam mənim..."
Çağrı bəy soruşdu: "Bəs niyə getdin?
Hisardan Qəznəyə nədən köç etdin?"
Dütarı göstərib söylədi Rüstəm:
"Bunun ucbatından... düz beş il əqdəm,
Hələ yaşayırdım Hisarda rahat,
Adi günlər ilə ötürdü həyat.
Həm nəqqaş idim mən, həm də ki, dülgər,
Korluq çəkməmişəm, deyim müxtəsər.
Təmir eyləyərək bir neçə alət,
Dütar çalmağı da bildim nəhayət.
Bir gün peyda oldu varlı müştəri,
Dəyişdi həyatım o gündən bəri.
Alıb müştəridən sifarişimi,
Onun həyətində qurdum işimi.
Mən işə yenicə başlayan zaman,
Dütarın səsini eşitdim bir an.
Səs qonşu həyətin bağından gəldi,
Qəfil gəldiyitək qəfil kəsildi.
Qısa səslənsə də qonşuda dütar,
Müəyyən etdim ki, nasazlığı var.
İti addımlarla edib hərəkət,
Çəpərin önünə gəldim nəhayət.
Gördüm ki, çəməndə bir dəstə gözəl,
Altı və ya yeddi növrəstə gözəl..."
Bu yerdə dözməyib bəylər gülüşdü,
Buğa bəy dedi: "Lap yerinə düşdü!
Dörd tərəfdə düşmən qoparır tüğyan,
Təbbaz oğuzlara danışır dastan!"

Yabqu da üzündə təbəssüm ilə,
Söylədi: “Buğa bəy, darıxma belə,
Bu fani dünyanın özü savaşdır,
Hər yerdə qan-qada, dava-dalaşdır.
Lakin belə şirin, səmimi söhbət,
Nadir təsadüfdür, az olur qismət.
Ağırdır oğuzun təbiəti çox,
Di gəl dostluqda da bərabəri yox.
Belə yazmış bizə qisməti yazan,
Meydanda əsgərik, məclisdə ozan.
Döyüşdə rəhbərdir əgər sübaşı[16],
Sülh vaxtı ozandır məclisin başı.
Böyüklü-kiçikli yığışaraq biz,
Ozanı dinlərik səssiz-səmirsiz.
Bir mərci[17] qədər də olmaz qəbahət,
Ozan məhəbbətdən açarsa söhbət.
Mehmanımız Rüstəm deyildir ozan,
Nə də ki, danışmır bizlərə dastan.
Sayqılı cavandır Rüstəm bəy özü,
Ozanlar qədər də şirindir sözü.
Olub-keçənləri deyirsə Rüstəm,
Gəlin diqqət ilə dinləyək bahəm”.
Rüstəm bağır basıb danışdı yenə:
“O gündən də hər şey döndü tərsinə...
Sən demə qonşunun qızıymış Nigar,
Ona məxsus imiş səslənən dütar.
Əmisi hədiyyə edib Nigara,
Heratdan[18] gətirmiş onu Hisara.
Dütarı verərkən gözəl çəkdi ah,
Dedi: “Səslənməyir dütarda segah”
Təmir məqsədiylə alıb dütarı,
Arxayın eylədim o gün Nigarı.
Dedim ki, tərk etsin bu boş xiffəti,
Tez təmir edərəm mən bu aləti.

O zaman dütarda nəinki segah,
Xanım qız çalacaq hətta çahargah.
Öncə "inşaallah" deyəydim gərək...
Nə bilim nə oyun qurubdur fələk?
Dütarı əlimdə görüncə dərhal,
Həyətin sahibi verincə sual,
Mən də əhvalatı danışdım tamam...
Gərək olmayaydım bu qədər avam.
Demə məndən başqa, bütün əhali,
Bilirmiş – vurulub Nigara vali.
Hisarın valisi, qoca hiyləgər,
Qızın atasına göndərib xəbər.
Elçiləri qəbul eyləyib kişi,
Özü də tədbirlə görüb bu işi.
"Bir az fikirləşək" desə də yalnız,
Bu olaydan düşüb dərd içinə qız.
Mən Nigarı bağda gördüyüm o gün,
Sandım, dütar üçün olubdur üzgün.
Demə bu dərd edib qəlbini qubar,
Nə fayda? Əlacsız qalmışdı Nigar.
Bəli... dedi-qodu aldı şəhəri,
Guya Nigar sevib kasıb dülgəri.
Şəhər qazısını çağırıb vali,
Deyib: "Gülür mənə bütün əhali.
Məni ələ salır bir yoluq dülgər,
Qeybət yuvasına çevrilib şəhər.
Bu rüsvayçılıqdan gəlmişəm cana,
Şərlə o dülgəri, salaq zindana".
Qazı deyib: "Ağam, eyləmə təşviş,
Zindana salmaqla çözülməz bu iş.
Bir divan quraram dülgərə elə,
Çıxmaz xəcalətdən evindən çölə".
Carçılar göndərdi hər yana vali,
Toplandı meydana xeyli əhali.

Məni cani kimi çəkib meydana,
Qazı belə xitam verdi divana:
“Bu ədəbsiz dülgər dinsizdir tamam,
Günahkar bəndədir, əməli haram.
Naməhrəm qızlarla eyləyir söhbət,
Xəlvətdə əlinə düşüncə fürsət.
Dülgər şallaqlarla döyülsün gərək,
Bəlkə tövbəsinə edər bu kömək”.
Mənə şər ataraq divan qurdular,
Xalqın qarşısında şallaq vurdular.
Yaxşı tanıyırdı məni camaat,
Hamı bilirdi ki, suçsuzam. Heyhat,
Qorxusundan kimsə dinərdi məgər?
Hə kəs bilirdi ki, danışsa əgər,
Ona da məkrlə qurular tələ,
Şallaqla döyülər meydanda belə.
Mən də zülmə qarşı əlacsız qaldım,
Mən də öz dərdimi daxilə saldım.
Bir axşam götürüb sınmış dütarı,
Dərd içrə tərk etdim doğma Hisarı.
Bir neçə ay gəzdim, yolçuluq etdim,
Nəhayət bir səhər Qəznəyə yetdim.
Yol gəlmişdim deyə bütün gecəni,
Arğunluq-yorğunluq üzmüşdü məni.
Şəhər kənarına çatıb dayandım,
Bir sərin kölgəlik tapıb uzandım.
Yatdım. Yuxu gördüm. Gördüm ki, Nigar,
Sevnc içindədir, gözəl, bəxtiyar.
Deyir: “Bilirdim ki, əzizim Rüstəm,
Qoymaz üzsün məni bu kədər, bu qəm.
Rüstəm, səsləndir o şikəst dütarı,
Çal bəstələdiyin Bəstə – Nigarı!”
Elə bir musiqi səsləndi bu dəm,
Həzin sədasına büründü aləm.

Elə bil ki, dütar gəlmişdi dilə,
Mən də ağlayırdım hönkürtü ilə...
Yuxudan oyandım... dütarı aldım,
O Bəstə – Nigarı gerçəkdə çaldım.
Elə şirin gəldi musiqi mənə,
Təsirdən gözlərim yumuldu yenə.
Yəqin ki, keçmişdi bir xeyli zaman,
Çünki gözlərimi mən açdığım an,
Gördüm ətrafımda xeyli adam var,
Yoldan ötənləri cəlb edib dütar.
Onlardan birisi söylədi mənə:
“Qardaş, valeh oldum doğrusu sənə.
Mahir sənətkarsan, olsan da cavan,
Ustad çalğısıdır bu çalğı inan.
Sultan ordusunun təbbazıyam mən,
Təbbaz dəstəsinə layiqlisən sən.
Gəl gedək, dinləsin səni baş təbbaz,
O, səni dinləsə etməz etiraz”.
Mən ona söylədim: “Sağ ol, qardaşım,
Belə bir xidmətlə ucalar başım.
Ancaq ki, qəribəm, düşmüşəm dara,
Mən qayıtmalıyam mütləq Hisara”.
Təbbaz da sevincək dedi: “Xoş xəbər!
Biz sabah Hisara edirik səfər.
Həddini aşıbdır Hisarda vali,
Şikayət eyləyir ondan əhali.
Valinin həbsinə verərək fərman,
Bir cəza dəstəsi göndərir sultan”.
Ürəyim titrədi, gözlərim doldu...
O gün taleyimdə bir dönüş oldu.
Təbbazla birlikdə Qəznəyə getdim,
Başım çəkənləri ona nəql etdim.
O geniş ürəkli mehriban insan,
Məni öz evində eylədi mehman.

Sonra da görüşdük baş təbbaz ilə...
Yenə də dütarı gətirdim dilə.
O da heyran oldu Bəstə-Nigara,
Dedi: "Apararıq səni Hisara".
Əlavə də etdi o, gülə-gülə:
"Təbbaz da olarsan, bircə şərt ilə,
Tezliklə bəstələ bir Cəngi-Hisar,
Hələ bir neçə gün vaxtımız da var.
Hisara yetincə cəza dəstəsi,
Tüğyan etməlidir cənginin səsi".
Bir Allah bilir ki, sevindim necə!
Həyacan içində yatmadım gecə.
Qarışdı içimdə şadlıq, intizar,
Səsləndi qəlbimdə o Cəngi-Hisar.
Qəznəvi qoşunu, on beş min nəfər,
Qəznədən Hisara yürüdü səhər.
Mən də təbbazlarla səfərə getdim,
Nəhayət ki, gəlib Hisara yetdim.
Əsgərlər şəhərə girdiyi zaman,
Cəngi-Hisar səsi oxudu meydan.
Havadar çıxmadı kimsə valiyə,
Çünki zülm etmişdi o, əhaliyə.
Artıq yetişmişdi valinin sonu,
Sürüyüb divana çəkdilər onu.
Bütün şəhər əhli gəldi meydana,
Durdu qazı ilə vali yan-yana.
O gün özlərinə quruldu divan,
Sonda da ucadan oxundu fərman.
Valini, qazını bir neçə əsgər,
Şallaqla döydülər, ölənə qədər.
Mənsə ələk-vələk edib Hisarı,
Şəhər zindanında tapdım Nigarı.
Sən demə o vali, o qoca qəddar,
Elçilər göndərib Nigara təkrar.

Boşa çıxdığından çirkin niyyəti,
Aşıb-daşıb onun kini, nifrəti.
O günahsız qızı zindana salıb...
Nigar o gündən də zindanda qalıb.
Üzmüşdü yazığı qaranlıq zindan...
Mən onu məhbəsdən çıxardığım an,
Sevincdən ağladı hönkürtü ilə,
Haçandan-haçana gələrək dilə,
Dedi: "Rüstəm, yəqin bilirdim ki, mən,
Gəlib yetəcəksən imdadıma sən".
Danışmaq istədim, çıxmadı səsim,
Kəsildi qəhərdən sanki nəfəsim.
Kandarda əyləşdim sonra birtəhər,
Özümə toxtaqlıq verib bir qədər,
Dütarı dizimin üstünə aldım,
Nigar üçün "Bəstə-Nigar"ı çaldım.
Dütarın diliylə axdı sözlərim,
Yaz buludu kimi doldu gözlərim.
Həzin musiqini dinləyib bir an,
Nigar ixtiyarsız qışqırdı: "Aman!
Mən bu musiqini bilirəm, Rüstəm,
Könlümdə səslənib hər zaman, hər dəm!"
Qarşımda diz üstdə çökərək Nigar,
Soruşdu: "Bu odur, o şikəst dütar?"
Sonra Nigar məndən dütarı aldı,
Onun tellərinə titrəmə saldı.
Mən bu möcüzəyə qaldım məəttəl,
Heç nə dəyişmədi, dəyişsə də əl!
Heyrətdən yerimdə quruyub qaldım,
Sanki Nigar deyil, mən özüm çaldım.
"Bəstə-Nigar" idi, hər necə ki var,
Sanki onu əzbər bilirdi dütar!"
Susdu... fikrə gedib Rüstəm bircə an,
Gülümsünüb dedi: "Uca Yaradan,

Qüdrət sahibidir, ədalətlidir,
Rəhimdir, Rəhmandır, mərhəmətlidir.
Lap tamam əlacsız qaldığım zaman,
Ondan ümidimi üzmədim bir an...”
Yağmur bəy söylədi: “Mümkünsə əgər,
Sən bizə ətraflı danış bir qədər.
Necə oldu axı bu işin sonu?
Nigarı deyirəm... Unutdun onu?
Yoxsa ki, çiyninə alıb dütarı,
Hisarda tək-tənha qoydun Nigarı?”
Hamı güldü. Rüstəm söylədi: “Məgər,
Ağılsız sanırsan məni bu qədər?
Deyirsən bu qədər çəkib əziyyət,
Sonda bir dütarı bilim kifayət?
Üç gecə toyumda şənləndi Hisar...
Ağa bəy, bəxtimin tacıdır Nigar”.
Yağmur dedi: “Bax bu başqa məsələ!
Sənin kimi igid örnəkdir elə”.
Arslan Yabqu dedi: “Elədir, bəli.
Çünki ailədir elin təməli.
Varsa ailədə sədaqət, vəfa,
Verməz törəməsi xalqına cəfa.
Vəfalı, ismətli, təmiz ailə,
Qeyrətli övladlar bəxş edər elə.
İstər oğul olsun, istərsə də qız,
İsmətdir insanın bəzəyi yalnız.
Rüstəm, mərd oğulsan, sözünə sadiq,
Övladların olsun özünə layiq.
Xoş oldu bəylərə söhbətin, sözün...
Yol gəlmisən, yəqin yorğunsan özün.
Get, qonşu çadırda dincəl bir qədər,
Biz də bir qərara gələk müxtəsər”.
Cəld ayağa durub təşəkkür etdi,
Rüstəm bağır basıb çadırdan getdi.

## GƏNƏŞMƏ

Hökm etdi çadırda qısa bir müddət,
Qəlbi intizarla üzən sükunət.
Yabquya baxırdı bəylər nigaran...
Məclisi nəzərdən keçirib Arslan,
Dedi: "Əli bəyin məğlubiyyəti,
Çıxılmaz eyləmiş lap vəziyyəti.
İndi dörd yanımız yağı düşməndir,
Savaşa atılmaq ölümə təndir.
Nə qanlı-qıpçağa, nə Qadir xana,
Nə də ki, Qəznəvi Mahmud Sultana,
Əsla oğuzların yetməz qüvvəti,
Çünki elatların yoxdur vəhdəti.
Bütün oğuzları etməkçün əlbir,
Vacibdir ağıllı, sürəkli tədbir.
Bunun üçün bizə gərəkdir zaman,
Bu vəziyyət isə verməyir aman.
Vaxt qazanmağa da tədbir gərəkdir,
Bu isə... müəyyən güzəşt deməkdir".
Çağrı bəy soruşdu: "Yəni ki, necə?"
Arslan gülümsünüb dedi: "Sadəcə.
Məni dəvət edib şərəfli sultan,
Gərəkdir ki olum sultana mehman".
Oğuz bəylərini bürüdü heyrət,
Baxışdılar onlar qısa bir müddət.
Toğrul bəy söylədi: "Yabqum, axı sən,
Bunu hamımızdan yaxşı bilirsən.
Nə mehmandarlıqdır Mahmuddan belə?!
Açıqca qurubdur səninçün tələ!"
Eyni həyacanla Anasıoğlu,
Dedi: "İgid Toğrul söylədi doğru.
Bəllidir sultanın bu bəd əməli..."
Bir neçə bəy dedi – "Doğrudur", "Bəli".

Arslan Yabqu yenə gülümsünərək,
Dedi: “Gizli deyil əsla bu kələk.
Hərbin, siyasətin bu nəhəng divi,
Ağıllı adamdır Mahmud Qəznəvi.
O, yaxşı bilir ki, hal-hazırda biz,
Meydanda qalmışıq tamam çarəsiz.
Lakin o hiyləgər bununla belə,
Qan tökmək fikrindən daşınır hələ.
Ehtiyatla qurur hər işə təməl,
Oğuz xislətini bilir mükəmməl.
Məlumdur ki, Mahmud son həddə qədər,
Qan düşmənçiliyi törətməz hədər.
Ola bilsin məni edəcək dustaq,
Mənə qəsd etməkdən çəkinər ancaq...
Yalnız bircə şeydə səhv edir sultan,
Sanır ki, yabqusu olmasa Arslan,
Oğuz dara düşüb qalacaq başsız,
İşlər ötüşəcək dava-dalaşsız”.
Yağmur bəy söylədi: “Yabqum, bəs nədən,
Bu yolu tutmayaq elə əvvəldən?
Müttəfiq olaraq Qadır xan ilə,
Sultan arxayındır özünə belə.
Meydana çəksəydik onları bir-bir...”
Arslan Yabqu dedi: “Belə bir tədbir,
Bəlkə gətirərdi bizlərə zəfər...
Vəziyyət başqadır amma bir qədər.
İndi nə Qəznəvi, nə də Qadir xan,
Verməyəcək bizə belə bir imkan.
Hərəsi bir yanda düzüb ordunu,
Hədəfə alıbdır oğuz yurdunu.
Sanmayın ki, biri qayıdıb gedər,
Ta ki, məni dustaq edənə qədər.
Üzük qaşı kimi aradayıq biz,
Üç tərəf düşməndir, bir tərəf dəniz.

Meydana girməksə ölümdür aşkar...
Beləliklə, bəylər, bir yolumuz var.
Məni ordugahda gözləyir sultan,
Yola çıxmalıyam səhər obaşdan".
Bəylər eyləyincə kəskin etiraz,
Arslan Yabqu dedi: "Səbr edin bir az!
Axı hələ məlum deyildir dəqiq,
Nə tədbir qurub bu iki müttəfiq.
Ən pis tərəfini düşünək ancaq,
Əgər sultan məni eyləsə dustaq,
Çılğınlıq etməyin, dözün, səbr edin,
Deyəcəyim yolla təmkinlə gedin.
Salarsız araya yalançı nifaq,
Belə ki, hər bir kəs inansın ancaq.
Bölərsiz elatı iki hissəyə,
Musa yabqu olar böyük qissəyə.
İkinci elat da Qızıl bəy ilə,
Mahmud Qəznəvini tutaraq dilə,
Gedib Xorasanda eyləsin məskən.
İşin sonrasından əminəm ki mən,
Sultan çox şad olar bu səadətə,
Götürər elatı hərbi xidmətə.
Qəznəvilər içrə bu elat qalar,
Hərdən, ara-sıra çaxnaşma salar.
Bu zaman ərzində, sakitcə, xəlvət,
Bütün oğuzlarla yaradın vəhdət.
İnşaallah, duyub mütləq vəhdəti,
Tamam dəyişərsiz siz siyasəti.
Seçərsiz vahid bir yabqu o zaman,
Bircə düşmənə də verməzsiz aman.
Oğuz vəhdətidir önəmli, əsas,
Yalnız bundan sonra alarsız qisas.
Məni azad etmək istəyən hər bəy,
Bu gündən, bu yolda göstərməli səy.

Cəsur oğuz eli qurmasa vəhdət,
Bu fani dünyada bulmaz səadət!
Bəylər! Qəsd etsə də düşmənlər mənə,
Allah xatirinə! Səbr edin yenə!
Bir Arslan nədir ki, müqəddəs Oğuz,
Çaşqınlıq içində vurnuxa onsuz?!
Rəhman üstümüzə rəhmindən ələr,
Bir Arslan gedərsə min Arslan gələr.
Xaliq xəlq eyləmiş oğuzu mətin,
Ən cəsur qismidir bəşəriyyətin!"

## YOLDA

Üç yüz atlı ilə səhər obaşdan,
Son səfərə çıxdı şərəfli Arslan.
Dəstənin önündə gedirdi yabqu,
Qəlbində bir neçə təzadlı duyğu:
“Bir zaman qüdrətli, şöhrətli Oğuz,
Günlər görəcəkmiş belə uğursuz...
Ancaq... ululardan eşitmişəm mən,
Çox çətin duruma düşərək hərdən,
Oğuz birdən-birə dirçəlib, durub,
Qüdrətli dövlətlər, ölkələr qurub.
Yenə çəkmiş bizi sınağa dövran...
Elimi hifz etsin uca Yaradan.
Yenə axarına düşəcək həyat...
Lakin bir şey məni edir narahat.
Cavandır bəylərin əksəriyyəti,
Qəbul etməyirlər məğlubiyyəti.
Beyinləri qanlı, qəlbləri məğrur...
Sağlam düşüncəni sapdırır qürur.
Məqam var ki, istər dəli şücaət,
O zaman ləngimək olar qəbahət.
Məqam da vardır ki, səbrli tədbir,
Bütün çətinləri dəf edər bir-bir.
Bizdən səbr istər bu gün vəziyyət,
Gərək səbr edəsən yetincə fürsət.
Yalnız Musa kimi səbrli adam,
Bu cavan bəyləri ram edər tamam,
İmanı önündə yenilər qəzəb.
Yox... rahatsızlığa yoxdur bir səbəb.
Əgər böyük bəylər versə əl-ələ,
Çox rahat çözülər müşkül məsələ...
Ya Rəbbim, Tanrımsan əbədi, Rəhman!
Sənsən yeri, göyü yoxdan yaradan!

Yenə oğuz elim düşmüş çətinə,
Sığınırıq Sənin mərhəmətinə!
Bizi doğru yola edib hidayət,
Oğuz ellərinə verdin şərafət!
Bir imanlı bəndən xatirinə Sən,
Büsbütün dünyaya rəhm eyləyərsən.
Yalnız hüzurunda Sənin büküb diz,
Səcdəyə qapanıb baş əyirik biz.
Sən bəndələrini heç vaxt, heç zaman,
Çətində qoymazsan, uca Yaradan!”

## SULTAN MAHMUD QƏZNƏVİ İLƏ BAŞ VƏZİRİN SÖHBƏTİ

Gəzişir çadırda Qəznəvi Mahmud,
Şadlığı, sevinci bilməyir hüdud.
Hərdən var-gəlinə verib fasilə,
Mahmud söhbət edir baş vəzir ilə.
Nəhayət taxtında əyləşib sultan,
Dedi: "Budur, vəzir, yetişdi zaman!
Rum hüdudlarından düz Çinə qədər,
Bir çətinliyimiz yoxdur müxtəsər!
İndi həm ərəblər, həm Qaraxani,
Həm də ki, qıpçaqlar mədh edir məni.
Yalnız ipə-sapa yatmayan Oğuz,
Üç gecədir məni qoyub yuxusuz..."
Baş vəzir söylədi: "Ey böyük sultan!
Kimdir, nəçidir ki, bu oğuz Arslan,
Sənin kimi böyük bir şəxsiyyəti,
Yuxusuz qoymağa yetsin qüdrəti?!"
Sultan Mahmud dedi: "Şirindir sözün,
Ancaq ki... yalandır... bilirsən özün.
Misilsiz igiddir bu Yabqu Arslan,
Bunca igidləri az görüb cahan.
Heç siyasətdə də bərabəri yox,
Ağıl dəryasıdır... tədbirlidir çox".
Baş vəzir söylədi: "Sultanım, əgər,
Bu Arslandan xoşun gəlir bu qədər,
Bəlkə götürəsən onu xidmətə,
Çox xeyirli olar bu məmləkətə..."
Mahmud gülümsündü: "Danışma hədər!
Ağılsız bilməzdim səni bu qədər.
Yəni deyirsən ki, elə birbaşa,
Belə bir insanı çıxaraq başa?!
Elə bəri başdan taxtımdan enim,

Arslan sultan olsun, mən təzim edim?!”
Bütün vücuduyla əsərək tir-tir,
Cır səslə az qala qışqırdı vəzir:
“Allah eyləməsin! Əmir, əfv eylə!
Demək istəmirdim əslində böylə!”
Mahmud yenə gülüb söylədi: “Vəzir,
Dərrakən budursa, günahın nədir?
Səni tərif edir bütün məmləkət,
Bir addım önünü görmürsən fəqət”.
Baş vəzir tədbirli olub bu dəfə,
Sərrast oxçu kimi vurdu hədəfə:
“Şərafətli sultan, qınama məni,
Heç zaman ağlıma gəlməz ki, səni,
Kimləsə eyləyim müqayisə mən,
Xətaya yol verdim bax bu səbəbdən.
Nə qədər ağıllı olsa da Arslan,
Kəsik dırnağınca olmaz heç zaman.
Bunca fitnəkarsa əgər bu adam,
O zaman əmr eylə, olunsun edam.
Təşrif gətirirsə bu ordugaha,
Məncə belə fürsət bulunmaz daha...”
Azacıq düşünüb söylədi sultan:
“Nə qədər qorxulu olsa da Arslan,
Əsla gərək deyil edilsin edam,
Çox yanlış bir addım olar bu tamam.
Edam elətdirsəm bu Arslanı mən,
Cümlə oğuzlara olaram düşmən.
Sən özün də yaxşı bilirsən, vəzir,
Bu düşmənçiliyin axırı nədir?
Səlcuqlu adlanan bir ovuc elat,
Bu cür iddialı sürürsə həyat,
Büsbütün oğuzlar tapınca vəhdət,
Dünyada dəyişər bütün vəziyyət.
Arslan Yabqu kimi ağıllı rəhbər,

Qazansa ardıcıl bir neçə zəfər,
Onun ətrafında taparaq vəhdət,
Qurarlar oğuzlar qüdrətli dövlət.
Təcrid edilərsə onlardan Arslan,
Təxirə salınar bu iş bir zaman”.
Baş vəzir soruşdu: “Bəs nədən Arslan,
Əlində varikən belə bir imkan,
Ordugaha gəlir? Yoxsa bu adam,
Qorxudan, hürküdən məhrumdur tamam?”
Sultan dedi: “Əsla, deyildir məhrum,
Sadəcə bu işə olunub məhkum.
Arslan rədd etsəydi dəvəti əgər,
Başqa bir çarəmiz qalardı məgər?
Oğuzlara qarşı başlayıb hərbə,
Hər yerdə onlara vurardıq zərbə.
Nədir qarşımızda kiçik bir bölük?!
Oğuzlar vəhdətdə olurlar böyük.
Bax, bu birlik üçün çalışdı Arslan,
Çalışdı, vuruşdu... yetmədi zaman.
Onu bircə addım qabaqladım mən...
Hə, vəzir, sən indi bildinmi nədən,
Hüzuruma təşrif gətirir Arslan?
Sadəcə – özünü eyləyib qurban!
Bilir ki, biganə qalsa dəvətə,
Hər yerdə oğuzlar düşər zillətə.
İndi dərk etdinmi kimdir bu insan?
Ən böyük hörmətə layiqdir Arslan!
Əfsus, edə bilməm mən ona hörmət,
Çünki yol verməyir idbar siyasət!
Sayqım ola-ola bu mərd insana,
Məcburam həbs edib salım zindana!
Məcburam yürüdüm siyasətimi,
Mən də düşünürəm məmləkətimi!”
Bu sözlər vəziri heyrətə saldı,

Bir əli üzündə quruyub qaldı.
Sakitcə taxtında oturub sultan,
Dərin düşüncəyə daldı bir zaman.
Fikirdən ayıldı sultan nəhayət,
Sonra baş vəzirə yetirdi diqqət.
Sanki baxışlardan duyaraq təsir,
Bütün vücuduyla diksindi vəzir.
Sultan dedi: “Gəlib çatınca Arslan,
Onu dəstəsiylə eyləyin mehman.
Sultanlara layiq göstərin hörmət,
Müsafirlər üçün verin ziyafət.
Sonra qoy dəstəsi qalıb dincəlsin,
Arslan Yabqu özü yanıma gəlsin!”

# ARSLAN YABQU İLƏ SULTAN MAHMUD QƏZNƏVİNİN GÖRÜŞÜ

Alaçığa daxil olunca Arslan,
Taxtında bir qədər dikəldi sultan.
Sonra gözlərini qıyıb bir qədər,
Diqqətlə Arslana yetirdi nəzər.
Əsabehi-tuzi[19] qoymuş başına,
Az qala toxunur çatma qaşına.
Qonur gözlərində parlayır işıq,
Bığları üzünə verir yaraşıq.
Üzü də tər-təmiz edilmiş təraş,
Uzunqol, düyməli libası qumaş.
Belində üç oxlu nəfis bir kəmər,
Oxlar yabquluqdan verirlər xəbər.
Keçə, uzunboğaz soqmaları[20] var,
Soqmanın içinə salınıb şalvar.
Oğuz adətiylə bağır basaraq,
Allahın adıyla salamlaşaraq,
Qartal baxışıyla baxaraq Arslan,
Gur səslə söylədi: "Şərəfli sultan,
Çox şadam ki, sənə olmuşam mehman!"
Taxtdan ağır-ağır enərək sultan,
Gəlib Arslan ilə durdu üz-üzə,
Başını tərpədib başladı sözə:
"Heç aldatmayıbmış zənnim də məni,
Böylə də təsəvvür edirdim səni!
Mən də gəlişindən duydum şərafət,
Çox məmnunam... çox da məyusam fəqət..."
Arslan soruşunca "Nə imiş səbəb?",
Artıq aşkarlığa duyuldu tələb.
Çatıb qaşlarını soruşdu sultan:
"Söylə mənə, igid, şərəfli Arslan,

Bu nə ittifaqdır Əli Təginlə,
Nə bağlılğı var onun səninlə?
Doğma qardaşına olubsa düşmən,
Təginlə dostluqdan nə umursan sən?
O ki, asi olub öz dövlətinə,
Qarışıqlıq salıb məmləkətinə,
Ondan oğuzlara dəyərmi xeyir?
De, bu ittifaqın məqsədi nədir?"
Arslan fikrə getdi əvvəl bir qədər,
Sonra da söylədi: "Günahdır məgər?
Qadir ilə Əli olubsa düşmən,
Birinə dost mənəm, digərinə sən.
İstəklərimiz də büsbütün oxşar,
Məqsədinə bənzər bir məqsədim var..."
Təəccüblə baxıb yabquya bir an,
Qayıdıb taxtında əyləşdi sultan,
Dedi: "Bəyəndim bu səmimiyyəti,
Bu mərdanəliyi, bu qətiyyəti.
Lakin... bircə şeyi anlamadım mən...
Hansı məqsədlərdən danışırsan sən?
Heç də dost deyiləm Qadir xan ilə,
Sadəcə, arada var müqavilə.
Əgər sığınıbsa xan qüdrətimə,
Fikri də uyğunsa siyasətimə,
Mütləq olmalıydım mən xana dəstək,
Çünki vəzifəmdən doğub bu istək.
Əsla bir kimsəyə verməərəm imkan,
Sərhədlərim boyu sulasın meydan!
Budur məqsədimin bütün varlığı,
Varmı məqsədinlə bir oxşarlığı?"
Arslan "Vardır!" deyə edincə israr,
Sultanı təəccüb bürüdü təkrar.
Söylədi: "O zaman izah et görək,
Nədir səndəki bu müqəddəs dilək?!"

Arslan dedi: “Məlum deyilmi məgər,
Bir zaman Şirvandan[21] Seyhuna[22] qədər,
Yaylaqlı-qışlaqlı bu məmləkəti,
Qoynuna almışdı Oğuz dövləti?!
Xəzərin qərbində qoca Alp-Şiran,
Gah Şirvan adlanıb, gah da ki Sırvan.
Sırvandan Sır-Dərya çayına qədər,
Şir-oğuz yurdudur, deyim müxtəsər.
Şir-oğuz dediyim bu böyük torpaq,
Ulu türk yurdunun qismidir ancaq.
Ta Buzandan[23] Çinin səddinə qədər,
Olubdur bu yurda şimalda məhvər.
Arran, Şirvan, İran və Azərbaycan,
Bir də Rum ölkəsi adlanan məkan,
Qədimdən türklərə olublar vətən,
Öz ulularımdan eşitmişəm mən...”
“Dayan!..” deyib Mahmud kəsdi sözünü,
Uzadıb boynunu, qıydı gözünü:
“Dayan, bir səbr eylə ey dəli oğuz,
Cəngi səsləndirir çaldığın qopuz!
Oxuyursan bütün dünyaya meydan,
Dəli dönməzliyin həddi var Arslan!
Düşünmə Rum ilə girsən savaşa,
Xaçpərəstlər durub etsin tamaşa.
Bütün qərbi bizə edərsən düşmən...
Nə söylədiyini düşünürsən sən?
Yetərmi bu boyda hərbə qüdrətin,
Bir xəyal deyilmi sənin niyyətin?”
Arslan dedi: “Əsla deildir xəyal.
O zaman mən verim belə bir sual:
Əgər ki, labüddür savaş nəhayət,
Hazırlıqsız olmaq deyil qəbahət?”
Çatıb qaşlarını, susub bir zaman,
Nəhayət yabqudan soruşdu sultan:

"Xəbər-ətər yoxsa müharibədən,
Səndə bu qətiyyət yaranmış nədən?"
Arslan Yabqu dedi: "Şərəfli sultan,
Artıq yetişibdir elə bir dövran,
Böyük savaşlara yaranıb zəmin,
Hazırlıqsız bu iş olacaq çətin.
Çoxdan parça-parça olub Xilafət,
Hər şəhər müstəqil sürür siyasət.
Vəhdətdən olduqca müsəlman məhrum,
Addım-addım şərqə doğru gedir Rum.
Rum qazansa bircə ciddi qələbə,
Bu xəbər sürətlə yayılar qərbə...
Din müharibəsi labüddür, inan,
Bizdən vəhdət tələb eyləyir zaman!"
Yenə ağır-ağır taxtından endi,
Sultan alaçıqda bir az gəzindi,
Sonra sınayıcı nəzərlər ilə,
Yabquya baxaraq söylədi belə:
"Birlik çox vacibdir – deyirsən özün,
Lakin əməlinlə uyuşmur sözün.
Əli Təgin ilə olaraq əlbir,
Şəhərlər, obalar qəsb edib bir-bir,
Sən Qadir xanı da salıb təşvişə,
Birlik naminəmi girişdin işə?
Mənimlə görüşə gəlsəydin əgər,
Sözlərinə şübhəm olardı məgər?"
Arslan güldü, dedi: "Şərəfli sultan,
Mən də bu sualı verərdim, inan.
Mən əgər olsaydım yatuq[24] bir bəşər,
Mənim varlığımdan tutmazdın xəbər".
Bu sözlərə xeyli gülərək sultan,
Dedi: "Heç dilinə gəlməsin yalan...
Səmimi adamsan, ağıllı, cəsur,
Məncə hər oğuzun xisləti budur...

Yaxşı... mənə izah eylə görək sən,
Nə qərar vermisən, nə istəyirsən?"
Arslan dedi: "Sənsən sahib-ixtiyar,
İstəyim bəllidir, sənindir qərar".
Baxıb sınayıcı nəzərlər ilə,
Sultan Mahmud dedi: "Hələ bir söylə,
Çoxmu elatında adlı-sanlı bəy,
Səninlə bərabər, səninlə həmrəy?"
Qara bulud kimi tutuldu üzü,
Əsəbdən Arslanın səyridi gözü.
Yenə güldü, lakin kinayə ilə,
Dedi: "Gətirmədin qərarı dilə...
Onu bilmək əsla deyildir çətin,
Əzəldən bəllidir sənin niyyətin...
Hamımız mehmanıq – azad ya məhbus,
Hərə öz kürkünü bərk tutub əfsus!
Oğuzlar yetsəydi vəhdətə tamam,
Yabqunu etməzdi sultan ittiham.
Olsa da elatın igidləri çox,
Mənim kimi vəhdət düşünəni yox.
Səlcuqlu elatı qalsa Arslansız,
Mütləq parçalanar, şəksiz-filansız.
İki hissəsindən ayrılar biri,
Dönməz inadından biri də geri.
Səlcuqludan olan Qara Dağlılar[25],
Eyləyirlər yalnız mənə etibar.
Bu məğrur oğuzlar, bu böyük elat,
Mənsiz bircə gün də oturmaz rahat.
Pozmaq istəsələr vəhdəti əgər,
Kimsə saxlamağa olmaz müyəssər.
Əmrimdə var idi yalnız bir elat,
O da parçalanmaq üzrədir, heyhat...
Heç narahat olma, şərəfli sultan,
Yoxdur elatımda ikinci Arslan".

## İLK QURBAN

Sultan ordusunun düşərgəsində,
Bir dəstə əsgərin əhatəsində,
Fikirli-fikirli iki bəy gedir,
Onların içini qəm-qüssə didir.
Məyus gözlərini dikib torpağa,
Yanaşı gedirlər Yağmurla Buğa.
Sağda-solda durmuş qəznəvilərdən,
Acı atmacalar eşidib hərdən,
Gözucu baxırlar və səbr edirlər,
Dözüb təhqirlərə sakit gedirlər.
Bir qədər qarşıda, durub yol üstdə,
Gülüb danışırdı böyük bir dəstə.
Tus vilayətinin[26] valisi Cazib,
Sanki məqam tapıb xeyli münasib,
Yağmuru göstərib çəkdi qəh-qəhə,
Dedi: "Siz bir baxın bu gic əbləhə!
Özünü bəy sanır bu maldar, çoban,
Hələ bir qaşqabaq töküb dür yaman.
And olsun ki, sultan yenə rəhm etdi,
Bu oğuzlar üçün güzəştə getdi.
Bircə səlcuqluya verməzdim aman,
Əgər ki, əlimdə olsaydı imkan!"
Buğa bəy durmadan, kinayə ilə,
Cazibə baxaraq söylədi belə:
"Fil gücü olsaydı əfi ilanda,
Bir ilan qalardı bütün cahanda.
Cənabında qeyrət duyarsa Cazib,
Qanadlı dəvədən olar əcaib".
Silahsız bir bəydən belə cəsarət,
Valinin üzündə doğurdu heyrət.
Silahdaşlarına mat-mat baxaraq,
Vali yumruğunu bərk-bərk sıxaraq,

Dedi: “Aman, aman! Ya bu nə imiş?!
Bu şüursuz maldar qurd qəlbi yemiş!
Böylə təkəbbürlə deyir sözünü,
Ölümsüz sanırmı axmaq, özünü?!
And olsun ki, budur deyirəm sizə,
Oğuzlar bir bəla olacaq bizə!”
Yağmur bəy səsini boğub bir qədər,
Buğaya söylədi: “Dəli Qomişər!
Qəzəbini boğub səbr etsənə ya!
Bir acı söz udsan dağılmaz dünya”.
Baxıb qınayıcı nəzərlər ilə,
Buğa bəy Yağmura söylədi belə:
“Yağmur, qartal idik – endik cələyə,
Nər-nər aslan idik – düşdük tələyə!
Atıb Arslan kimi igid bir əri,
Yoluq cücə kimi dönürük geri...
Kimsə “Qorxdunuzmu?” edincə sual,
“Biz ki səbr etmişik” deyərik dərhal.
Soruşsalar “Hanı bəs igid Arslan?”
Deyərik “El üçün vermişik qurban!”.
Dinləyənlər duyuq düşməsin deyə,
Yağmur gülüb dedi: “Bilmirəm niyə,
Əzizim, qardaşım igid bəy Buğa,
Keçmək istəyirsən məndən qabağa?
Elata dönüncə yabqumuz Arslan,
Özüm kəsəcəyəm birinci qurban.
Tus valisini də edərik dəvət,
Bəlkə sözlərindən çəksin xəcalət”.
Yağmurun sözləri yerinə düşdü,
Əsgər dəstəsi də bərkdən gülüşdü.

## NİFAQ

Doğma elatına qayıtdı səhər,
Arslan ilə gedən o üç yüz nəfər.
Böyüklü-kiçikli büsbütün elat,
Çöldə gözləyirdi, tamam narahat.
Dəstəyə baxaraq minlərcə insan,
Sanki soruşurdu: "Bəs hanı Arslan?"
Atlılar atlardan enincə yerə,
Diqqətlər yönəldi bircə nəfərə.
Bu Qızıl bəy idi... O igid insan,
Yəhərdən enərək durdu nigaran.
Musa, oğlu Yusif, Toğrul və Çağrı,
Gəldilər sürətlə Qızıla sarı.
Üzbəüz durunca Qızıl bəy ilə,
Qəzəb dolu səslə gələrək dilə,
Toğrul dedi: "Qızıl, söylə bir görək,
Qoydunmu yabqunu qürbət eldə tək?!"
Musaoğlu Yusif dedi ucadan:
"İndi hər şey oldu mənə də əyan.
Məni qoymadınız siz bu səfərə,
Əzəldən vermişdiz qərar bu şərə.
Çünki bilirdiniz, yabqumuz Arslan,
Hər dəfə elatı tərk edən zaman,
Taxtı-tacı mənə edib etibar...
Bu hiylənizin də bir səbəbi var:
Mən də bu səfərə getsəydim əgər,
Əsla baş tutmazdı bu fitnə, bu şər..."
Qəzəblə dilləndi Anasıoğlu:
"Yusif bəy, qınağın deyildir doğru!
Necə Arslan Yabqu əmr etmiş bizə,
Elə də etmişik... məlumdur sizə.
Soxma gözümüzə şan-şöhrətini,
Bilirik yabquluq məharətini.

Biz düşmən üstünə yürüyən zaman,
Səni başçı qoyub elatda Arslan.
Sən kimsən edəsən bizi ittiham?!
Olaydan da yoxdur xəbərin tamam.
Qoy Musa bəy desin bu əhvalatı,
Məsələdən agah etsin elatı!”
Elat içrə hay-küy qopunca yaman,
Musa bəy əlini qaldırdı bu an.
Tədricən hay-küyü kəsdi camaat,
Musa bəy gur səslə söylədi: “Elat!
Əslində məlumdur məsələ sizə,
Doğrudur ki, yabqu əmr etmiş bizə.
Demişdir ki, əgər Qəznəvi sultan,
Məni ordugahda saxlasa... mehman,
Mənim yol yoldaşım, bu üç yüz nəfər,
İxtilaf salmadan heç zərrə qədər,
Sakitcə, sülh ilə dönsünlər geri...
Səbrli olsunlar oğuz bəyləri.
Çox ləngitməz onu Qəznəvi sultan,
Qayıdar tezliklə yabqumuz Arslan.
Allaha təvəkkül, Tanrıya pənah,
Rəhimdir, Rəhmandır tanrımız Allah!”
Bu zaman Qızıl bəy keçərək önə,
Ucadan söylədi: “İzin ver mənə!
Musa bəy, mən səndən dilərəm dəstur,
Haqq-ədalət ilə aramızda dur.
Qaynım Toğrul bəyin haqsız təhqiri,
Ürəyimi didir bayaqdan bəri.
Yol yoldaşlarım da... bu üç yüz nəfər,
Haqsız qınaqlarla əksildi hədər.
Bir elatda qalmaq Toğrul bəy ilə,
Haram olsun mənə bu gündən belə!”
Qəlbləri yandırdı bu acı sözlər,
Yenə Musa bəyə dikildi gözlər.

Musa bəy halını pozmadan bir an,
Amiranə səslə dedi ucadan:
“Qızıl bəy, boşla bu kin-küdurəti,
Varmı ayrılmağın əhəmiyyəti?!
Onsuz da ağırdır bu gün vəziyyət,
Məhv olub gedərik pozulsa vəhdət.
Lakin ürəklərə düşübsə nifaq,
Səmərəsiz olar hər bir ittifaq.
Dəstur istəyirsən... ixtiyarın var,
Gənəşmə çağıraq, verilsin qərar!”

# SƏLCUQ ELATI PARÇALANDI

Musa bəy çadırda gənəşmə qurdu,
Yabqunun taxtında özü oturdu.
Bəylər də gəldilər iki-bir, üç-bir,
Hamı toplanınca başlandı tədbir.
Musa dedi: “Bəylər, bilirəm ki, siz,
İçin-için yanıb nələr çəkirsiz.
Çünki öz daxilim od tutub yanır...
Hərdən sanki qəlbim tamam dayanır.
Taxtın qarşısında çox fikirləşdim...
“Yabqunun əmridir” deyə əyləşdim.
Nə böyük dərd imiş, nə ağır zaman!
Dərdə dərd calanır, yamana yaman.
Bəylər, dözərmisiz bu dərdlərə siz,
Bu ağır sınaqdan çıxarıqmı biz?”
Qızıl bəy söylədi: “Rəhimdir Allah!
Dözərik Musa bəy və inşaallah,
Üzü ağ çıxdıqca hər bir sınaqdan,
Oğuzlar eşidib qıraq-bucaqdan,
Bizə qoşulduqca artar gücümüz,
O zaman bizim də gülər üzümüz!”
Toğrul gülümsündü: “Qızıl bəy, məgər,
Birliyimiz “haram” oldusa əgər,
Gülümsəməyi də edirsən yasaq?
Elə indidənmi tökək qaş-qabaq?”
Açıldı bəylərin eyni bir qədər,
Buğa bəy söylədi: “Qəm, qüssə, kədər,
Bir xeyir gətirməz bu işdə bizə,
Tanrı qüvvət versin iradəmizə.
Bəlkə... ayrılmayaq... səbr edək bir az,
Fələyin işini anlamaq olmaz...”
Çağrı bəy tez kəsdi onun sözünü:

“Qardaşım, aldatma özün-özünü!
Təsəlli tapmaqla olma ki xoşnud,
Artıq həbs eyləyib yabqunu Mahmud.
Ayrılıq labüddür, ayrılaq gərək,
Geciksək yetişər növbəti kələk”.
Musa bəy söylədi: “Doğrudur tamam!
Bəylər, sizdəki bu nikbinlik, inam,
İnanın ki, verdi mənə qol-qanad.
Uca Yaradandan diləyək imdad!
Nə qədər olsa da düşmən fitnəkar,
Bizim də ağıllı tədbirimiz var.
Köləlik zənciri oğuza yaddır,
Çünki yaranışdan oğuz azaddır!”
Musa bəy ayağa qalxdığı anda,
Bəylər də qalxdılar eyni zamanda.
Parladı Musanın dolmuş gözləri,
Titrək sədalarla axdı sözləri:
“İgid övladlarım, ağırdır yaman...
Halallaşaq... artıq yetişib zaman.
Ayrılmaq zorunda olsaq da bu gün,
Ayrılaq... yenidən birləşmək üçün!”
Qızıl, Yağmur, Buğa, Anasıoğlu,
Danə, Göy-taş gəlib Musaya doğru,
Əlindən öpdülər. O da susaraq,
Bəyləri bağrına bir-bir qısaraq,
Dedi: “Gedin bəylər! Haqqa əmanət!”
Taqətsiz əyləşdi taxta nəhayət.
Bəylər alaçığı tərk edən zaman,
Qızılı səslədi: “Qızıl bəy dayan!”
O da geri dönüb qayıtdı dərhal,
Bağır basmağa da verməyib macal,
Musa bəy söylədi: “Övladım, dinlə.
O beş böyük bəy ki, gedir səninlə,
Hərəsinin bir cür xasiyyəti var,

Asan olmayacaq onlarla rəftar.
O bəylər də... elə sənin özün də,
Böyümüsüz mənim gözüm önündə.
Buğa bəy igiddir, şücaətlidir,
Bir sərkərdə kimi fərasətlidir.
Sevir düzgünlüyü, haqq-ədaləti,
Fəqət həddən aşır kin-küdurəti.
Adi bir kəlmədən inciyər belə,
İçindəkini də gətirməz dilə.
Qəzəbli vaxtında çox sıxma onu,
Heç xeyir gətirməz bu işin sonu.
Dəymə-düşərliyi varsa da fəqət,
Könlünə məlhəmdir səmimi söhbət".
Qızıl gülümsündü: "Bilirəm, bəyim!
Uşaqlıq dostumdur. Necə bilməyim?
Nahaq deməmişik ona "Qomişər",
Üstünə-üstünə getməzlər hədər".
Musa bəy də güldü: "İgid insandır,
Nəsillərə örnək bir qəhrəmandır".
Bir qədər susaraq eylədi davam:
"Göy-taş bəy Buğanın əksidir tamam.
Mehriban, təmkinli, saya, gülərüz,
Hər kəsin səhvini deyər üzbəüz.
Bir içim suyu da tədbirlə içər,
Bir xoca səbriylə çətindən keçər.
Nahaq deməyiblər, olsa da cavan,
El içrə Göy-taşa "babamız Göyxan".
Savaş meydanına girəndə fəqət,
Mehribanlığından qalmaz əlamət.
Oxu ildırımtək yaxar düşməni,
Qılınc vurmaqda da tapılmaz təni.
Sülh zamanı isə bu igid insan,
Çevrilib olur bir tənbəl, yatağan.
Gün-günorta vaxtı yuxudan durar,

Tez-tez yeyib-içmə məclisi qurar.
Digər bəy də... Əhməd... Davudun oğlu,
Dörd bir yanda məşhur Anasıoğlu!
İgid Davud bəyin yadigarıdır...
Anası da elin iftixarıdır.
Südəmər körpəydi Əhməd o zaman...
Köç ilə gedirdik səhər obaşdan.
Qadın süd verməkçün öz övladına,
Yolustü təpənin keçir ardına.
Bu vaxt peyda olur ac bir yalquzaq,
Ölümlə üzləşir ana və uşaq.
Bir əllə körpəni sıxıb bağrına,
Sıyırıb qınından xəncəri ana,
Ac yalquzaq ilə üz-üzə durur,
O hücum etdikcə xəncərlə vurur.
Bu minval ilə ki, ötüşür zaman,
Əhmədin atası qalır nigaran.
Atını döndərib çaparaq geri,
Xırda təpəlikdə tapır o yeri.
Xəncər yaraları almış yalquzaq,
Demə bir az öncə qaçıbmış uzaq.
O igid qadının kiçik xəncəri,
Ac bir yalquzağı döndərib geri.
Ana da körpə də tamam salamat...
Olayı eşidən hər kəs qaldı mat.
Əhməd də o gündən bu günə doğru,
El içrə adlandı "Anasıoğlu".
Aslan südü içmiş cocuqdur Əhməd,
Yenilməz döyüşçü, başbuğdur Əhməd.
Onun da vardır bir əyri cəhəti,
Bəzən həddi aşır kini, nifrəti.
Sənə yoldaş olan digər bəy – Danə,
Gərək xatırladım bir daha sənə,
Şan-şöhrət quludur. Çünki bu insan,

Olsa da çox cəsur, igid, qəhrəman,
O qədər sevir ki, şanı-şöhrəti,
Çox zaman unudur məsuliyyəti.
Yağmur bəy haqqında nə deyim sənə?
Sənə çox bəllidir, nəinki mənə.
Uşaqlıq dostundur tədbirli Yağmur,
Onu üstələməz təkəbbür, qurur.
Qızıl bəy... bu ağır, qarışıq gərdiş,
Mənim də içimdə törədib təşviş.
Lakin qələbəyə inamımız var,
Çünki Tanrımız var, imanımız var.
"Qisas" deyib haqsız iş tutma oğul,
Tanrını, soyunu unutma oğul.
Səbrli ol, Qızıl, hər işdə. Fəqət,
Fürsət məqamında göstər qətiyyət!"

## *II HİSSƏ*

## ARSLAN ELATI XORASANDA

### *SIZAN HƏQİQƏTLƏR*

Bir gün bir xəyali oxucumla mən,
İlham zirvəsində tutaraq məskən,
Nigarançılıqdan bezib nəhayət,
Hikmətlər yurduna etdik səyahət.
Oxucumla birgə qazandıq savab,
O, sual verdikcə mən verdim cavab.
Əvvəlcə soruşdu: "Nədir Axirat?"
Mən də bildiyimdən verdim məlumat.
Allaha məlumdur tamam həqiqət,
Odur bəxş eyləyən bəndəyə hikmət.
Tanrının əmrindən çıxmaz İsrafil,
Genlənən Kainat deyildir kamil.
Axirat gününün çatınca vaxtı,
Bu fani dövranın yıxılar taxtı.
Vəd edilən gündə yetər Axirat,
Çıxar nizamından bütün Kainat.
Dövranda azacıq pozulsa ahəng,
Göylərdə qəzalar baş verər nəhəng.
Qırarsa cazibə zərif "simləri",
Dəyər bir-birinə göy cismləri.
Bu müdhiş qəzaya uğrasa Dövran,
Dəhşətli uğultu eşidər insan.
Beyni, qulaqları dağıdar bu səs,
"Uğultu" Quranda yazılmaz əbəs!
Parça-parça olub çökər Kainat,
Sözsüz ki, Yerdə də məhv olar həyat!
Yerin də dövranı çatınca sona,

Yeddi təbəqə göy yad olar ona.
O təbəqələr ki, edərək təzyiq,
Yeraltı təzyiqlə uzlaşır dəqiq.
Yeraltı təzyiqlər olunca azad,
Əvvəlcə dağları edəcək bərbad.
Qalmaz cazibənin bir iqtidarı,
Səmada uçarlar dağ parçaları.
Eyni zamanda da güclü zəlzələ,
Qopub, dəryalara salar vəlvələ.
Nəhəng dalğalarla kükrəyər, coşar,
Dünya dəryaları həddini aşar.
Sonra da Yer üzü od tutub yanar,
Aşkara çıxdıqca altda hər nə var.
Bütün ölçüləri dəyişər... ancaq,
Yer əsla dağılıb məhv olmayacaq!
Çökər Kainata ağır sükunət...
Zamanı gəlincə qopar Qiyamət!

## OĞUZLARIN MAHMUD QƏZNƏVİYƏ MƏKTUBU

Məktubu alaraq elə həmin an,
Əyan-əşrəfləri çağırdı sultan.
Onları etməkçün işdən xəbərdar,
Məktubu ucadan oxutdu təkrar.
Məzmun belə idi: “Şərəfli sultan,
Biz ordugahından qayıdan zaman,
Çaxnaşma yarandı Səlcuq elində.
“Yabqunu qoydunuz düşmən əlində!”
Deyərək bizləri qınadı elat,
Bir zəhərə döndü elatda həyat.
Nə qədər dedik ki, “Şərəfli sultan,
Bizə bir pislik də etməyir güman”,
Olmadı sözlərin əhəmiyyəti.
Bir sıra bəylərin çirkin niyyəti,
Baş tutdu, elatda yarandı nifaq,
Açıqca nifrətə çevrildi qınaq.
Eli tərk etməyə edildik məcbur,
Qızıl, Göytaş, Buğa, Əhməd və Yağmur.
Dörd min çadırlıq bir elat ilə biz,
Qalmışıq məskənsiz, yurdsuz, vətənsiz.
Çoluqlu-cocuqlu böyük bir elat,
Yeddi minlik ilxı, çoxlu heyvanat,
Başqa məmləkətə üz tutub gedər,
Sən bizə yurd yeri verməsən əgər.
Böyük sultan, böylə çətin zamanda,
Bizə məskən versən sən Xorasanda,
Sığınarıq sənin mərhəmətinə,
Həm xeyir verərik məmləkətinə.
Biz – Arslan Yabqunun sadiq elatı,
Sənə yazdıq sultan, tam təfsilatı”.
Sultan Mahmud güldü, ucadan dedi:

“Tədbirin bəhrəsi göründü indi.
Bəli, tədbirli iş, çevik siyasət,
Yetirər rəqibə böyük xəsarət.
Bizim tədbirimiz verdi nəticə!
Hamınız eşitdiz elə indicə.
Belə də bilirdim... Arslan Yabqusuz,
Sakit həyat sürər büsbütün Oğuz.
Olaqmı incimiş bəylərə həyan?
Yaman xoşlarına gəlib Xorasan!”
Gülüşdülər. Sultan taxtından endi,
Üzü ciddiləşdi... bir az gəzindi,
Gəlib baş vəzirlə durdu üz-üzə,
O da təzim edib başladı sözə:
“Əmirim, səninindir qüdrət, ixtiyar,
Bizlərə qanundur verdiyin qərar”.
Sultan gedib taxtda əyləşdi yenə,
Dedi: “Bəs ixtiyar versəydim sənə,
Sən hansı yönəmdə verərdin qərar?”
Təzim eyləyərək baş vəzir təkrar,
Dedi: “Qurban olum sənə sultanım,
Sənin qədəminə fədadır canım.
Bu namə qəribə göründü mənə...
O bəylər ki, yazıb naməni sənə,
Məşhur igidlərdir, şərəfli-şanlı,
Hər biri müsəlman, dinli-imanlı.
Məktub yazsalar da uzun-uzadı,
Əsla çəkilməyib Tanrının adı.
Düşünürəm... burda bir hiylə vardır,
Məsələ qəlizdir, səthi hamardır”.
Azacıq düşünüb söylədi sultan:
“Onlar bizdən sonra olub müsəlman.
Mükəmməl deyillər imanda hələ,
Sanmıram ki, qəsdən ediblər belə...
Həm də ki, bir ovuc oğuz firqəsi,

Nədir ki nə olsun onun hiyləsi?!"
Baş vəzir söylədi: "Doğrudur tamam,
Şərqi oğuzlara gec gəlib islam.
Ancaq ki... sultanım... bilirsən sən də,
Xəzər dənizinin qərb sahilində,
Oğuzların çoxu olub müsəlman,
Hələ rəsulallah sağ olan zaman.
O Dədə Qorqud ki, dillərə düşmüş,
Uca peyğəmbərlə gedib görüşmüş.
Elə o vaxtdan da bu məşhur ozan,
Dini təbliğ edib uzun bir zaman.
Şərqi də, qərbi də acı Xəzərin,
Baba məskənidir oğuz ərlərin...
Ziyafət zamanı eylədim yəqin,
Dini mükəmməldir hər oğuz bəyin...
Məhz ona görə də, söyləyim yenə,
Şübhəli göründü bu namə mənə...
Oğuz bəylərinin bir hiyləsi var,
Əfv eylə sultanım, edirəm israr".
Çoxdan gözləyirdi belə fürsəti,
Tus valisi Cazib söylədi qəti:
"Şərəfli sultanım, düz deyir vəzir...
Vəhşi maldarlarda "bəylik" nə gəzir?
Bu gün ki oğuzun yoxdur vəhdəti,
Meydan savaşına yetmir qüdrəti.
Ona görə bizi, hiylələr ilə,
Şirin namə yazıb tuturlar dilə.
Əgər razılaşsaq, şərəfli sultan,
Çıxar əlimizdən bütün Xorasan".
Sultan dedi: "Cazib, nədir təşvişin?
Valilik etməkdir vəzifən, işin.
Əkinçilərdən çox heyvandar elat,
Xəzinəyə gəlir gətirir qat-qat.
Həm də xeyirlidir ordumuz üçün,

Yeddi minlik ilxı! Bir özün düşün...
Yeddi min süvari oğuz əsgəri!
And olsun, ölçülməz bunun dəyəri!
Sən isə deyirsən “vəhşi heyvandar”...
Lap elə tutalım bir hiylə də var.
Öz hiyləmizi biz nə tez unutduq?
Tələ qurub Arslan Yabqunu tutduq.
Oğuzlar da cavab verirsə əgər,
Eşşək yığnağısız sarayda məgər?!
Ağılla idarə olunar dövlət,
Ağılsız puç olar hər bir səltənət.
Tələ qurulursa hər hansı yöndə,
Siz olmalısınız bir addım öndə.
Heç bir fitnə-fəsad eyləməz cövlan,
Əgər biz özümüz verməsək meydan...
Oğuzları qəbul eyləyirəm mən,
Qoy Xorasan olsun onlara məskən.
Parçalanıbdırsa əgər bir elat,
Bir-birindən uzaq qoy sürsün həyat.
Həm də bu oğuzlar... söylədim sizə,
Hər cəhətdən xeyir gətirər bizə.
Onlara hörmətlə yanaşsaq əgər,
Kimsəyə, nəsnəyə vurmazlar zərər”.
Tus valisi dedi: “Şanlı hökmdar,
Belədirsə, mənim bir təklifim var.
Yeddi minlik oğuz süvarisinin,
Hərbi qüdrətini bilirik yəqin.
Oğuz at üstündə açanda meydan,
Sanki ox yağdırır dörd yana şeytan.
Sürətlə oxları sancır hədəfə,
Sağ-sola, arxaya, hər bir tərəfə...
Bu oğuz elatı xeyir gətirməz,
Bozqurd xislətlidir, təlim götürməz...
Rast olmasın deyə qəfil təhlükə,

Gərək salınsınlar yararsız kökə.
Kəssək hər birinin baş barmağını,
Önlərik onların ox atmağını...”
Sanki bu sözlərdən diksindi sultan:
“Sənin ürəyinə hökm edir şeytan!
Nəfsinin qulusan, göründü aşkar,
Xislətin qorxaqdır, qəlbin də qəddar!”.

## TUS VALİSİNİN FİTNƏSİ

Arslan Yabqunun ki, elatı həmən,
Xorasan elində eylədi məskən,
Bir anda dörd yana yayıldı xəbər,
Fərqli yanaşmalar oldu müxtəsər.
Bundan məmnun idi sadə camaat,
Bolluq gətirmişdi heyvandar elat.
Süd, qatıq, pendir və ət Xorasanda,
Bol və ucuz oldu bazar-dükanda.
Sənətkarların da işi çoxaldı,
Hər kəs oğuzlardan sifariş aldı.
Kimisi ox, qılınc, bəzəkli xəncər,
Kimisi düzəldib yüyən və yəhər,
Az vaxtda bolluca ruzi qazandı,
Ruzi bağlarından zəncir yarandı.
Bol əkin məhsulu aldıqca elat,
Əkinçi üçün də canlandı həyat.
Yaranışdan mövcud bu mübadilə,
Qovuşdurdu türkü əkinçi ilə.
Çox-çox sevinsə də bundan əhali,
Zəncir çeynəyirdi sarayda vali.
Tus şəhərindəki sarayda Cazib,
Məşvərət çağırıb güya ki vacib,
Yaralı şir kimi var-gəl edirdi,
Məşvərət əhlinə belə deyirdi:
“Doğrusu... bilmirəm fikriniz nədir?!
Bu maldar toplusu böyük fitnədir.
Beş-altı rəhbəri qısa zamanda,
Gör necə qazanıb ad Xorasanda!
Bəs harda itmisiz, harda batmısız,
Düşmən iş görürkən niyə yatmısız?!
Bu necə olur ki, bir ovuc oğuz,
Az vaxtda qazanır böylə bir nüfuz?!

And olsun, bir az da sürsə bu dövran,
Çıxar əlimizdən bütün Xorasan.
Oğuz bəylərinin bunca ad-sanı,
Sövq eyləyəcəkdir bir gün sultanı,
Onlardan birini qoyacaq vali...
Onda təşvişimdən olarsız hali!
Yatın... yatın, getsin əldən Xorasan,
Qoyun dəstəsinə olarsız çoban!"
Qazı dedi: "Ağam, "dəstə" yox, sürü..."
Cazib qəzəbləndi: "Nə sürü-mürü?!
Bəla qapımızı döyür, ay axmaq!
Heç bilməzdim sizi bu qədər maymaq..."
Qazı dedi: "Ağam, hirslənmə hədər,
Sən bizə bu işin yolunu göstər.
Yoxdur sənin qədər fərasətimiz,
Ancaq məlumundur sədaqətimiz".
Xoş oldu qazının şirin sözləri,
Cazib sakitləşdi... güldü gözləri.
Xeyli yumşalsa da valinin səsi,
Yenə duyulurdu hökmü, hikkəsi:
"Bazarda, dükanda deyir camaat...
Yaman varlanıb bu heyvandar elat.
Düz-əməlli vergi versələr əgər,
Harınlıq etməzlər onlar bu qədər.
Həm də xeyir dəyər xəzinəmizə...
Onlar hər cəhətdən borcludur bizə.
Bu "Arslan elatı" adlanan elat,
Artıq verməlidir vergini qat-qat.
Oğuzlar vergidən yayınıb demə,
Gərək olunsunlar onlar cərimə.
Dörd min çadırlıq el, hamısı bahəm,
Hər çadır başına iki yüz dirhəm,
Vergi ödəsinlər... və üç min nəfər,
Seçmə cavanlardan süvari əsgər,

Göndərməlidirlər ordumuz üçün!
Möhlət də verirəm... ən çoxu on gün!”
Cazib məmurlara yetirdi diqqət,
Hamının üzündə var idi heyrət.
Vali gülümsünüb kinayə ilə,
Dedi: “Nə təəccüb edirsiz belə?!
Əgər ödənilsə bütün tələbat,
Qoy elat yaşasın bir müddət rahat.
Yox əgər etməzlər bizə itaət...
Belə də olacaq bu iş nəhayət,
O vaxt göndərərik sultana xəbər.
Sultan Hindistana eyləyib səfər...
O, səfərdən geri qayıdan zaman,
Şikayət edəcək bütün Xorasan”.

## CAZİBİN FİTNƏSİ BAŞ TUTDU

Necə ki əzəldən qurulub təməl,
Çətin uyğunlaşır söz ilə əməl.
Bir könüldə iblis edibsə mənzil,
Onun fərmanına tabe olur dil.
Bunca dil sözlərə qatdıqca şəkər,
Əməllərdə pünhan pusqu qurur şər.
Yenə də şər ilə xeyir yarışdı,
Yalan ayaq açdı, aləm qarışdı.
Cərimə haqqında alıb məlumat,
Etiraz səsini yüksəltdi elat.
Vali etirazdan olunca xoşhal,
Şayələr yaymağa başladı dərhal.
Guya ki, oğuzlar şaşırmış öylə,
Xəzinəyə vergi vermirlər belə.
Dörd yana adamlar göndərib vali,
Xalqı "həqiqətdən" eylədi hali.
Guya ki, oğuzlar verib baş-başa,
Hazırlıq görürlər qanlı savaşa.
Onlarla hər təmas kəsilsin gərək,
Hər kəs təmas qursa xaindir demək.
Tezliklə bu hiylə verdi səmərə,
Qarşıdurma oldu bir neçə kərə.
İstərsə kəndlərdə, istər şəhərdə,
Bazar-dükanlarda, bir neçə yerdə,
Gəlincə oğuzlar alış-verişə,
Razılıq vermədi kimsə bu işə.
Oğuz da sadəlövh, çılğın və cəsur...
Müxtəsər, hər yanda düşdü vurhavur.
Oğuzlar çox yerdə dava saldılar,
Kiminin malını zorla aldılar,
Həddi aşanları şil-küt döydülər,

Xoş danışanları hətta öydülər.
"Ziyarət" edərək bir dəyirmanı,
Soruşdular: "Ayə, unumuz hanı?!"
Dəyirmançı yazıq bir görkəm alıb,
Şirin dillərini tez işə salıb,
Dedi: "Qurban olum sizə, ağalar,
Vali tərəfindən gəlmiş adamlar,
Üç araba unu alıb getdilər,
Məni qarşınızda xəcil etdilər.
Dedim – oğuzların unudur bu un,
Dedilər – açarıq başına oyun!
Mən axı nə edim? Yazıq adamam,
Məmurlara qarşı acizəm tamam".
Oğuzlardan biri qayıtdı: "Kişi,
Gəl Tanrı xətrinə çözək bu işi.
Biz sənə buğda və para vermişik,
Vaxt təyin etmisən, biz də gəlmişik.
Kim səndən nə alıb, bizə dəxli yox,
Tez unumuzu ver, yubandırma çox!
Bu da sözdür?.. "unu məmurlar alıb",
Tez ol kişi, çoluq-cocuq ac qalıb!"
Xoş sözdən iş hasil olmadı deyə,
Keçdi dəyirmançı açıq hədəyə:
"Ayə, siz kimsiz ki, edirsiz üsyan?!
Dərinizə saman təpəcək sultan..."
Müştərilərdən də on-on beş nəfər,
Say çoxluqlarını düşünüb hədər,
Bu dəyirmançıya olub tərəfdar,
Düz danışdığını etdilər israr.
Oğuzlara qarşı bir neçə nəfər,
Aşıb əndazəni sıyırdı xəncər.
Elə bununla da qarışdı ara,
Heç xəncərləri də gəlmədi kara.
Oğuzlar onları döydülər yaman,

Aman istədilər, verildi aman.
Hərəsi bir yana qaçıb getdilər,
Qısa bir zamanda gözdən itdilər.
Oğuzlardan biri alıb qamçını,
Asdı ayağından dəyirmançını.
Haqsız əməllərdən əl çəksin deyə,
Aldı dəyirmançı öyüd, tərbiyə.
Oldu buna bənzər neçə əhvalat,
Bütün Xorasanda dəyişdi həyat.
Arslan elatıyla yerli əhali,
Düşmənə çevrildi, sevindi vali.
Cazib də milçəyi filə döndərdi,
Sultana təcili namə göndərdi.
"Şikayət dəstəsi" edib səfərbər,
Məktubu onlara verdi hiyləgər.
Hindistandan geri qayıdan zaman,
Şikayətçilərlə görüşdü sultan.
Qəlbini şübhələr sıxdısa, fəqət,
Yenildi qürura ağıl, ədalət.
"Cəza verilməli!" deyərək sultan,
Tusun valisinə göndərdi fərman.

## XƏTLİ XATUN

Sultanı üzürdü ağır xəstəlik,
Bir dərdi də vardı hələ üstəlik.
Bir neçə il idi, bilirdi sultan,
Qarşıdurma vardı sarayda pünhan.
Hərə öz yükünü bir yana dartır,
Getdikcə bu nifaq böyüyür, artır.
Arslan elatıyla olan əhvalat,
Bu çəkişmələri artırdı qat-qat.
Sultan bilirdi ki, verdiyi fərman,
İşin həlli deyil. Ötdükcə zaman,
Daha da çətinə düşər məsələ,
Çözülməz bu yolla, böyüyər hələ.
Ancaq göstərməsə qətiyyətini,
İtirər nüfuzu, şan-şöhrətini.
Bunu həll edərdi səbr ilə sultan,
Əfsus ki, təkəbbür vermədi imkan.
Sultanın bacısı olub xəbərdar,
Bildi ki, ortada fitnə-fəsad var.
Daha yubanmadan saraya getdi,
Sultan qardaşını məzəmmət etdi.
Nüfuz sahibiydi bu Xətli xatun,
Böyük bacısıydı sultan Mahmudun.
Dedi: "Gecə-gündüz edib ibadət,
Tanrıdan dilərkən mən sənə şəfqət,
İblis övladları oturmur rahat,
Sən də inanırsan onlara heyhat.
Məgər bilməyirsən? O tülkü Cazib,
Vəzir Xacə Əhməd, Həmdəvi hacib,
Görərək sənin bu vəziyyətini,
Çapıb-talayırlar məmləkətini.
Yəqin ki, yadından çıxmayıb, qardaş,
Bir zaman baş hacib, igid Altuntaş,

Dedi: “Fars dilini ləğv edib gərək,
Dövlətin dilini türk dili edək”.
Xacə Əhməd düşüb ortaya bu an,
Kimsəyə vermədi bu işdə aman.
Min bəhanə tapdı, min fitnə qurdu,
Sonadək sözünün üstündə durdu.
Güya fars dilindən üzüb əlini,
Dövlət dili etdi ərəb dilini.
Sən susdun, o Xacə eylədi israr...
Nahaqdan edirsən ona etibar.
O gündən edirəm mən ona nifrət,
Onda yoxsa əgər dilimə hörmət,
Demək o, düşməndir sarayda pünhan,
Yoxdur o adamda zərrəcə iman.
Sən oğuz eliylə qurdun ittifaq,
Xacə Əhməd saldı ortaya nifaq.
Üzdə mömin kimi davranıb gəzir,
Arxada min fitnə törədir vəzir.
Onun dedikləri olursa sözsüz,
Bütün türklər bizdən çevirəcək üz.
Bu vali Cazib də onun quludur,
Tutduqları yol da iblis yoludur.
Xacə Əhməd ilə olaraq əlbir,
Tus valisi Cazib quraraq tədbir,
Arslan elatına böhtanlar atmış,
Səndən fərman alıb məqsədə çatmış.
Yalvarıram qardaş, versən də fərman,
Əmr et Cazibə ki, tökülməsin qan.
Qoyma ki elatın üstünə getsin...
Qorxutsun elatı, xəbərdar etsin,
Yürüş eyləməsin hiyləgər vali...
Oğuzlar bu işdən olunca hali,
Xorasandan çıxıb gedərlər tamam,
Verilər olaya sülh ilə xitam.

Günahsız elata verib əziyyət,
Bu çətin günündə qazanma lənət.
Nahaq qan tökərək vermə ki cəfa,
Tanrıdan yetişsin dərdinə şəfa.
Xalqın alqışıdır bu dərdə məlhəm,
Səni adil kimi tanıyır aləm.
Qardaşım, dəyişmə xasiyyətini,
Yenə tərənnüm et ədalətini”.
Sultan gülümsünüb söylədi: “Bacı,
Cansız əşya sanma bu taxtı-tacı.
Tac qoyanlar yaxşı tanıyır taxtı,
Bilirlər – bu əjdər, çatanda vaxtı,
Tac qoyandan tələb eyləyər qurban,
İstər haqlı olsun, istər nahaq qan.
Etməsə bu işə özünü vadar,
Olar bu əjdərə qurban tacidar!”

## QƏZNƏVİ ORDUSUYLA ARSLAN ELATININ İLK DÖYÜŞÜ

Mahmud Qəznəvidən alınca fərman,
Cazib dayanmadı, durmadı bir an.
On beş minlik ordu səfərbər etdi,
Arslan elatının üstünə getdi.
Say üstünlüyünü sanaraq vacib,
Sanki ova çıxdı qürrəli Cazib.
Götür-qoy eyləyib vali bir qədər,
Belə bir qərara gəldi müxtəsər:
"Fərman oğuzları salıb təşvişə,
Heç zaman qalxmazlar onlar döyüşə.
Elat bircə dəfə girsə meydana,
Düşmən olacaqdır böyük sultana.
Bu yürüşdən xəbər tutunca belə,
Elat təngənəfəs qaçacaq çölə.
Bu yolla oğuzlar düşüncə qaçaq,
Bir də Xorasana basmazlar ayaq.
O vaxt eşitmədi sözümü sultan...
Yəqin ki, olubdur bu işə peşman...
Bir zəfər olacaq bu rahat səfər,
Hörmətim artacaq dünyalar qədər!"
Lakin yanılmışdı zənnində tamam,
Ona verilmədi belə bir məqam.
Qazdığı quyuya özü də düşdü...
Oğuz ordusuyla qəfil görüşdü.
Hətta təcrübəli sipəhsalarlar[27],
Bu qəfil hücumdan çaşdılar aşkar.
Beş min ər, süvari oğuz aslanı,
Basaraq sürətlə bütün meydanı,
Dalbadal beş min ox atıb hər dəfə,
Yağdırır onları düşmən tərəfə.

Qəznəvi ordusu üç dəfə çoxdur,
Di gəl ki, meydanda fürsəti yoxdur.
Cazibin qaralmış dünya gözünə,
Gələ bilməyirdi bədbəxt özünə.
Lakin təcrübəli sipəhsalarlar,
Qısa bir zamanda verdilər qərar.
Əvvəl piyadalar ön xətdə durdu,
Nizəli, qalxanlı bir qala qurdu.
Fürsət əldə edib beş min süvari,
Nizamlanmaq üçün çapdılar geri.
Davam etməliydi təqib adətən,
Oğuz ordususa durdu qəflətən.
Görüb bu haləti bir sipəhsalar,
Rişxənd etməyə də tapdı iqtidar:
"Maldar kütləsiymiş oğuz ərləri,
Döyüş qaydasından yox xəbərləri.
Deməli... yetişib sonu Oğuzun,
Bizim savaşımız çəkməz çox uzun!"
Düzülüb səflərə qısa bir anda,
Hücuma keçdilər eyni zamanda.
Keçdi piyadadan önə süvari,
Bu zaman oğuzlar... döndülər geri.
Qəznəvi ordusu bu halı görcək,
Sürətli təqibə keçdi sevincək.
Süvarilər öylə cumdu irəli,
Qaldı piyadalar geridə xeyli.
Oğuz ordusu da mətləbə yetdi,
Yalançı təqibin dövranı bitdi.
Oğuzlar bir anda düzülüb səfə,
Döndülər düşmənlər gələn tərəfə.
Bayaq rişxənd ilə gülən sərkərdə,
Atın yüyənini çəkdi bu yerdə.
Bədbəxt ixtiyarsız çevrildi geri,
Nahaq sevinirmiş bayaqdan bəri!

Açıldı gözünə öylə mənzərə,
Sanki xəcalətdən soxuldu yerə.
Ordu kütlə kimi edir hərəkət,
Nizam-intizamdan yoxdur əlamət.
Qəznəvi ordusu pozub səfləri,
Hələ də yaxında duyur zəfəri.
Oğuzlar böyük bir məharət ilə,
Döyüş meydanında qurdular tələ.
Piyadalar xeyli geridə qalmış,
Süvarilər kütlə şəklini almış.
Düşmənini iki hissəyə bölüb,
Oğuzlar nizamla arxaya dönüb,
Öndə gələnləri alıb hədəfə,
Sərrast ox atdılar düşmən tərəfə.
Sonra təkrar-təkrar, bir neçə kərə...
Yüzlərlə qəznəvi sərildi yerə.
Bayaq təqib edən mutlu bir ordu,
Çaşqınlıq içində meydanda durdu.
Bu vaxt beş min igid oğuz əsgəri,
Cinahlara doğru açıb səfləri,
Bir anın içində yaradıb hilal,
Döyüş meydanında salıb qalmaqal,
Düşmənin başının üstünü aldı,
Dörd tərəfdən sıxıb araya saldı.
Vali Cazib ilə üç-dörd min əsgər,
Meydandan qaçmağa oldu müyəssər.

## SULTAN MAHMUD QƏZNƏVİNİN YUXUSU

Versə də təbiblər min cürə məlhəm,
Günbəgün üzürdü sultanı vərəm.
Gur-gur guruldayan güclü hökmdar,
İndi danışmağa tapmır iqtidar.
Xəstəlik taqətdən salmışdı onu,
Bilirdi ki, artıq yetişib sonu.
Sürəkli öskürək verdikcə aman,
Hərdən gözlərini yumduqca sultan,
Yatmaq istəyirdi doyunca... fəqət,
Aman verməyirdi ona hərarət.
Dəhşətli, qarışıq yuxular görür,
Diksinib ayılır, yenə öskürür.
Bu dəfə mürgüsü bir xeyli sürdü,
Bu dəfə qəribə bir yuxu gördü.
Göründü gözünə uca bir qaya,
Qayanın üstündə nurlu bir saya...
“Xızır peyğəmbərdir...” düşündü sultan,
“Eşitsə ki, dara düşüb bir insan,
Xızır köməyinə yetişir dərhal...”
Sual verməyə də tapmamış macal,
Aldı hər tərəfi duman bir anda,
Xızır da, qaya da itdi dumanda.
Bozqurdun sədası gəldi bu zaman,
Dörd bir tərəfinə boylandı sultan.
Bu səda dondurdu sanki qanını,
Dəhhşətli bir qorxu aldı canını.
Arxaya çevrilib qaçmaq istədi,
Taqətsiz yıxılıb yerdə inlədi.
Bozqurd dilə gəlib dedi: “Ey sultan,
Sənə şərəf verdi uca Yaradan.
Sənə tabe idi böyük məmləkət,

Dinin təbliğində çəkmisən zəhmət.
Çalışıb-vuruşdun ədalət üçün,
Qəlbində yer vardı mərhəmət üçün.
Lakin qürrələndin iqtidarından,
Nəfsin coşub çıxdı ixtiyarından.
Öylə vuruldun ki, hakimiyyətə,
Qul oldun nəfsindən doğan niyyətə.
Hər dəfə içində boğub vicdanı,
Oldun yaltaqların, şərin sultanı!"
Sultan inildəyib çəkdi dərin ah:
"Nədir yol verdiyim o böyük günah?!"
Bozqurd dedi: "Yaxşı bilirsən özün.
Qüdrətdən, sərvətdən qamaşdı gözün...
Uyub yaltaqların tərifinə sən,
Sonda öz qövmünə kəsildin düşmən.
Türk oğlu türk idin şərəfli, şanlı,
Zalıma çevrildin məkrli, qanlı.
Öylə bir şərait yaratdın gərgin,
Səlcuq oğulları oldu didərgin.
Ar olsun! Hiylə də işlədib hələ,
Arslan kimi mərdə qurdun bir tələ.
Həbs edib Arslanı zindana saldın,
Sonra elatının üstünü aldın.
Var ikən bəs qədər səlahiyyətin,
Hiylə, qan üstündə durdu niyyətin.
Budur, fitnələrin açıldı başı,
Meydanda məhv edir qardaş qardaşı".
Sultan dedi: "İçim odlandı, aman...
Bu qədər günahkar deyiləm, inan.
Axı çalışırdım məmləkət üçün..."
Bozqurd dedi: "Əsla! Səltənət üçün!
Taxtın, tacın üçün çalışaraq sən,
Öz qardaşlarına olmusan düşmən.
Özün söylə, Arslan nə dedi sənə?"

Sultan inildədi: “Dedi ki mənə,
Vəhdətdən olduqca müsəlman məhrum,
Addım-addım şərqə doğru gedir Rum.
Rum qazansa bircə ciddi qələbə,
Bu xəbər sürətlə yayılar qərbə...
Din müharibəsi labüddür, inan,
Bizdən vəhdət tələb eyləyir zaman!”
Bozqurd dedi: “Bunun əvəzində sən,
Nə iş tutduğunu yaxşı bilirsən.
Taxt-tacı itirmək qorxusu ilə,
Əslində özünə qurmusan tələ.
Əcəl artıq sənin üstünü alıb,
Bu fani dünyada az ömrün qalıb.
Puç olub gedəcək dövlətin, varın,
Məhv olacaqsınız – sən, övladların.
Ey Mahmud Qəznəvi, ol bundan agah,
Sevməz hiyləgəri tanrımız Allah.
Aldatdığın şəxsin qardaşı oğlu,
Əməlində doğru, sözündə doğru,
Məhəmməd Toğruldur, qazanıb ad-san,
Böyük məmləkətə olacaq sultan!”

## ŞAİR NƏ DEYİR?

“Bu Sultan Mahmudu qınayır niyə?”
Oxucum bir sual verməsin deyə,
Fikrimi müxtəsər edirəm izah,
Təhnə vuranları xoşlamaz Allah.
Qınamaq xas deyil təbiətimə,
Təhnə uyğun deyil ibadətimə.
Tarix gərəklidir, oxu, ibrət al,
Quranda da çoxdur tarixdən misal.
Bilik miqdarımı soruşsan əgər,
Allah verdiyindən azdır bir qədər.
O da bir ümmandır, sanma dayazdır,
Sözsüz ki, yazdığım bilgimdən azdır.
Tanrı qaydasından olan əlamət,
Haqq şairi üçün deyil qəbahət.
O Mahmud Qəznəvi, o böyük insan,
O yenilməz fateh, o adil sultan,
Bəlkə bircə dəfə törədərək şər,
Öz qövmünə qarşı olub hiyləgər,
Mərd Arslan Yabqunu saldı zindana...
Əsla yaraşmazdı böyük sultana.
Daha tədbirlidir vahid Yaradan,
Məgər bu hikməti bilmirdi sultan?
Sultan oğuzlara qurmuşdu tələ,
Özü düçar oldu bu şər əmələ.
Tezliklə sultanın dövranı bitdi,
Hətta övladları puç olub getdi.
İnsafsızca tələ qurmuşdu kimə,
Kimi ki, etmişdi o mühakimə,
Qardaşının oğlu, Məhəmməd Toğrul,
Səlcuqa, Arslana layiq bir oğul,
Haqq ilə uca bir məqama yetdi,
Qəznəvi dövranı tezliklə bitdi.

## YENƏ DƏ TƏKƏBBÜR

Bağırıb ayıldı yuxudan sultan,
Çaşqın baxışlarla baxdı bir zaman.
Baş vəzirlə təbib durmuş yanyana...
Təzim eylədilər onlar sultana.
Sultan dedi: "Yuxu gördüm əcaib",
Yenə təzim edib söylədi təbib:
"Sultanım, bir qədər var hərarətin,
O keçsə düzələr tamam səhhətin..."
Sultan dedi: "Təbib, içim didilir...
Yuxuda qurd görmək... Nəyi bildirir?"
Təbib təəccüblə baxdı bir qədər,
Sonra gülümsündü: "Sultanım, əgər,
Sən yatmış olsaydın uzun bir müddət,
Aramaq olardı nəsə əlamət.
Bir anlıq mürgünün..." "Sus..." dedi sultan,
"Sanki dilinizə həkk olub yalan!
Bir anlıq mürgüdə bu boyda yuxu?
Bütün vücudumu almışdı qorxu.
Bəs... Xorasandakı oğuz elində...
Ya da elatların hansı birində...
Toğrul... adlı varmı bir bəy, bir adam,
Yoxsa... Məhəmməddir? Unutdum tamam".
Sonra baş vəzirdən soruşdu: "Bəs sən...
Belə bir bəy adı eşitməmisən?"
Baş vəzir baxaraq mat-mat dedi "Yox".
Sultan dedi: "Vacib deyildir də çox...
Ancaq yaddaşını işə sal bir az,
Yadında qalıbsa o oğuz təbbaz"
Gözlərini qıyıb baş vəzir dedi:
"Hə, hə... xatırladım sultanım indi...
O zaman sən onu göndərdin çapar...
Təbbaz dəstəsində o, indi də var".

Sultan öskürərək uzun-uzadı,
Dedi: “Rüstəmdir o təbbazın adı.
Sakitcə çağırtdır, ağzını ara,
Varmı kimsə malik bu xüsuslara?..”
Yenə də öskürüb sultan bir qədər,
Soruşdu: “Cazibdən nə xəbər-ətər?”
Baş vəzirlə təbib baxışdı bir an,
“Söylə!” deyə israr edincə sultan,
Baş vəzir söylədi: “Xoş xəbər deyil...
Tus valisi Cazib olubdur xəcil.
Özü öz başına fəlakət açıb...
Çoxlu itki verib... meydandan qaçıb”.
Başını tərpədib inlədi sultan:
“Fərsiz oğlu fərsiz, yaramaz, nadan...
Nizamlı bir ordu... on beş min nəfər,
Bir ovuc maldara yenilər məgər?!
Yox vəzir, bu işdən su içmir gözüm,
Gərək səfər edim Tusa mən özüm”.
Baş vəzir söylədi: “Gec deyil hələ,
Elatı tədbirlə alarıq ələ.
Gözləyək... düzəlsin bir az səhhətin,
Hərbi səfər olar səninçün çətin...”
Sultan gülümsədi kinayə ilə:
“Yox, yox... sultan Mahmud ölməyib hələ!
Kimlərsə at çapsın məmləkətində,
Meydan sulasınlar vilayətində.
Ürəyim rahatlıq taparmı məgər,
Oğuzlara cəza verməsəm əgər?!
Qisas alırlarmı Arslana görə?..
Məğrur başlarını soxaram yerə!
Müsibət edim ki, mən Xorasanda,
Bu Arslan elatı boğulsun qanda...
Dayanın!.. Mən salım sizi bir günə...”
Başı ixtiyarsız endi köksünə.

Qapandı sultanın yorğun gözləri,
Anlaşılmaz oldu onun sözləri:
“Buna bir bax... börü... qorxudur məni...
Yalın əllərimlə boğaram səni...
Mən... mən Sultan Mahmud... sən bir əfsanə,
Oğuzam, qıpçağam... dəxli yox mənə...
Sən etməzsən mənim dərdimə əlac...
Kəsir nəfəsimi başımdakı tac...”

## RÜSTƏMİN MUSA YABQU İLƏ GÖRÜŞÜ

Alaçıqda, taxtda oturmuş yabqu.
Sakit görünsə də çox Musa Bəyqu,
Müsafiri Rüstəm etdikcə söhbət,
Hər bir kəlməsinə verirdi diqqət.
Davud Çağrı bəy də vardır çadırda,
Maraqla dinləyir Rüstəmi o da.
Rüstəm danışırdı: "Həmən o axşam,
Qəznə sarayına çağırılmışam.
Baş vəzir qəribə şeylər danışdı,
Onu dinlədikcə ağlım qarışdı.
Ordan-burdan xeyli eyləyib söhbət,
Əsas məsələyə keçdi nəhayət.
Mehriban danışıb qoca hiyləgər,
Dedi: "Söylə, şərəf deyilmi məgər?
Sultan Mahmud kimi böyük hökmdar,
Səni tərifl ədi bu gün o ki var!
Mən də tərifl ədim sarayda səni,
Sultan məmnunluqla dinlədi məni".
O qoca hiyləgər bilməyir fəqət,
Başqa şey danışır bütün məmləkət.
Nəinki məmləkət, büsbütün aləm,
Bilir ki, sultanı öldürür vərəm.
Bu da mənim üçün danışır nağıl,
Yəqin baş vəzirdən küsübdür ağıl...
Bu söhbət bir yana... Qəribə nədir?
Məndən Toğrul haqda soruşdu vəzir".
Bir yabquya baxıb, bir müsafirə,
Çağrı bəy soruşdu: "Bu hiyləgərə,
Haradan məlumdur Toğrulun adı?
Ya sultanın başqa dərdi qalmadı?"
Rüstəm dedi dərhal: "Nə sultan, nə də,

Baş vəzir tanımır onu əslində.
Deyirlər ki... sultan görüb bir yuxu,
Bununla da düşüb canına qorxu.
Guya ki, yuxuda deyiblər ona,
Tezliklə şahlığı çatacaq sona,
Sonra da bir oğuz olacaq sultan,
Məhəmməd... ya Toğrul... yurdu Xorasan...”
Çağrı bəy deyincə: “Allahu əkbər!”
Musa Yabqu sordu: “Yəni... nə təhər?
Axı Toğrul hara, Xorasan hara?...
And olsun, yenə də vururlar ara...
Bu yaxşı iş deyil... Bəs nə dedin sən?”
Rüstəm dedi: “Dərhal söylədim ki mən,
Tus vilayətində olan elatda,
Bir bəy tanımıram əsla bu adda.
Baş vəzir cavabdan çox razı qaldı,
Sonra da əlinə bir namə aldı.
Dedi: “Xorasanda qalan elatda,
“Arslan eli” adlı o camaatda,
Bir böyük bəy yoxdur bu nişanədə,
Hamısının adı var bu namədə.
Xorasanda yoxsa böylə bir adam,
Kənardakılara maraq yox tamam”.
Nə üçün bu fikrə gəlib baş vəzir?
Çünki məmləkətdə söz-söhbət gəzir.
O oğuz qismi ki, var Xorasanda,
Cazibi çökdürüb dizə bir anda,
Bütün məmləkətə salıb vəlvələ,
Ad-san qazanıblar, düşüblər dilə...”
Musa Yabqu fikrə gedərək bir az,
Söylədi: “Yox, əsla səbəbsiz olmaz,
Nə üçün Toğrul? Yox... açıq-aşkardır,
Mütləq bu söhbətin bir kökü vardır!”
Rüstəm pıçıltıyla dedi az qala:

"Yabqum, cavab vardır bax bu suala...
Eşitmişəm ki, mən... olmasın günah,
Günahsa, əfv etsin Tanrımız Allah.
Yabqum, deyirlər ki, böylə hədis var:
Xorasandan çıxmış böyük hökmdar,
Məhəmməd adında qüdrətli sultan,
Müdhiş zəfərlərlə qazanıb ad-san,
Darvazatdan[28] Bəsrə gölünə[29] qədər,
Cənddən[30] tutmuş ta Rum elinə qədər,
Böyük bir məkanda quracaq dövlət,
Sultanlıq edəcək uzun bir müddət".
Nəhayət ki, söhbət sonuna yetdi,
Rüstəm alaçığı tərk edib getdi.
Araya bir sükut çöksə də qısa,
Tezliklə söhbətə başladı Musa:
"Əgər... deyilənlər həqiqətdirsə,
Olacaq çox böyük, müdhiş hadisə..."
Çağrı bəy başıyla təsdiq edərək,
Söylədi: "Əlbəttə, deyilsə kələk...
Deməli... kökündən dəyişir dövran.
Ancaq maraqlıdır... axı Xorasan,
Məhəmməd Toğrulun deyil məskəni,
Bu məsələ bir az çaşdırır məni..."
Musa Yabqu dedi: "Nə müşkülü var?
İstəsək – məskəni Xorasan olar".

## TUS VALİSİ CAZİBİN SULTANA MƏKTUBU

Məğribin, məşriqin vahid sultanı,
Savaş meydanının məğrur aslanı,
Yer, göy xəbərdardır şücaətindən,
Məmnundur məmləkət ədalətindən.
Yenildim döyüşdə, qınama məni,
Edim əhvalatdan xəbərdar səni.
On beş min əsgərlə edərkən yürüş,
Ağlıma gəlməzdi bu qəfil görüş.
Sanmazdım oğuzlar girib meydana,
Asilik etsinlər böyük sultana.
Ya cümlə oğuzlar ağıldan kəmdir,
Ya cümlə şücaət oğuzda cəmdir.
Ən qorxunc yuxumda görməzdim belə,
Cəmisi beş minlik süvari ilə,
Sayca olsalar da azlıqda üçqat,
Nizami orduya cumsun bir elat.
Yəhya oğlu Qızıl Qazinin özü,
Arslan Yabqudan da cəsurdur, düzü.
Dərk edə bilmirəm – bir adi maldar,
Bu döyüşə necə vermişdir qərar?!
Bildiyimə görə, arvadı onun,
Qardaşı qızıdır Arslan Yabqunun.
Yalnız qisas üçün yolunu çaşmış,
Təkəbbürlü Qızıl həddini aşmış.
Oğuz ordusunun önündə durdu,
Hiyləgərcəsinə bir tələ qurdu.
Sayımız otuz min olsaydı belə,
Bir əjdaha kimi udardı tələ.
Sultanım, təşvişim deyildir hədər,
Sayları qırx mindən çoxdur bir qədər,
Bu elat istəsə, bilirəm yəqin,

Süvari çıxarar döyüşə on min.
Geciksək, kim bilir, olacaq nələr?!
Oğuzlar dörd yandan axışıb gələr,
O zaman iş düşər müşkülə tamam,
Gərək bu üsyana verilsin xitam.
Böyük sultan, özün gəlməsən əgər,
Bütün səylərimiz gedəcək hədər.
Yalnız sənsən böyük fateh, cahangir,
Bunun öhdəsindən gəlməyə qadir.
Bayrağın altında mən bir əsgərəm,
Sənə sadiq qulam, sadiq nökərəm.
Sənin qədəminə fədadır canım,
Tezliklə özünü yetir, sultanım.

## ARSLAN ELATININ İLK VƏ SON MƏĞLUBİYYƏTİ

Sultan ordu yığıb əlli min nəfər,
Etdi Xorasana Qəznədən səfər.
Çox ağır olsa da onun səhhəti,
Cəza vermək idi bircə niyyəti.
Səfər boyu tez-tez halı dəyişdi,
Nəhayət ki, gəlib Tusa yetişdi.
Cazibdən öyrənib olayı tamam,
Onu acizlikdə etdi ittiham.
Caziblə birlikdə igid ərləri,
Şanlı, təcrübəli sərkərdələri,
Qəti bir qərarla verərək fərman,
Döyüşə göndərdi qəznəvi sultan.
Öncədən duyaraq bu əhvalatı,
Hazırlıq görmüşdü Arslan elatı.
Ordunun başında gəlmişdi sultan,
Dolmuşdu orduyla bütün Xorasan,
Müzakirələrə duyulmur tələb,
Gün kimi aydındır hər kəsə səbəb.
Məhv edilməlidir üsyankar elat,
Çətin ki bir nəfər qalsın salamat.
Nəticə olaraq sözə, söhbətə,
Hər bir kəs gəlirdi bu qənaətə:
"Elatın üstünü fəlakət almış,
Oğuzların bircə əlacı qalmış.
Bu dar bir məqamda taparaq macal,
Elatdan bir neçə ahıl, ağsaqqal,
Sultan hüzuruna tez varmalıdır,
Diz çöküb, ağlayıb, yalvarmalıdır.
Bəlkə də insafa gəlib o zaman,
Üsyankar elatı əfv edər sultan..."
Amma hadisələr əksinə tamam,

Oğuz təkidiylə eylədi davam.
Öylə son qoyuldu bu söz-söhbətə,
Hər xəbərdar olan gəldi heyrətə:
“Bir ovuc elatın qüdrətinə bax,
İgidliyinə bax, cürətinə bax!
Mahmud Qəznəviylə gəlib baş-başa,
Məğrur ərənləri girmiş savaşa!”
Bu təəccüblər də deyildi hədər...
O günü səhərdən axşama qədər,
Özündən on dəfə güclü düşmənə,
Oğuz süvarisi gərirdi sinə.
Əzəldən beş yerə bölünmüş qoşun,
Döyüş meydanında qurmuşdu oyun.
Gah Qızıl Qazinin dəstəsi cumur,
Sultan ordusunu mərkəzdən vurur.
Yağdırıb oxları dönürlər geri,
Sonra Buğa bəyin görünür yeri.
O da ildırımtək vurub rəqibi,
Elə beşiyində boğur təqibi.
Sonra digər bəyin çatır növbəsi,
Titrədir meydanı Göyxanın səsi.
Gah da Əmir Əhməd Anasıoğlu,
Sağdan hücum çəkir düşmənə doğru.
Qartal kimi süzüb meydana Yağmur
Gah soldan, gah da ki arxadan vurur.
Təbbaz dəstəsi də susmayır bir an,
Cəngi ahənginə bürünüb meydan.
Qəribə olsa da döyüş qaydası,
Vardı oğuzlara böyük faydası.
Sultanın ən şanlı sərkərdələri,
Dəf eyləsələr də bu həmlələri,
Çaşıb qalmışdılar tamam məəttəl,
Bu necə bir savaş, necə bir əməl?
Dörd tərəfdən olur hücumlar qəfil,

Savaşın səmti də heç məlum deyil!
Bəzən də oğuzlar yoxa çıxırdı...
Bu nigarançılıq ürək sıxırdı.
Kimsə bilməyirdi – nə vaxt, harada,
Oğuz süvarisi olacaq peyda.
Bu nigarançılıq etdikcə davam,
Tədricən orduda itir intizam.
Pozulur əsgərin döyüş əhvalı,
Süstəlir bədəni, dəyişir halı.
Cazib də təşvişdən yığılıb cana,
Təcili göndərdi çapar sultana.
Bütün əhvalatı söyləyib çapar,
Eylədi sultanı işdən xəbərdar.
Gah öskürüb, gah da gülərək sultan,
Çadırında var-gəl etdi bir zaman.
Sonra ciddiləşdi sultanın üzü,
Dedi: "Dərk eyləyə bilmirəm düzü,
Bu Cazib it oğlu, anası göyçək,
Tamam itiribmi ağlını gerçək?!
Ya sipəhsalarlar, şərəfli ərlər,
Dərrakədən məhrum olublar məgər?!
Məgər anlamırlar axmaqlar bunu?
Əsla yoxdur böylə savaşın sonu.
Çünki oğuzların bir məqsədi var,
Vaxt qazanmaq üçün savaşır onlar.
Oğuzlar qurublar orduya tələ,
Eşşək oğlu Cazib vurnuxur hələ!
Oğuzlar elatı qorusun deyə,
Məcbur əl atmışlar belə hiyləyə!
Bütün çoluq-cocuq, bütün mal-qara,
Xilas olmaq üçün gedir dağlara.
Tökülüb yollara indi camaat,
Qara Dağ tərəfə yollanır elat.
Get söylə Cazibə – əmr etdi sultan,

Ordu yürüş etsin əsla durmadan.
Tezliklə oğuzlar düşüb təşvişə,
Məcbur olacaqlar açıq döyüşə.
Vuruşacaqlar da müəyyən qədər...
Zaman qazanmağa olub müyəssər,
Qaçıb gedəcəklər... təqib etməyin,
Elatın üstünə əsla getməyin...
Nə qədər ki mənim cismimdə can var,
Dönməz Xorasana bu elat təkrar”.
Sultanın sözünə əməl etdilər,
Şimal-qərbə doğru yeyin getdilər.
Tezliklə oğuzlar birləşib yenə,
Səflərə düzülüb çıxdılar önə.
Ordular toqquşdu, qızışdı meydan,
Bağırtı, söyüşlər, ah-nalə, fəğan...
Cumduqca igidlər biri-birinə,
Axırdı meydanda qan su yerinə.
Sarsıtdı düşməni oğuz həmləsi...
Gurladı bu zaman Qızılın səsi:
“Vurun igidlərim yağı düşməni,
Yoxdur igidlikdə oğuzun təni.
Vurun ki arxada yalın elat var,
Ana var, bacı var, el, camaat var.
Bizə əmanətdir məsum körpələr,
Öldü var, döndü yox! Allahu əkbər!”
Təkbirlə oğuzdan gəlincə səda,
Sanki yer oynadı, titrədi səma.
Sultan ordusunun ön cərgələri,
Təzyiqə dözməyib döndülər geri.
Mərkəzdə çaxnaşma yarandı müdhiş,
Sipəhsalarları bürüdü təşviş.
Lakin həyacanı boğub bir anda,
Sahman yaratdılar yenə meydanda.
Ordunu nizamla çəkdilər geri,

Ön xətdə düzdülər süvariləri.
Yenidən davullar gurladı gur-gur,
Yenidən meydanda düşdü vurhavur.
Sultan düşünənin tamam əksinə,
Oğuzlar döyüşdü inadla yenə.
Yalnız düşməməkçün mühasirəyə,
Az-az gedirdilər onlar geriyə.
Qılıncla vuruldu yaxın tərəflər,
Oxlara tuş gəldi uzaq hədəflər.
Döyüş davam etdi axşama qədər,
Oğuzlardan öldü iki min nəfər.
Yaralı sayı da öylə olardı,
Sultan ordusunda az itki vardı.
Günəş qürub etdi... qaraldı hava,
Xorasan dışında qurtardı dava.
Elat Xorasandan çıxdısa o gün,
Yenə qayıdacaq zəfərlər üçün.

# SULTAN MAHMUD QƏZNƏVİNİN ÖLÜMÜNDƏN SONRA

Yetişdi nəhayət ayrılıq anı...
Dövrünün ən güclü şanlı sultanı,
Mahmud Qəznəvinin zamanı yetdi,
O da bu dünyanı tərk edib getdi.[31]
Əsərlərə layiq qazandı şöhrət...
İdarə etdiyi möhtəşəm dövlət,
Durdu süqutunun astanasında,
Ayrılıq yarandı xalq arasında.
Kimisi Məsudu[32] bildi iqtidar,
Kimi Məhəmmədə[33] oldu tərəfdar.
Taxtda əyləşmişdi artıq Məhəmməd,
Məsudun önünə çəkilmişdi sədd.
Məhəmməd Qəznədə, o, İsfahanda,
Savaş labüd oldu böyük məkanda.
Məsudun vəziri ağıllı Xacə[34],
Məsləhətlər verdi yeri gəlincə.
O da Xorasana eyləyib səfər,
Arslan elatına göndərdi xəbər.
Tapıb Siyakuda elatı çapar,
Bəyləri olaydan etdi xəbərdar.
Onlar da gənəşib, edib məsləhət,
Qərara gəldilər böylə nəhayət:
“Arslanı tələyə saldısa Mahmud,
Ondan artıq olmaz övladı Məsud.
Hər türlü fitnədən edib ehtiyat,
Onun təklifinə uymasın elat.
Kim bilir ki, nədir onun niyyəti?
Qaçırmaq da olmaz bunca fürsəti.
Belə fürsət bir də düşməzsə ələ,
Həm də Yağmur bəyin təkidi ilə,

İki-üç min oğuz eyləsin səfər,
Yağmur bəy də olsun onlara rəhbər.
Məsud qalib gəlsə, olsa hökmdar,
Sözsüz, Yağmura da verər ixtiyar”.
Yetərli ordusu var idi indi,
Yağmur da gəlincə Məsud sevindi.
Tezliklə ordunu edib səfərbər,
Məsud şərqə doğru eylədi səfər.
Bu qədər doğru və cəld siyasəti,
Xeyrinə dəyişdi bütün nisbəti.
Məhəmmədi ağır duruma saldı,
Taxtı-tacı onun əlindən aldı.
Məsud sultan oldu. Qurdu ziyafət.
Yağmur da edildi məclisə dəvət.
Şadyanalıq vaxtı çağırıb sultan,
Yağmur bəylə söhbət etdi mehriban:
“İgid oğuz bəyi, mərhaba sənə!
Öz sədaqətini göstərdin mənə.
Lakin bir şey etdi məni narahat...
Mənə... və ya sənə inanmır elat?
Qızıl Qazi, Buğa, Əhməd və Göyxan,
İgidliklərindən halidir cahan,
Niyə gəlmədilər səninlə birgə?
Bir pisliyim dəyib onlara bəlkə?”
Yağmur gülüb dedi: “Yox, yox, hökmdar.
Hər işin səbəbi, bəhanəsi var.
Bəhanə söyləmək yaraşmaz mənə,
Gəl sözün düzünü söyləyim sənə.
Arslan elatının böyük bəyləri,
Nədən olmuşdurlar dillər əzbəri?
Xorasanda olan savaşlar ilə,
Sözsüz ki, adımız düşübdür dilə.
Fitnədir əvvəli, qan oldu sonu...
Sən məndən də yaxşı bilirsən bunu...”

Sultan dedi: “Bəli, bilirəm tamam,
Kimsəni etmirəm əsla ittiham.
Olan olub, keçib... dəyişib dövran...
Sizlərə dost kimi baxırsa sultan,
Saymamazlıq etmək deyil qəbahət?
Kimə xeyir verər bu münasibət?”
Yağmur gülümsədi: “Bir zərrə qədər,
Şübhəmiz, kinimiz olsaydı əgər,
Üç minlik say-seçmə süvari ilə,
Sənin xidmətində durmazdıq belə”.
Sultan dedi: “Düzdür, o dar məqamda,
Siz də dayandınız mənim arxamda.
Ancaq... Xorasandan qovulmuş elat,
Bərəkətsiz yerdə sürürsə həyat...”
Bir qədər düşünüb söylədi sultan:
“Yenə Xorasanda edərsiz məkan.
Amma bir şərtim var. Yağmur bəy, hələ,
Get məsləhət eylə dostların ilə.
Qoy elat göstərsin sədaqətini,
Sultan da göstərər səxavətini”.
Yağmur təəccüblə baxdı sultana,
Sultan da yavaşca söylədi ona:
“Bildimsə səni bu məclisə layiq,
Deməli, sanıram özümə sadiq.
Mənə Nişapurda gərəklisən sən,
Nə edəcəyini deyəcəyəm mən.
Digər bəylər isə göstərib hünər,
Orduyla Mərkana etsinlər səfər.
Bir gizli fitnədən olmuşam hali,
Mənə asi olub Mərkanda vali.
Ordu göndərirəm o vilayətə,
Son qoyulmalıdır bu xəyanətə.
Sərkərdə olacaq əmir Xumar-Taş,
Mərkan valisiylə edəcək savaş.

Dostun Qızıl bəy də, qısa bir vaxtda,
Süvari toplayıb sizin elatda,
Keçsin xidmətinə qoy Xumar-Taşın,
Sonucu uğurlu olsun savaşın.
Göstərsin oğuzlar şücaətini,
Elat sübut etsin sədaqətini.
Yatırılan kimi Mərkanda üsyan,
Qoy yenə yurdunuz olsun Xorasan.
Mən də göz yumaram olub-keçmişə,
Razı olsa əgər Qızıl bu işə.
Üç min süvari var əmrində, çoxdur,
Buna Nişapurda ehtiyac yoxdur.
Onlar da Mərkana etsinlər səfər,
Əlbəttə, razılıq olarsa əgər".
Sultanla Yağmurun söhbəti bitdi...
Fəallıq etməyin məqamı yetdi.
Yağmur da o gecə eylədi səfər,
Tezliklə elatda cəmləndi bəylər.
Gənəşmə açıldı, qərar bulundu,
Sultanın təklifi qəbul olundu.
Yağmur bəy yol aldı tez Nişapura,
Əlli igid yoldaş oldu Yağmura.
Qızıl, Buğa, Göyxan, Anasıoğlu,
Toplayıb elatdan süvari ordu,
Keçib Xumar-Taşın məiyyətinə,
Yollandılar Mərkan vilayətinə.
Qəznəvi ordusu göstərib hünər,
Tezliklə Mərkanda qazandı zəfər.
Arslan elatı da məqsədə çatdı,
Tus vilayətinə elat qayıtdı.
Yenə də sarayın məmur heyəti,
Olduqca pislədi bu hərəkəti.
Çox qınadılarsa sultan Məsudu,
O, yenə sözünün üstündə durdu.

Vəzir bu qərardan şübhəyə düşdü,
Təklikdə sultanla gedib görüşdü.
Yenə sultan Mahmud eyləyib israr,
Söylədi: "Doğrudur verdiyim qərar.
Yadımdan çıxmayıb, düşünmə nahaq,
Oğuz bəylərinin saldığı nifaq.
Atam çox eylədi onlara hörmət,
Əfsus ki, yaxşılıq qanmır bu xilqət.
Hələlik çəkirəm onlara tumar,
Vəzir, bu barədə bir tədbirim var.
Götürdüm onları hərbi xidmətə,
Sevindi hər biri bu şərafətə.
Qoy ürəklərində şübhə qalmasın,
Onları tədbirdən duyuq salmasın.
Qoy şadman olsunlar bu xoş əməldən,
Ehtiyatlarını versinlər əldən.
Düşsə bir-birindən bu bəylər uzaq,
Öylə möhkəm olmaz dostluq, ittifaq.
Göyxan ilə Buğa yaradıb vəhdət,
Rey vilayətində edirlər xidmət.
Tabeliklərində üç min atlı var,
Rey də Xorasandan uzaq bir diyar...
Qoy Qızıl bəy ilə Anasıoğlu,
Tusda bəsləsinlər mal-qara, toğlu.
Yağmuru çağırdım Nişapura mən,
Yan-yörəsində var qırx-əlli türkmən[35].
Əvvəlcə Yağmuru öldürərik biz,
Elat da üsyana qalxar şübhəsiz.
Elatın zəifdir hərbi qüvvəsi,
Reydə xidmət edir böyük hissəsi.
On-on beş min əsgər göndərib ora,
Elatı biryolluq gömərəm gora.
Sonra da işimiz olacaq asan...
Sərkərdə Xumar-Taş alınca fərman,

Yerinə yetirib əmri, buyruğu,
Məhv edər Reydəki iki başbuğu".
Dinləyib sultanın bu söhbətini,
Gizləyə bilməyib öz heyrətini,
Vəzir Xacə dedi: "Böyük hökmdar,
Əgər edirsənsə mənə etibar,
Əgər şübhən yoxdur sədaqətimə,
Mənim imanıma, ibadətimə,
Əgər sanırsansa məni sirdaşın,
Bu bəla açacaq fikirdən daşın!
Məlumdursa sənin gücün, qüdrətin,
Hələ sabit deyil tamam dövlətin.
And olsun, Yağmuru öldürtməklə sən,
Bizi fəlakətə sürükləyərsən.
Qalxarlar oğuzlar dörd bir tərəfdən,
Kimsə də baş açmaz düyün-kələfdən.
Ölkənin içinə düşər iğtişaş,
İçindən məhv edər ölkəni savaş.
Qonşu hökmdarlar görüb fürsəti,
Mütləq artırarlar fəaliyyəti..."
Məsud qəzəbləndi: "Nə olub sənə?!
Hətərən-pətərən deyirsən yenə!
Nədən yenə qorxu canını almış,
Şeytan ürəyinə vəsvəsə salmış?!
Korsan?! Görməyirsən?! O oğuz Yağmur,
Necə baxır mənə, qürrəli, məğrur?
O ki baş əyməyib sultan Mahmuda,
Əlbəttə güləcək oğlu Məsuda.
Bu bəyləri gərək məhv edim bir-bir!
Sürətlə həyata keçərsə tədbir,
Reydəki oğuzlar tutunca xəbər,
Arslan elatından qalmaz bir əsər.
Öylə tapdadım ki, onu fillərə,
Bu zülmün sorağı düşsün dillərə.

Atam etməyəni mən etsəm, əlbət,
Çoxları bu işdən alacaq ibrət.
Bilsin hər xəyala qapanan qafil,
Sultan nəvazişlə oynayan deyil.
O baş ki qarşımda eyləməz təzim,
Qılıncım olacaq boynuna qənim.
Hamı hali olsun qoy xislətimdən,
Qəzəbim üstündür ədalətimdən.
Yalnız ədalətdən alsam iqtidar,
Nə taxtım tab edər, nə tac bərq vurar.
Əgər qorxursansa, dayan kənarda,
Ya da sultan harda, vəzir də orda!”

## YAĞMUR BƏYİN ÖLDÜRÜLMƏSİ

Əlli nəfər oğuz Yağmurla birgə,
Şəhər kənarında salıb düşərgə,
Gözləməkdəydilər arxayın tamam,
Çünki böylə vermiş vali sərəncam.
Nişapur valisi göndərib çapar,
Edib qərarını Yağmura aşkar:
"Mənə əmr eyləyib Qəznəvi sultan,
Gözləyin gəlincə növbəti fərman".
Qalsa da Yağmur bəy buna məəttəl,
Sultanın əmrinə eylədi əməl.
İkindi namazdan sonra bir qədər,
Vali, ətrafında qırx-əlli nəfər,
Gəldi oğuzların düşərgəsinə,
Saxta şadyanalıq qatdı səsinə:
"Nəhayət ki, gördüm Yağmur bəy, səni,
Şöhrətin bürüyüb bütün ölkəni.
Hökmdardan fərman alandan bəri,
Səni və səninlə gələn bəyləri,
Çox səbirsizliklə gözləmişəm mən,
Çox da məmnun oldum gəlişinizdən.
Bəylər, Nişapura xoş buyurdunuz,
Qoy bu şəhər olsun əziz yurdunuz!"
Sonra da hiyləgər şəhər hakimi,
Görüşdü Yağmurla köhnə dost kimi.
Yağmur da... qəlbi pak, sadəlövh oğuz,
Bu gözəl rəftardan şad olub sonsuz,
Könlündə valiyə bəsləyib rəğbət,
Onu çadırına eylədi dəvət.
Vali çadırda da danışdı şirin,
Fəlsəfə yürütdü dərindən dərin.
Sonra ciddi görkəm verib üzünə,

Həmrəylik, məxfilik qatıb sözünə,
Dedi: “Sultan sizdən çox razı qalıb,
Sizləri dost kimi nəzərə alıb,
İnanıb oğuzun ləyaqətinə,
Sizi qəbul edib öz xidmətinə.
Sözsüz, igidlikdə deyiləm tənin,
Amma ki, bu gündən dostunam sənin.
Sultanın məxfi bir tapşırığı var...
O, sənə və mənə edib etibar...”
Yağmur bəy söylədi: “Mən də məmnunam,
Geniş qəlbinizə xeyli məftunam.
Mənə çox yaxşılıq eyləyib sultan,
Qanundur mənimçün verdiyi fərman.
Sənin kimi müdrik bir insan ilə,
Ölümə getməyə hazıram belə.
O ki olsun nəsə məxfi tapşırıq...
Mən və igidlərim hər an hazırıq”.
Vali gülümsündü: “Mərhaba qardaş,
Bu gündən oluruq xidmətdə sirdaş.
Sənin gəlişindən əsla bir nəfər,
Gərək Nişapurda tutmasın xəbər.
Elə bu səbəbdən, məhz buna görə,
Bölərsən dəstəni bir neçə yerə.
Bələdçi verərəm hər dəstəyə mən,
Rahatca keçərlər dar küçələrdən.
Hər dəstə bir evdə qalar gecəni,
Mən də mehman edim evimdə səni.
Şübhə yaranmasın deyə boş yerə,
Qaranlıq çökəndə girin şəhərə”.
Bal qatıb sözünə, güc verib dilə,
Vali tələ qurdu bu minval ilə.
Sultanın əmrinə edib riayət,
Törətdi hiyləgər ağır cinayət.
Vali ilə əlbir bir neçə məmur,

Şirin uyqudaykən gecə Nişapur,
Gizləyib zülmətdə ünvanlarını,
Qətlə yetirdilər mehmanlarını.
Gecə zülmətində bir neçə mənzil,
Zalım yuvasına çevrildi qəfil.
Yeməklərə gizlin qatıldı zəhər,
Öldürüldü gecə əlli bir nəfər[36].
Zülmətdə qol-qanad açdı cəhalət,
Yenə qanunları pozdu təbiət,
Əlli bir mərd oğuz, əlli bir aslan,
Tülkü fitnəsinə oldular qurban.

* * *

Oğuz! Aləm bilir şücaətini!
Döyüş meydanında məharətini!
Sən cəsur oğlusan Türk millətinin,
Hüdudu bilinmir cəsarətinin.
Doğrusan, düzgünsən, ədalətin var,
Amma tarix boyda qəbahətin var.
Hər ürək saf deyil ürəyin kimi,
Hər dilək pak deyil diləyin kimi.
Acı batinlər var – şirindir sözü,
Məkrli qəlblər var – gülümsər üzü.
Aldanma hər kəsin şirin sözünə,
“Dost” deyib dərd etmə onu özünə.
Yurdsuza yurd verdik edib mərhəmət,
Vurdu arxamızdan düşdükcə fürsət.
Yetməzmi yalana bunca inandıq,
Yetməzmi yetənin dərdinə yandıq?!
Fitnə var kafirin hər göz yaşında,
Əyləşdirmə onu ocaq başında.
Dərk etsin sözümü oxuyan kəslər,
Oğuz Təpəgözü evində bəslər.
Oğuz! Nə dilərsən Allahdan dilə,

Allahı bir an da unutma belə!
Xaliqim Allahdır, əqidəm İslam,
Bu bulaqdan alır qüdrətim ilham!
Babam türk olurkən türkdür qardaşım,
Öz dilimə uyğun olar sirdaşım.
Yalnız bir Allahdır dostluğa sadiq,
Bir bəşər axtarma dostluğa layiq.

# BALXAN OĞUZLARININ ARSLAN ELATINA XƏBƏR GƏTİRMƏSİ

O gedən getmişdi əlli bir nəfər,
Hələ də yox idi birindən xəbər.
Qalmışdı büsbütün elat nigaran,
Artırdı təşvişi ötdükcə zaman.
Qızıl Yəhya oğlu etmişdi adət,
Hər səhər obaşdan edib ibadət,
Hələ gün doğmamış çölə çıxardı,
Nişapura gedən yola baxardı.
Namazından sonra yenə bu səhər,
Yollara baxırdı yenilməz əsgər.
Eşidib arxada addım səsləri,
Dedi: "Tanrı, qoru gələn kəsləri.
Birisi Əhməd bəy Anasıoğlu,
Digəri gənc aslan, Yağmurun oğlu".
Gəlib yetişdilər. Verdilər salam.
Əhməd bəy söylədi: "Bax buna varam!
Addım səslərindən tanıdın bizi,
Yəqin eşidərik bir-birimizi.
Yoxsa neçə aydır susmusan tamam,
Sənin bu halından sıxılır adam.
Yollara baxmaqdan saralıb gözün,
Xalqı da taqətdən salırsan özün.
El səndən təsəlli umduğu zaman,
Sən dönüb olmusan lal-kar bir insan.
Sözsüz ki, bizi də sıxır vəziyyət,
Hamımız çəkirik əzab-əziyyət..."
Qızıl bəy söylədi: "Haqlısan qardaş...
Sanki ürəyimdən asılıb bir daş...
Orduya bərabər əlli bir nəfər,
Quş olub göylərə uçdular məgər?

Hətta salınsaydı onlar zindana,
Gec-tez yayılardı xəbər hər yana.
And olsun, ortada bir xəyanət var,
Əllərində deyil əsla ixtiyar!
Yoxsa Yağmur bəyi tanımırıq biz?
Qoymazdı elatı bunca xəbərsiz!
Yoxsa sözü çıxıb xatirinizdən,
"Yalnız ölüm məni ayırar sizdən!"
İndi söylə mənə, Əhməd, qardaşım,
Mən necə səninlə gülüm, danışım?!
Əsərkən ölümün sərt küləkləri,
Didərkən qəlbimi dərd köpəkləri,
Mən necə dik baxım sənin gözünə,
Necə gülümsəyim xalqın üzünə?!"
Gözünün yaşları sel kimi axdı,
Üzünü çevirib yollara baxdı.
Anasıoğlu da, Yağmuroğlu da,
Hərə bir tərəfə döndü bir anda,
Dərd yükü altında endi başları,
Axdı gözlərinin acı yaşları.
Ağlayıb sızladı bəylər bir qədər...
Yumşaldı dilləri susduran qəhər.
Qızıl yaxınlaşıb Yağmuroğluna,
Dedi: "Hər intizar yetişir sona.
Çözülər bizi də üzən intizar,
Bu çözümə, oğul, iki yozum var.
Birincisi – əgər sağdırsa Yağmur,
Gizlində qalmağa edilib məcbur.
Bəzən xidmət vaxtı... olur belə hal...
Doğrusu çox azdır buna ehtimal.
Dörd ay ərzində ki yoxdur bir xəbər,
Yağmur buna fürsət tapmadı məgər?
Nə qədər olsaq da dərd içrə üzgün,
İkinci yozumu sanıram düzgün.

O əlli bir nəfər oğuz aslanı,
Gizli sui-qəsdin olub qurbanı...”
Bu an Əhməd bəyin səsi yüksəlir:
“Nişapur tərəfdən bir dəstə gəlir!
Bir at ərəbəsi[37], üç də süvari...
Bizim elatdandır onlardan biri...”
Bəylər gözlədilər. Keçdi bir müddət,
Dəstə önlərində durdu nəhayət.
Atlarından yerə cəld atılaraq,
Hər üçü baş əydi bağır basaraq.
Onlardan birisi – Saruqlu Kamal,
Ağzını açmağa tapmamış macal,
Qızıl bəy söylədi: “Alla[38], görəsən,
Gün bu gün haradan çıxıbdır ki, sən,
Doğma elatını yada salmısan?
Harada batmısan, harda qalmısan?”
Kamal dedi: “Bəyim, qırx gündür, inan,
Etmişdim özümü bu yolda qurban.
Küçə-küçə, ev-ev gəzərək yalqız,
Taqətdən düşəndə yatmışam yalnız.
Ələk-vələk etdim mən Nişapuru,
Soruşdum, aradım igid Yağmuru.
Büsbütün səylərim getdisə hədər,
Yalnız bax gördüyün bu iki nəfər,
Deyəsən bilirlər bu haqda nəsə...
Dörd ay bundan əvvəl olub hadisə...”
Əhməd gələnlərə baxaraq dərhal,
Əndişə içində tez verdi sual:
“Niyə danışmırsız, dinməyirsiniz,
Yağmur barəsində nə bilirsiniz?!”
Gələnlərdən biri, yaşlı ağsaqqal,
Dedi: “Nişapurda gördüm ki, Kamal,
Kimisə axtarır, gəzir şəhəri,
Bəzən küçələrdə açır səhəri.

Suyu şirin gəldi, söyləyim düzü,
Sonra öyrəndim ki, oğuzdur özü.
Mən də türk oğluyam, oğuzdur soyum,
Balxan oğuzuyam, eymürdür boyum.
Kiçik bir elatdır mənim elatım,
Onunla bağlıdır ömrüm, həyatım.
Di gəl cavanların əksəriyyəti,
Karvan yollarında gəzir şöhrəti.
Quldurluq eyləyir yüzlərlə dəli,
Qoşulub onlara bir qıpçaq eli.
Ürəyimcə deyil mənim bu soyğun,
Həm də sənətimə deyildir uyğun.
Təbabət əhlidir bütün əslimiz,
Sınıqçıoğludur bizim nəslimiz.
Güllər, çiçəklərdir ruhuma həmdəm,
Düzəldib onlardan müxtəlif məlhəm,
Əlac eyləyirəm təbabətimlə,
Ruzi qazanıram öz zəhmətimlə.
Həm də topladığım gül-çiçəyi mən,
Tusda, Nişapurda satıram hərdən.
Nişapurun məşhur bir kimyagəri,
Lap çoxdan olmuşdur mənə müştəri...”
Qızıl bəy kəsərək onun sözünü,
Dedi: “Az təriflə kişi, özünü.
Sənin söz-söhbətin uzun çəkdi çox,
Yağmur bəylə bunun əlaqəsi yox!”
Sonra yaxınlaşıb Yağmuroğluna,
Mülayim səsilə söylədi ona:
“Bunlarda da yoxdur dürüst bir xəbər...
Vaxtı itirməyək gəl biz də hədər.
Sən get... bir hay sal ki, tərpənsin elat,
Yatağan bəyləri uyqudan oyat.
Gənəşmə qurulsun, edək məsləhət,
Bir qərara gələk bu gün nəhayət”.

Gənc ona baxsa da təəccüb ilə,
Yalnız “Gözüm üstdə” gətirib dilə,
Başbuğun əmrinə riayət etdi,
İti addımlarla elata getdi.
Sınıqçıoğluna diqqət yetirib,
Qızıl bəy söylədi: “İncimə, təbib.
Yağmurun oğludur gördüyün cavan,
Artıqdır deyim ki, dərd çəkir yaman.
Söhbətin səmtini eyləyib təxmin,
Dedim, eşitməsə yaxşıdır yəqin.
Layiqli oğuldur – mərd, cəsur, nəcib...
Buyur, söhbətinə davam et təbib”.
Təbib davam etdi: “Bax o kimyəgər,
Mənə bir olaydan vermişdi xəbər.
Dörd ay bundan əvvəl baş verib bu iş...
Veriblərmiş ona zəhər sifariş.
Dini, imanını tutaraq uca,
Əvvəlcə tərəddüd eyləyib qoca,
Vali məmurları gələnə qədər...
Seçim qarşısında qalıb kimyagər.
Ya ömürlük zindan, ya çoxlu altun...
Böyləcə şeytana aldanıb məlun.
Alıb məmurlardan altun kimyagər,
Qısa bir zamanda düzəldib zəhər...
Sarsıtmışdı onu bu sirli olay,
Son vaxtlar olmuşdu əqli tamam zay.
Namazı, orucu büsbütün atdı,
Şərabla, qumarla günaha batdı.
Orda-burda yaman şeylər danışdı,
Kiminsə də səbr kasası daşdı.
Yəqin susdurdular onu gizlicə,
Vurub öldürdülər evində gecə.
Son görüşümüzdə, o qoca sərxoş,
Düşündüm ki, yenə danışır boş-boş.

Deyirdi: “Qoy içsin oğuzlar zəhər,
Mənsə şərab içim ölənə qədər.
Al qanla doludur bəzəkli badəm,
Cəhənnəm yurdumdur İblislə bahəm”
Sözünə vermədim bir əhəmiyyət,
Kamalı gördükdə dərk etdim fəqət...”
Söhbətə qarışdı Saruqlu Kamal:
“Zənnimcə deyildir bu boş ehtimal.
Balxan oğuzları, bu iki qardaş,
Dörd ay bundan öncə olaraq yoldaş,
Tusdan Nişapura gələrkən birgə,
Görüblər çöllükdə hərbi düşərgə”.
Təbibin qardaşı dedi: “Yalnız mən,
Düşərgəni gördüm yoldan ötərkən.
Qardaşımdan əvvəl gəlib şəhərə,
Bazarda bir guşə etdim icarə.
Mən elə bazara girdiyim zaman,
Əsrin namazına verildi azan.
Uzaqdan görsəm də o düşərgəni,
Bir yəqinlik tamam bürüdü məni.
Oğuzlar idilər. Şübhəsiz-filan.
Durduğum bu yerə çatdığım zaman,
Bax burda gördüyüm boz alaçıqlar,
Orda gördüyümün eynidir ki var”.
Bu məqamda təbib dilləndi yenə:
“Düşərgə haqqında qardaşım mənə,
Bir söz deməmişdi. Çünki nə lüzum?
Kamalla söhbətdə bu oldu məlum.
Gəldim Nişapura aylı bir gecə,
Yatsı namazından bir qədər öncə.
Hər yan görünsə də apaydın, açıq,
Nə bir dəstə gördüm nə də alaçıq”.
Təbib bitirsə də artıq sözünü,
Qızıl bəy çəkmirdi ondan gözünü.

Qızıl bəy baxırdı... görmürdü fəqət...
Canlandı gözündə bütün fəlakət.
Bütün hadisəni ardıcıl düzdü...
Son ümidlərdən də əlini üzdü.
Bir anın içində çöhrəsi soldu,
Sanki gözləri də qan ilə doldu.
Duyğular sel olub qəlbindən axdı,
Bağrından boğuq bir inilti çıxdı:
"Aldadıb ər tutan şərəfsiz köpək,
Yıxacaq taxtını qurduğun kələk.
Sən sultan Məsud ol, mən də mən olum,
Qardaş qisasıdır bu gündən yolum!"

## XACƏ ƏBU ÜN-NƏSR ƏHMƏDİN MƏZƏMMƏTİ

“Hay-hay”la gələnlər oturdu “vay”da,
Təcili məşvərət oldu sarayda.
Üç nəfər idilər – Qəznəvi sultan,
Baş vəzir Xacə və sahibi-divan[39].
Sultan təşviş içrə taxtda oturmuş,
Baş vəzirlə hakim önündə durmuş.
Sultan dedi: “Vali! Nadanın biri...
Puç etdi belə bir sadə tədbiri.
Guya Nişapurda iş gördü sərsəm...
İndi bu barədə danışır aləm!
Bizi dərdə saldı bu fərsiz murdar...
“Arslan elatı” da olub xəbərdar.
Balxan dağlarında yurd salıb yenə,
Qisas duyğusunu çəkibdir önə.
Qızıl bəy hücumlar eyləyir nihan,
Xarabazar olub bütün Xorasan.
Böyük bir ordu da göndərdim ora,
Otuz min nəfərlik... gəlmədi kara.
Nə Əli Dayədən nə də Bilgədən[40],
Şad xəbər gəlmədi həmin bölgədən.
Şanlı sərkərdələr olublar xəcil...
Oğuzlar hücumlar eyləyib qəfil,
Qurdlar sürülərə cumantək cumub,
Bir anın içində öldürüb, boğub,
Üç-dörd min nəfərlə vurub qaçırlar,
Ordunun başına oyun açırlar.
Gəl sonra onları çöllərdə axtar...
Zənnimcə bu işin bir çarəsi var.
Elatın yurdunu öyrənib gərək,
Çoluqlu-cocuqlu tamam məhv edək...”
Baş vəzir söylədi: “Haşa, sultanım!

Fəlakət açarıq başa, sultanım!
Əvvəla, Siyaku dağlarında sən,
Elatı çətin ki, aşkar edəsən.
Sonra da oğuzlar işlədib hiylə,
Qurarlar dağlarda min cürə tələ.
Çünki oğuzlarla dağlarda savaş,
Elə ölüm ilə olar başabaş.
Dağlıdır oğuzlar, çünki heyvandar,
İlin çox qismini dağlarda yaşar.
Yalnız qışda onlar enərlər çölə,
Yaşayış tərzidir onlarda belə.
Burada lazımdır ağıllı tədbir...
And olsun, ağlıma bir şey də gəlmir.
Əfv et... çox yalvardım acizanə mən,
Di gəl ki, sözümü eşitmədin sən.
O Nişapurdakı... xəlvəti... edam,
Barışıq yolunu bağladı tamam.
Hansı ki... həm Yağmur, həm bütün elat,
Sənin xidmətində durmuşdu... heyhat,
İndi çevriliblər qatı düşmənə...”
Sultan qəzəbləndi: “Ar olsun sənə,
Son qoy bu qorxuya, yersiz təşvişə...
Nəhayət, ağılla yanaş bu işə.
Atam həbs etməklə Arslan Yabqunu,
Ömürlük zindana salmaqla onu,
Böldü səlcuqları iki hissəyə...
Sən çaşıb qalmısan, baş vəzir. Niyə?
Ağıllı adamsan, deyilsən avam...
Atamın işini etdirdim davam.
Bəyləri xidmətə guya götürdüm,
Əslində elatı ikiyə böldüm.
Rey kimi çox uzaq bir vilayətdə,
Buğa Göytaş ilə durub xidmətdə.
Hər şeydən xəbərsiz bax bu iki bəy,

Qəzvini almaqda göstəriblər səy.
Arslan elatından beş min süvari,
Çətin daha Reydən qayıtsın geri.
Çünki Əbu Nəsr Zəvzə ilə mən,
Bir tədbir tökmüşük məlum səbəbdən.
Oğuzlara dərin quyu qazmışıq,
Rey şəhriməninə məktub yazmışıq.
Məktubu almaqla şəhrimən Tahir,
Həyata keçəcək dediyim tədbir.
Bir bəhanə olsun "baxış" niyyəti,
Düzülsün ordunun bütün heyyəti,
Çağırıb Buğanı, Göytaşı bir-bir,
Gizlicə həbs etsin onları Tahir.
Sonra öldürsünlər elə həmin gün,
Bununla açılsın kələfdən düyün".
Vəzir əlləriylə başını tutdu,
Ehtiyat etməyi hətta unutdu:
"Ya Rəbbim, gör nələr eşidirəm mən!
And olsun ki, getdi səltənət əldən!
Ölüm hökmümüzdür yazdığın namə,
Rey də çevriləcək bir cəhənnəmə!"

## *III HİSSƏ*

## SƏLCUQ ELATI XORASANDA

### *SIZAN HƏQİQƏTLƏR*

Əmrini verincə uca Yaradan,
Başlar Kainatda əbədi dövran!
Başlayınca dövran kamil, möhtəşəm,
Yenə uğultuya bürünər Aləm.
Qətrəni qətrədən ayırar bu səs,
Zərrəni zərrədən ayırar bu səs.
Zərrələr ayrılıb tapdıqca məqam,
Növlənib, birləşib edəcək qiyam.
Nə qədər gəlmişsə dünyaya insan,
Hamısı torpaqdan qalxar bu zaman.
Göstərər gücünü elm büsbütün,
Ruhlar bədənlərə qovuşar bu gün!
Vurnuxar insanlar saysız-hesabsız...
Suallar, sorğular... lakin cavabsız!
Nə ana balanı tanıyar bu gün,
Nə bala ananı tanıyar bu gün.
Dillərdə min sual, gözlərdə təlaş,
Ürəklərdə təlaş, üzlərdə təlaş!
Yerdə insanların sayı öylə çox,
Bir addım atmağa bir parça yer yox!
Bu vaxt dəstə-dəstə gələr mələklər,
Daha da şiddətlə vurar ürəklər.
Mələklər deyərlər: “Budur həqiqət!
Sizə vəd edilən gündür Qiyamət!
İndi isə Yeri tərk edəcəksiz,
Haqqın Divanına siz gedəcəksiz!”
İnsanların çoxu edəcək fəryad,

Deyəcəklər: “Edin bizlərə imdad!
Yalançı sanmışıq peyğəmbərləri,
Allah göndərdiyi haqq xəbərləri!
Tövratla, İncillə, Quranla gələn,
Haqq ayələrinə bizlərik gülən!”
Məhəmməd haqq vədi edəndə bəyan,
Gülərək kafirlər ona bir zaman,
Demişdilər: “Yəni deyirsən ki sən,
Min il bundan əvvəl çürümüş bədən,
Hansı ki, çevrilib toza, torpağa,
Qadirdir yenidən bərpa olmağa?!”
Allahdan vəhy ilə gələrək dilə,
Peyğəmbər onlara söyləmiş belə:
“Yaratmışsa sizi bir qətrə sudan,
Təkrar da xəlq edər sizi Yaradan!”
Tam bərpa olunar o gün hər nəfər,
Barmaqların məxsus ucuna qədər!
Belədir haqq olan Tanrıdan fərman,
Bütün məxluqlara qurular Divan.
“Yalandır!” söyləyib gərməyin sinə,
Öyləsə döndərin Yeri tərsinə!
Günəşi məğribdən qaldırın, baxaq!
Və yaxud yaradın bir ovuc torpaq!
Elmin qüdrətinə şəkk edən insan,
Dərk etməz ki, nədir Qiyamət, Divan.

## SAYAD ÇÖLÜNDƏN XORASANA QƏDƏR

Xarəzm ölkəsinin çölləri yenə,
Qışlaq olmuş idi Səlcuq elinə.
Tamam fərqli idi bu gəliş ancaq,
Toplantı məskəni olacaq qışlaq.
Vəhdət arzusuyla coşub-çağlayan,
Səlcuq başbuğları uzun bir zaman,
Oğuz ellərinə göndərib xəbər,
Elləri birliyə səsləyirdilər.
Arslan elatının cəsarətindən,
Mübarizliyindən, şücaətindən,
Digər elatlar da olub xəbərdar,
Artıq birləşməyə verdilər qərar.
Harun[41] da bu işdən olmuşdu agah,
Çox da sevinmişdi bu tədbirə şah.
Buna ehtiyacı var idi düzü,
Çətin durumdaydı Harunun özü.
Çünki Qəznəviylə qonşu bir ölkə,
Duyurdu hər zaman böyük təhlükə.
Şah Harun götür-qoy eyləyib dəqiq,
Sandı oğuzları doğru müttəfiq.
Beləcə Xarəzmin şahı, hakimi,
Harun da, atası Altuntaş kimi,
Səlcuqlardan təklif alınca həmən,
Verdi qışlaq üçün onlara məskən.
Qocalmışdı Musa, xəstəydi Bəyqu,
Oğlu Yusif idi elatda yabqu.
Qışlaq məkanına gələndə elat,
Vardı əhvallarda bir sevinc, büsat.
Çünki köçməmişdən əzəl bir qədər,
Səlcuq bəylərinə gəlmişdi xəbər.
Çünki oğuzların bir neçə eli,

Öz qərarlarını edərək bəlli,
Səlcuq elatıyla əlbir olmağa,
Toplaşmalıydılar bu il qışlağa.
Cəndin[42] hökmdarı olan Məlik şah,
Belə bir tədbirdən olunca agah,
Düşdü qorxusundan yaman təşvişə,
Dedi: "Rəvac vermək olmaz bu işə!
Olsa səlcuqlara nəsib bu vəhdət,
Başımın üstünü alar fəlakət.
Çünki oğuzlarla uzun zamandır,
Düşmən olduğumuz xalqa əyandır.
Səlcuqları qırıb məhv etsəm əgər,
Bu arzunun ömrü olar müxtəsər.
Həm öz düşmənimi məhv edərəm mən,
Həm xeyirli olar digər tərəfdən.
Bunu qəznəvilər nəzərə alar,
Sultan Məsud məndən çox razı qalar.
Sultan Məsud özü olsa da oğuz[43],
Öz qövmünə vardır nifrəti sonsuz.
Mən də hər duyğumu durmadan bir an,
Taxtıma, tacıma verərəm qurban!"
Sonra da toplayıb böyük bir ordu,
Səlcuqlar elini qəflətən vurdu.
Gözətçilər görüb düşməni, dərhal,
Xəbərdar etməyə tapsa da macal,
Qışlağa yenicə köç etmiş elat,
Arğun-yorğun olub yatmış camaat,
Gecə basqınından çaşıb qalmışdı,
Başının üstünü ölüm almışdı.
Yalnız silahları qaparaq cumub,
Qovğa meydanında[44] səflərə durub,
Düşmənin önünü kəsdi oğuzlar,
Bunun da ki, yalnız bir səbəbi var:
Elatdakı qoca, qadın və uşaq,

Qaçsın mümkün qədər xətərdən uzaq.
Belə dar məqamda tapıb fürsəti,
Oğuz ərənlərin əksəriyyəti,
Yəhərsiz atlara oldular süvar,
Hördülər el üçün canlı bir divar.
Kimsə kimliyini düşünmür belə,
Hər igid könüldən bağlıdır elə.
Elin nicatıdır müqəddəs hədəf,
Zəfər də şərəfdir, ölmək də şərəf.
Döyüşür, savaşır ərənlər... heyhat,
Say üstünlüyü var yağının qat-qat.
Oxlar leysan olub bir neçə kərə,
Axdı əhalinin qaçdığı yerə.
Qadın, uşaq, qoca... yüzlərlə insan,
Yıxılırdı yerə yağdıqca "leysan".
Yıxılan qoparır ah-nalə, fəryad,
Sağ qalan diləyir Tanrıdan imdad.
Fəryadı eşidən oğuz ərləri,
Səlcuqlar elinin cəngavərləri,
Daha da hiddətlə girərək hərbə,
Xain düşmənlərə endirib zərbə,
Yerə sərirdilər onları bir-bir...
Di gəl ki, düşmənin sayı bilinmir.
Bəlli bir şey var ki, ötdükcə zaman,
Elat uzaqlaşır bəladan hər an.
Çox böyük itkilər versə də elat,
Tapdı əksəriyyət çöllərdə nicat.
Çəkib zülmətiylə gözlərə pərdə,
Gecə də müttəfiq oldu bu yerdə.
Başbuğlar alınca bu şad xəbəri,
Qoşunu nizamla çəkdilər geri.
Sonra da atları çapıb getdilər,
Gecə zülmətində gözdən itdilər.
Məqsədə yetmədi deyə Məlik şah,

Tərk edilmiş yurda salaraq tamah,
Səlcuqlar yurdunu eylədi qarət,
Keçmişdi əlinə böyük qənimət.
Minlərlə mal-qara, dəvə, qoyun, at,
Minlərlə alaçıq və xeyli sursat.
Səlcuqlar elindən salamat qalan,
Camaat çöllərlə gedib durmadan,
Gəlib yetişdilər Ceyhun çayına[45],
Adladılar çayın digər tayına.
Sayadlar[46] çölündə məskən saldılar,
Təqibdən qurtulub burda qaldılar.
Tamam müflis olmuş bu böyük elat,
Sürsə də bir müddət çox ağır həyat,
Tezliklə yenidən dirçəlib durdu,
Digər ellər ilə əlaqə qurdu.
Çox yerdən oğuzlar gəlib nəhayət,
Səlcuqlar eliylə yaratdı vəhdət.
Elatın qüdrəti günbəgün artdı,
Süvari sayları on minə çatdı.
Novruz bayramından sonra bir qədər,
Elat itirməyib fürsəti hədər,
Mükəmməl köç tutub hərəkət etdi,
Xorasana doğru durmadan getdi.

# SƏLCUQ BƏYLƏRİNİN SULTAN MƏSUDA MƏKTUBU

Yenə də məşvərət açmışdı sultan,
Yenə də hiddəti edirdi tüğyan.
Naməni əlində elə əzmişdi,
Sanki üzərində dəvə gəzmişdi.
Silkələyib onu bir neçə kərə,
Taxtın qarşısında çırparaq yerə,
Dedi: “Qudurublar!.. Namə yazıblar!..
Əcəl axtarırlar... tamam azıblar!”
Təzim eyləyərək baş vəzir Xacə,
Dedi: “Siyasət də yürüdüb incə,
Səlcuq elatının böyük bəyləri,
Arslan Yabqu həbsə düşəndən bəri,
Susub durmuşdular... bu günə qədər...
Bu xüsusda namə yazmışlar əgər,
Elatın yetərli gücü var demək,
Ehtiyatlı olaq bu işdə gərək...”
Sultan Məsud dedi: “Yazıblar aşkar,
On min süvarilik qoşunları var...”
Sultan durub gəzdi irəli, geri,
Hey təkrar edərək “On min süvari!”.
Yenə də taxtında əyləşdi sultan,
Dedi: “Oxuyurlar sultana meydan...
Deməsəm də hər kəs dərk edir onsuz,
Nə deməkdir on min süvari oğuz!
Arslan elatının az idi dərdi,
Səlcuq elatı da yayını gərdi!”
Əbu Nəsr Zəvzə dedi: “Sultanım,
Bəzi suallarla sıxılır canım.
Axı altı-yeddi ay bundan əvvəl,
Məlik şah bir basqın edib mükəmməl,
Səlcuq elatını qırmadı məgər?

Bu gələnlər kimdir, doğrusa xəbər?”
Sultan tərs-tərs baxıb dedi: “Nə bilim?
Sən söylə, mən də bir qərara gəlim.
Xortdayıb qalxıblar bəlkə qəbirdən?
Gəlib qoyunları yeyərlər birdən?”
Baş hakimin üzü qızardı tamam,
Dedi: “O qədər də deyiləm avam...
Sultanım, sözündə eyhamı duydum...
Əfv eylə... qorxaraq şeytana uydum.
Reydə mənim on min qoyunum vardı...
Arslan elatı ki, çaxnaşma saldı,
Nə gündüz dincəldim, nə gecə yatdım,
Nəhayət Reydəki sürümü satdım.
Qorxdum ki, oğuzlar keçirər ələ...
Başa qaxınc oldu bax bu məsələ...”
Hacib Bəg-Doğdu[47], o şanlı sərkərdə,
Davam gətirməyib güldü bu yerdə.
Sultan dedi: “Bəli! Nə gözəl tədbir?!
Sataq hər nəyimiz vardırsa bir-bir!
Sataq! Şərəf, namus çox ağır yükdür,
Qaçaq məmləkətdən, dünya böyükdür!
Qərbdə Arslan eli qoparır tüğyan,
Şimalda səlcuqlar oxuyur meydan.
Məmləkətin şimal əyalətləri,
Nəsa və Fəravə vilayətləri[48],
Səlcuq bəylərinin gəlmiş xoşuna,
Namə yazmamışlar onlar boşuna.
Bəlkə bəxşiş edək, ya bəlkə sataq?
Başımız dinc olsun... rahatca yataq...
Əsla! Yağı düşmən ayaq açdıqca,
Hər istədiyini bizdən aldıqca,
Görüb bu asanca nailiyyəti,
Daha da artırar fəaliyyəti”.
Baş vəzir söylədi: “Əsla şübhə yox,

Güvənclidir elat qüdrətinə çox.
Böyükdür bəylərin ərki-ədası,
Gəlir bu namədən cəngi sədası.
Bir müqəddəratdır bax bu məsələ,
Cavab da yazmayaq naməyə hələ.
Bir qədər səbr etsək ziyanı olmaz...”
Sultan taxtdan qalxıb gəzişdi bir az,
Yenə də qayıdıb taxtda oturdu,
Əlini yavaşca dizinə vurdu.
Sərkərdəyə baxıb söylədi: “Hacib,
Yalnız qətiyyətdir hər işdə vacib.
Bələdəm mən sənin şücaətinə,
İnanıram sənin məharətinə.
Süvari bir ordu eylə səfərbər,
Belə ki, qazansın mükəmməl zəfər.
Döyüş fillərini önə düzərsən,
Səlcuq ordusunu basıb əzərsən.
Bir şey də söyləyim sənə müxtəsər...
Heç olmaz sayları deyilən qədər.
Bu elat nə qədər olsa da iri,
Çətin ki toplasın on min süvari.
Xof yaratmaq üçün yazıblar yəqin,
Bəlkə də olarlar altı-yeddi min”.
Diqqətlə dinləyib hacib sultanı,
Yerinə yetirdi əmri, fərmanı.
Döyüş təcrübəsi olan ərlərdən,
Ən şərəfli, şanlı sərkərdələrdən,
Mükəmməl sursatlı bir ordu qurdu,
On yeddi min atlı sırada durdu.
Ordunun önündə düzüldü fillər...
Səsləndi borular, sinclər, təbillər,
Cəngi ahəngiylə davullar vurdu,
Çıxdı Nişapurdan nizamla ordu.
Camaat yolboyu çıxıb çöllərə,

Baxaraq orduya, nəhəng fillərə,
Kimisi heyrətdən içini çəkir,
Kimisi bu haqda söyləyir fikir.
Birisi deyir ki: “Ömrümdə hələ,
Nizamlı bir ordu görmədim belə!”
Digəri söyləyir: “Var olsun sultan!
Ona baş əyəcək büsbütün cahan!”
Beləcə... bu ordu edib hərəkət,
Şimal hüdudlara yetdi nəhayət.

## SƏLCUQLARLARIN İLK CƏHDİ ALINMADI

Eşidib ki, hərbə başlayıb sultan,
Səlcuqoğulları durmadan bir an,
Əsla yol vermədən heç bir təlaşa,
Hazırlıq gördülər böyük savaşa.
Hətta hələ məktub yazılan zaman,
Bəylər etmişdilər hərbi də güman.
Bilərək ki, sultan göndərir ordu,
Səlcuqlar elatı gənəşmə qurdu.
"Axın savaşı"ndan[49] düşdüsə söhbət,
Qəbul edilmədi belə bir niyyət.
Toğrul ilə Çağrı etdilər israr,
Meydan savaşına verildi qərar.
Məhəmməd Toğrul bəy eylədi izah:
"Yardımçımız olsun tanrımız Allah.
Axın savaşına girişsək əgər,
Aydındır ki, vaxtı çox uzun çəkər.
Bu da olar bizim əleyhimizə,
Daha bir fəlakət gətirər bizə.
Çünki şöklü Məlik tutunca xəbər,
Şübhəmiz də yoxdur heç zərrə qədər,
Durmadan cumacaq bizə quzeydən,
Məsud da sürətlə gəlib güneydən,
Salacaqlar bizi mühasirəyə...
Belə bir halətə düşməyək deyə,
Düşmənlə meydanda görüşməliyik,
Qələbə əzmiylə döyüşməliyik.
İnanın ki, bəylər, qəti bir zəfər,
Bizə çox vacibdir – hava, su qədər.
Tanrının rəhmiylə, bircə qələbə,
Asanca yetirər bizi mətləbə.
Edib tərəddüdü kənar nəhayət,

Oğuz elatları quracaq vəhdət.
Birləşsə bizimlə bir neçə elat,
Mükəmməl olacaq ordu və sursat.
Sultanın ən seçmə ordusu bu gün,
Sayı sayımızdan ikiqat üstün,
Edir üstümüzə sürətlə yürüş,
Tezliklə olacaq ağır bir döyüş".
Toğruldan sonra da söz alıb dərhal,
Söhbətə başladı İbrahim Yınal[50]:
"Mən də bu fikirlə razıyam tamam,
Gözdən yayınmasın vacib bir məqam.
Çünki qəzəbindən Qəznəvi sultan,
Yerə də göyə də oxuyur meydan.
Gəlir qulamları – seçmə əsgəri,
Tarixdə olmayıb onun bənzəri.
Hələ sayları da çoxdur ikiqat,
Üstəlik də fillər, mükəmməl sursat...
Zənnimcə meydanda savaşsaq qol-qol[51],
Daha doğru olar bu üsul, bu yol"
Çağrı bəy söylədi: "Doğru bir qərar!
Sultan ordusunun sərt nizamı var.
Cinahlardan qəfil vurmaqla əgər,
Nizamı pozmağa olsaq müyəssər,
Güclü ön cərgələr qaldıqca karsız,
Döyüş filləri də olar yararsız.
Bölərik düşməni bir neçə yerə,
Çəkərik qarşunu[52] susuz çöllərə".
Azacıq sonra da gənəşmə bitdi...
Arslan elatı da yardıma yetdi.
Qara Dağda olan qismindən elat,
Ayırıb min atlı və xeyli sursat,
Bilinməsin deyə gizli siyasət,
Doğma səcuqlara göndərdi xəlvət.
Bütün hazırlıqlar çatınca başa,

Çıxdılar səlcuqlar böyük savaşa.
Nəsa düzənində baş verdi görüş,
İsti yay səhəri başladı döyüş[53].
Çağrı bəy, əmrində yeravul qolu[54],
Üç min atlı ilə kəsmişdi yolu.
Sanki tək yeravul çıxmışdı düzə,
Digər qollar isə dəymirdi gözə.
Qəznəvi sərkəri hacib Bəg-Doğdu,
Xeyli gülüb dedi: “Budurmu ordu?!
And olsun ki, doğru söylədi sultan,
Bu oğuz bəyləri yazıblar yalan.
Yeddi min də olmaz sayları cümlə...
Bir qismi edəcək yalançı həmlə.
Digər qismi yəqin pusquda durmuş...
Bu səlcuq elatı yaman qudurmuş.
Tus valisiyəmmi, Cazibəm məgər,
Düşüncəsiz olum mən də bu qədər?”
Bu zaman səsləndi qarşıda davul,
Getdikcə sürətlə cuman yeravul,
Ox məsafəsinə yürüyüb çatdı,
Ani bir zamanda üç min ox atdı.
Verib qəznəvilər qalxanı önə,
Öz mövqelərində qaldılar yenə.
Rəqibdən bir xətər dəyməsin deyə,
Yeravul sürətlə dönüb geriyə,
Çaparaq bir qədər şimal tərəfə,
Yenidən nizamla düzüldü səfə.
Biri digərini gözdən qoymadan,
Durdular rəqiblər uzun bir zaman.
Bu nigarançılıq hacibi sıxdı,
Coşdu qəzəbindən,  özündən çıxdı:
“Sayları bir ovuc, barmaqla sana,
Di gəl qürurları sığmaz cahana!
Nə savaşlarının bir qaydası var,

Nə də məqsədləri bilinmir aşkar.
Zaman da deyildir bizlərə həmdəm,
Üzəcək ordunu isti cəhənnəm...
Yox, yox... hər çətinlik olsa da belə,
Baş tutmaz bunların qurduğu hiylə.
Pusqunun yerini bilməyincə mən,
Bir addım atmaram əsla yerimdən”.
Qəznəvi ordusu axşama qədər,
Səflərdə dayanıb gözlədi hədər.
Oğuzlar atları çapıb getdilər,
Alatoranlıqda gözdən itdilər.
Yalnız bundan sonra hacib Bəg-Doğdu,
İcazə verdi ki, dincəlsin ordu.
Sipəhsalarları yığıb nəhayət,
Qurdu çadırında hərbi məşvərət.
Hər dəfə olduqca yeni bir təklif,
Fikirlər söyləndi ona müxalif.

## QƏZNƏVİ ORDUSUNUN BİR HİSSƏSİ MƏHV EDİLDİ

Məşvərət etdilər uzun bir zaman,
Yorğunluq gətirdi ötüşən hər an.
Sonra... hay-küy səsi gəldi eşikdən,
Çadıra girdi bir əsgər keşikdən.
Söylədi: "Əmirim, bir dəstə adam,
Varını-yoxunu itirib tamam,
Gəliblər etsinlər sənə şikayət,
Oğuzlar eyləyib onları qarət..."
Hacib keşikçiyə verməyib macal,
"Üç nəfər seç gətir!" əmr etdi dərhal.
Keşikçi cəld getdi. Keçdi bir qədər,
Sonra alaçığa gəldi üç nəfər.
İkisi çox cılız, ağsaqqal qoca,
Biri ortayaşlı, cüssəli, uca.
Onun yumruq boyda şişmişdi gözü,
Qan ləkələriylə doluydu üzü.
Qocalardan biri çökərək dizə,
Söylədi: "Oğuzlar zülm etdi bizə,
Alıb əlimizdən hər nəyimiz var,
Doğma kəndimizdən bizi qovdular.
Hücum eylədilər səhər obaşdan,
Vermədilər əsla kimsəyə aman.
Hər nə gördülərsə, saldılar tamah,
Üstləri-başları dopdolu silah.
Böyük ordu qədər vardı sayları,
Adama diş atır vəhşi dayları..."
Hacib dedi: "Qoca, "ordu" dedin sən,
Nə qədər olardı sayı təxminən?"
Söhbətə qoşulub ucaboy adam,
Dedi: "Mən bilirəm sayını tamam.
Sayları üç mindir. Üç min süvari.

Belə söyləyirdi onlardan biri.
Oğuzlar edərkən evimi qarət,
Göstərdim onlara mən müqavimət.
Üstümə tökülüb döydülər məni,
Təhqir eylədilər, söydülər məni.
Nizənin dalıyla məni vuraraq,
Bir quldur dedi ki: "Sakit dur, axmaq,
Üç min süvarinin qarşısında sən,
Nə atılıb-düşüb üsyan edirsən?!"
Bu quldurlar bizim kənddə qaldılar,
Qovub əhalini çölə saldılar.
Sən demə sayları çoxmuş ikiqat,
Çünki axşamüstü, yolda camaat,
Bir qoşun da görüb fəryad etdilər,
Oğuzlar sürətlə çapıb getdilər,
Özü də düz mənim yurduma doğru".
Bir az fikirləşib hacib Bəg-Doğdu,
Söylədi: "Deməli, cəmi altı min...
Elə bu qədər də edirdim təxmin".
Sonra qaçqınlardan soruşdu hacib:
"Bir məsələ də var, özü də vacib.
Altı minlik atlı bir ordu üçün,
Kənddə su, azuqə yetər neçə gün?"
Qocalardan biri cavab verdi: "Biz,
Məskən salmamışıq orda səbəbsiz.
Quruçayda xırda bəndlər qurmuşuq,
Ətraflarında da göllər vurmuşuq.
Qış vaxtı gəlirkən su quru çaya,
Yığıb saxlayırıq göllərdə yaya.
Həm də kənddə iki su quyusu var.
Qaldı quldurlara böyük bir davar.
Əti adam kimi yesələr əgər,
Bəlkə beş-altı gün onlara yetər".
Sona yetən kimi bu sorğu-sual,

Sərkərdə ordunu qaldırıb dərhal,
Oğuzları salmaq üçün tələyə,
Böldü ordusunu iki hissəyə.
Etiraz etsə də bir sipəhsalar,
Hacib bildirdi ki, qətidir qərar.
On minlik orduyla cənubdan hacib,
Cumub oğuzları edəcək təqib.
Yeddi minlik ordu pusquda dursun,
Sonra şərqdən cumub cinahdan vursun.
Sipəhsalarlara bu döyüş fəndi,
Çox gözəl göründü, hamı bəyəndi.
Hacib bir hissəni düzərək səfə,
Yönəldi birbaşa şimal tərəfə.
Cinahdan etməkçün düşmənə həmlə,
Şimal-şərqə çapdı ikinci bölmə.
Qoşun yoldaikən açıldı səhər,
Apaydın göründü bütün həndəvər.
Atı öndə sürən süvarilərdən,
Birisi "Oğuzlar!" çığırdı birdən.
Diqqətlə baxaraq bir sipəhsalar,
Söylədi: "Doğrudur, elədir ki var...
Sayları da olar məncə... iki min...
Qarət mallarını bölərək yəqin,
Dəstə-dəstə olub gəzirlər yenə,
Ya da hər şey olub tamam tərsinə.
Mal bölüşdürəndə bərk dalaşıblar,
İnciyib küsüblər, uzaqlaşıblar".
Qəznəvi ordusu düzüldü səfə,
Oğuz dəstəsini alıb hədəfə,
Qəti bir qərarla cumdu irəli,
Sanki hər şey oldu bu dəmdə bəlli.
Görənlər etdilər belə bir güman,
Oğuzlar tərəddüd edib bir zaman,
Qarət mallarını ataraq yerə,

Salamat qalmağı düşünüb hərə,
Qaçmağa üstünlük verib bu dəfə,
Dağınıq qaçdılar şimal tərəfə.
Bu hadisələri görüncə rəqib,
Daha da arxayın eylədi təqib.
Uzun bir dərəyə girincə ordu,
Oğuz süvarisi dayanıb durdu.
Qəznəvi ordusu dərədə qaldı,
Dörd bir tərəfini oğuzlar aldı.
Elə ki, hər yandan qapandı tələ,
On min nəfər oğuz durmadan belə,
Xırda təpələrdən yağdırdılar ox,
Dərədə sağ qalmaq ehtimalı yox.
Dəli bir həmlədən nicat umaraq,
Bir dəstə qəznəvi geri cumaraq,
Yarmaq məqsədiylə mühasirəni,
Tərk etmək istərkən qanlı dərəni,
Oxdan və nizədən yağdırıb leysan,
Oğuzlar onlara vermədi aman.
Qəznəvi ordusu tələdə qalmış,
Ölüm də başının üstünü almış.
Bir zaman ölkələr fəth edən ordu,
İndi qoyun kimi qurda yem oldu.
Yağdıqca oğuzun nizəsi, oxu,
Öldü, yaralandı yarıdan çoxu.
Qalmadı ordudan əsər-əlamət,
Yetişdi sonuna qanlı fəlakət.

## SƏLCUQLARLA QƏZNƏVİLƏRİN MEYDAN SAVAŞI

Hacib səhər çağı kəndə yetişdi,
Olayları görüb halı dəyişdi.
Çoxdan tərk etmişlər oğuzlar kəndi...
Dağıdıb çay üstdə bir neçə bəndi,
Açıb buraxıblar süni gölləri,
Çamurluq ediblər susuz çölləri.
Heyvan cəmdəyiylə hər iki quyu,
Tamam zəhərlənib, ölümdür suyu.
Hacib Bəg-Doğdunu bürüdü təşviş:
"Oğuzlar nə qədər hiyləgər imiş?!
Yaman cəlbedici göstərib izi,
Susuz səhralara çəkdilər bizi.
Su mənbələrini edib yararsız,
Qoyublar ordunu tam ixtiyarsız.
Bugünlük su bizə yetər birtəhər,
Çox ağır olacaq növbəti səhər.
Qoymadı oğuzlar bir güman yeri,
Məcbur edirlər ki, qayıdaq geri.
Bəlkə də..." Titrədi bədəni tamam,
İçində özünü etdi ittiham:
"Təkəbbürlük edib düşmənə güldüm,
Ağılsızlıq edib ordumu böldüm.
Bir xəbər eşidib olmadan əmin,
Susuz səhralarda qaldım didərgin.
Bəlkə şərq tərəfdən yürüyən ordu,
Yağı düşmənlərə yolda tuş oldu?"
Olsa da sərkərdə xeyli nigaran,
Qalaraq gözlədi kənddə bir zaman.
Şərq tərəfdən kəndə girən bir çapar,
Haciblə görüşə edərək israr,
Gəlib düz onunla durdu üz-üzə,

Nəfəsini dərib başladı sözə.
Söylədi: “Əmirim, obaşdan yolda,
Bir oğuz qoluyla rastlaşdıq. Qolda,
İki min süvari oğuz olardı,
Üstlərində qarət malları vardı.
Bizi görən kimi çaşıb qaldılar,
Qarət mallarını yerə saldılar.
Nizamsız qaçarkən iki min oğuz,
Təqibə başladı bizim ordumuz”.
İşin gerisini bilmirdi çapar...
Hacib düşünmədən verərək qərar,
Təcili yürüşə hazırlıq etdi,
Hadisə baş verən məkana getdi.
Hadisə yerinə çatmamış hələ,
Rastlaşıb yaralı əsgərlər ilə,
Bütün olaylardan olub xəbərdar,
Yenə davam etdi yoluna sərdar.
Qırğın olan yerə çaparaq cumdu,
Mənzərəni görüb gözünü yumdu.
Hadisə yerinə ordu da gəldi,
Baxanın, görənin gözü bərəldi.
Bir cüt gözü yumdu əgər xəcalət,
Digər gözlərisə bərəltdi dəhşət.
Qanıyla suvarmış bu susuz çölü,
Minlərlə yaralı, minlərlə ölü.
Hər baxan əsgər ki, sarsıldı tamam,
Yağ kimi əridi içində inam.
Çətin ki, döyüşdə qazansın zəfər,
Qorxu hisslərinə qapılmış əsgər.
Əgər çevrilməsə qorxu nifrətə,
Olmaz o ordudan ordu dövlətə.
Nifrət oyatmadı düşmənə qarşı,
Enmişdi köksünə hacibin başı.
Necə yaratsın ki, düşmənə nifrət,

Yoxdur savaşında zərrə ədalət.
Mahmud Qəznəvidən danışsın məgər,
Aldadıb ər tutmuş sultan, "mötəbər"?!
Arslanı həbs etmək bir yana qalsın,
Üstəlik xalqı da möhnətə salsın?
Desinmi Məsudun "ədalətindən",
"Dost" deyib öldürmək məharətindən?
Ya ordu önündə gurlayıb gur-gur,
Desin ki, necə bir mərd idi Yağmur?
Bəlkə desin necə qəznəvi sultan,
Yad ünsürlər ilə olub mehriban,
Oğuz ellərinə kəsilib düşmən?
Bax bu mənzərədir, bu yerdə, həmən,
Bütün suallara məntiqi cavab!
İntiqam doğurmuş sürəkli əzab!
Asılmış boynundan ədalət daşı,
Enmişdi köksünə hacibin başı.
Artıq bilirdi ki, bu günə qədər,
Yol yoldaşı olmuş qələbə, zəfər,
Haqsızlıq ucundan onu tərk etmiş,
Şanlı təntənələr sonuna yetmiş.
Nəhayət... tərk edib bu qorxunc yeri,
Qəznəvi ordusu dönürdü geri.
Könüllərdə kədər, üzlərdə kədər,
Ordu dayanmadı axşama qədər.
Axşam düşər-düşməz dayandı ordu,
Gecələmək üçün düşərgə qurdu.
Sübhə yaxın birdən aləm qarışdı,
Düşərgədə dörd-beş çadır alışdı.
Sən demə bir dəstə oğuz qəflətən,
Cumub düşərgəyə cənub tərəfdən,
Bir fırtına kimi çöllərdən əsib,
Önünə çıxanı doğrayıb, kəsib,
Cəlb edib özünə bütün diqqəti,

Gizləyib düşməndən əsas niyyəti.
Çünki yaxınlıqda bir dəstə oğuz,
Qəznəvi geyimli, sayları otuz,
Səriştə göstərib işdə mükəmməl,
Keşik dəstəsini ləğv edib əvvəl,
Düşmən atlarını açıb buraxdı,
İlxı da sel kimi çöllərə axdı.
Oğuzlar qaçırıb arabaları,
Sürüb apardılar alafaları[55].
Bəd xəbər ardıyca gəldi bəd xəbər,
Hacib Bəg-Doğdunu bürüdü kədər.
Vaxt itirmək olmaz indi gərəksiz,
Qalmışdı ordusu susuz, yeməksiz.
Üç min süvari də miniksiz qaldı,
İndi durum başqa bir görkəm aldı.
Qəznəvi ordusu üç-dörd gün əvvəl,
Təminatlı idi tamam mükəmməl.
Sayı da ikiqat çox idi... fəqət,
Üç günün ərzində dəyişdi nisbət.
Sürətli hərəkət, cəsarət, inam,
Verdi oğuzlara meydanı tamam.
Səlcuqlar qoydular şərti bu dəfə...
Cənuda ordunu düzərək səfə,
Kəsdilər yolunu düşmənin geri,
Əlacsız qoydular qəznəviləri.
Yol üstdə səlcuqlar, üç tərəf də çöl,
Ya meydan, ya da ki, susuzluqdan öl!
Bu uğursuz anlar hacibi üzdü,
Ordunu qəzəblə meydanda düzdü.
Meydan savaşıydı bu gün bircə yol!
Oğuz ordusu da düzüldü qol-qol.
Məhəmməd Toğrul bəy oldu sübaşı[56],
O yönəltməliydi bu gün savaşı.
Onun ətrafında durdu Tuğ qolu,

Mərkəzdə düzülmüş bu başbuğ qolu.
Çağrının əmrində, öndə Yeravul,
Tuğ qolun ardında durmuş Ciqdavul.
Tuğ qolun solunda düzülmüş Solqol,
Sağ cinahda durmuş səflərə Önqol.
Ən sonda Buxtarma – hərbi təchizat,
Alafa, təbabət, mehtərə[57], sursat.
Belə bir mükəmməl nizamlı ordu,
Hacib Bəg-Doğdunun önündə durdu.
Oğuz ordusuna yetirib diqqət,
Düşmən ordusunu bürüdü dəhşət.
Bir yandan da odlu avqust günəşi,
Sanki bol etmişdi bu gün atəşi.
Susuz qəznəvilər üzülüb hər an,
Zəifləyirdilər ötdükcə zaman.
Üç min süvari də miniksiz qalmış,
Hər kəsin bağrını həyacan almış.
Nəhayət oğuzlar başladı hərbə,
Əvvəl Çağrı vurdu mərkəzə zərbə.
Sonra da sürətlə şığıdı geri,
Çəkdi arxasıyca nəhəng filləri.
Səfə düzülməkçün yenə Yeravul,
Ona yol verərək Tuğ və Ciqdavul,
Uzun nizələri salaraq işə,
Girdilər mərkəzdə qanlı döyüşə.
Ox və nizələrdən alıb xəsarət,
Qaçdı qəznəvilər geri nəhayət.
Atılıb döyüşə Önqol və Solqol,
Qılıncla açaraq özlərinə yol,
Ölüm yağdıraraq silahlarından,
Vurdular düşməni cinahlarından.
Ön cərgə düzümə tapmamış macal,
Düşdü cinahlarda böyük qalmaqal.
Qəznəvilər zəif, ruhları düşgün,

Hərəkətləri ləng, canları üzgün...
Son ümidləri də şam kimi söndü,
Savaş açıq-aydın qırğına döndü.
Qırılan qırıldı, qaçanı qaçdı...
Hacib bir dəstəylə yolunu açdı,
Əvvəl şərqə qaçıb qurtuluş tapdı,
Sonra dəstəsiylə cənuba çapdı.

## SULTAN MƏSUDUN ELÇİSİ TƏHQİR EDİLDİ

Gəlib Nişapura yetişdi xəbər,
Böyük bir matəmə büründü şəhər.
Bir anda evlərdə vay-şüvən qopdu,
Qorxu, çarəsizlik canlara hopdu.
Gözlənilməz oldu bu məğlubiyyət,
Düşdü dildən-dilə şayələr, qeybət.
Kimsə deyir: “Qaldım buna məəttəl!
Ordumuz var idi güclü, mükəmməl.
Əgər olmasaydı tilsim ya cadu,
Əsla yenilməzdi belə bir ordu”.
Bir başqası deyir: “Qorx ki sən hələ,
Bununla bitməsin bütün məsələ.
Bu dikbaş oğuzlar etsələr səfər,
Əlacsız qalacaq bu boyda şəhər.
Allah göstərməsin... qopar bir tufan,
Axar su yerinə Nişapurda qan!”
Digəri söyləyir: “Düz deyirsən sən!
Nədir oğuzların önünü kəsən?
Darmadağın olub bütün ordumuz,
Ölümlə üz-üzə durub yurdumuz!”
Kimsə də hər şeyə şübhəylə baxır,
İttiham eyləyir, ləkələr yaxır:
“Bu hacib Bəg-Doğdu, bilirəm yəqin,
Satılıb düşmənə xəlvətcə xain!
O özü qoşunu tələyə salıb,
Qoşunu qırılıb, özü sağ qalıb!”
Sarayda da hamı batmışdı qəmə,
Sultan da düşmüşdü yazıq görkəmə.
Yox təkəbbüründən əsər-əlamət,
Bükmüşdü belini bu məğlubiyyət.
Taledən narazı, bəxtdən gileyli,

Məşvərət eylədi vəzirlə xeyli.
Baş vəzir fikrində etdikcə israr,
Verildi belə bir ümumi qərar:
“Torpaqlar, bəxşişlər verərək mütləq,
Olsun qəznəvilər sülhə müvəffəq.
Edilərsə əldə yetərli zaman,
Qüvvə bərpasına yaranar imkan.
İtirməyib vaxtı, imkanı hədər,
Qırx minlik bir ordu edib səfərbər,
Oğuz ordusunu qırsınlar tamam,
Bu rəzalətlərə verilsin xitam”.
Guya ki, mərhəmət göstərdi sultan,
Verildi Fəravə, Nəsa, Dehistan,
Səlcuq bəylərinə ərmağan kimi.
Çağrı Dehistanın oldu hakimi,
Toğrulun payına düşmüşdü Nəsa,
Fəravənin oldu sahibi Musa.
Çox yaxşı bilirdi qəznəvi sultan,
Sülh danışıqları getdiyi zaman,
Alıb bəxşişləri, hədiyyələri,
Yerə atmışdılar səlcuq bəyləri.
Sonra böyük bəylər söz alıb bir-bir,
Sultan elçisini ediblər təhqir.

ƏTRƏK ÇAYIN SAHİLİNDƏ

Çağrı bəy qırx nəfər süvari ilə,
Axşam düşər-düşməz gəldi sahilə.
Enib atlarından, alıb dəstəmaz,
İki növbə olub qıldılar namaz.
Çağrı bəy namazı qılana qədər,
Alaçıq qurdular bir neçə nəfər.
Yetişdi sonuna nəhayət namaz,
Çağrı sahil boyu gəzişdi bir az.
İsti yaydan sonra payız ayları,
Axarlı etmişdi quru çayları.
Ay işıqlarını əks etdirərək,
Sakit şırıldayıb axırdı Ətrək.
Çağrı hərəkətsiz durub bir qədər,
Bərq vuran sulara yetirdi nəzər.
Qayıtmaq istədi... elə bu zaman,
Yaxınlaşıb ona oğlu Alp Arslan[58],
Söylədi: "Çağrı bəy, nədəndir, bu gün,
Hey fürsət gəzirsən tənhalıq üçün?"
Çağrı gülümsündü: "İgid Arslanım,
Mənim tənhalıqda sıxılır canım.
Lakin elə məqam olur ki, hərdən,
Tək qalıb düşünmək istəyirəm mən.
Bəzən tənhalıqda gəldiyin qərar,
Gənəşmələrdə də faydalı olar".
Alp Arslan söylədi: "Gənəşmə dedin...
Nəsə... möcüzəli bir şeydir yəqin.
Ata, böyük Gənəş qurulan zaman,
Elatda toplaşıb bir neçə cavan,
Kiçik bir gənəşmə qururuq, ancaq,
Hər dəfə səhv qərar verir yığıncaq.
Geriyə çəkilmək düşünürkən biz,
Hücum qərarını verirsiniz siz.

Axı... çoxsa düşmən sayca ikiqat,
Çox mükəmməldirsə sursat, təchizat,
Biz zəif, az... lakin bunlara rəğmən,
Hücum eyləyirik... dərk etmirəm mən...”
Gülüşünü zorla boğaraq Çağrı,
Dedi: “Cavanları qorusun Tanrı.
Arslan Yabqu kimi igid Arslansan,
Ancaq, oğlum, hələ... lap çox cavansan.
İllər ötüşdükcə artar təcrübən...
Dediyim sözləri yadda saxla sən.
Varsa Tanrımızdan ərənlik payı,
Qorxutmaz başbuğu düşmənin sayı.
Sürətli hərəkət və qəfil zərbə,
Zəfər zəmanəti verirsə hərbə,
Onun təməlində durmuş intizam,
Ordu ordu deyil, yoxdursa nizam.
Nizam da yetərli deyil zəfərə,
İnam hökm etməsə hər bir əsgərə.
İnam – tək Allaha ibadətimdir,
İnam – el-obaya məhəbbətimdir,
Tanrıma, xalqıma sədaqətimdir,
Qeyrətim, namusum, cəsarətimdir.
İnam – babalardan əmanətimdir,
Öz övladlarıma nəsihətimdir”.
Qara qaşlarına düyün vuraraq,
Dinləyib Alp Arslan sakit duraraq,
Qəflətən əlini uzadıb önə,
Dedi: “Başbuğ atam, inam ver mənə!”
Çağrı bəy diqqətlə oğluna baxıb,
Hökmlə uzanmış əlini sıxıb,
Dedi: “Həmd olsun ki, uca Allaha,
O inam qəlbində yurd salıb daha.
Çarxı döndərməsə tərsinə fələk,
Sən böyük bir fateh olasan gərək”.

Alp Arslan soruşdu: “Səndən də böyük?”
Çağrı bəy söylədi: “Məndən də böyük!”
Təəccüb bürüdü cocuğu tamam:
“Axı... başqa cürə söyləyir anam.
Deyir ki, ən böyük sənin atandır,
Ondan böyük yalnız tək Yaradandır”.
Çağrı dedi: “Oğul, düz deyir anan...
Amma dövran keçər, yetişər zaman,
Hər şeyi bilərsən sən inşaallah,
Sənə də rəhmindən pay verər Allah.
İndi isə... oğul, gəl dönək geri,
Birgə qarşılayaq müsafirləri”.

## ÇAĞRI BƏYLƏ QIZIL QAZİNİN SÖHBƏTİ

Şamlardan saçırdı ətrafa işıq,
Nura qərq olmuşdu kiçik alaçıq.
Görüşəndən bəri Qızıl bəy ilə,
Çağrı bəy verməyib ara, fasilə,
Sualın ardıyca yağdırıb sual,
Yerbəyer, adbaad tutdu hal-əhval.
Bilirdi, nə qədər ötsə də müddət,
Üzsə də qəlbləri sürəkli həsrət,
Yeznə nə dinəndir, nə danışandır...
Hərçənd çox igiddir, çox mehribandır.
Əlbəttə, versəydi vəziyyət aman,
Söhbət edərdilər uzun bir zaman.
Lakin çətin idi durum, vəziyyət,
Tezliklə yönünü dəyişdi söhbət.
Çağrı bəy söylədi: "Sonuncu döyüş,
Çətin yolumuzda oldu bir dönüş.
Nəsa yörəsində bu böyük zəfər,
Bizə vacib idi hava, su qədər.
Bizə rəhm eylədi tanrımız Allah,
Vəhdət də yaranır, əlhəmdülillah.
İndi bizimdirsə üç böyük məkan,
Süstəlib oturmaq olmaz heç zaman.
Sultan Məsud indi yaralı şirdir,
Amalı, arzusu, məqsədi birdir,
Bizi məhv eyləmək. Durmadan bir an,
Ordu toplayacaq qəznəvi sultan.
Sözsüz, tale yüklü belə oyunda,
Biz də oturmuruq əli qoynunda.
Böyüyüb ordumuz indi ikiqat,
Daha mükəmməldir sursat, təchizat,
Möhkəm nizamlıdır hər bir qolumuz...

İndi qalmış bircə nicat yolumuz.
Qəznəvilər tamam çökməsə dizə,
Bu geniş yer üzü dar olar bizə.
İndi kim edərsə çevik hərəkət,
Dəyişər xeyrinə onun vəziyyət".
Qızıl dedi: "Mən də düşünmüşəm çox...
İndi bizim başqa çarəmiz də yox.
Zəfərin ardıyca qazanıb zəfər,
Məsudu taxtından salaq müxtəsər.
Şərqdən qurulubdur onun dövləti,
Ordadır büsbütün gücü, qüdrəti.
Ölkənin qərbində çaxnaşma salsaq,
Bir neçə şəhəri biz ələ alsaq,
Qərbdən təchizatı kəsilər tamam,
Şərqdə də sultana azalar inam".
Çağrı məmnun olub, təbəssüm ilə,
Düşündüklərini gətirdi dilə:
"Yeg qoçum! Dilinə, sözünə qurban!
Hər dəfə ağlına oluram heyran.
Hər şeyi o qədər dedin ki aşkar,
Sanki gənəşmədə verərkən qərar,
Bizəmlə olmusan axıra qədər..."
Qızıl gülümsünüb dedi: "Bəxtəvər!
Millətin fikirdən yarılır bağrı,
Deyib-gülməyindən qalmayır Çağrı.
Burda heyrətamiz nə var qardaşım?
Sizin o başlardan deyilmi başım?"
Dedilər, güldülər qısa bir müddət,
Sonra ciddiləşdi yenidən söhbət.
Çağrı bəy söylədi: "Lap elə səhər,
Qara Dağdan çıxıb eyləyin səfər.
Reydəki bəyləri edin xəbərdar,
İndi hər bir günün, anın hökmü var.
Tezliklə birləşin, yaradın vəhdət,

Ardıcıl şəkildə edin hərəkət.
O cəsur elat ki oldu səfərbər,
Çökəcək önündə böyük şəhərlər.
Hər kim ki, xoşluqla olar tərəfdar,
Müttəfiqlər kimi eyləyin rəftar.
Qoy iki cəbhədə vuruşsun sultan,
Qoy düşsün taqətdən ötdükcə zaman.
Biz də tədarükü çatdırıb başa,
Girək həlledici, böyük savaşa.
Bu çətində bizə Tanrı yar olsun,
Oğuz ellərimiz bəxtiyar olsun!”

## *IV HİSSƏ*

## YENİLMƏZ ARSLAN ELATI

### *SIZAN HƏQİQƏTLƏR*

Deyildir imanlı gözlərə pünhan,
Üzə din niqabı çəksə də şeytan.
Din ürəkdə olur, din qəlbdə olur,
Əqidədən sızıb qəlblərə dolur.
Din – iman deməkdir, dostluq deməkdir,
Sağı da solu da fitnə, kələkdir.
Tükdən də nazikdir, bundan əmin ol,
"Siratəlləzinə" adlanan bu yol.
Hər zaman şeytandan qoru bu yolu,
Çünki kafirlərlə doludur solu.
Bu yoldan bir addım atınca sağa,
Mövhümat yükləri çevrilər dağa.
Haqq yoldan kənarda gəzib dolaşar,
O dindar ki, dində həddini aşar.
Adəmin dövründən Leysana qədər,
İnsan tərəqqidə göstərdi hünər.
Adəmin elmindən alaraq vüsət,
Yerdə övladları qururdu cənnət.
Öyrənib, öyrədib zərurət kimi,
Ulu peyğəmbərdən əmanət kimi,
Nəsildən nəsilə keçirdi savad,
İnsanlar şəhərlər salırdı abad.
Digər tərəfdənsə... ötdükcə illər,
Haqqı unudurdu gələn nəsillər.
Tamah insanları salırdı dərdə,
Təkəbbür çəkirdi gözlərə pərdə.
Şan-şöhrət uğrunda tökürdülər qan,
Var-dövlət eşqiylə alırdılar can.

Dinsizlik, haqsızlıq edirdi gərdiş,
Hərə bir büt qurub etdi sitayiş.
Peyğəmbərin dini, qısa zamanda,
Tamam unuduldu bütün cahanda.
Yaranış haqqında, Yer barəsində,
Hərə bir şey dedi əfsanəsində.
Xaliq Tanrısını unutdu insan,
Durdu fəlakətlə üz-üzə pünhan.
Qəlblərdən son iman zərrəsi itdi,
Yeni peyğəmbərin məqamı yetdi.
Ulu Tanrım Nuhu seçdi peyğəmbər...
Yaşı əlli idi, peşəsi – dülgər.
Tanrıdan vəhy alıb bu gözəl insan,
Haqqı təbliğ etdi uzun bir zaman.
Tez-tez yuxusunda ocaq görürdü,
Ocaqdan hər yana od püskürürdü.
Sonra da vəhy aldı haqq peyğəmbəri,
Çatdırıldı ona Leysan xəbəri.
Nuh da insanlara eylədi bəyan,
Dedi: “Ey insanlar, yetişib zaman!
Haqsızlıq, dinsizlik etməyin daha,
Üz tutub yalvarın vahid Allaha!
O uca Tanrı ki, xəlq edib bizi,
Nemətlər var edib, bəxş edib ruzi,
Onun ki, varlığı qucub qüdrəti,
Bizi əfv etməyə yetər rəhməti!
O Rəhim, o Rəhman görünməz gözə,
Onun sözlərini deyirəm sizə.
Müşrik əməliylə etməyin günah,
Şəriksiz varlıqdır yaradan Allah!
Etməyin bütlərə daha sitayiş,
Fəlakət gətirər bizlərə bu iş!
Ancaq dərk etsəniz doğrunu, düzü...”
Hələ peyğəmbərin bitməmiş sözü,

Varlı bir sahibkar çıxıb irəli,
Dedi: “Çox yəqin ki, olmusan dəli!
Saya gəlməz mənim varım-dövlətim,
Demək səndən çoxdur ağlım, qüdrətim.
Acizin, yoxsulun, lütün birisən!
Sən hansı tanrının peyğəmbərisən?
Sənin o dediyin gözəgörünməz,
Ağıllı bir seçim eyləyə bilməz?
Yəni, tapılmadı başqası məgər,
Peyğəmbər seçildi bu kasıb dülgər?!”
Çox adam qoşuldu bu küt əbləhə,
Nuha rişxənd edib çəkdi qəhqəhə...
O ulu peyğəmbər, uzun bir zaman,
Xalqın taleindən qalıb nigaran,
Yorulmadan haqqı bəyan edirdi,
Tanrı buyurduğu yolla gedirdi.
Tanrının əmriylə qururdu gəmi...
Bu xəbər bürüdü bütün aləmi...
Az adam imanla verərək qərar,
Gəlib peyğəmbərə oldu tərəfdar.
Qafil insanlarsa, ilk gündən bəri,
Ələ salırdılar Nuh peyğəmbəri.
Elə peyğəmbərin övladı Kənan,
Çaşqınlıq içində bulmadı iman.
Kafir zümrəsinə qarışdı yazıq,
Haqqın əleyhinə danışdı yazıq.
Bəzən sıxılsa da cismində ruhu,
Heç nə döndərmədi yolundan Nuhu.
Səbr ilə iş gördü, quruldu gəmi...
Axır ki, yetişdi Leysanın dəmi.
Bəzi heyvanlardan yığıb gəmiyə,
Cüt-cüt yerləşdirdi Nuh zirzəmiyə.
Ərzaq, içməli su edib tədarük,
İnanan insanlar tutmuşdular yük...

Min illik uyqudan qalxıb təbiət,
Bir üsyan qopardı, oldu fəlakət.
Qapqara buludlar eylədi tüğyan,
Sel kimi töküldü torpağa Leysan.
Suyun dövranında dəyişdi nisbət,
Çaylar  coşub-daşıb etdi hərəkət.
Kimlər peyğəmbərə oldu tərəfdar,
Sağlam düşüncəylə verərək qərar,
Nuhun fərmanına edib itaət,
Mindilər gəmiyə onlar nəhayət.
Haqqa inanmadı Nuhun övladı,
Hərdən ibrət üçün çəkilir adı.
Su qat-qat artaraq tutdu aləmi,
Nəhayət üzməyə başladı gəmi.
Su artdıqca Kənan qalxır təpəyə...
Nuh gəmidən baxıb bu mənzərəyə,
Ürək ağrısıyla gələrək dilə,
Dedi: “ Ehey, Kənan, gec deyil hələ!..”
Lakin hikkəsindən dönmədi Kənan...
Dağlardan da hündür bir dalğa bu an,
Sürətlə yürüyüb araya girdi,
Kənanı, təpəni gözdən itirdi...
Allahın rəhmiylə sınağa dözdü,
Həzrətin gəmisi sularda üzdü.
Fəlakət müddəti çatınca başa,
Nəhayət toxundu gəmi bir daşa.
Gəmi bu qayaya ilişib durdu,
Sular azaldıqca yerə oturdu.
Allahın əmrinə edib itaət,
Yenə mizanına düşdü təbiət.
Vacibdir bu tarix, onun ibrəti...
Yalnız Allah bilir tam həqiqəti.

## YENƏ BİRLİKDƏDİR ARSLAN ELATI

Çıxıb Manqışlaqdan Qara Dağlılar[59],
Səlcuq elatına qəlbən bağlılar,
Səhər yol aldılar düz İsfana,
Şayələr yayldı yenə hər yana.
Güya Arslan eli təkəbbüründən,
Yenə ikrah edib Səlcuq elindən,
Yenə də gəlməyib heç bir vəhdətə,
Gedir İsfahanda hərbi xidmətə.
Əslində bəllidir elin niyyəti,
Vəhdət uğrundadır bütün xidməti.
Qızıl Yəhya oğlu elə bu səhər,
Rey əyalətinə göndərdi xəbər.
Beş gündən az çapdı yollarda çapar,
Buğa, Mənsur, Göyxan olub xəbərdar,
Şükürlər eyləyib uca Allaha,
Bir an yubanmadan, durmadan daha,
Elatı səfərə hazır etdilər,
İsfahana doğru birgə getdilər.
Beş ildən də artıq sürəkli həsrət,
Qurban bayramında bitdi nəhayət.
Həm görüşü, həm də böyük bayramı,
Şadman qarşılayıb sevindi hamı.
Dörd min alaçığı açaraq elat,
İsfahan çölündə qurmuşdu büsat.
Dəymiş bir-birinə bütün İsfahan,
Əhali qorxuya düşmüşdü yaman.
İsfahan hakimi Əlaüddövlə[60],
Birtəhər özünü alaraq ələ,
Təcili sarayda qurdu məşvərət,
Ağıllı ərənlər verdi məsləhət:
“Bu aləmdə məşhur igid Dağlılar,

Onların ki, beş min süvarisi var,
Başa çatar-çatmaz müqəddəs bayram,
Qırıb məhv edərlər şəhəri tamam.
Məsləhət budur ki, Əlaüddövlə,
Əyan-əşrəflərlə, hədiyyələrlə,
Oğuz bəylərini eyləsin pişvaz,
Bir kimsə etməsin buna etiraz.
Yoxsa bu dağlılar verməzlər aman,
Yerlə yeksan olar gözəl İsfahan".
Şəhərin hakimi bu məsləhətlə,
Əyan-əşrəflərlə, xeyli xələtlə,
Oğuz bəyləriylə getdi görüşə,
Son qoydu bununla qorxu, təşvişə.
Şəhərə dəymədi Arslan elatı,
Üç gün davam etdi bayram büsatı.
Sonra elat yenə düzəldi yola,
İti bir yürüşlə getdi şimala.
Beş minlik süvari düzülüb səfə,
Semnan şəhərini aldı hədəfə.
Əvvəlcə Semnanı[61] keçirib ələ,
Damqan[62] şəhərinə etdilər həmlə.
Elə yağmalandı bu iki şəhər,
Məsudu taxtında titrətdi xəbər.
Qalmışdı od ilə su arasında,
Sultanın əsirdi yel qafasında.
Düşünür: "Daş oldu bu dərd köksümə,
Hər şey dönmüş artıq mənim əksimə.
Səlcuqlu elatı, Arslan elatı...
Gəl nənəm, gəl oxu ağı bayatı!"
Əlacsız qalaraq tez verdi fərman,
Bir qoşun səfərbər eylədi sultan.
Göndərdi qoşunu Reyə Qəznəvi,
Qoşun sərkərdəsi oldu Həmdəvi[63].

## QIFÇAQ

Gəlmişdi Damqandan elat Semnana,
Qızıl gözətçilər qoydu dörd yana.
Arslan elatının mərd oğulları,
Bağlamışdı deyə əsas yolları,
Qərb-şərq yollarına vardı nəzarət,
Yayınmaz gözlərdən heç bir hərəkət.
Gün qüruba doğru əyilən zaman,
Qızıl, Mənsur, Əhməd, Buğa və Göyxan,
Çadırda əyləşib, qurub məşvərət,
Vəziyyətlərindən açdılar söhbət:
Mənsur bəy söylədi: "Bəlkə də sultan,
Bilir, fəth edilib Damqan və Semnan.
Təsəvvür edirəm vəziyyətini,
Kin-küdurətini və hiddətini,
İtirir ağlını düşəndə dara...
Məncə... Sübaşını göndərər bura.
O da ehtiyatlı həm də hiyləgər,
Qoşunu da güclü... on beş min nəfər..."
Göyxan dərhal etdi buna etiraz:
"Yox... Məsud bu qədər ağılsız olmaz.
Hər halda qarışmaz bu qədər başı...
Bizim ardımızca düşsə Sübaşı,
Tam müdafiəsiz qalar Nişapur.
Fikrimcə, Məsudun məqsədi budur,
Qoşun Xorasanda bir müddət dursun,
Səlcuq elatını arabir vursun.
Bu yolla ötürüb bir neçə müddət,
Çox güclü bir ordu yığsın nəhayət".
Buğa bəy söylədi: "Doğrudur... ancaq,
Heç biz də deyilik öylə utancaq.
Lap hazır qoşun da göndərsə sultan,
Ötər yeddi gündən artıq bir zaman.

Biz öz yolumuzla üsullu gedək,
Öncə yaxındakı Reyi fəth edək.
Sonra fəth edilsin Qəzvin, Həmədan...
Düşsün arxamızca Qəznəvi sultan.
Qoy bu vaxt ərzində Səlcuqlu elat,
Artırsın sayını, gücünü rahat...”
Bu vaxt alaçığa girib gözətçi,
Dedi: “Qıpçaqlardan gəlib bir elçi”.
Bəylər baxışdılar təəccüb ilə,
Qızıl dedi: “Dostum, nə olmuş belə?”
Əsgər dedi: “Elçi dediyim adam,
Toz-torpaq içində gəlibdir tamam.
Görünür ata da verməyib aman,
Yarıcan yetişib mənzilə heyvan”.
Qızıl dedi: “Yaxşı... qoy gəlsin elçi!”
Cəld dönüb çadırdan çıxdı gözətçi.
Az sonra çadıra gəldi bir cavan,
Salam verib durdu, karıxdı bir an.
Yer göstərib Əhməd Anasıoğlu,
Söylədi: “Gəl əyləş, ay bacıoğlu.
Otur, danış bizə ey igid cavan,
Nədir səni belə yollarda qovan?”
Cavan dedi: “Sağ ol, ağa bəy, sağ ol,
Ancaq məni elə əldən salıb yol,
Yorğunluq cismimin olub hakimi,
Yuxu tutar məni oturan kimi”.
Göyxan dedi: “İgid, söylə hələ bir,
Kimin elçisisən, məqsədin nədir?”
Cavan dedi: “Elçi deyiləm... fəqət,
Məni göndərənlər verib məsləhət,
Dedilər, “elçiyəm” söyləyib əvvəl,
Səmimiyyət üçün qurum bir təməl.
Yoxsa çatan kimi desəm “qıfçağam”,
Elə lap kandardan qovulacağam.

Balxan oğuzları dostdursa bizə,
Başqa cür yanaşır qıfçaqlar sizə”.
Qızıl gülümsünüb dedi: “Ay bala,
Kim axı sizləri salıb bu hala?
Əgər ki, niyyəti safdır, təmizdir,
Bizə hər oğuz, hər qıpçaq əzizdir.
Sən, oğul, əvvəlcə tanıt özünü,
Müxtəsər danışıb çatdır sözünü”.
“Baş üstdə!” söyləyib danışdı cavan:
“El-oba yurdumuz olsa da Balxan,
Bir yerdə sürəkli tutmuruq qərar,
Beş yüz süvarilik dəstəmiz də var.
Hörmətlə yanaşıb müraciətə,
Çağrı bəy götürmüş bizi xidmətə.
Karvan yollarını tapşırıb bizə,
O gündən Balxandan çıxmışıq düzə.
Nişapurdan qərbə və ya əksinə,
Karvan deyil, dəvə keçməz bir dənə.
Bura gəlməyimin vacib səbəbi,
El ağsaqqalının olmuş tələbi.
Sultan sarayında bir qohumu var,
O da ağsaqqalı edib xəbərdar.
Səlahiyyət verib Məsud Qəznəvi,
Beş minlik bir qoşun yığıb Həmdəvi,
Arslan elatını məhv etsin deyə,
Çıxıb Nişapurdan yol alıb Reyə.
Gəlib ya Damqana, ya da Semnana,
Həmdəvi çəkəcək sizi meydana.
Çəkən kimi sizi üzbəüz hərbə,
Taş-Fərraş[64] arxadan vuracaq zərbə.
Mən yola düşdüyüm günün səhəri,
Tərk etməli idi qoşun şəhəri.
Gecələr sübhədək azacıq yatdım,
Yollarda gecəni gündüzə qatdım.

Üç yerdə də düşdü əlimə fürsət,
Atımı dəyişib gəldim nəhayət”.
Qızıl ağır-ağır yerindən qalxdı,
Üzbəüz dayanıb cavana baxdı:
Dedi: “Var ol igid, mərhaba sənə!
Salam söyləyərsən qıpçaq elinə.
İndisə get dincəl, yat yuxunu al,
Nə qədər istəsən bu elatda qal.
Sənə bir at verdim, bir altun kəmər,
Bəylər də verəcək hər biri nəmər!”

## XAİN TAŞ-FƏRRAŞIN ÖLDÜRÜLMƏSİ

Valinin əhvalı yaxşıydı səhər...
Düşünür: “Zəhmətim getmədi hədər.
Eşitdi sözümü sultan nəhayət...
Çoxdan olmalıydı belə qətiyyət.
Beş minlik bir qoşun edib səfərbər,
Qoyub Həmdəvini onlara rəhbər,
Nəhayət ki, mənə göndərib kömək...
Mən də hazırlaşım savaşa gərək.
İki gündən sonra çatıb Semnana,
Həmdəvi dərhal da girər meydana.
Bunu göndərdiyi çapar da dedi,
Oğuzlar sahibdir Semnana indi.
Ancaq... məəttələm mən bircə şeyə,
Necə bəs Semnandan adlayıb Reyə,
Kimsə saxlamayıb yolda çaparı?
Əşşi... bu elatın dərdi, azarı,
Yağmadır, qarətdir, soyğunçuluqdur,
Hamısı maldardır, çoban-çoluqdur.
Var şücaətləri, cəsarətləri,
Yox sərkərdəlikdə məharətləri.
Qoy keyf eyləsinlər şəhərdə hələ,
İki gündən sonra qapanar tələ!
Bir dəfə o Mənsur, Buğa və Göyxan,
Ölümdən qaçmağa tapdılar imkan.
Yağmura sui-qəsd olunca aşkar,
Kim isə bunları etdi xəbərdar.
Bir dəfə əlimdən qaçıblar, fəqət,
Bu dəfə verməərəm onlara fürsət!”
Taş-Fərraş beləcə edib ehtimal,
Hazırlıq işinə başladı dərhal.
Nəhayət, valinin əmriylə ordu,

Semnana yürüşlə ayağa durdu.
Aralanmışdılar bir qədər Reydən,
Gördülər... Oğuzlar gəlir quzeydən!
Valinin gözünə dünya qaraldı,
Nitqini itirib, karıxıb qaldı.
Dartındı, udqundu, açıldı dili,
Sol cinaha sürüb mindiyi fili,
Sipəhsalarları vali çağırdı,
Tapşırıqlar verdi, xeyli bağırdı.
Nəhayət ki qoşun düzülüb səfə,
Yönəltdi üzünü düşmən tərəfə.
Atlı-filli cəmi üç minlik qoşun,
Bilinir əzəldən taleyi onun.
Beş min atlı oğuz cumdu irəli,
Qısa bir zamanda iş oldu bəlli.
Valinin ordusu tamam əzildi,
Az adam canını qurtara bildi.
Lakin sona qədər edirdi savaş,
Bir dəstə əsgərlə vali Taş-Fərraş.
Getdikcə sıxıldı dar mühasirə,
Taş-Fərraşın fili yıxıldı yerə.
Vali fürsət tapıb durdu ayağa,
Fəqət peyda oldu önündə Buğa.
Buğa bəy qılıncı sıyırıb durdu,
“Al, Yağmura görə!” deyərək vurdu.

## YAĞMUROĞLU VƏ DANƏ BƏYİN ƏSİR DÜŞMƏSİ

Semnan şəhərinin valisi bu gün,
Olsa da nə qədər qüssəli, üzgün,
Bir sevinc niqabı çəkərək üzə,
Çalışırdı ki, şad görünsün gözə.
Yağma adətiylə olsa da müflis,
O, Danə bəy üçün qurmuşdu məclis.
Cüssəli Danə bəy içdikcə çaxır,
Başı dumanlanır, gözləri axır.
Sərxoş dirsəklənib mütəkkəsinə,
Danə göz gəzdirib əhatəsinə,
Valiyə söylədi: "Yalan ya doğru...
Dəyməyir gözümə gənc Yağmuroğlu...
Dostumun oğludur mənim o cavan!
Ona bir şey olsa, ay qoca, inan..."
Vali dedi: "Yox, yox... and olsun, ağa,
Bir damla da zərər dəyməz uşağa.
Üzbəüz otaqda iki nazənin,
Ovurlar belini o cavan bəyin...
Qoy gözəl qızlarla o olsun sərməst,
Biz də söhbət edək səninlə sərbəst..."
Danə sərxoş-sərxoş çəkdi qəhqəhə,
Dedi: "Can qurban bu qoca əbləhə!"
Vali yaltaq-yaltaq gülümsünərək,
Dedi: "Dostluğumuz pak olsun gərək.
And olsun, zərrəcə deyiləm peşman,
Bütün varım-yoxum sizlərə qurban.
Məni heyran etdi şücaətiniz,
Sizin sərkərdəlik məharətiniz.
Oğuz bəylərinə var məhəbbətim,
Sənə daha çoxdur mənim hörmətim.
Sənin kimi comərd, ağıllı insan,

Çoxdan olmalıydı ölkəyə sultan!”
Danə piyaləyə doldurub şərab,
Dedi: “Uzun sürməz, dostum, iztirab.
Sanki xəbərdarsan ürəyimdən sən,
Bu barədə xeyli düşünmüşəm mən...
Düz on beş ildir ki, qılınc çalıram,
Zəfər qazanıram, məkan alıram.
Ancaq əvəzində... heç nə... quqqulu,
Axı hər şeyin var təhəri... yolu...
O böyük bəylərin tələbi çoxdur...
And olsun, onlarda ağıl da yoxdur.
Bu şəraba görə... küsüblər məndən...
Nə üçün əl çəkim bu gözəllikdən?!
Şərabdan içdikcə adam dincəlir,
Cismim rahatlaşır, ruhum incəlir.
O bəylərin azmı qəbahəti var!?
Qızıl bəy heç etmir mənə etibar.
Dörd min atlı ilə çöllərdə durub,
Şəhərin qərbində düşərgə qurub.
Məni də... yalvarıb, tutaraq dilə,
Cəmisi min nəfər süvari ilə,
Göndərib yağmadan çıxmış Semnana...
And olsun ki, artıq gəlmişəm cana!
Heç kim tab etməzdi bu boyda dərdə,
Qoyub Quzoğlunu[65] qola sərkərdə.
Hörmətsizlik etmiş Qızıl bəy hədər...
Nə olmuş, Qızıl bəy?! Nədir?! Nə xəbər?!
Quzoğlu bəy qədər yoxdur hörmətim?!
Çaxır içməkdirsə bir qəbahətim,
Sizin hərənizin min bir eybi var.
Əfsus... verilməyib mənə ixtiyar.
Quzoğlu bəy... bəli... pak müsəlmandır,
Əmrə müntəzirdir, müti insandır.
Məni qoymurdular gəlim şəhərə,

Vermədi cəhdləri heç bir səmərə.
Quzoğlu axırda əlacsız qaldı,
Yağmuroğlunu da arxamca saldı.
Güya ki, bu cavan... dünənki uşaq,
Mənə al şərabı edəcək yasaq.
Nə isə...” Danə bəy qaldırıb qabı,
Son damlaya qədər içdi şərabı.
Az sonra dərin bir yuxuya getdi,
Semnanın valisi məqsədə yetdi.
Vali cəld yerindən ayağa qalxdı,
Gəlib diqqət ilə Danəyə baxdı.
Əmin olub çıxdı otaqdan çölə,
Tezliklə qayıtdı beş nəfər ilə.
Bəyin topuğundan çiyninə qədər,
Kəndirlə sarıdı gələn beş nəfər.
Yağmuroğlunu da etdilər əsir,
Baş tutdu valinin qurduğu tədbir.

## YAĞMUROĞLU QAYITDI

Quzoğlu xəbəri eşidib bildi,
Tez Yağmuroğlunun yanına gəldi.
Başbuğ alaçığa gələnə qədər,
Təbib itirməyib zamanı hədər,
Yaralı cavana əlac etmişdi,
Ən çətin işləri daha bitmişdi.
Təbib dedi: "Güclə kəsmişəm qanı,
Yarası taqətdən salıb cavanı.
Yaxşı ki, boşluğa sancılmışdı ox,
Həyatı üçün bir təhlükəsi yox.
Yarasını yudum, sonra dağladım,
Üstünə də məlhəm qoyub bağladım.
Hərarəti də var. Bir az dincələr,
Bir azdan huşu da özünə gələr".
Quzoğlu soruşdu: "Onu kim vurmuş?"
Təbib dedi: "Vali bir tələ qurmuş,
Əsir etmiş əvvəl Yağmuroğlunu,
Dava-dalaş olub bu işin sonu..."
Quzoğlu diqqətlə baxıb təbibə,
Soruşdu: "Gəlmirmi sənə qəribə?
Yağmuroğlu ilə Danə yanyana,
Qırx süvari ilə gedir Semnana,
Şəhərin valisi qurur bir tələ,
Tək Yağmuroğlunu keçirir ələ.
Necə təkləyiblər, əsir alıblar,
Danə bəy, dəstəsi... harda qalıblar?"
Təbib dedi: "Əfv et, başbuğum, məni,
Qane etmədisə cavabım səni.
Nə eşitmişəmsə onu da dedim...
Bəy özü danışar... İzin ver gedim".
Quzoğlu başıyla razılıq etdi,
Təbib bağır basıb çadırdan getdi.

Tezliklə yaralı özünə gəldi,
Quzoğlunu görüb qalxıb dikəldi.
Ağrılar, hərarət cavanı üzdü,
Birtəhər yerində əyləşib dözdü.
Nə imiş bir oxdan ağrı, hərarət,
Didirsə gənc bəyi həya, xəcalət?
Quzoğlu söylədi: "Bilirsən əlbət,
Məndən tələb edir durum, vəziyyət.
Bir olay ki deyil tam aydın-aşkar,
Bütün elat üçün təhlükəsi var.
Rahatsız olsan da, bax bu səbəbdən,
Məncə inciməzsən doğru tələbdən.
Danış Yağmuroğlu, söylə hər nə var!"
Quzoğlu böyləcə edincə israr,
Yağmuroğlu boğub hər tərəddüdü,
Ağrılı-acılı gülüşlə güldü.
Dedi: "Quzoğlu bəy, bu vaxta qədər,
Özümü çox güclü sanmışam hədər.
İblisin şərindən xəbərim yoxmuş,
Gücü bildiyimdən min dəfə çoxmuş.
Sən demə bir cüt qız – işvəli, nazlı,
Qaraqaş, qaragöz, şirin avazlı,
Tamam edərlərmiş məni tərksilah...
Keçsin günahımdan tanrımız Allah!"
Quzoğlunun geri dartındı başı,
Təəccüb içində çatıldı qaşı,
Dedi: "Qardaşoğlu, nə qız, nə şeytan?!
Yəqin hərarətin eyləyir tüğyan?"
Yağmuroğlu dedi: "Əsla, başbuğum.
Məlumdur özümə zəif olduğum.
Lap yerə girsəm də xəcalətimdən,
Məcburam hər şeyi aşkar deyim mən...
Qırx süvari ilə çıxıb səfərə,
Gün-günorta vaxtı girdik şəhərə.

Məni sən onlarla göndərdin deyə,
Yaman toxunmuşdu bu Danə bəyə.
Bir söz deməsə də görürdüm aşkar,
Heç nədən etmirdi məni xəbərdar...
Zənnimcə, Danə bəy razılıq etdi,
Qırx igid şad-xürrəm, yağmaya getdi.
Sonra... vali məni Danə bəy ilə,
Apardı sarayda rahat mənzilə.
Tez nahar süfrəsi açıb hiyləgər,
Şərab gətizdirdi bir toyluq qədər.
Mən buna etiraz eyləyən kimi,
Cəld qalxıb ayağa şəhər hakimi,
Üzbəüz otağa məni apardı...
Orda daha güclü şeytanlar vardı.
Bir cüt gözəl vardı – işvəli, nazlı,
Qaraqaş, qaragöz, şirin avazlı...
Sanki iblis məni bağrına sıxdı,
İsmim, əslim, dinim yadımdan çıxdı.
Silah-sursatımı nə vaxt, nə zaman,
Alıb apardısa bu iki şeytan,
Qəfildən on-on beş vali əsgəri,
Silahlı-sursatlı gircək içəri,
Gördüm olunmuşam tamam tərksilah,
Gec idi... gec oldum hiylədən agah.
Məni əsir edib aparan zaman,
Tapıb kəndirləri açmağa imkan,
At ərəbəsindən atılıb yerə,
Cumdum yaxındakı düşmən əsgərə.
Çəkib qılıncını, atını aldım...
Bir ox dəydi mənə... süstəlib qaldım.
Atımı birtəhər çevirib geri,
Çaparaq tərk etdim mən həmən yeri.
Yaman tələsirmiş hiyləgər rəqib,
Bir kimsə də məni etmədi təqib.

Sanki xəyal içrə, yarıyuxulu,
Çapmışam atımı büsbütün yolu.
Yəqin nə Danə bəy, nə də qırx nəfər,
Mənim halətimdən tutmamış xəbər.
Danə bəy də yəqin şərabdan içmiş,
Mənimtək, şeytanın cənginə keçmiş.
Eynən də qırx nəfər silahdaşları,
Yağma adətinə uyub başları...
Hərəmiz bir şeyə tamah ki saldıq,
Aldanıb, ayrılıb, əlacsız qaldıq..."

## SEMNAN VALİSİNİN “HƏDİYYƏSİ”

Həmdəvi Semnana çatana qədər,
Gəldi Cürcandan da iki min əsgər.
Ümumən yeddi min əsgəri oldu,
Həmdəvinin içi qürurla doldu.
Ardıyca yenə bir şad xəbər gəldi,
Sərkərdənin keyfi daha yüksəldi.
Semnanın valisi, o qoca yaltaq,
Bir oğuz bəyini edərək dustaq,
Yenidən etimad qazansın deyə,
Gətirmişdi ona böyük hədiyyə.
Yox idi sevincin həddi, hüdudu...
Əmin etmək üçün sultan Məsudu,
Ona bir namə də yazdı qürurla,
Sanki başa çatmış işi uğurla.
Həmdəvi bir gecə Semnanda qaldı,
Oradan birbaşa Reyə yol aldı.
Hələ etməmişdi heç yolu yarı,
Arslan elatının gəldi çaparı.
Sərkərdə Həmdəvi alıb naməni,
Oğuz bəylərindən bəyannaməni,
Oxudu. Gülərək kinayə ilə,
Söylədi çapara: “Bu nədir belə?
Təkəbbürünüzdən göylə gedirsiz,
Əsir düşmüş bəyi tələb edirsiz!?
Yəqin öldürməklə o Taş-Fərraşı,
Qürurdan elatın dikəlib başı.
Sanmayın ki, mən də aciz qalaram,
Mən vali deyiləm, sipəhsalaram!
O Danə bəyi də hədiyyə kimi,
Mənə bəxşiş edib Semnan hakimi.
O indi nə əsir, nə də məhbusdur,

Nökərim, qulumdur, mənə məxsusdur.
Qulu azad etmək xərc tələb edir,
Bu barədə mənim şərtim belədir,
Gətirin beş min at, beş min də kaman,
Sizin Danə bəyə verərəm aman.
Hətta elata da dəyməz bir xətər,
Ölkəni tezliklə tərk etsə əgər.
İçimdən gəlir bu böyük mərhəmət,
Mən böyük sultana edirəm xidmət.
Qəbul etməsəniz bu şərtimi siz,
Qılıncım önündə qalarsız aciz.
O məğrur başları kəsib ataram,
Çoluq-cocuğu da qultək sataram”.

## ƏBU SƏHL HƏMDƏVİNİN TƏDBİRLƏRİ

Əgər danışıqlar verməsə fayda,
Savaş olmalıdır – belədir qayda.
Cürcan qoşunuyla Həmdəvi birgə,
Rey yaxınlığında saldı düşərgə.
Həmdəvi dörd yana edir nəzarət,
Yayınmır gözündən heç bir hərəkət.
Lakin bir şey onu edir narahat,
Tam fəaliyyətsiz durmuşdu elat.
Bu qarşıdurmada ötdükcə hər gün,
Həmdəvi olurdu daha da üzgün.
Araya sakitlik çökəndən bəri,
Arslan elatının böyük bəyləri,
Gənəşmə qurdular, verdilər qərar,
Sanki nə bir savaş, nə sıxıntı var.
Düşmən hər cəhətdən güclüdür bu gün,
Əhval-ruhiyyəsi daha da üstün.
Günlər keçib, zaman ötdükcə fəqət,
Elatın xeyrinə dəyişər nisbət.
Qərar doğru idi, belə də oldu,
Düşmənin qüruru gül kimi soldu.
Həmdəvi düşündü: "Görəsən nədən,
Bu elat çəkinmir bir təhlükədən?
Bir yağmaçı dəstə olsaydı elat,
Çəkilib gedərdi sağ və salamat...
And olsun ki... bunlar xidmətdədirlər...
Səlcuqlular ilə vəhdətdədirlər!
Güya ki arada var bir ədavət...
Əslində... sarsılmaz, mükəmməl vəhdət...
Yeddi minlik ordu, bir neçə şəhər,
Qəznəvinin bütün qərbi müxtəsər,
Bir elat önündə qalıbdır aciz...

Onlar vaxt qazanır, itiririk biz...
İllərlə dayansaq biz hərəkətsiz,
Onlar da duracaq fəaliyyətsiz...
Lap elə etsəm də ilkin həmləni,
Oğuzlar çöllərə çəkəcək məni.
Dursam da çətinə düşər məsələ.
İsfahan hakimi Əlaüddövlə,
Arslan elatıyla olub müttəfiq.
Doğrusu bu xəbər deyildir dəqiq,
Bunu da lazımdır nəzərə almaq,
Olmaz mənə əsla dayanıb qalmaq..."
Semnan valisi də digər tərəfdən,
Söz açıb hər dəfə ad-san, şərəfdən,
Deyirdi: "Əmirim, ötdükcə zaman,
Xarabazarlığa çevrilir Semnan.
Şəhəri tərk edib gedir əhali,
Nə mühafizə var, nə də ki vali.
Xəzinəyə vergi verən camaat,
Əkin-biçin etmir, qalıb narahat.
İki min əsgər ver, ol bundan əmin,
Mən mühafizəni edərəm təmin.
Bu Arslan elatı dursa da yaxın,
Qorxudan şəhərə eyləməz axın.
Nə qədər ki, burda durmusan, inan,
Əmin-amandadır Rey ilə Semnan".
Həmdəvini vali razı salaraq,
İki min süvari əsgər alaraq,
Güya ki, göstərib şücaət, qeyrət,
Getdi şəhərinə vali nəhayət.
Əslində düşünüb vali hər dəfə,
Qorxaraq ki, gedər əldən vəzifə,
Böyük təhlükəyə özünü atdı,
Sonra da layiqli cəzaya çatdı.
Həmdəvi öncədən duymuşdu bəlkə...

Bilirdi bu işdə vardır təhlükə.
Ya təqib edərək bu cəld elatı,
Susuz səhralarda bitsin həyatı,
Ya da əl atıb bu xətalı işə,
Çəksin oğuzları açıq döyüşə.
İki min əsgəri məhv etmək üçün,
Cumacaq oğuzlar Semnana bir gün.
Şəhəri almaqla mühasirəyə,
Həmdəvi onları salar tələyə.

# REY ŞƏHƏRİNİN FƏTHİ

Həmdəvi qərara gəlsədə qəti,
Çox yaxşı bilirdi bir həqiqəti.
Qızıl, Göyxan, Əhməd, Buğa və Mənsur,
Nahaq olmamışlar aləmdə məşhur.
Hər biri ağıllı, tədbirli insan,
Hədsiz dərəcədə cəsur qəhrəman.
Xəyaldır bunları tələyə salmaq,
Elatla savaşda qələbə çalmaq.
Elat da nə elat! Oğuzdan oğuz!
Gücü, iradəsi, mərdliyi sonsuz!
Bu elatdan olan beş min süvari,
Ordular önündə çəkilməz geri.
Həmdəvi bilirdi bu həqiqəti,
Bilirdi xəyaldır bütün niyyəti.
Lakin təkəbbürü vermədi aman,
Bütün idrakını eylədi talan.
Uyub yalanlara haqqı itirdi...
Bir gün çaparları xəbər gətirdi:
"Oğuz süvarisi düzülüb səfə,
Yürüyür şimaldan cənub tərəfə.
Rey şəhərinədir istiqaməti,
Meydan savaşıdır açıq niyyəti".
Həmdəvi inamsız durdu bir qədər,
Amma təkrarlandı dalbadal xəbər.
Sərkərdə bu işə etsə də heyrət,
Beş min əsgərini düzdü nəhayət.
Reyə gəlsin deyə iki min əsgər,
Semnan şəhərinə göndərdi xəbər.
Elə ki, büsbütün hazırlıq bitdi,
Həmdəvi "Döyüşə!" deyə əmr etdi.
Rey yaxınlığında oldu bu görüş,
Başladı ağır və qanlı bir döyüş.

Yenə vıyıldadı oxlar, kamanlar,
Yenə sipər çəkdi önə qalxanlar.
Yaxına gəldikcə rəqib tərəflər,
Tuş oldu nizəyə bəzi hədəflər.
Qılınclar qınlardan sıyrılan kimi,
Göründü meydanın əsl hakimi.
Arslan elatının igid ərləri,
Oğuztürk qövmünün cəngavərləri,
Elə bir hiddətlə qılınc çaldılar,
Bütün təşəbbüsü ələ aldılar.
Dözmədi ön səflər belə şiddətə,
Arxaya qaçdılar, gəlib dəhşətə.
Ön səflər ki belə arxaya çöndü,
Döyüş açıq-aydın qırğına döndü,
Bu hal mərkəzdə də çaxnaşma saldı...
Həmdəvi bir müddət döyükүb qaldı.
Sonra qurban verib ön cərgələri,
Mümkün bir nizamla çəkildi geri.
Oğuzlar düşmənə verməyib aman,
Cumdular irəli yenə durmadan.
Nə Həmdəvi, nə də sərkərdələri,
Hərbin səriştəli, öndər ərləri,
Heç vaxt görməmişlər belə bir şiddət,
Belə bir şücaət, qeyrət, məharət.
Oğuzlar ikinci zərbəni vurdu,
Yenə də basqıya dözmədi ordu.
Eyni hal bir daha olunca təkrar,
Düşünüb Həmdəvi verdi bir qərar:
“Belə davam etsə axşama qədər,
Qəznəvi ordusu məhv olub gedər.
Mən Semnana doğru çəkilim gərək...
Tezliklə oradan yetişsə kömək,
Bu dəli elatın, bəlkə birtəhər,
Kəsərik önünü müəyyən qədər.

Sonra da yazaram namə sultana,
Hər bir şeyi izah edərəm ona...
Tutarlı bir kömək göndərər mənə,
Qalib gəlmək üçün dəli düşmənə...
Oğuzlar görsələr şərqə gedirəm,
Rey ərazisini mən tərk edirəm.
Cumacaqlar Reyə... qoy olsun olan,
Rey şəhərini də etsinlər talan.
Başları qarətə qarışsın bir az,
Bu işin özü də xeyirsiz olmaz.
Tezliklə sultana yetişər xəbər,
O da məcbur olub kömək göndərər...”
Bu qərarla girib Həmdəvi hərbə,
Oğuzlar vurduqca bir neçə zərbə,
Tədricən çəkirdi şərqə ordunu...
Oğuz bəyləri də dərk etdi bunu.
Növbəti toqquşma baş verən zaman,
Vurdu sağ cinahdan düşməni Göyxan.
Oğuz ordusunun güclü sol qolu,
Bağladı Semnana aparan yolu.
Qarşuda Qızıl bəy, cinahda Göyxan,
Vurduqca dolurdu cəsədlə meydan.
Qaçdı qəznəvilər geri nizamsız,
Meydanda qalanlar durmuş inamsız.
Açıldı yenə də müdhiş aypara,
Getdikcə meydanda daraldı ara.
Salıb məngənəyə üç min əsgəri,
Tamam məhv etdilər oğuz ərləri.
Qovdu qaçanları Buğa bir zaman,
O da yetdiyinə vermədi aman.
Ətrafında cəmi üç yüz qəznəvi,
Gözdən yayınmışdı amma Həmdəvi.
Qaçıb gizlənmişdi demə sərkərdə,
“Tabərək qalası” adlanan yerdə.

Yalnız bundan sonra Rey yağmalandı,
Şəhər fəth edildi, şəhər talandı.
Qızıl Tabərəkə göndərdi xəbər:
"Əsir Danə bəyi qaytarsaz əgər,
Toxunmaz bizlərdən sizlərə ziyan,
Asudə getməyə verərik imkan".
Həmdəvi də cavab göndərdi ona:
"Bu haqda yazmışam artıq sultana.
Gərək sultan versin mənə icazə,
Əsir Danə bəyi qaytarım sizə".

## SULTANIN BAŞINA AND OLSUN...

Həmdəvi düşmüşdü ağır bir hala,
Mühasirədəydi olduğu qala.
Düşünür: "Kimsədən yetişməz kömək,
Məzarım olacaq mənim Tabərək.
Cürcan əsgərləri... iki min nəfər...
Hələ ki, onlardan yoxdur bir xəbər.
Nə xəbər olacaq? Cəmi iki min...
Bir anın içində məhv olar yəqin.
Kaş ki, gəlməyələr Semnandan bəri,
Ya da duyuq düşüb dönələr geri...
Bu Arslan elatı yamandır, yaman,
Gördüm gördüyümü... dəhşətdir, aman!"
Bu vaxt yaxınlaşdı bir sipəhsalar,
Söylədi: "Əmirim, gedir oğuzlar!"
Quş kimi sıçrayıb yerindən qalxdı,
Həmdəvi qaladan aşağı baxdı.
Gördü ki, əmr edir minbaşı Mənsur,
Min nəfər oğuz da səflərə durur.
Həmdəvi çığırdı: "Mənsur bəy, nədən,
Bizi tənha qoyub tərk edirsən sən?"
Mənsur bəy baxaraq altdan yuxarı,
Dedi: "Tərk edirəm sevgili yarı,
Hər məni gördükdə edir işvə, naz,
Bəlkə hicranımdan yumşala bir az".
Qəhqəhlə oğuzlar güldülər bərkdən,
Hətta sipəhsalar güldü ürəkdən.
Həmdəvi verməyib bir əhəmiyyət,
Çığırdı: "Nədir ki, o vacib niyyət,
Əsir Danə bəyi unutdun tamam,
Vəfasız olarmı bu qədər adam?"
Mənsur dedi: "Gədə, danışma boş-boş,

Nəyimə gərəkdir mənim o sərxoş?!
Bu bir günü Reydə nahaq qalmışıq,
Axır Qızıl bəyi razı salmışıq.
Niyyətimiz də var – gözəl Həmədan,
Oğuzlar həzz alır çünki yağmadan!”
Bunu deyib Mənsur atı tərpətdi,
Dəstəsiylə birgə şəhərə getdi.
Bundan sonra döndü bir ilə hər an,
Həmdəvi gözlədi uzun bir zaman.
Daha səbr etməyə qalmadı taqət,
Çıxıb qaçmağa da etmirdi cürət.
Bu zaman sataşdı gözünə birdən,
Bir süvari dəstə... çıxıb şəhərdən,
Çapdılar atları qalaya qədər,
Olardı sayları iki yüz nəfər.
Həmdəvi diqqətlə yola baxırdı...
“Cürcan əsgərləri!” deyə bağırdı.
Dəstənin önündə bir sipəhsalar,
Sərkərdələr içrə şan-şöhrəti var,
Atını inamla sürür irəli,
Yanında da... bəli, semnanlı vali.
Uzaq məsafədən cəlb edir gözü,
Bu yaltaq valinin gülümsər üzü.
Dəstə tam dayanıb durmamış hələ,
Həmdəvi çığırdı gur səsi ilə:
“Məgər bu oğuzlar çəkilib göyə?!
Necə sağ-salamat gəlmisiz Reyə?”
Vali cəld başını qaldırıb baxdı,
Yenə yaltaq sözü su kimi axdı:
“Ay səsinə qurban... Sağ-salamatdır!
Ağam, sənə qurban, yerin rahatdır?”
Həmdəvi odlandı sanki bu sözdən:
“İt oğlu, məgər sən zəlilsən gözdən?!
Ay ömürlük yerin olsun xarabat,

Kim mühasirədə dincələr rahat?!
Cavab ver, it oğlu, uzatma sözü!"
Valinin elə bil nur saçdı üzü,
Dedi: "Sənə qurban, hirslənmə nahaq.
Dostlar yaxındadır, düşmənlər uzaq.
Sevincimə görə etmə ittiham,
Həmədana getmiş oğuzlar tamam".
Həmdəvi susaraq düşünüb bir az,
Dedi: "And iç! Sənə inanmaq olmaz!"
Vali atı sürdü bir az qabağa,
"Sultanın başına and olsun, ağa!"
Söyləyib elə bil bir az karıxdı,
Dönüb sərkərdənin üzünə baxdı.

## YARDI ZÜLMƏTLƏRİ...

Həmdəvi durmadan, dəstəsi ilə,
Açıb qapıları çıxdılar çölə.
Dustaq bəy də bağlı əli, ayağı,
Ata yük edilmiş üzüaşağı.
Aclıq və susuzluq üzmüşdür onu,
Başqası olsaydı çatmışdı sonu.
At silkələdikcə hərdən ayılır,
Yenə halsızlıqdan Danə bayılır.
Həmdəvi dördgözlü hər yana baxır,
Sorğu-sualı da sel kimi axır.
Vali də pozmadan əsla əhvalı,
Cavablandırırdı hər bir sualı.
Elə yoldaikən alatoranlıq,
Axşama çevrildi, düşdü qaranlıq.
Sonra... sanki qopdu güclü zəlzələ,
Qarışdı ətrafda məşəl məşələ.
Minlərlə at nalı dəydikcə yerə,
Titrədi zərbədən bütün yan-yörə.
Həmdəvi karıxdı... sonra anladı,
İçində özünü söydü, danladı,
Qəzəbindən bütün vücudu əsdi...
Cürcanlı sərkərdə önünü kəsdi,
Dedi: “Məhv edilib qoşunum tamam...
Yəqin ki... etməzsən məni ittiham.
Beş min oğuz üçün iki min nəfər,
Əyləncədən başqa bir şeymi məgər?”
Həmdəvi söylədi: “Düşərək əsir,
Sonra oğuzlarla olaraq əlbir,
Tələyə salmısan, yaramaz, məni!”
“Əksinə. Mən xilas etmişəm səni!
Səbr et! Bəlkə səbrin imdada yetdi...”
Deyərək cürcanlı sərkərdə getdi,

Bir anın içində beş min süvari,
Qəznəvi dəstəsi durduğu yeri,
Üzük qaşı kimi araya aldı,
Dəstə də duruxub yerində qaldı.
Qızıl bəy irəli sürərək atı,
Əmr eylədi: “Salın silah-sursatı!”
Elə gurladı bu amiranə səs,
Zərrəcə tərəddüd etmədi bir kəs.
Silah-sursatları yerə tökdülər,
Əksər qəznəvilər dizə çökdülər.
Qırx-əlli oğuz da atılıb yerə,
Sancdı məşəlini torpağa hərə.
Dördü Danə bəyə tərəf qaçdılar,
Dərhal kəndirləri kəsib açdılar.
Meytərədən[66] vercək suyu bir nəfər,
İçdi acgözlüklə Danə bir qədər.
Taqətdən düşmüşdü deyə ayağı,
Oldu soydaşları onun dayağı.
Gəldilər. Qızıl bəy endi atından,
Gəlib Danə bəyə baxdı yaxından.
Güclə açılırdı Danənin gözü,
Amma səadətdən gülürdü üzü.
Söylədi: “Mərhaba, Qızıl... qardaşım...
Hər nə çəkib çəkdi şərabdan başım.
Danladın... sözündən əsla keçmədim,
Neçə gün... nə şərab, nə su içmədim...”
Qızıl gülümsündü: “Sığın Allaha,
Böyük bir bəladan qurtuldun daha”.
Sonra başı ilə işarə etdi,
Danə dörd oğuzla birlikdə getdi.
Qızıl bəy yenidən yəhərə qalxdı,
Əsir dəstəsinə bir qədər baxdı.
Dedi: “Hüzuruma gəlsin Həmdəvi,
Oğuza kəc baxan məğrur qəznəvi!”

Həmdəvi dəstətədən ayrılıb gəldi...
Qızılın baxışı bağrını dəldi,
Başı ixtiyarsız köksünə endi.
Qızıl gülüb dedi: “Nə olmuş indi?!
Arslan elatından olan bir bəyə,
Sən deyildin məgər deyən “hədiyyə”?
Beş min at istəyib, beş min də kaman,
Sən ki vəd etmişdin elata aman.
Amma istəyinə çata bilmədin,
Elatı qul kmi sata bilmədin.
Bəlkə bir iş yapım mən də baməzə,
Satım indi səni dəyər-dəyməzə?
Ya atıb zindana zülm edim sənə,
Çəkəsən hər nə ki çəkibdir Danə...
Sən məgər meydanda qılınc çalaraq,
Tutmuşdunmu onu əsir alaraq?
Ya Arslanı tutan o Mahmud kimi,
Yağmura qəsd edən o Məsud kimi,
Sən də ərənlərə tələ qurursan,
Xainlik edirsən, gizlin vurursan?!
Yoxsa sən bu sözü demədin, bilməm,
“Mən sipəhsalaram, vali deyiləm”?
El içrə edirlər belə ehtimal,
Bənzər olmalıdır sahibinə mal.
Sipəhsalar! Boşla, bu fikri burax...
Lənət! Sultana bax, sərkərdəyə bax!
Varsa qırx oynaşlı əxlaqsız qadın,
Ondan da əksikdir sənin sultanın!
Gedin, azadsınız! Çatdırın ona,
Qovuşar tezliklə layiqli sona!
Biz Dağ xan oğluyuq, ən qara[67] dağlı,
Allaha, yurduna, qövmünə bağlı.
Türkəm, əbədidir ulu millətim,
İmandan, inamdan doğar qüdrətim!

Haqsızlıq önündə əyilməz oğuz,
Haqsızlıq edənə nifrəti sonsuz!
Doğru möminlərə həqiqi qardaş,
Adsız məzar kimi vəfalı sirdaş.
Məqsədi uğrunda dönməz, inaddır,
Hiyləgərlik ona mayadan yaddır.
Dik baxar haqsızın oynaq gözünə,
Çırpar həqiqəti mənfur üzünə.
Canından da artıq sevər vətəni,
Vardırmı sevgidə oğuzun təni?!
Müqəddəs elatdır elatım mənim,
Ömrüm, günüm, canım, həyatım mənim!
Arslan elatıdır, qalxmış cihada,
Hörmətlə yanaşsın hər kəs bu ada!
Gedin qəznəvilər, deyin sultana,
Batmışdır əlləri günahsız qana.
Arslanın, Yağmurun qanına batmış,
Öz "oğuz" adını yadlara satmış.
Rüşvətxor yadları yığıb başına,
Əgər zülm edirsə öz soydaşına,
Yaxşı anlasın ki, o qul oğlu qul,
Biz onun soyunu sanırıq məchul.
Qanlı təqiblərə qaldıqca məruz,
Onun düşməninə dönüb hər oğuz.
Biz oğuz deyilik qisas almasaq,
Onun bayrağını yerə salmasaq!
Deyin, ağlı varsa, düşünsün sultan,
Kimdir bu ölkəyə sahib, hökmüran?!"
Titrətdi aləmi alqış nidası,
Minlərlə oğuzun səsi, sədası.
Qızıl bəy "Tək Allah tanrımdır!" deyə,
Sıyırıb qılıncı qaldırdı göyə.
Sanki Qızıl bəyin sözləri ilə,
Məşəllər daha gur saçaraq şölə,

Qəti zərbə vurub qatı zülmətə,
Bir lövhə yazdılar əbədiyyətə.
Türk tarixi üçün daha bir töhfə,
Əbədi tarixə əbədi lövhə!

## ARSLAN ELATI REY ŞƏHƏRİNDƏ

Qızıl bəy qurmuşdu Reydə toy-büsat,
Çalıb-oynayırdı şəhərdə elat.
Bir yerdə cavanlar tutub əl-ələ,
Rəqs eyləyirdilər “Yallı” şövq ilə.
İfa eylədikcə bir neçə təbbaz,
Cavanlar qol tutub sinədə çarpaz,
Oturub-dururlar yetdikcə məqam.
“Yallı” bu qaydada etdikcə davam,
Anbaan artırdı rəqsdə sürət.
Kənardan bu rəqsə edərək diqqət,
Reylilər danışır xeyli yavaşdan:
“Gedib oğuzların ağılı başdan...
Qaz kimi yolublar bütün şəhəri,
Çalıb-oynayırlar səhərdən bəri...
And olsun, əlimə keçsəydi biri,
Yandırardım onu mən diri-diri...”
Cavabında gülüb istehza ilə,
Həmsöhbəti deyir: “Bənd olma belə...
Bu elatın işi dava-dalaşdır,
Hətta rəqsləri sanki savaşdır.
O qisas fikrini başından çıxar,
Bir kəlmə ağır söz evini yıxar.
Taş-Fərraşı salım yadına bəlkə?
Doğradılar onu lap tikə-tikə...”
Oğuzlar edərək qısa fasilə,
Çox iti musiqi sədası ilə,
Rəqsə başladılar, qızışdı meydan,
Yerli əhalini etdilər heyran.
İgidlər geniş bir dairə qurub,
Hava ahənginə uyğun əl vurub,
Növbəylə girirlər meydana bir-bir,

Hər biri sürətlə, gözəl rəqs edir.
Yoldan ötənlər də verib baş-başa,
Bu gözəlliklərə edir tamaşa.
Bəzisi də tapıb özündə cürət,
Gənc oğuzlar ilə edirdi söhbət.
Dil də elat üçün deyildir əngəl,
Çoxu fars dilini bilir mükəmməl.
Şəhər ətrafında dörd min çadır var,
Çölləri, düzləri bürüyüb davar.
On ildən artıqdır bu igid elat,
Heç zaman olmamış bu qədər rahat.
Uşaqlı-qocalı bilirdi hamı,
Sürəkli deyil bu büsat məqamı.
Mənzərə, baxanın könlünü açır,
Cocuqlar şənlənir, gülüşür, qaçır...
Çox da ki, mühitdə şadlıq dolaşır,
Həmişəki kimi iş başdan aşır.
Yenə ip əyirir yundan cəhrələr,
Yenə yağ ayırır süddən nehrələr.
Bəzi nənələr də palaz toxuyur,
Bayatı söyləyir, mahnı oxuyur.
Keçəyə hər zaman vardır ehtiyac,
Bax buna görə də bir neçə həllac,
Yun yuyub didirlər, sərirlər yerə,
Mükəmməl öyrənmiş işini hərə.
Bəzən işləyirlər gündüz və gecə,
Hazırlamaq üçün rəngbərəng keçə.
Sonra qəliblərə keçə çəkilir,
Soqma – uzunboğaz çəkmə tikilir.
Keçə yüngül, rahat ayaqqabıdır,
Keçədən qurulur alaçıq, çadır,
Yəhəraltı, cübbə, örtüklər, çuval...
Məşhurdur aləmdə bu qiymətli mal.
Əvvəllər elatda bir adət vardı,

Yabqunun çadırı tüm ağ olardı.
Müvafiq olaraq mənsəbə, saya,
Çadır keçələri alardı boya.
Bu bəy otaqları[68] qurulmur artıq,
Boz rəngdədir hər bir çadır, alaçıq.
Həm bərabərliyə çəkdi şəriət,
Həm də tələb etdi hərbi vəziyyət.
Hərbi tələbatda bir qayda da var,
Heç nə görünməsin düşmənə aşkar...
Qovğa meydanında bir neçə uşaq,
Edib aşıqları əldə oyuncaq.
Biri aşıq atıb vurur dizinə,
Durur sürtük aşıq[69] alçı[70] üzünə.
Hər gün dəstə-dəstə olur uşaqlar,
Hər kəsin sevimli bir oyunu var.
Bəzən də yığışıb onlarla uşaq,
Qovğa meydanında tuturlar "qurşaq"[71].
Kimisi xoşlayır "şumaqədər"i,
Sancır nişangaha yerdə xəncəri.
Bir qədər böyüklər quraraq meydan,
At üstdə kos qovub oynayır çövkan.

## *V HİSSƏ*

# QƏRBDƏN ŞƏRQƏ KARVAN

## *SIZAN HƏQİQƏTLƏR*

İstədim xəyali oxucumla mən,
Sürəti, məkanı atıb qəflətən,
Zaman qəfəsinin həddini aşaq,
Əbədiyyət içrə gəzib-dolaşaq.
Lakin bu fikri də eylədim izah,
Əlbəttə ki, izin verməsə Allah,
Səmadan bir damla su belə gəlməz,
Nə də buxarlanıb göyə yüksəlməz.
Bunu dərk eyləyir hər aqil bəşər...
Merac etmiş yalnız uca peyğəmbər.
Bu barədə xeyli edərdik söhbət,
Qorxdum ki, verərik şeytana fürsət...
Yenə oxucumla yol tutub getdik,
Yaranış haqqında söhbətlər etdik.
Dəqiq ölçülərdə dörd ünsür cəmi,
Allahın əmriylə qurdu Aləmi –
Su, torpaq, istilik, bir də ki hava,
Bunlardan yarandı Adəm və Həvva.
Su, torpaq, istilik quraraq vəhdət,
Təkamül yolunu keçdi bir müddət.
İlk insan cismini xəlq edib Allah,
Kimsəni mizandan etmədi agah.
Sonra nəfəsindən ruh verib ona,
Bu şah əsərini çatdırdı sona.
Sonra ruh cism ilə yaradıb vəhdət,
Daha bir təkamül keçdi nəhayət.
Məlum olmasa da ruhun hikməti,

Bəllidir bizlərə əbədiyyəti.
Nəzərə almasaq kiçik bir qismi,
Əbədi varlıqdır insanın cismi.
Zərrələr qurubdur elə bir dövran,
Özünü bərpaya qadirdir insan.
Mükəmməl bir varlıq olsa da bədən,
Düşür Yer üzündə tamam qüvvədən.
Yerdə zərrələr var, görünməz gözə,
Xəstəlik adıyla çıxarlar üzə.
Qüvvədən düşdükcə ilkin təbiət,
Daha da əlacsız qalar təbabət.
Nə qədər qəribə olsa da, əfsus,
Olmuş əksəriyyət nəfsinə məhbus.
İnsan özü pozur Yerdə mizanı,
Qısaldır ömrünü, üzülür canı.
Sonra da nəfsini edib vasitə,
İblisin özüylə qurar rabitə.
Sərvət, şəhvət, şöhrət yumar gözünü,
Olduğundan böyük sanar özünü.
Beləcə nəfs ilə yandıqca canlar,
Axar Yer üzündə günahsız qanlar.
Ancaq az da olsa bu kürrədə var,
Qəlbi saf, əməli saleh adamlar.
Doğma məkan deyil Yer insan üçün,
Sadəcə, seçilmiş imtahan üçün.
Hansı məkandadır bəs əbədiyyət?
Adları məlumdur – Cəhənnəm, Cənnət!
O “nəfs” adlı varlıq cismani vardır,
Ancaq düşünmə ki, gözə aşkardır.
Ürəyin içində yer alıb xəlvət,
Onun miqdarıyla seçilir xislət.
Elə ki, ürəyin olar hakimi,
Göz və qulaqlara axar çay kimi.
Gözə və qulağa pərdələr salar,

Beyin yolları da viranə qalar.
Bürüsə bir kəsi bu qorxunc qəfəs,
Heç öyüd-nəsihət verməyin əbəs.
Əgər bəd əməldən həzz alır ürək,
Ona nə nəsihət, nə öyüd gərək.
Nəfs özü-özünə əriməz, solmaz,
Nə də cərrahlıqla  itməz, yox olmaz.
Yalnız yaxşı əməl, doğru ibadət,
Nəfsi azaltmaqda edər təbabət.
Şərtləri tam aydın sınaq, imtahan!
Yolunu seçməkdə azaddır insan.
Tanrı başlamamış şah əsərinə,
Demişdi bunları mələklərinə...
Mələklər əvvəlcə etsə də heyrət,
Dərk edib hikməti sonra nəhayət,
Dedilər: "Əmrinə müntəzirik biz,
Həmd olsun Sənə, ey vahid Rəbbimiz!"

## NƏ TAC QOYAQ NƏ DƏ TAXTDA OTURAQ...

Qızıl bəy sarayda taxtda oturmuş,
Sultanlara layiq ziyafət qurmuş.
Çalışdı elatın böyük bəyləri,
Hədərə getmədi əsla səyləri.
Xeyli söhbət edib Qızıl bəy ilə,
Onu dörd tərəfdən tutaraq dilə,
Taxtda əyləşməyə razı saldılar,
Ziyafət üçün də rüsxət aldılar.
Qızıl dostlarına tutub üzünü,
Sonda gülər üzlə dedi sözünü:
“Təkid edirsiniz, heç eybi yoxdur,
Amma unutmayın, işimiz çoxdur.
Yaraşarmı bizə belə bir vaxtda,
Nəvaziş içində oturaq taxtda?
Biz Reydə kef çəkib verək ziyafət,
Səfərbərlik edib hər bir əyalət,
Toplayıb azuqə, ordu və sursat,
Burdan Nişapura göndərsin rahat.
Hər nə qazanmışıq bu vaxta qədər,
Bir anın içində getsinmi hədər?”
Əhməd Davud oğlu söylədi: “Qədeş[72],
And olsun, yığaram leş üstünə leş.
Xorasandan tutmuş düz Ruma qədər,
Kimsə qorxusundan göstərib hünər,
Getməz və göndərməz sultana kömək,
Edən varsa bezib canından demək.
Biz Arslan Yabqunun vəsiyyətinə,
Onun öyüdünə, nəsihətinə,
Əməl etməliyik ölənə qədər,
İnşaallah, bizim olacaq zəfər.
Hər oğuz bəyinin birdir niyyəti,

Qurulsun möhtəşəm Oğuz dövləti.
Mən, Anasıoğlu Əhməd, deyirəm,
Ölsəm də bu yoldan dönən deyiləm!
Yalvar-yapış edib biz dönə-dönə,
Taxtda əyləşməyi dediksə sənə,
Güdmədik əyləncə, şöhrət, nəvaziş,
Sadəcə belədir dünyada gərdiş.
Qoy artsın sultanın kini, hiddəti,
Yayınsın məqsəddən onun diqqəti.
Burda əhalinin gözündə tamam,
Fərqlidir taxt-taca sahib bir adam.
Tacikan əhlində belədir adət,
Mənsəbə, taxt-taca edərlər hörmət.
Şah, padşah ya vali zülm etsə belə,
Bir kimsə bir pis söz gətirməz dilə.
Baş vəzirdən tutmuş kəndliyə qədər,
Hamı müti olub yaltaqlıq edər.
Bu adət yaddırsa hər oğuz üçün,
Müəyyən qədəri vacibdir bu gün.
Sən taxtda əyləş ki, Reydə camaat,
Baş əyib, bel büküb, olub ikiqat,
Qüdrətin önündə çöksünlər dizə,
Çox xeyir gətirər bu tədbir bizə".
Qızıl dedi: "Bəli, doğrudur sözün,
Amma ki, Əhməd bəy, bilirsən özün,
İnadla bu taxtda oturdub məni,
Sarsıdırsız əgər yağı düşməni,
Bir yandan mənə də verirsiz əzab,
Üzür için-için məni iztirab.
Taxtda əyləşməyə məcbur edərək,
Məni özünüzdən ayırdız demək..."
Buğa gülüb dedi: "Kənarda duraq,
Nə tac qoyaq nə də taxtda oturaq.
Tapaq biz bir ərəb və ya deyləmi[73],

Verib öhdəsinə bütün aləmi,
Qoyaq əlimizlə qafasına tac,
Duraq qulluğunda ədlinə möhtac.
Böyləmi davranaq? Əsla, qardaşım,
Çəkib çəkdiyini həyatda başım.
Nə qədər ki, vardır bu cismimdə can,
Vermərém özgəyə bir daha meydan".
Söz sözü çəkərək uzandı söhbət,
Açıldı sarayda süfrə nəhayət.
Verildi bəylərə qiyməli tutmac[74],
Qədim türk yeməyi, min dərdə əlac.

## ŞİRVANDAN TƏBRİZƏ,
## TƏBRİZDƏN REYƏ

Bir gün Küş-Doğdu bəg, o quşçu-əfşar,
Sevinci, şadlığı üzündə aşkar,
Təbrizdən gələrək Reyə nəhayət,
Böyük bəylər ilə görüşdü xəlvət.
Olsa da Küş-Doğdu yorğun, yuxusuz,
Uzaq səfərindən söz açdı oğuz.
Dedi: "Valeh edər hər kəsi Şirvan,
Bu oğuz ölkəsi, bu gözəl məkan.
Kür çayından tutmuş Dərbəndə qədər,
Qərbində dağlardır, şərqində Xəzər.
Bu dənizə "Acı" deyiriksə biz,
Şirvanda "Quz" deyə adlanır dəniz.
Əslində "Sırvan"dır[75] bu qədim diyar,
Sır-oğuz[76] adlanan tayfaları var.
Bütün camaatı dinli-imanlı,
Sevir vətənini hər bir şirvanlı.
Ölkənin içində beş böyük sipər,
Uzanır dənizdən dağlara qədər.
Xızırın dövründə bilməm nə sayaq,
Qurulub bu zireh, bu qınıq, çanaq.
İki min ildən çox qədim zamanda,
Xızır bu beş səddi qurub məkanda.
Şimalda Dərbənddir, tanıyır hamı,
Cənubda da məşhur Xız istehkamı.
Doğurur insanın içində heyrət,
Xız istehkamında olan əzəmət.
Beş Barmaq dağından bu qala-şəhər,
Uzanır Xızırın yurduna qədər.
Cənubdan, şimaldan vardır hasarı,
Xəzərin içindən bu iki barı,
Yerli camaatın fikrinə görə,

Uzanır "Qaraçay"[77] adlanan yerə.
Göylərə ucalır qalanın başı,
Bilinmir tarixi, bilinmir yaşı[78].
Bu Xızır yurdunun cənub-qərbində,
Şamaxı adlanan bir şəhərində,
Şirvan ölkəsinin qurulub taxtı,
İndi Şamaxıdır[79] onun paytaxtı.
Əvvəllər ölkənin, qoca Şirvanın,
Qədim türk yurdunun, uca məkanın,
Paytaxtı olmuşdur Şirvan şəhəri,
Tərifi aləmdə dillər əzbəri.
Xızır qayası ki adlanır Xursan,
Şimalında çöl var – yaşıl Qaytaban.
Bu çöldə ucalır Şirvan şəhəri,
Türk peyğəmbərinin dövründən bəri.
Çöl şəhəri kimi görünür Şirvan,
Uca dağlarda da edibdir məkan.
Şimaldan hasara alınıb şəhər,
Cənubdan Beş Barmaq çəkibdir sipər.
Bu şəhər binədir, Bakı qışlağı,
Xızır yurdundadır bustan, yaylağı[80].
Qışlaqda keçirib qışı nəhayət,
Ellər binələrə edir hərəkət.
Düzənlikdə olur binə və qışlaq,
Binə şimaldadır bir qədər ancaq.
Binələrdə otlar göyərən zaman,
Ellər binələrdə qurublar məkan.
Sonra bustanları seçərək hədəf,
Ellər yol alırlar dağlara tərəf.
Hələ dərd olmamış istilər cana,
Tərəkəmə ellər qalxır bustana.
Bustanda gözəldir yayda təbiət,
Çiçəkdə təravət, otda təravət.
Göy bustanlara ki gəlir camaat,

Sanki birdən-birə canlanır həyat.
Lap göbələk kimi elə bil yerdən,
Minlərlə alaçıq ucalır birdən.
Qoyun sürüləri, dəvə, mal-qara,
Yayılır bustanda kiçik dağlara.
Bustan məkanında qırxılır qoyun,
Keçəyə, iplərə çevrilir bu yun.
Bu yundan toxunur müxtəlif geyim,
Zili, xalça, palaz, xurcun və kilim.
Hər şey bizdəkinin eynidir tamam,
Zərrəcə qəriblik çəkməyir adam".
Qızıl gülüb dedi: "Anlamıram mən,
Onlar kimi oğuz deyilmisən sən?
Heç bir tərəddüdə duyulmur tələb,
Orda Şirvanşahlar olsa da ərəb[81],
Oğuzdur Şirvanın əksəriyyəti,
Babalarmız deyib bu həqiqəti.
Sultan Məsud ilə müharibədə,
Qələbə qazansaq yetişər vədə.
Əsla yubanmadan gedib Şirvana,
Sahib durmalıyıq doğma məkana.
Olsa dövlətimiz, güclü ordumuz,
Qurtular yadlardan baba yurdumuz.
Bu Arslan Yabqunun arzusu idi,
Bizim arzumuza çevrilib indi".
Küş-Doğdu bəg dedi: "Bilirəm bəyim,
Mənim də böylədir arzu, istəyim.
Ancaq ki bu işdə ləngimək olmaz,
Şimalda vəziyyət fərqlidir bir az.
Dərbənd bağlayıbdır şimaldan yolu,
Sağında dağlardır, dənizdir solu.
Gəlib tayfa-tayfa minlərlə qıpçaq,
Dərbənddən şimalda qurub ittifaq,
Hazırlıq edirlər sürəkli hərbə,

Mütləq vuracaqlar Dərbəndə zərbə.
Yetməz Şirvanşahın əsla qüvvəsi,
Axışsa Şirvana qıpçaq kütləsi.
Sapmış xaçpərəstdir əksəriyyəti,
Bəllidir qıpçağın tamam niyyəti,
Yaxın gələcəkdə girib Şirvana,
Qarət eyləsinlər çapıb dörd yana.
Bununla müvəffəq olub diqqətə,
Girsinlər xeyirli hərbi xidmətə.
Yəqin ki, xaçpərəst gürcülər ilə,
Bağlayıb qıpçaqlar bir müqavilə,
Çıxış tapıb böyük Rum ölkəsinə,
Keçəcəklər onun himayəsinə”.
Mənsur bəy əlini vuraraq dizə,
Dedi: “Arslan Yabqu deyəndə bizə,
Olsa da o şəxsə şübhəsiz inam,
Bir xəyal sanardıq bunları tamam”.
Qızıl bəy bir qədər düşünüb dedi:
“Arslan bəy elmli bir yabqu idi...
Elmin zirvəsinə yüksələn insan,
Bir çox zirvələri fəth edir asan.
Zirvədən baxana aləm görünər,
Amma hər zirvə də istəyir hünər...
İşə bax... gör necə dövr edir fələk,
Hər yanda şeytanlar qururlar kələk.
Yaxşı... bəylər, deyin, fikriniz nədir?”
Buğa bəy danışdı: “Çox qəribədir...
Fikrimiz-zikrimiz bu vaxta qədər,
Qəznəvilər ilə bağlıydı əgər,
Daha böyük bir dərd çıxdı bu yandan,
Dərd üzməz əlini fani cahandan...”

## ƏRƏB VƏHSUDANIN ELÇİSİ

Qalın döşək üstdə oturub hərə,
Bəylər dirsəklənib mütəkkələrə,
Hər biri diqqətlə elçiyə baxır,
Onun da sözləri su kimi axır.
Bütün qüvvəsini edib səfərbər,
Rahat görünməyə olub müyəssər,
Qızıl bəy taxtında sakit oturmuş,
Elçi ayaq üstdə önündə durmuş.
Elçi danışırdı: “Ağam Vəhsudan[82],
O adil, ağıllı, şərəfli insan,
Bəsləyir qəlbində hörmət, ehtiram,
Dilimlə çatdırır sizlərə salam...”
“Əleyküməssalam” deyəndə Göyxan,
Elçi duruxsa da qısa bir zaman,
Yenə öz nitqinə edərək davam,
Dedi: “Əbəs deyil sizə ehtiram.
Arslan elatının böyük bəyləri,
Olublar Təbrizdə dillər əzbəri.
Deyirlər ki, Göyxan gəlsə Təbrizə,
Böyük bir səadət bəxş edər bizə.
Mənsur bəy, meydanın əsl hakimi,
Deyirlər, söz bilir ozanlar kimi.
İgid əmir Əhməd gələrsə mehman,
Ayağı altında kəsərik qurban.
Məşhurdur ağıllı, qeyrətli Buğa,
Canımız qurbandır böylə qonağa...”
Bu vaxt əmir Əhməd Anasıoğlu,
Dedi: “Elçi qardaş, desən də doğru,
Böylə xəbərdarsız hər şeydən əgər,
Tanımırsız Qızıl Qazini məgər?!”
Elçi gülümsədi: “Ay sizə qurban,
Varmı Qızıl bəyi sevməyən insan?

Qızıl Yəhya oğlu, böyük sərkərdə,
Dillər əzbəridir adı hər yerdə...”
“Həm də Rey valisi!” söylədi Göyxan,
Elçi dedi: “Bəli, bilirik... inan,
Oğuz bəylərinin hər bir zəfəri,
Büsata bürüyür bizim elləri.
Ulu türk yurdudur mənim məkanım,
Oğuz ölkəsidir Azərbaycanım...”
Qızıl qəzəbini boğub birtəhər,
Dedi: “Böylə bir iş olurmu məgər?!
Ulu türk yurdudur, bilirik, Şirvan,
Öylə də həm Aran, həm Azərbaycan.
Hər türkə doğmadır bu uca adlar!
Di gəl... taxtlarında oturub yadlar!
Bir aləm oğuz var, günümüz qara,
Gəl indi bu dərdə bir çarə ara!
Hər kəs yatuq olub, yerində ölüb,
Yadlar da elləri çomağla bölüb!
İtib gedir bütün adətlərimiz,
Unudur dilini külfətlərimiz.
Hətta görərsən ki, bir oğuz eli,
Tacikan dilinə çevrilib dili.[83]
Oturun elliklə, gözləyin daha,
Çevirin meydanı bir seyrangaha!
Nə vaxt Səlcuq eli, Arslan elatı,
Minib qərbə-şərqə çaparaq atı,
Azadlıq qazanıb qurarsa dövlət,
Məcməyi üstündə gələr səadət!
Elçi bəy, qoy olsun hamıya bəlli,
Nə Arslan elatı nə Səlcuq eli,
Əldə edə bilməz o səadəti,
Olmasa oğuzun möhkəm vəhdəti...”
Elçi bu sözlərdən heyrətə gəldi,
Özündən xəbərsiz beli dikəldi.

Dedi: “Ağam mənim, heç bundan əzəl,
Söhbət dinləmədim bu qədər gözəl.
Nə gözəl danışdın?! Dilinə qurban!
Amma sən ey böyük, mötəbər insan,
Bil ki, mənim kimi bütün camaat,
Kimsə verməyibdir deyə məlumat,
Zərrəcə söz bilmir dediklərindən,
O xalqın içindən birisi də mən...”
Qızıl bəy elçiyə baxıb bir qədər,
Dedi: “Söhbətimiz getməsin hədər.
Oğuzsan, bu gündən qardaş ol bizə,
Qayıdar-qayıtmaz Reydən Təbrizə,
Adımız düşübsə əgər dillərə,
Anlat məqsədi də doğma ellərə.
Qoy oğuz elləri gəlib vəhdətə,
Biryolluq son qoysun bu cəhalətə”.
Elçi də sevincək dedi: “Qızıl xan,
Məni göndərib ki, ağam Vəhsudan,
Eyləyim sizləri Təbrizə dəvət,
Hamımız duyarıq bundan şərafət.
Qoy ellər də görsün gercəkdə sizi,
Sonra dərk edərlər məqsədinizi...”
Qızıl bəy soruşdu: “Söylə o zaman,
Bizdən nə diləyir ağan Vəhsudan?”
Elçi dedi: “Sizdən diləyir kömək,
Öylə ki, Vəhsudan qalıb indi tək.
Şirvanşah dövləti dostdursa bizə,
Qarışıq xəbərlər gəlir Təbrizə.
Bel bağlamaq olmaz Şəddadilərə[84],
Düşmən kəsiliblər Rəvvadilərə.
Şəddadi bir kürddür hakimi heyhat,
Ölkədə türklərdir əksər camaat.
Rum ölkəsindəndir əsas təhlükə,
Yurdumun qərbində olan bu ölkə,

Bir çox xaçlılarla qurub əlaqə,
Üsullu addımla yürüyür şərqə.
Yurdumda hər asi, quldur birbaşa,
Rumdan qaldırılır dava-dalaşa.
İndi Əbülheyca əl-Həzəbani,
Üsyanın başçısı, rəhbəri yəni,
Quldur dəstəsiylə qalxıb üsyana,
Böyük bir dərd olub Azərbaycana.
Xalqa Urmiyada verir əziyyət,
Oğuz kəndlərini eyləyir qarət.
And olsun, o quldur görünməz gözə,
Bilsə ki, Qızıl xan gəlib Təbrizə".
Qızıl dedi: "Əsla etirazım yox...
Amma söz-söhbətin qarışıqdır çox.
Quldur dəstəsindən qorxaraq demək,
Vəhsudan kənardan çağırır kömək?"
Elçi dedi: "Yəqin bir səbəbi var,
Ancaq ki, deməyib mənə hökmdar".
Qızıl bəy düşündü... dedi nəhayət:
"Məni məmnun etdi bu gözəl dəvət.
Lakin belə yerdə tələsmək olmaz...
Get elçi, sən dincəl və gözlə bir az.
Müzakirə edib verərik qərar,
Tezliklə olarsan sən də xəbərdar".
Elçi təzim edib otaqdan çıxdı,
Qızıl bəy də dönüb bəylərə baxdı.
Göyxan gülüb dedi: "Bir yay günündə,
Lopa qar yağsaydı Sayad çölündə,
Bizə Qara Dağda çatsaydı xəbər,
Əcaib olmazdı bu dəvət qədər".
Qızıl dedi: "Bəli, qardaşım Göyxan,
Qəribəliklərlə doludur cahan.
Bu təklif əcaib deyildir ancaq,
Ərəb Vəhsudanı sanmayın axmaq.

Quldur dəstəsini əzərdi özü,
Amma uzaqlara zillənib gözü.
Bu Əbülheycadır ya bilməm nədir,
Ölkənin içində böyük fitnədir.
Kimin əlindədir onun zənciri?
Zəncir tərpədənin Rumdursa biri,
Sözsüz, digəri də şəddadilərdir,
Ortada qalan da rəvvadilərdir.
Qulduru vurmaqla, bilmir Vəhsudan,
Hansı şər qüvvəyə açacaq meydan?”
Buğa dedi: “Biz də gedib Təbrizə,
Elçi deyən kimi “görünüb gözə”,
Rəvvadilər ilə olaq tərəfdar...
Şəddadilər olub işdən xəbərdar,
Fitnə törətməzlər bir də qorxudan,
Çatar məqsədinə ərəb Vəhsudan.
Bizim simamızda qazanıb rəfiq,
Cümlə oğuzlarla olar müttəfiq”.
Əhməd bəy söylədi: “Ay atam-atam,
Bu qəliz adlardan lap çaşır adam.
Şəddadi-məddadi-rəvvadi-filan...
Bizi çağırıblar Təbrizə mehman.
Bu təklifi qəbul edək, etməyək?
Vəhsudana qonaq gedək, getməyək?”
Bəylər gülüşdülər... danışdı Mənsur:
“Kim oğuz adıyla duyursa qürur,
Tullayıb kənara hər siyasəti,
“Təbrizə gedəlim!” söyləsin qəti.
Bir türk oğlu, belə olsa da harda,
Çəkərsə əziyyət çətində, darda,
Arslan Yabqu eli köməyə yetər,
Zalımın, haqsızın izi də itər!”
Üst-üstə düşüncə fikirlər, rəylər,
“Gedəlim!” söylədi bir anda bəylər.

## MARAĞA ŞƏHƏRİNDƏ

Əvvəl qorxa-qorxa başladı işə,
Sonra soyğunçuluq döndü vərdişə.
Sanaraq ki qorxur ondan Vəhsudan,
Açdı Əbülheyca nəfsinə meydan.
Əvvəl kənd-kəsəyi eylədi qarət,
Fatehlik eşqinə düşdü nəhayət.
İki mindən artıq toplayıb əsgər,
Qəfil Marağaya cumdu bir səhər.
Qarət edilsə də yerli camaat,
Bununla da quldur olmadı rahat,
Əmr etdi: "Burda bir cəhənnəm qurun,
Uçurun şəhəri, sökün, od vurun!"
Qarışıqlıq düşdü, qanlar töküldü,
Bir neçə ev yandı, məscid söküldü.
Bu vaxt Xəlil adlı kürd ağsaqqalı,
Görüb Marağada bütün əhvalı,
İti addımlarla getdi, tələsdi,
Tez Əbülheycanın yolunu kəsdi:
Dedi: "Lənət olsun sənə, imansız,
Olmaz insan böylə zalım, amansız.
Xalqı qarət etdin – haramın olsun,
Cəhənnəm odutək qarnına dolsun.
Evləri yandırdın, nahaq qan tökdün,
İblisə qul olub məscidi sökdün.
Uyub kafirlərin şirin sözünə,
Xalqı düşmən etdin özün özünə!"
Əbülheyca dedi: "Xəlil kişi, sən,
Mənim məqsədimi yaxşı bilirsən!"
Qoca dedi: "Bədbəxt, bundan əmin ol,
Açır məqsədini tutduğun bu yol.
Ölkədə varikən əmin-amanlıq,
Nə üçün edirsən belə şeytanlıq?

Nədir səni belə yolundan əyən,
Kimdir "gözün üstdə qaşın var" deyən?
Sakit, bolluq içrə sürürkən həyat,
Nədən oturmadın yerində rahat?
Bizi də salacaq dərdə nahaq qan,
Yəqin xəbər tutub səndən Vəhsudan.
Heyrətlənmə, bir vaxt açıb gözünü,
Siçan tələsində görsən özünü..."
Əbülheyca: "Qoca, həddini aşdın,
Mən yox, sən deyəsən yolunu çaşdın!
Dibindən kəsərəm uzun dilini!"
Deyərək qılınca atdı əlini...
Bu zaman axtarıb onu taparaq,
Bir atlı yanına gəldi çaparaq.
Hiss olunurdu ki, qorxmuşdu yaman,
Qısmışdı səsini onun həyacan:
"Ağam, and olsun ki, qopub qiyamət...
Zəncan yolu ilə axışır millət.
Atlar, arabalar, minlərlə davar...
And olsun, nə sayı, nə hesabı var.
Adamlar da gəlir yol ilə... min-min,
Onların da sayı edilməz təxmin.
Lap öndə də gəlir süvari əsgər,
Hardasa... altı min, yeddi min nəfər.
Ağam... tanıdılar bu camaatı,
Deyirlər ki gəlir... Arslan elatı..."
Əbülheyca birdən dəyişdi tamam,
Bayaq şimşək kimi gurlayan adam,
Kiçilib, büzüşüb yumağa döndü,
Sanki gözlərinin işığı söndü.
Nəhayət özünə gəlib birtəhər,
Çığırdı: "Bədxəbər oğlu bədxəbər!
Qəznəvilər ilə o vurhavurda,
Arslanın elatı nə gəzir burda?!"

Çapar dedi: "Ağam, bütün camaat,
Birağızdan verir belə məlumat.
Xorasandan tutmuş Bağdada qədər,
Nə qədər vardırsa əyalət, şəhər,
Arslan elatının önündə çökmüş,
Dikbaşlıq edənlər göz yaşı tökmüş.
İndi də gəliblər Azərbaycana.
Ağam, bəlkə qaçıb gedək bir yana?"
Əbülheyca dedi: "Əlbəttə qaçaq!
Gizlənmək gərəkdir, bir şərtlə ancaq.
Həyata keçirək belə bir tədbir,
Adamlar göndərək ikibir, üçbir,
Getsinlər Təbrizə, həm Ərdəbilə,
Şayələr salsınlar qoy dildən dilə.
Guya, Marağada taparaq fürsət,
Eyləyib oğuzlar şəhəri qarət.
Soyub öldürüblər dinc camaatı,
Söküb məscidi də Arslan elatı...
Şayələr yaymaqda tənimiz yoxdur,
Təcrübə yetərli, səriştə çoxdur.
Qoy oğuzlar ilə ərəb Vəhsudan,
Düşmən olub açsın ölkədə meydan.
Dəysin bir-birinə bütün məmləkət,
Biz də rahat-rahat eyləyək qarət".
Sonra ağsaqqala tutub üzünü,
Dedi: "Xəlil kişi, söylə düzünü,
Yəqin için-için gülürsən mənə?
Amma bir vaxt əyan olar ki, sənə,
Doğru yol tutmuşam mən Əbülheyca..."
Sözünü kəsərək söylədi qoca:
"Xainlik, ev yıxmaq, şər atmaq ilə,
Tutduğun yol gedir bircə mənzilə,
"Cəhənnəm" deyərlər onun adına,
Bilirsən, sadəcə saldım yadına.

Cəhənnəmə gedən yoldaş axtarar...
Başına toplaşan adamlar ki var,
Aldanıblar sənin yalan dilinə,
Bir şeytansan, düşüb fürsət əlinə.
Nahaq qan tökərək yığdığın sərvət,
Gətirər başına bir gün fəlakət.
Bu işindən çətin sən əl çəkəsən,
Sən xalqın adına qara ləkəsən.
Ey özündən deyən böyük "qəhrəman",
Budur, sınaq üçün açılıb meydan.
Çıx oğuzlar ilə açıq savaşa,
Biz igidliyinə edək tamaşa!"
Əbülheyca dedi: "Qızmıram sənə,
Sadəcə paxıllıq edirsən mənə.
Çünki çoxaldıqca varım, sərvətim,
Artır el içində mənim hörmətim.
Sənin isə yoxdur belə imkanın,
Kotan arxasında çıxacaq canın.
Get yavan çörək ye, get yaşa halal!
Bir də görüşməkçün sağ-salamat qal..."
Sonra Əbülheyca atı tərpətdi,
Qərbə üz tutaraq çaparaq getdi.

## TƏBRİZİM

Dünya qədər ulu, qoca Təbrizim,
Sən Türk şəhərisən uca Təbrizim.
Sənə olan sevgim o qədər çoxdur,
Əslində qədəri, hüdudu yoxdur.
Həqiqəti yazsın, yazırsa qələm,
Təbrizin səsini eşitsin aləm.
Tarixi yaddaşdan ayırmaq olmaz,
Qardaşı qardaşdan ayırmaq olmaz.
Ey başı bəlalar çəkmiş şəhərim,
Qoy keçmişdə qalsın qəmim, kədərim.
Haqqın iziniylə həzin ruzigar,
Uca göylərində olub iqtidar,
Qara buludları sürüb aparsın,
Sübhün şəfəqləri zülməti yarsın.
Bir dünya dolusu gül ki, Təbrizim,
Sənin gülüşünlə, mənim əzizim,
Yenidən qovuşsun ruhumla canım,
O taylı, bu taylı Azərbaycanım!
Sil əqidələrdən “o tay bu tayı”,
Qurtar əziyyətdən müqəddəs çayı.
Arxayın-arxayın Arazım axsın,
Sağına, soluna qürurla baxsın.
Müqəddəs bayrağı qaldır göylərə,
Görünsün ən ucqar, uzaq köylərə.
Ey ulu babamdan mənə əmanət,
Açsın qucağını sənə səadət.
Biryolluq yarılsın bağrı zülmətin,
Qoy əbədi olsun bu səadətin.

## ARSLAN ELATI AZƏRBAYCANDA

Arslan elatı ki gəldi Təbrizə,
Sıralandı dörd min alaçıq düzə.
Hələ yurd yerində etməmiş sahman,
Elin görüşünə gəldi Vəhsudan.
Bu mehribançılıq, bu isti görüş,
Böyük siyasətdə yaratdı dönüş.
Oğuzlarla dostluq edən hökmdar,
Dəyişdi nisbəti xeyrinə aşkar.
Bununla Vəhsudan məqsədə yetdi,
Qonşu ölkələri xəbərdar etdi,
Sözsüz, danışıqsız bir xəbərdarlıq...
Oğuzlardan gələn himayədarlıq,
Ölkə içində də yaratdı sahman,
Qısa bir zamanda dəyişdi dövran.
Möhkəmcə dostlaşıb Danə bəy ilə,
Çoxlu başlıq verib tutaraq dilə,
Bir oğuz qızı da aldı Vəhsudan,
Böyük şərəf duydu bu qohumluqdan.
Tamamlansın deyə bu tədbir, bu iş,
Verdi Urmiyanı Danəyə bəxşiş.
Danə bəylə birgə beş yüz süvari,
Ələk-vələk edib qərbdə hər yeri,
Dağdan dağa qovdu Əbülheycanı,
Onun da təqibdən üzüldü canı.
Sonda Əbülheyca yoxsul və xəstə,
Yanında beş-altı nəfərlik dəstə,
Gəlib Marağada tapdı Xəlili,
Tutdu ətəyindən titrəyən əli,
Dedi: "Qurban olum sənə, ağsaqqal,
Get de Vəhsudana, qoy versin macal.
Məni əfv eyləsin adil hökmdar,

Ölmüşəm qaçmaqdan mən diyar-diyar.
Məni söysün, döysün, zindana salsın,
Bu dəli Danənin əlindən alsın!”
Razılıq olsa da bu işin sonu,
Ağsaqqal bir xeyli danladı onu.
Sonra səfər edib Təbrizə yetdi,
Birbaş Vəhsudanın yanına getdi.
Qoca təzim edib dedi: “Hökmdar,
Ölümə layiqdir hər xəyanətkar.
Ancaq, qurban olum hər qədəminə,
Ümid eyləyərək sənin rəhminə,
Bir xahişə gəldim hüzuruna mən,
Bağışla, sözümdən qəzəblənmə sən...”
Vəhsudan söylədi: “Bilirəm, qoca,
Evində gizlənir o Əbülheyca...
Ancaq qınamıram səni, ağsaqqal,
Sən yaxşı adamsan, səmimi, halal.
Quldurun üzünə demisən lənət,
Sonra gizləmisən evində fəqət.
İndi də gəlmisən, qoca, xahişə...
Göz yumum deyirsən yəni bu işə?
Sonra, rəhmlidir deyə Vəhsudan,
Quldurluq eyləsin yerindən duran.
O Əbülheycaya hökm edir tamah,
Yenə törədəcək hardasa günah...”
Bu vaxt Qızıl Qazi gəldi otağa,
Vəhsudan taxtından qalxıb ayağa,
Mehribanlıq ilə görüşdü bəylə,
Türkcə dedi: “Qardaş, sən özün söylə,
Mən Əbülheycanı əfv etsəm əgər,
Ədalətli qərar olarmı məgər?”
Qızıl dedi: “Hər kim edir ibadət,
Daha doğru bilir nədir ədalət.
Bir xəta, bir günah törətsə insan,

Ona rəhm eyləyər uca Yaradan.
Allah ən adildir, buyurur Quran,
İlk adları isə – Rəhim və Rəhman”.
Vəhsudan Qızıla yetirib diqqət,
Əvvəlcə düşünüb qısa bir müddət,
Gülümsəyib dedi: “Ucadır başım,
Varsa sənin kimi mömin qardaşım.
Qızıl xan, əziz bir mehmansan mənə,
Həvalə edirəm bu hökmü sənə”.
Qızıl bəy söylədi: “Məncə, hökmdar,
Əfv etmək olardı ən doğru qərar”.
Sonra fars dilində dedi Vəhsudan:
“Qoca, şükr eylə ki, bu əziz mehman,
Mənim istəyimin əksinə tamam,
Sənə, ağsaqqala göstərib inam,
O Əbülheycaya bəxş etdi həyat,
Qoy gedib yaşasın asudə, rahat.
Ancaq bir də ondan gəlsə şikayət,
Bir də orda-burda eyləsə qeybət,
Min bir əzab ilə edərəm edam,
Qurtarmaz əlimdən onu bir adam!”
Qoca təzim edib dedi: “Hökmdar,
Əlində varikən hər bir ixtiyar,
Əfv edib nankorun xəyanətini,
Göstərdin rəhminin kəramətini.
Sənin ayağının altında ölüm,
İzn ver bu bəyin əlindən öpüm...”
Qızıl fars dilində söylədi: “Əsla,
Əksilmiş olaram böylə təmasla.
Qəbul etməm böylə “hörmətini” mən,
Sevməm bu tacikan adətini mən.
Bir adət deyim ki, oğuz elindən,
Kiçiklər böyüyün öpər əlindən.
Get qoca, yurduna qayıt nəhayət,

Get, o nadana ver öyüd-nəsihət”.
Qoca getdi. Bundan sonra Vəhsudan,
Fikirli gəzişib qısa bir zaman,
Gəlib Qızıl bəylə durdu üz-üzə,
Mülayim bir səslə başladı sözə:
“Mən sənin ağlına bələdəm artıq,
Bir gün söyləsən ki, qaradır qatıq,
İnanaram. Çünki bu vaxta qədər,
Bir söz söyləmədin sən mənə hədər.
Bu gün də inandım verərkən qərar,
Bilirəm, bunun da bir səbəbi var”.
Qızıl Qazi dedi: “Qəznəvi sultan,
Verib Həmdəviyə yeni bir imkan,
Əvvəlki səhvləri düzəltsin deyə,
Qoşun göndəribdir ona köməyə.
Gəlib razılığa Həmdəvi ilə,
İsfahan hakimi Əlaüddövlə,
Rey vilayətində olub hökmdar.
Bu işdə nəsə bir qarışıqlıq var...
Yəni... yetər olduq Təbrizdə mehman,
Arslan elatını səsləyir meydan...
Yaxşı ki, eşitdin gələn qocanı,
Edam etdirmədin Əbülheycanı.
Yəni, mehmanların gedəndən sonra,
Bir də qarışmasın ölkədə ara”.
Vəhsudan gülərək dedi: “Qazi xan,
Yaxşı bilirsən ki, deyilsiz mehman...
Sizə, oğuzlara arxalanıb mən,
Çıxdım çətinliyin məngənəsindən.
Ancaq... daha bir şey məlumdur bizə,
Mənim də varlığım sərf edir sizə.
Ərəb Xilafəti çökəndən bəri,
Gəlir şərqə doğru Rumun əsgəri.
Bilirəm ki, bir çox xaçpərəst dövlət,

Rumdan tələb edir işdə qətiyyət.
Yəni xaçpərəstlər gəlib vəhdətə,
Rumu sövq edirlər fəaliyyətə.
Fəqət uyqudadır cümlə müsəlman,
Din müharibəsi labüddür, inan.
Qonşu ölkələrə yetirək nəzər,
Əgər Sultan Mahmud ölənə qədər,
Qəznəvilərdisə vahid iqtidar,
İndi parçalanıb bu dövlət aşkar.
Şəddadilər kimi sülalə ilə,
Tam etibarsızdır hər müqavilə.
Onun tam əksidir şimalda Şirvan,
Dostluğa sadiqdir bu gözəl məkan.
Ancaq Şirvana da cumub şimaldan,
Qıpçaq tayfaları salıblar haldan.
Hələlik ki, dözür, dayanıb Şirvan,
Onun da tükənər gücü bir zaman.
Deyim ki, xaçpərəst qıpçaqlar hələ,
Get-gəl eyləyirlər gürcülər ilə.
Gürcülərlə dostluq edirsə qıpçaq,
Quracaq Rum ilə mütləq ittifaq".
Qızıl gülüb dedi: "Edək ehtimal,
Lap tutaq ki, düşdü belə qalmaqal.
Bunun oğuzlarla nə əlaqəsi?
Bizdən uzaqdır Rum, Şirvan ölkəsi".
Hiyləgər-hiyləgər gülüb Vəhsudan,
Dedi: "Mən də böylə bilirdim, inan.
Son olaylar məni oyatdı tamam,
İndi vardır məndə belə bir inam.
Çox da ki, bərk tutub sultan tacından,
Ölkədə camaat ölür acından.
Olsa da əlində hələ ixtiyar,
Heç ordusu etmir ona etibar.
Gec-tez Sultan Məsud çökəcək dizə,

Bütün hakimiyyət keçəcək sizə".
Qızıl yenə güldü: "Bilmirəm, vallah,
Necə bunlar sənə olubdur agah?
Çox uzun çəkəcək bu dava-dalaş,
Kim bilir nə ilə bitəcək savaş?"
Vəhsudan söylədi: "Amma, Qızıl xan,
Tamam gücdən düşüb Qəznəvi sultan.
Oğuzun günbəgün artır qüdrəti.
Nə çətinmiş görmək fərqi, nisbəti?
Qəznəvilər bu gün çox çətindədir,
Zəfər oğuzların qismətindədir".
Qızıl Qazi dedi: "Rəhimdir Allah!
Söyləmə əminsən, de – inşaallah.
Mükəmməldir əgər bu işdə rəyin,
Nədir oğuzlardan sənin istəyin?"
Vəhsudan söylədi: "Bir səfdə duraq,
Düşməni düşmənin yurdunda vuraq".
Qızıl bəy söylədi: "Budursa mətləb,
İmtina etməyə görmürəm səbəb.
Əlbəttə, bir səfdə durmaq da olar,
Düşməni yurdunda vurmaq da olar.
Yəni ki, birləşib cümlə müsəlman,
Münasibətlərdə yaradaq sahman.
Bir sözlə... qurulsun yeni Xilafət...
Çox gözəl fikirdir... xəyaldır fəqət.
Taxtın, tacın üçün olma narahat,
Sənə doğru yolu göstərib həyat.
Çünki ölçüb-biçib hər şeyi dəqiq,
Sən oğuzlar ilə oldun müttəfiq.
Təki zəhmətimiz getməsin hədər,
İnşaallah, gəlsin o böyük zəfər!"
Hər kəsin qəlbində zəfərə inam,
Yenə Arslan eli cəmlənib tamam,
Allaha obaşdan edib ibadət,

Yeni bir səfərə çıxdı nəhayət.
Elat başlayaraq bu səfərinə,
İstiqamət aldı Rey şəhərinə.
Ancaq qoşulmadı bu dəfə elə,
Danə bəy bir neçə qohumu ilə.
Oğuz bəylərindən icazə aldı,
Danə Vəhsudanın yanında qaldı.[85]
O, yerli türkləri cəlb edib hərbə,
Arabir yürüşlər eylədi qərbə.

## ZƏNCAN YAXINLIĞINDA GƏNƏŞMƏ

Zəncan yörəsinə artıq çathaçat,
Gün günorta vaxtı dayandı elat.
İbadət edənlər qıldılar namaz,
Həm də ki, dincəldi camaat bir az.
Amma el bu dəfə xeyli yubandı,
Ta axşama qədər durdu, dayandı.
Bu yubanmanın da bir səbəbi var,
Hardansa uzaqdan gəlmişdi çapar.
Qızıl da bəyləri edərək dəvət,
Qurdu alaçıqda böyük məşvərət.
Dedi: "Verməliyik təcili qərar,
Səlcuq elatından gəlibdir çapar.
Sultanla döyüşdə qəti bir zəfər,
Hər oğuzdan istər şücaət, hünər.
Böyük savaşlarda, bilirsiz əlbət,
Təkcə hünərvərlik etmir kifayət.
Olarsa minlərlə təlim keçmiş at,
Azuqə, zireh və mükəmməl sursat,
Zəfər qazandırar bizə hər döyüş...
Gərəkdir yetərli altun və gümüş.
Səlcuq elatına, lazımi qədər,
Altun, gümüş yığıb göndərsək əgər,
Bir ordu qurarlar güclü, mükəmməl,
Böyük zəfər üçün yaranar təməl.
Hər yanda oğuzlar eşidib, bilib,
Səlcuq elatına igidlər gəlib.
Say-seçmə igidlər, cəsur ərənlər,
Leşi leş üstünə vurub sərənlər.
Layiqli minik və mükəmməl sursat,
Artırar onların gücünü qat-qat".
Buğa dedi: "Çox-çox sevindik... fəqət,

Yox xəzinəmizdə o qədər sərvət”.
Əhməd dedi: “Məncə olardı rahat,
Toplayıb azuqə, ilxı və sursat,
Səlcuq elatına burdan göndərək,
Altuna, gümüşə olmadan gərək.
Yağmalanmalıdır hər kənd, hər şəhər,
Ərzaq, ilxı, sursat yığana qədər”.
Göyxan dedi: “Bəli, Anasıoğlu!
İşin təşkilini söylədin doğru.
Guya yağmaçılıq eyləməsək biz,
Kimsə pay verəcək səssiz-səmirsiz”.
Qızıl Qazi dedi: “Doğru qərardır,
Amma bu işin də müşkülü vardır.
Ərzaq, sursat, ilxı toplayıb böyük,
Nə vaxta edərik böylə tədarük?
Aylarla göndərsək karvan dalbadal,
Yetərli yardıma tapmarıq macal.
Sonra da... kim verər belə bir imkan,
Nəzarətdədirsə bütün Xorasan?
On beş min atlıyla durub Sübaşı,
Sərkərdələr fəxri, ərənlər başı,
Kimə ki çox ümid bəsləyir sultan,
Onun əlindədir bütün Xorasan.
Səlcuq elatını daim izləyir,
Sultandan hücuma fərman gözləyir.
İzlənirsə elat addımbaaddım,
Göndərə bilmərik bu yolla yardım”.
Mənsur dedi: “Əcəb! Ay atam-atam,
Bir yol bulmayacaq beş nəfər adam?
Altun yığmaq olar, məncə, ən asan,
Həm də itirmərik o qədər zaman.
Çəkidə yüngül və qiymətdə ağır,
Nə ilxı gərəkdir nə də ki naxır...
Həcmi də çox kiçik... bir-iki karvan,

Aparar altunu, gümüşü asan”.
Qızıl Qazi dedi: “Yollamaq üçün,
Düşünüb rahat yol taparıq bir gün.
İndi vacib olan bu deyil hələ...
Altunu yığmaqdır əsas məsələ”.
Göyxan dedi: “Alla! Nə müşkülü var,
Əlimizdədirsə bütün ixtiyar?!
Beş-altı şəhərin üstünə gedək,
Hər nə lazımdırsa tez əldə edək.
Sanmıram, gəlincə Arslan elatı,
Hansısa şəhərin bir camaatı,
Vermək istəməsin bizə bac-xərac,
Verməzsə də neynək, yox başqa əlac,
Güclə yağmalarıq həmən şəhəri,
Qonşulara təsir edər xəbəri”.
Qızıl Qazi dedi: “Çox uzun çəkər,
Vaxtımız da yoxdur sən deyən qədər.
Gərək yağma edək eyni zamanda,
Qəzvin, Kərəc, Reydə və Həmədanda”.
Əhməd bəy söylədi: “Mənim qardaşım,
Belə çək-çevirdən qarışdı başım?
Yəni Xızır kimi eyni zamanda,
Peyda olmalıyıq neçə məkanda?”
Buğa gülümsündü: “Olar əslində!
Çoxları bilir ki oğuz elində,
Bir döyüş adəti olub həmişə,
Qoşun hissə-hissə girir döyüşə.
İki-üç hissəyə bölünsək əgər,
Birdən yağmalanar iki-üç şəhər.
Kim bilir oğuzlar harda durublar,
Bəlkə də yaxında pusqu qurublar?”
Qızıl dedi: “Bunun təhlükəsi var,
Əfsus ki, bax budur ən doğru qərar.
Üç qola bölünüb eyləsək yürüş,

Ehtimal ki, olmaz böyük bir döyüş.
Xof yaradır çünki hücum qəflətən,
Hazırlıqsız olur rəqib adətən.
Başqa yol axtarır... varsa imkanı,
Malını verir ki, qurtulsun canı.
Gözlənilməz döyüş olarsa əgər,
Mütləq bir-birinə göndərib xəbər,
Təhlükəsiz yerə çəkilib gərək,
Meydana girməyək yetincə kömək".

## BÜVEYHİ[86] FƏNA XOSROV[87] İLƏ QIZIL QAZİ BƏYİN GÖRÜŞÜ

Min beş yüz atlıyla Anasıoğlu,
Yol aldı Zəncandan Qəzvinə doğru.
Buğa və Göyxan da eynən o qədər,
Süvari qoşunla etdilər səfər.
Getdilər cənuba Buğa və Göyxan,
Gözləyir onları varlı Həmədan.
İki min atlı da Qızıl bəy ilə,
Rey ərazisinə saldı vəlvələ.
Əlaüddövlənin qaraldı qanı,
Qorxudan bədbəxtin sıxıldı canı.
Üstəlik Həmdəvi göndərib çapar,
Əlaüddövləni etdi xəbərdar:
“Oğuzlara qarşı girmərəm hərbə,
Yetərli dərs olub aldığım zərbə.
Onlarda gördüyüm mərdlik, dəyanət,
Oldu mənim üçün ömürlük ibrət.
And olsun, açarsan fəlakət başa,
Əgər dağlılarla dursan savaşa.
Əgər ağlın varsa, girmə meydana,
Elə bu gecə qaç, get İsfahana.
Digər tərəfdən də var doğru xəbər,
Gəliblər oğuzlar iki min nəfər.
Aldanıb hücuma keçərsən birdən...
Sonra üç mini də çıxacaq yerdən,
Ya göydən düşəcək... Bir Allah bilir,
Oğuzlar necə və haradan gəlir...”
Buna baxmayaraq Əlaüddövlə,
Tərəddüd içində qalmışdı hələ.
Həm Reyə hakimlik cəlb edir onu,
Həm də qorxudurdu bu işin sonu.
Artıq Qızıl Qazi göndərib xəbər:

“Bu qədər ortada qalmağın yetər!
Gələnə qardaşsan gedənə yoldaş,
Həddini aşırsan sən yavaş-yavaş.
İstəsəm sözləşib Həmdəvi ilə,
Qurarıq səninçün çıxılmaz tələ.
O, heç zaman olmaz müttəfiq sənə,
Çünki can borcu var, bilirsən, mənə.
Səni də kəməndə salıb tamahın,
Təsir etməz mənə fəryadın, ahın.
Bir qədər uzaqda olmuşam deyə,
Quduz köpək kimi cummusan Reyə.
Var-dövlət eşqinə döndün sözündən,
Silərəm nəslini bu yer üzündən.
Nə qarət etmisən Rey şəhərində,
Qaytar sahibinə yerli-yerində!
Xoşuma gəlməsə verdiyin xərac,
Fələklər də etməz dərdinə əlac!”
Sonra Fəna Xosrov, o Məcdüddövlə,
Gəldi və görüşdü Qızıl bəy ilə.
Sanki möhtəşəm bir zirvəyə yetdi,
Tərifler söyləyib dualar etdi.
Qızıl bəy dinləyib onu nəhayət,
Dedi: “Sanmıram ki, çəkib əziyyət,
Dua etmək üçün buyurmusan sən,
Söylə məqsədini, tələsirəm mən”.
Fəna Xosrov dedi: “Ey böyük əmir,
Sual edirsən ki, məqsədim nədir?
Mən kiməm ki tutum böylə böyük iş,
Ancaq... acizanə edərəm xahiş.
Mən Fəna Xosrovam, ay sənə qurban,
Atam Rey hakimi olub bir zaman.
Məcdüddövlə olub... Büveyhilərdən,
Çox bəlalar çəkib Qəznəvilərdən.
On il bundan əvvəl Reyi aldılar,

Mənim atamı da taxtdan saldılar.
Ağrılı-acılı o gündən bəri,
Məskənim olubdur Savə şəhəri.
Qoy uca Yaradan yar olsun sizə,
O Qəznəviləri çökdürün dizə.
Ağam, nəsib eylə mənə şərafət,
İcazə ver edim bu yolda xidmət.
Mənimlə birlikdə gəlibdir Reyə,
Savə hökmdarı əmir Kamruyə.
Üç minə yaxın da əsgərimiz var,
Sanıram edərsən bizə etibar”.
Qızıl bəy söylədi: “Şirindir sözün,
Məqam seçməkdə də itidir gözün.
Fəna Xosrov, deyim düzünü sənə,
Yararlı olardı yardımın mənə.
İndi... söylə mənə fikrini aşkar,
Xidmət əvəzində nə istəyin var?”
Fəna Xosrov dedi: “Əlaüddövlə,
Rey vilayətini keçirib ələ,
Kəndləri, şəhəri eyləyib talan,
Elə kəndlər var ki, qalıbdır viran.
İstəyim budur ki, rəhbərlik eylə,
Reyi tərk eyləsin Əlaüddövlə.
Sonra da əmrinlə düzülək səfə,
Sürək atları biz məğrib tərəfə.
Həmədanı qarət etməklə tamam,
Əlaüddövlədən alım intiqam.
Çünki onun oğlu Əbu Kəlicar,
Həmən şəhərdədir vali, hökmdar.
Cavabsız qalmasın gərək xəyanət,
Nə şöhrət istərəm, nə də var-dövlət”.
Qızıl gülümsündü: “Yəni ki, bu gün,
Çalışıb-vuruşub gələcək üçün,
Xalqı incidəndən alıb intiqam,

Qazanasan böyük hörmət, ehtiram.
Bu gün... yaxud sabah düşüncə fürsət,
Tərəfdarın olsun bütün əyalət.
Sən də təəssübkeş şahzadə kimi,
Asanca olasan şəhər hakimi”.
Xosrovun qızardı üzü bir anda...
Qızıl dedi: “Neynək, belə zamanda,
Asan deyil tapmaq bu cür tərəfdar...
Nə şöhrətpərəstdir, nə də tamahkar”.

## ARSLAN ELATI MƏQSƏDİNƏ YETDİ

Arslan elatından tutunca xəbər,
Əyan-əşrəfini toplayıb səhər,
Məşvərət qurmuşdu Əbu Kəlicar,
Deyirdi: “Heç kimə yoxdur etibar.
Əsla gözləməzdim Məcdüddövlədən.
Nə umur bu çirkin müqavilədən?
Nədən oğuzlara bu olub möhtac,
Yoxsa qoyacaqlar boş başına tac?!
O, Arslan elatı, bir də Kamruyə,
Sözləşib cumublar birlikdə Reyə.
Atam da tək qalıb, əlacsız qalıb,
Reydən İsfahana gecə yol alıb.
Atam Reydən qaçıb, desəm düzünü,
Ölümdən qurtarıb yalnız özünü.
O qədər bac-xərac verib ki, atam,
Düşünəndə gəlir dəhşətə adam.
O qədər yığıb ki sərvət Qızıl xan,
Görməz yuxusunda Qəznəvi sultan.
Hakimiyyət deyil onun gərəyi,
Var-dövlət yığmaqdır bircə istəyi.
Özü də bilmirəm hara tələsir?
Bir ruzigar kimi dörd yana əsir.
Sərvət yığır... həm də tələsir demək.
Biz də bir ağıllı iş tutaq gərək...
Oğuz bəylərinə göndərək xəbər,
Deyək – gözləsinlər sabaha qədər.
Güya ki, bac-xərac toplamaq üçün,
Bizə vaxt versinlər, cəmisi bir gün.
Sonra da şəhərdə hər nə qədər var,
Varlı adamları edib xəbərdar,
Bu gecə şəhərdən çıxaq xəlvəti,

Qalada gizləyək varı-dövləti.
Aparaq büsbütün xəzinəmizi,
O qala möhkəmdir, qoruyar bizi.
Bir aylıq ərzaq da tədarük edək,
Xalqa bildirmədən, gizlincə gedək.
Qoy elat bu kasıb-küsubu soysun,
Bəlkə də bununla gözləri doysun".
Dediyi kimi də etdi hərəkət...
Qızıl bəy bir gün də gözlədi. Fəqət,
Biləndə ki, qaçıb Əbu Kəlicar,
O, Fəna Xosrova verib ixtiyar,
Dedi: "Buyur, qaldı Həmədan başsız,
Həvalə edildi sənə savaşsız.
İstərsən get otur taxtında rahat,
İstərsən bac-xərac versin camaat.
Girməz Həmədana bir nəfər oğuz,
Xalqı soymaq deyil bizim arzumuz.
Bizə lazım idi Əbu Kəlicar,
O da tülkü kimi qaçıbdır, idbar!
Neynək, qazandıq bir xeyirsiz zəfər,
Biz... burdan Bağdada edirik səfər.
Yəqin aldanmarıq növbəti dəfə,
Mütləq xərac verər bizə xəlifə".
Bu sözlər Xosrovu heyrətə saldı,
Hətta Göyxan belə məəttəl qaldı.
Buğa bəy əlüstü tutub söhbəti,
Dedi: "Biz qərara gəlmişik qəti.
Hər nə varsa elə Bağdadda vardır,
Deyirlər o diyar varlı diyardır.
Əgər istəyirsən birlikdə gedək,
Atüstü Bağdada bir səfər edək".
Fəna Xosrov dedi: "Yox, yox, Buğa xan,
Mənə, Kamruyəyə yetər Həmədan..."
Bu vaxt aydın oldu hər şey Göyxana,

Qımışıb, üzünü çevirdi yana.
Elə ki, söhbətə verildi xitam,
Oğuz ordugahı yığışdı tamam.
Ordunu nizamla düzüb dörd qola,
“Bağdad! Bağdad!” deyə çıxdılar yola.
Xosrov və Kamruyə – iki deyləmi,
Olub bir-birinin qisas həmdəmi,
Salıb Həmədana üç min əsgəri,
Çapıb-taladılar bütün şəhəri.
Olduqca qanlı bir qisas aldılar,
Bu yürüşlərindən razı qaldılar.
Düz səhərə qədər qarət etdilər,
Qarət mallarını yığıb getdilər.
Qalada gizlənmiş Əbu Kəlicar,
Bu hadisələrdən oldu xəbərdar.
Elə cövlan etdi kini, nifrəti,
Əcaib bir görkəm aldı surəti.
Dedi: “Hiyləgərmiş bu Məcdüddövlə,
Gör bir necə qurdu bizimçün tələ!
Gedirmiş oğuzlar demə Bağdada,
Xosrov da fürsəti verməyib bada.
Bəlkə oğuzlardan edərək xahiş,
Saldı canımıza həyacan, təşviş...
Əsla götürmərəm bu xəcaləti,
Cavabsız qoymaram bu həqarəti!
Qalada gizləndik biz nahaq yerə...
Gərəkdir təcili gedək şəhərə.
Tezliklə bir ordu edim səfərbər,
Həm də tez atama göndərim xəbər,
İki yerdən cumaq Reyə, Savəyə,
Keçsin əlimizə Xosrov, Kamruyə.
Mənfur başlarını əlimlə kəsim...
Gərək yubanmayım, gərək tələsim!”
Əyan-əşrəfləri axşama qədər,

Yalvardılar ona... boş yerə, hədər.
Artıq verilmişdi qəti bir qərar...
Qalanı tərk etdi Əbu Kəlicar.
Beləcə... özünü tələyə saldı,
Dörd bir tərəfini oğuzlar aldı.
Qalada yığılmış malı-dövləti,
Bütün xəzinəni, bütün sərvəti,
Oğuzlar yüklədi böyük karvana,
Yol tutub getdilər Təbəristana[88].
Anasıoğlu da göstərib hünər,
Qızıl Həmədandan gələnə qədər,
Qəzvinə, Kərəcə etmişdi yürüş,
Hətta baş vermişdi kiçik bir döyüş,
Çətinlik çəkmədən qazandı zəfər,
Ona tabe oldu hər iki şəhər.
Alaraq onlardan yeddi min altun,
Əhməd Davud oğlu çox oldu məmnun.

## *VI HİSSƏ*

## BÖYÜK İNSAN – DAVUD ÇAĞRI BƏY

### *SIZAN HƏQİQƏTLƏR*

Edib mələkləri hikmətdən agah,
Adəmi, Həvvanı yaratdı Allah.
Bəşərin atası, ilk peyğəmbəri,
Vəhy ilə Allahdan alıb xəbəri,
Öz şəxsiyyətini dərk etdi əvvəl,
Sonra "Ad" elmini bildi mükəmməl.
Ad külliyyatını bildisə Adəm,
Demək aşkar oldu Adəmə Aləm!
Ruhu, cismi sağlam, surəti gözəl,
İdrakı hökmlü, xisləti gözəl...
"Gəlin, səcdə edin Adəmə bir-bir!"
Deyib mələklərə Tanrı əmr edir.
Mələklər tərəddüd edir bir zaman...
Aləmlərin Rəbbi qurub imtahan,
Deyir: "Əgər sizi sıxır təkəbbür,
Onda elminizi edin təzahür.
Büsbütün adları söyləyin mənə!"
Mələklər söyləyir: "Həmd olsun Sənə!
Bizə öyrətmədin bu elmi əgər,
Biz də Adəm qədər bilərik məgər?!"
Tanrı deyir: "Yoxsa bunca elminiz,
O zaman Adəmə səcdə ediniz!"
Mələklər Adəmə edirlər səcdə...
Yalnız İblis gəlib qürurla vəcdə,
Deyir: "Məni oddan yaratmısan Sən,
Gildən yaranmışa baş əymərəm mən!"
Tanrı deyir: "Böylə edərək üsyan,

Seçdin Cəhənnəmi əbədi məkan!”
İblis də söyləyir: “Ver mənə möhlət!
Mənə haram oldu əgər ki Cənnət,
Öz təkəbbürümdən düşdüm möhnətə,
Bu Adəmə görə gəldim lənətə.
Mənə möhlət ver ki, açım bir savaş,
Adəmin nəslindən tapdıqca yoldaş,
Eyləyim onları özümə həmdəm,
Adəmin nəsliylə dolsun Cəhənnəm”.
Tanrı deyir: “Bəli, ağılsız insan,
Kimin ki, qəlbinə hökm edər şeytan,
Kim ki, olacaqdır nəfsinin qulu,
O, səninlə birgə gedər bu yolu.
Lakin hər insaflı, hər aqil insan,
Kimin ki, qəlbində hakimdir iman,
Onların qəlbində şübhə də qalmaz,
Onların üstündə bir hökmün olmaz!”

## BAŞSIZ QALMIŞ ÖLKƏ

Dəvət edib Xacə Əbu ün-Nəsri,
Səhər Sultan Məsud tərk edib qəsri,
Baş vəzirlə birgə gəzdilər bağı,
Bağ çox gözəl idi bu bahar çağı.
Ağaclar yamyaşıl, güllər rəngbərəng,
Otlar təravətli, çiçəklər qəşəng.
Hovuzun önündə durub nəhayət,
Sultan dedi: "Xacə, indi təbiət,
Elə bil qaynadır damarda qanı,
Sanki təzələnir insanın canı.
Qoyarmı biganə səncə bir kəsi,
Bahar çağı səhər quşların səsi?"
Bezsə də şərabın pis qoxusundan,
Zorla gülümsəyib tez qorxusundan,
Baş vəzir söylədi: "Şərəfli sultan,
Gözəl təbiətdən həzz alan insan,
İncə zövqə malik, həzin adamdır,
Ancaq... baxır məqam hansı məqamdır.
Rahatlıq verərmi məgər təbiət,
Dərd, kədər verirsə qəlbə əziyyət?"
Sultan dedi: "Xacə, nə olub yenə,
Haradan bəd xəbər yetişib sənə?"
Xacə dedi: "Yox, yox, olum qurbanın,
Nədən bu xoş anda qaralsın qanın?"
Sultan dedi: "Möhlət verərmi fayda,
Bəd xəbər eşitmək olubsa qayda?"
Baş vəzir sakitcə başladı sözə:
"Yenə də o elat çıxıbdır üzə...
Arslan elatını deyirəm... yəni,
Qorxudur xəbərlər bütün ölkəni.
Elat heyrətamiz qısa zamanda,
Reyi fəth eyləyib və Həmədanda,

Törədib elə bir böyük müsibət,
Eşidib-biləni bürüyür dəhşət.
Qəzvini, Kərəci ediblər işğal,
Hətta Xorasanda düşüb qalmaqal.
Bac-xərac verməyə edilib düçar,
Həmədan hakimi Əbu Kəlicar.
Bu da azmış kimi, soyulub hələ,
İsfahan hakimi Əlaüddövlə...”
Sultan dedi: “Xacə, bir mənə söylə,
Sən nədən qorxaraq əsirsən böylə?
Elə “Arslan”, “Arslan” deyirsən ancaq,
Məgər atam onu etmədi dustaq?”
Xacə dedi: “Etdi... Amma, hökmdar,
Səlcuq elatıyla əlaqəsi var...”
Sultan dedi: “Xacə, on beş min əsgər,
Səlcuq elatına yenilər məgər?
Sübaşı kimi də böyük sərkərdə,
Güdür oğuzları o həndəvərdə.
Yaxşı... mən verərəm təcili fərman,
Qırsın səlcuqları o igid insan!
Sübaşı fəth edər bütün aləmi...
At başından Xacə, qüssəni, qəmi.
Səlcuq ölüb... başsız qalıblar əgər,
Heç gəlməz onlardan böyük bir xətər”.
Baş vəzir söylədi: “Şərəfli sultan,
On beş min döyüşçü az olar, inan...”
Sultan Məsud kəsdi onun sözünü,
Dedi: “Boş-boşuna üzmə özünü.
Ah-nalə etməkdən kimə nə fayda?
Məclis quracağam bu gün sarayda!
Gəl Xacə, gəl şadlan bizimlə birgə,
Şeytan da yer tapmaz sıx olsa cərgə!”
Gülərək söyləyib getdisə sultan,
Xacə tərpənmədi yerindən bir an.

Kim bilir, baş vəzir nə qədər hələ,
Kədərli, fikirli durardı belə,
Əbu Nəsr Zəvzə axtarıb səhər,
Onu tapmasaydı bağçada əgər.
Gəlib baş vəzirlə durub üz-üzə,
Əbu Nəsr Zəvzə başladı sözə:
“Xacə, eşitmisən, Arslan elatı,
Nə hala salıbdır dinc camaatı?”
Xacə dedi: “Bəli, məlumatım var...
Əfsus ki, əlimdə yoxdur ixtiyar”.
Əbu Nəsr Zəvzə kinayə ilə,
Gülərək söylədi: “Bu nədir belə?
Dövlət işlərində məgər hökmdar,
Sənə verməyibmi tamam ixtiyar?”
Xacə gülüb dedi: “Veribdir, bəli...
Doğru təhlil eylə sən bu əməli.
Eyş-işrət sultanın başını qatıb,
Dövlət işlərini boynundan atıb.
Hər gün tuluq-tuluq içdiyi şərab,
Eyləyib sultanın ağlını xarab.
Güya hərb işini özü götürmüş,
Dövlət işlərini mənə ötürmüş.
İndicə sultana verib məlumat,
Dedim nələr etmiş qərbdə o elat.
Boş-boş şeylər imiş ona gəlincə,
Daha vacib imiş şərab, əyləncə.
Şərab içsin, ləziz xörəklər yesin,
Gic-gic rübailər, qəzəllər desin”.
Əbu Nəsr Zəvzə dedi: “Ay kişi,
Boş yerə deyildir xalqın təşvişi,
Bu elat on günün ərzində, inan,
Beş şəhəri birdən eyləyib talan.
Sabah Xorasana girsə bu elat,
Yenəmi sanılar oyun, zarafat?!”

Xacə dedi: “Hələ bunlar bir yana,
Nahaq girməyib bu elat meydana.
Mən düşünürdüm ki, nədən bu elat,
Bir yeri yurd seçib yaşamır rahat?
Lap elə götürək o Qızıl bəyi,
Əməlli-kamallı alıbdır Reyi.
Nədən rahat durmur? Bilmirdim əvvəl,
İndi əminlik var məndə mükəmməl.
On gündə beş şəhər eyləyib qarət,
Altundan, gümüşdən toplayıb sərvət,
Yükləyib göndərib böyük bir karvan,
Səlcuq elatına edib ərmağan.
Dəniz sahiliylə gedərək xəlvət,
Yetib səlcuqlara karvan nəhayət.
Bu altun, gümüşə səlcuqlu elat,
Artıq almaqdadır mükəmməl sursat.
Dəqiq məlumatdır, gün kimi aşkar,
Bilirsən, çox yerdə cəsuslarım var.
Yadındamı? Bir vaxt bu iki elat,
Güya bir-birindən edib ehtiyat,
Ayrı düşmüşdülər. Bilirdim fəqət,
Var arlarında gizli ünsiyyət.
Davud bəy qaynıdır o Qızıl bəyin...
Üstü açılmırmı səncə kələyin?
İki elat deyil, vahid elatdır,
Oğuzlar tədbirli bir camaatdır.
Bir yanda oğuzlar – böyük təhlükə,
Bir yanda da başsız qalmış bir ölkə!
Hər nə qazanmışam mən bu dünyada,
Borcluyam atası sultan Mahmuda.
Ona xidmət ilə ucalıb başım,
Həm sultanım olub, həm süd qardaşım[89]”
Əbu Nəsr Zəvzə söylədi: “Vay, vay!
Eyş-işrət yuvası olubdur saray,

Ölkədə insanlar ac-yalavacdır,
Bir tikə çörəyə çoxu möhtacdır.
Orduda nə qədər türk döyüşçü var,
Oğuzlara rəğbət bəsləyir aşkar.
Xacə, qurban olum, eylə bir əlac!"
Xacə dedi: "Səncə, quru bir ağac,
Verərmi təzədən bolluca bəhər?
Bir möcüzə olar, verərsə əgər.
Dövlət işlərinə sultan girişmir,
Mənim də orduya əlim yetişmir.
Mütləq Sübaşıya göndərib kömək,
Səlcuq elatını məhv edək gərək.
Nə bilim, nə edim? Allaha pənah...
Hər şeyə qadirdir qüdrətli Allah."

## SÜBAŞININ ORDUSU MƏHV EDİLDİ

Sübaşı çöllərdə edərək mənzil,
Fasilə vermədən, ardıcıl üç il,
Səlcuq elatını edirdi təqib,
Zirək tərpənirdi hər dəfə rəqib.
Səlcuqlar haranı edirdi işğal,
Sübaşı cumurdu oraya dərhal.
Hər dəfə gecikib hiddətlənirdi,
Basqınlar getdikcə şiddətlənirdi.
Sürəkli təqibə etmirdi cürət...
Beləcə ötmüşdü bu uzun müddət.
Lakin son iki ay, üç ay ərzində,
Dəyişiklik vardı həyat tərzində.
Sanırdı sərkərdə, yorulub elat,
Səraxs[90] ətrafında sürür dinc həyat.
Yox idi elatdan bir xəbər-ətər,
Sübaşı darıxdı hətta bir qədər.
Bu da çox çəkmədi, göndərib fərman,
Zəfər qazanmağı əmr etdi sultan.
Əmr etdi ki, atı dörd yana çapsın,
Səlcuq elatını axtarıb tapsın,
Bu uzun təqibi çatdırsın sona,
Zəfər xəbərini yetirsin ona.
Çox möhkəm istilər oldu bu ayda,[91]
Qurumuşdu sular bir neçə çayda.
Su, ərzaq toplayıb bu yürüş üçün,
Tərpətdi ordunu Sübaşı bir gün.
Təlxab adlı yerə yetişib durdu,
Elə bu yerdə də ordugah qurdu.
Üç-dörd gün burada ordu dincəldi...
Bir axşam Heratdan adamlar gəldi.
Onlar Sübaşıya verərək xəbər,

Dedilər Heratda baş verib nələr.
Şəhərin bir neçə əyan-əşrəfi,
Təchiz eyləyibmiş düşmən tərəfi.
O gecə yuxusuz qaldı Sübaşı,
Bu xəbərlər ilə qarışdı başı:
“Mən də axtarsaydım silah və sursat,
İlk öncə ağlıma gələrdi Herat.[92]
Səlcuqlar da bundan olaraq əmin,
Xeyli rüşvət verib, xərc çəkib yəqin,
Əyan-əşrəfləri razı salıblar,
Külli miqdarda da sursat alıblar.
Zirehli geyimlər, bu qədər sursat,
Hələ bir üstəlik minlərcə də at...
Böyük alış-veriş ediblər... demək,
Başqa elatlardan yetişib kömək.
Sayları çoxalıb, gücləri artıb...
Meydan savaşının məqamı çatıb.
Xacə Əhməd məndən tez xəbər tutub,
Təcili çaparla göndərib məktub.
O, Arslan elatı haqqında yazıb...
Ona bu barədə xəbərlər sızıb.
Məlumatı yoxdur digər tərəfdən,
Herat şəhərində əyan-əşrəfdən.
Sultana deyərəm sonra birbaşa...
Əvvəl səlcuqlarla qalxıb savaşa,
Məhv edim onları, çünki bu elat,
Sultanı daha çox edir narahat...
Kim bilir? Bəlkə də tamam əksinə,
Sultan qərq olub öz mey badəsinə...”
Təbil səsləriylə açıldı səhər,
Düzüldü səflərə on beş min əsgər.
Yenə də hamının pozuldu halı,
Durmuşdu oğuzlar bir az aralı.
Qəznəvi ordusu bezmişdi tamam,

Heç kimdə yox idi savaşa inam.
Çünki bu üç ildə bəlkə yüz dəfə,
Beləcə, tərəflər düzülüb səfə,
Durub bir-birinə edib tamaşa,
Sonda da təqiblə iş çatıb başa.
Təqib də nə təqib? Çoxu iki gün,
Sonra arğun-yorğun, mənən də üzgün,
Toz-torpaq içində dönüblər geri,
Sanırlar – bu da o günlərdən biri.
Yalnız təcrübəli Sübaşı yenə,
Sərkərdə gözüylə baxdı düşmənə.
Çox dəqiq görürdü gözü uzağı,
Açıq-aydın gördü o üç bayrağı,
Musanın, Çağrının bir də Toğrulun,
Ucalıb bayrağı üstündə qolun.
Yeravul qolu da ən öndə durur,
Zirehli geyimlər öylə bərq vurur,
Qamaşır uzaqdan baxanın gözü...
Öndə də dayanmış Çağrı bəy özü.
Ümumi sayları – azı on beş min!
Sübaşı artımı etmişdi təxmin,
Lakin düşünməzdi olar bu qədər...
Boğdu sərkərdəni az qala qəhər:
"Heç əzəlkilərdən deyil bu görüş,
Tale dönüşüdür artıq bu dönüş!
Azı on beş minlik oğuz ordusu,
Yeri titrədəcək onun qorxusu.
Əsgərlərim də dərk etməyir hələ,
Qopacaq bir azdan necə zəlzələ!
Çoxunun olacaq bu son döyüşü,
Səlcuq elatıyla axır görüşü,
Əgər baş verməsə böyük möcüzə...
Tale çoxdan arxa çevirib bizə.
Sultan sərkərdəsi mən ola-ola,

Üç il zilləmişəm gözümü yola.
Kömək göndərmədi bu boyda dövlət...
Gör bir oğuzlarda necədir vəhdət?!...”
Səlcuqlular keçdi hücuma bu an,
Toz-tozanaq qopdu, qarışdı meydan.
Hər iki tərəfdən on beş min əsgər,
Kökünə müvafiq göstərdi hünər.
Hündür bir təpəyə qalxıb Sübaşı,
Təpədən izlədi ağır savaşı.
Süstəlib dayanmış yağı düşmənə,
Kimlər ki, könülsüz çıxmışdı önə,
Çağrı bəy şiddətli bir zərbə vurdu,
Ön səflər bir anda geri oturdu.
Ardıyca Toğrul bəy girərək hərbə,
Sol cinahdan vurdu orduya zərbə.
Şiddətlə vuruldu bütün hədəflər,
Sultan ordusunda pozuldu səflər.
Bu zaman Sübaşı düşüb təşvişə,
Nəhəng fillərini atıb döyüşə,
Şəxsi mühafizə dəstəsi ilə,
Geriyə çəkilib gözlədi hələ.
Döyüş fillərindən atlar qorxaraq,
Gah sağa, gah sola hey vurnuxaraq,
Süvarilərini yıxdılar yerə...
Dəyişdi bir anda bütün mənzərə.
Hətta qəznəvilər çaşıb qaldılar...
Sonra təşəbbüsü ələ aldılar.
Bir şey qalmamışdı atılsın geri,
Oğuz ordusunun ön cərgələri.
Kimsə tərpənmədi yerindən ancaq,
Atıldı fillərə yüzlərlə mizraq.
Yaralı heyvanlar qaçdılar dala,
Qəznəvi ordusu düşdü pis hala.
Çox güvəndikləri döyüş filləri,

Çevrilib oldular öz qatilləri.
Oğuzlar yenidən edərək hücum,
Etdilər düşməni ölümə məhkum.
Bir günün ərzində, axşama qədər,
Qüvvədə bərabər, sayda bərabər,
Bir ordu edildi yer ilə yeksan,
Qələbə gətirdi oğuza meydan.
Keçirdi əlinə Səlcuq elatı,
Sübaşıya məxsus bütün sursatı.
Zəfər bəxş eylədi Tanrı elata,
Qalib Səlcuq eli getdi Herata.

# MƏHƏMMƏD TOĞRUL BƏY,
# ŞANLI HÖKMDAR

Böyük dəyişiklik etdi bu zəfər,
Oğuzların oldu bir neçə şəhər.
Mərvdə igid Çağrı hakim oldusa,
Səraxsın taxtında oturdu Musa.
Toğrula verildi ölkə paytaxtı,
Gözləyirdi onu sultanın taxtı.
Üç min zireh geymiş süvarı əsgər,
Məhəmməd Toğrulla gəlib bərabər,
Keçdilər şəhərin içiylə məğrur,
Öz hökmdarını gördü Nişapur.
Sultanın taxtında Toğrul oturdu,
Əyan-əşrəf gəlib önündə durdu.
Növbə ilə gəlib edərək təzim,
Hər biri özünü eylədi təqdim.
Öncə qazı Səid açdı söhbəti,
Vardı Nişapurda böyük hörməti.
Dedi: "Ey şərəfi, şöhrəti böyük,
Əsli nəcabətli, məlikül-mülük![93]
Nişapur mülkünə verdin yaraşıq,
Saçır camalından qəlblərə işıq.
Çəkmirəm fikrimə zərrəcə sığal,
Şahiddir qardaşın İbrahim Yınal,[94]
Bütün məscidlərdə, şanlı müzəffər,
Adına xütbələr oxuyub şəhər.
Şahidiksə sənin şücaətinə,
Şübhəmiz də yoxdur ədalətinə!"
Toğrul bəy söylədi: "Möhtərəm qazı,
Qalmaz, inşaallah, kimsə narazı.
Bilmirik tacikan adətlərini,
Dinləmək istərdim söhbətlərini.
Çünki önəmlidir hər nəsihətin,

Ağsaqqalısansa bu məmləkətin”.
Qazı Səid dedi: “Şanlı hökmdar,
Şərəfdir mənə bu hörmət, etibar.
Çətin durumdadır bütün Xorasan,
Əbül Fəzl Suri[95], o acgöz insan,
Xalqı vaxtaşırı eyləyib qarət,
Vergidən əlavə göndərir rüşvət.
Taydır acgözlükdə amillər[96] ona,
Deyirdik bu qarət yetişməz sona.
Min-min dirhəm[97], dinar[98], güya ərmağan,
Göndərir saraya, sevinir sultan.[99]
Əhali o qədər verir ki, xərac,
Bir qarın yeməyə qalıblar möhtac.
Bir söz deyənə də qurulur divan,
Heç kimə də vermir bu Suri aman.
Xalq əgər düşübsə bu bədbin günə,
Hər kəs böyük ümid bəsləyir sənə.
Bu gündən mən sənə sadiq nökərəm,
Əlimdən gələni əsirgəmərəm”.
Toğrul bəy dedi: “Sən darıxma, xoca.
Varlıq tanımıram Allahdan uca.
Bizə rəhm eyləsin o uca Rəhman,
Etsin çətinləri bizlərə asan.
Qazı Səid, bundan arxayın ol sən,
Nə qədər ki, taxtda oturmuşam mən,
Kimsəyə nahaqdan divan qurulmaz,
Malına-mülkünə əl də vurulmaz”.
Bu söhbət Qəznədə çatdı sultana,
Bağırıb naməni atdı bir yana,
Gözləri də çıxdı hədəqəsindən,
Sarayda divarlar əsdi səsindən.
Sonra da o qədər içdi ki, nəbiz[100],
Bütün dərdi, qəmi çəkildi təmiz.
Cümlə çətinlərin bir oldu həlli,

Şərab badəsində tapdı təsəlli.
Bütün bunlar ilə eyni zamanda,
Rahat oturmadı Toğrul bir an da.
Saldı Nişapuru sahmana tamam,
Yaratdı şəhərdə nizam-intizam.
İlk öncə vergini azaltdı qat-qat,
Xeyli razı qaldı yerli camaat.
Bir sərkərdə kimi vardı şöhrəti,
Hökmdar kimi də artdı hörməti.
Bu hadisələrdən xəbərdar olan,
Oğuz ellərindən yüzlərlə cavan,
Daxil olmaq üçün hərbi xidmətə,
Axışıb gəldilər bu vilayətə.
Gəlib Nişapura, Səraxsa, Mərvə,
Yaratdılar onlar beş qol əlavə.
Əsgər sayı çatdı iyirmi minə,
Azlıq etdi sursat və minik yenə.
Çağrı Nişapura gətirib təşrif,
Toğrulla görüşüb eylədi təklif:
"Həmd olsun Allaha! Bu gün nəhayət,
Oğuz ellərində duyulur vəhdət.
Götürsək sonuncu bu üç-dörd ayı,
Beş minə yaxındır artımın sayı.
Gərəkdir əlavə minik və sursat...
Gecikməyimizdən edib ehtiyat,
Gəlmişəm səninlə mən bu görüşə,
Təcili bir çarə tapaq bu işə.
Təklifim budur ki, məhduddur zaman,
Gərək yağmalansın bütün Xorasan".
Toğrul dedi: "Çağrı, əziz qardaşım,
Sanma Nişapura qarışıb başım.
Yadımdan çıxmayıb əsas vəzifə,
Bu haqda düşünüb gündə yüz dəfə,
Etmişəm bir qədər dirhəm tədarük,

Əlbəttə... deyildir o qədər böyük...”
Çağrı dedi: “Toğrul, dünənə qədər,
Yağma təklifindən qaçardın məgər?
Özün bilirsən ki, bu vurhavurda,
Çox qala bilmərik bu Nişapurda.
Həmd olsun Allaha, itidir gözün,
Sən məndən də yaxşı bilirsən özün,
Çox etməz kənardan Məsud tamaşa,
Mütləq gələcəkdir özü savaşa.
O qürrəli insan, ol bundan əmin,
Əsgər toplayacaq bəlkə də yüz min.
Çəkməsək onları böyük çöllərə,
Susuz vadilərə, quru göllərə,
Çətin ki, bir dəfə qazanaq zəfər...
Sən bunları, qardaş, bilmirsən məgər?
Nə hörmət-izzət var bu Nişapurda?
Nə üçün açmayaq bir yağma burda?”
Toğrul gülüb dedi: “Büsbütün cahan,
Bu keçə soqmamdan öpsə də, inan,
Tanrısız, dinsizəm bir gour qədər,
Üzünə bir dəfə ağ olsam əgər.
Yağmalanmalıdır əgər Nişapur,
Yanında olmaqdan duyaram qürur.
Ancaq... bir şərt kəsək indi səninlə,
Qardaşım, əvvəlcə gəl məni dinlə,
Söhbətim gəlməsə əgər xoşuna,
Bir söz də demə
rəm əsla boşuna.
Xarabazar idi bütün Xorasan,
Keçdi əlimizə, dəyişdi dövran.
Bütün əyalətdə dəyişdi həyat,
Çox razılıq edir yerli camaat.
Yollara qoyduğum əsgərlər də var,
Verirəm onlara bolluca dinar.
Bu muzdlu əsgərlər sevincək, demə,

Yayıblar xəbəri bütün aləmə.
İndi bütün aləm olub xəbərdar,
Bizdə döyüşçüyə böyük qayğı var.
Bu da bir zəfərdir... böyük bir zəfər,
Gedib sorağımız Qəznəyə qədər.
Sultan ordusunda pisdir vəziyyət,
Bütün döyüşçülər çəkir əziyyət.
Rüşvətxor sarayda pay umur hərə,
Heç gedib məvacib çatmır əsgərə.
Sultan ordusunun türk əsgərləri,
Pünhan danışıblar bu xəbərləri".
Çağrı təəccüblə baxıb Toğrula,
Dedi: "Kaş hər sözün həqiqət ola!
Hər şeyi ətraflı bilirsən böylə...
Cəsusun vardırmı Qəznədə, söylə?"
Toğrul dedi: "Yoxdur sarayda cəsus,
Edə bilməmişik biz bunu əfsus.
Ancaq elə bir iş oldu ki, inan,
Özüm də məəttəl qaldım bir zaman...
Tacir libasında gəlib bir nəfər,
Mənimlə görüşüb gizli, müxtəsər,
Bu dediklərimi mənə danışdı,
İnandırmaq üçün xeyli çalışdı.
Hacib Bəg-Doğduya məxsus bu qulam,
Nədənsə yaratdı içimdə inam.
Onunla həmfikir yüzlərlə türk var,
Sözləşib birlikdə veriblər qərar.
Sultan ordusundan qaçaraq bir gün,
Gələcəklər bizə qoşulmaq üçün".
Çağrı bəy təmkinlə söylədi: "Gözəl!
Amma sınayarıq onları əzəl...
Yalnız bircə dəfə olsa belə hal,
Sultan ordusuna düşər qalmaqal.
Dönübsə sultandan əgər bir qulam,

Sarsılıb orduda Məsuda inam.
And olsun, bu söhbət çıxmasa yalan,
Mən, böyük qardaşın, edirəm bəyan,
At çapıb aləmdə çəkəcəyəm car:
“Yoxdur Toğrul kimi şanlı hökmdar!’”
Toğrul gülümsündü: “Əstəğfürullah!
Rəhm eyləsin bizə tanrımız Allah!”
Gəlib qucaqladı Çağrını Toğrul,
Sonra dedi: “Çağrı, saydınsa məqbul,
Yağma söhbətini unutdun əgər,
İnan ki, eylədin məni bəxtəvər.
O şey ki, xoşluqla gələr hasilə,
Nədən insanlardan alaq zor ilə?”
Əvvəl anlamadı Çağrı bu sözü,
Ancaq görən kimi dərk etdi özü.
Dəvə karvanına edilmişdi yük,
Toğrulun dediyi “kiçik tədarük”.
Çağrı bəy görüncə yaman sevindi,
Sursat, minik almaq olardı indi!
Xəzinə yığmışdı Toğrul bir aləm,
Çoxlu altun dinar, beş yüz min dirhəm!

## SULTAN MƏSUDUN FİLİ QAÇIRILDI

Hazırlıq işinə vuruldu yekun,
Bitdi son məşvərət, çəksə də uzun.
Sərkərdələrinə verərək fərman,
Firuzə bağında gözlədi sultan.
Çıxarkən Qəznədən möhtəşəm ordu,
Hacib Əli Dayə önündə durdu.
Yüz mindən çox idi əsgəri onun,
Görünmürdü gözə sonu ordunun.
Əlli döyüş fili, yetmiş min atlı,
Sursat baxımından tam təminatlı,
Süvarilər ilə çıxdı bərabər,
Qəznədən otuz min piyada əsgər.
Altı min atlıyla sultan da gəldi,
Ordunun ardıyca Bəlxə yönəldi.
Məşhur quldurbaşı Kuhəndiz Əli,
Dağlara qalxmışdı qışın əvvəli.
Eşitmişdi çünki, sözün qısası,
Sultanın səbrinin daşıb kasası.
Tezliklə salındı yararlı hala,
Müdafiə üçün dağdakı qala.
Min beş yüz nəfərlə bu Kuhəndizə,
Asan görünürdü hər mübarizə.
Sultan Bəlxə gəldi. Bir qış səhəri,
Başlandı ordunun uzun səfəri.
Sultan ordusunu səfərbər etdi,
Əvvəl Kuhəndizin üstünə getdi.
Dar bir cığır idi qalanın yolu,
Sərt qayalar idi sağı və solu.
Bir adam göndərdi qalaya sultan,
O da Kuhəndizə söyləyib yalan,
Dedi ki, əfv edib onu hökmdar,

Çünki mərdliyinə çox hörməti var.
Məsələ sülh ilə yetərsə sona,
Yüzbaşı rütbəsi verəcək ona.
Əli Kuhəndiz də buna inandı,
Bu şirin sözləri həqiqət sandı.
Çıxdı dəstəsiylə açıqlıq yerə,
Bir anda olundu tam mühasirə.
Qırılan qırıldı, qalanı qaldı,
Aman diləyərək silahı saldı.
Kuhəndizlə birgə yüz yetmiş adam,
Dar ağaclarında edildi edam.
Daha bir təqibə verərək qərar,
Sultan Məsud etdi fikrini aşkar:
“Altuntaşın oğlu o Börü-Təgin,
Toplayıb başına süvari üç min,
Pəncabı[101] keçməyə taparaq cürət,
Edib məmləkətdə bir neçə qarət.
Onu öz qardaşı qovub ölkədən,
Bizim ölkəmizə soxulub nədən?!
Yəni o İsmayıl, o çirkin idbar,
Sanılırmı məndən güclü hökmdar?!
Yoxsa at təpibdir onun başına,
Böyüklük etməyir öz qardaşına?!
Atası atamın olub düşməni,
İndi Börü-Təgin sınayır məni.
Yaxşı olmayacaq bu işin sonu,
Quduz köpək kimi boğaram onu!
Təqib etməliyəm qaçsa da hara,
Tutub çəkməliyəm mən onu dara!”
Xacə Əhməd dedi: “Böyük hökmdar,
Bəlkə səbr eyləyək, yetişsin bahar?
Çünki indi qışdır, belə bir çağda,
Ot-ələf də yoxdur düzəndə, dağda.
Qırılar acından bütün heyvanat.

Həm də ki, çatıbdır bizə məlumat,
Pəncabı keçərək o Börü-Təgin,
Qaçıb ölkəsində gizlənib yəqin.
Ya Novruzdan sonra taparıq imkan,
Ya taxıl bitkisi biçilən zaman,
Nə vaxt ki bolluca olur ot-ələf,
O düşmən oğlunu edərik tələf...”
Az qaldı sultanın coşsun qəzəbi...
Tez icra edildi onun tələbi.
Yenə də ordusu çıxdı səfərə...
Donmuşdu şaxtadan bütün dağ, dərə.
Gündüzlər getdilər, çox tələsdilər,
Gecələr çadırda tir-tir əsdilər.
Həftələr ötüşdü... düşməyib izə,
Nəhayət yetişdi ordu Termezə[102].
Burada bir qədər ordu dincəldi,
Sonra da Termezdən Bəlxə yönəldi.
Nəhayət ki verib orduya aman,
Sultan da dincəldi Bəlxdə bir zaman.
Novruzdan ötməmiş bir həftə hələ,
Bir hadisə saldı Bəlxə vəlvələ.
Gün-günorta vaxtı on nəfər oğuz,
Bəlxin mərkəzinə gəlib qorxusuz,
Sultanın filini sürüb gediblər,
Bu boyda sultanı təhqir ediblər!
Sultan qəzəblənib özündən çıxdı,
Bütün məmurları saraya yığdı.
Çığıra-çığıra dedi: “Rəzalət!
Heç soxurmu sizi yerə xəcalət?!
And olsun, məəttəl qalmışam ki mən,
Gün-günorta vaxtı, on nəfər türkmən,
Çöldən çapıb gəlib, girib şəhərə,
Fil oğurlayıblar! Girəsiz yerə!”
Əbu Nəsr Zəvzə dedi: “Hökmdar,

Ömrün uzun olsun! Etmirəm inkar,
Bu bir xəcalətdir, qüssədir, qəmdir...
Amma türkmənlər də ağıldan kəmdir.
Nəylərinə gərək bu Novruzda fil?
Sanıblar fil üstdə il olub təhvil...”
Dərhal üzülərdi bədbəxtin başı,
Yaxşı ki, araya girdi Sübaşı:
“Ömrün uzun olsun, qüdrətli əmir!
Bilirəm bunların məqsədi nədir.
Savaş oğuzlara eylədi əyan,
Atları fillərdən qorxurlar yaman.
Ehtiyacdan edib oğuzlar belə,
Öyrəşdirəcəklər atları filə”.

## SƏLCUQ OĞUZLARININ SƏRAXS GƏNƏŞMƏSİ

Səraxsa çox yaxın bir düzəngahda,
Böyük bəylər olub cəm ordugahda,
Şanlı bir tarixə qoyaraq təməl,
Gənəşmə qurdular geniş, mükəmməl.
Allahın izniylə, rəhbərin özü,
Məhəmməd Toğrul bəy dedi ilk sözü:
“Hifz eyləsin Allah, o uca Rəhman,
Bizi gözləyir çox ağır bir zaman.
İnşaallah, verək doğru bir qərar,
Hər kəs öz fikrini söyləsin aşkar”.
Musa Bəyqu dedi: “Səraxs savaşı,
Orda ki, tam məğlub oldu Sübaşı,
Verdi Xorasanı büsbütün bizə,
İndi də çox şeylər çıxıbdır üzə.
Sultandan qaçaraq o Börü-Təgin,
Bizə xəbər verib edir ki, əmin,
Onu qəbul etsək əgər xidmətə,
Hədsiz şad olacaq bu səadətə.
Hər tərəfdə onu gözləyir edam,
Bizə ümid edir bu igid adam.
Üç mindən artıq da döyüşçüsü var,
Məncə etmək olar ona etibar.
Yəqin ki, tezliklə gələcək özü,
Öyrənərik nədir məqsədi, sözü...
Sultan ordusunda sarsılıb inam,
Keçib biz tərəfə iki min qulam.
Tam arxayınçılıq olmazdı doğru,
Sabiq Tus valisi Cazibin oğlu,
Onlara rəhbərdir, adı Süleyman.
Olsa da ağıllı, səmimi cavan,
Elə ilk döyüşdə çıxsınlar önə,

Sultan ordusuna gərsinlər sinə.
Məlum olsun bizə sədaqətləri,
Həm də görək nədir məharətləri?
Digər tərəfdən də, sözün doğrusu,
İnamsız olsa da sultan ordusu,
Sayı sayımızdan beş dəfə çoxdur,
Təchizatda da bir müşkülü yoxdur".
Hörmətlə söz alıb İbrahim Yınal,
Dedi: "Düşmənlərə verilsə macal,
Kiçik bir zəfər də kifayət edər,
İnamsızlıqları yox olub gedər".
Toğrul dedi: "Gəlib öylə bir zaman,
Yatuq[103] olanlara verilməz aman.
Ya düşmənlə duraq savaşa gərək,
Ya dava-dalaşsız çəkilib gedək.
Qərbdə Qəzvin, Kərəc, Rey və Həmədan,
Gərəkli olarsa hətta İsfahan,
Əlimizdədirlər xeyli zamandır,
Arslan elatına tabe məkandır.
Çətin günümüzdə köməyə hər vaxt,
Gəlmək istəyibsə bu qardaş elat,
Razı olmamışıq bircə səbəbdən,
O elat gəlsəydi buraya qərbdən,
Rey, Qəzvin, Həmədan çıxardı əldən,
Qərar belə olub çünki əzəldən.
Qərbdə hökm etdikcə bu qardaş elat,
Biz də savaşmışıq meydanda rahat.
Sözsüz ki gedərdik o məmləkətə,
Düşsəydik çıxılmaz bir vəziyyətə.
İndi ki, yetişib belə bir məqam,
Əleyhimizədir vəziyyət tamam,
Fərqlidir qüvvələr nisbəti beş qat,
Yaxşı olardı ki, edək ehtiyat.
Ordunu qoruyub, girmədən hərbə,

Birbaşa yönəlsək buradan qərbə,
Tez sahib olarıq Azərbaycana,
Keçərik Arana, sonra Şirvana.
Çox çətin də olmaz bizə bu səfər,
Az vaxtda Dərbənddən Bağdada qədər,
Qurarıq qüdrətli, böyük bir dövlət.
Sonra... imkan versə əgər vəziyyət,
Yürüşlər edərik daha da qərbə,
Rum ölkəsinə də vurarıq zərbə".
Məclisə sakitlik çöksə də bir az,
Nəhayət bu fikrə edib etiraz,
Çağrı bəy söylədi: "Nə nənası var?
Biz qərbə getməyə versək də qərar,
Onsuz da labüddür sultanla savaş,
Bir xeyir gətirməz bizə bu təlaş.
Əlimizdədirsə bütün Xorasan,
Nə üçün Məsuda edək ərmağan?
Bitməz bu çəkişmə, bu müharibə,
Kimsə qazanmasa qəti qələbə.
Nə olsun ki, düşmən çoxdur beş dəfə?
Keçirsə qulamlar bizim tərəfə,
Demək bu orduda yoxdur intizam,
Sultana etibar, zəfərə inam.
Necə sultan Məsud iradəsizdir,
Öylə də ordusu idarəsizdir.
Ordu əminlikdə edirsə belə,
Düşsə bir savaşa, bir susuz çölə,
Qəznəvilər üçün olar fəlakət,
Əsgər sultana da etməz itaət.
Min dəfə soruşsaz, edərəm təkrar,
Mən qəti döyüşə verirəm qərar!"
Bu sözlər ilə də dəyişdi əhval...
Musa Bəyqu, sonra İbrahim Yınal,
Sonra digər bəylər danışdı bir-bir,

Hamı Çağrı bəylə oldu həmfikir.
Toğrul bəy sevinclə dedi: “Afərin,
Fikri savaşdırsa igid bəylərin!
Qələbə gətirsə savaş meydanı,
Sadəcə qərbi yox, bütün cahanı,
Bir anda bürüyər şan-şöhrətimiz,
Bu böyük zəfərə var qüdrətimiz!”

## HERAT ŞƏHƏRİNDƏ

Əyləşib taxtında halı pərişan,
Xeyli düşünərək nəhayət sultan,
Üzünü tutaraq Xacə Əhmədə,
Dedi: "Hər şey belə olunca sadə,
Dərin biliklərə yoxdur ehtiyac,
Çətin ki bu dərdə tapaq bir əlac...
Seçimə gələndə türk türkü seçir,
Qulamlarım düşmən tərəfə keçir.
Güvəndiklərimin sayı azalıb...
Türk əsgərlərindən kimlər ki qalıb,
Onlar da könülsüz girir savaşa,
Ya kənarda durub edir tamaşa.
Etibarsız qalıb olmuşuq xəcil,
İndi ordumuz da bir ordu deyil.
On min atlı türkün nədir ki qəmi,
Qaldırsan üstünə bütün aləmi?
Oğuz olduğunu demirəm hələ...
Bax, Xacə, bax budur əsas məsələ.
Beş ay türkmənlərin ardıyca düşdük,
O susuz çöllərdə çox da görüşdük.
Səraxs çöllərində sandım ki səhvən,
Böyük bir qələbə qazanmışam mən.[104]
Sandım ki, oğuzlar qorxaraq yəqin,
Ta Ceyhuna qədər qaçıblar[105] yeyin...
Heyranam onlarda olan qeyrətə,
And olsun, görəndə gəldim dəhşətə!
Yenə qayıtdılar, əvvəlki sayda!
Nə qədər düşündüm, vermədi fayda.
Bizim ordumuzda pozuldu əhval,
Bir neçə döyüşdə sonra dalbadal,
Oğuzlar hücumlar eylədi qəfil...
Yox, Xacə, kütlədir, bu ordu deyil.

Bu oğuzlar salıb bizi pis hala,
Hücum başlamamış qaçırıq dala...”
Xacə Əhməd dedi: “Əlbəttə, bu gün,
Uzaq səfərlərdən yorulmuş, üzgün,
Ordumuz gücsüzdür, zəifdir əgər,
Dincəlib özünə gəlsə bir qədər,
Asanca məhv edər hər bir düşməni,
Bir döyüşdə qırar min-min türkməni.
Məhz buna görə də oğuzlar ilə,
Sülh üçün bağladıq biz müqavilə...”
Sultan gülüb dedi: “Yəni sən, Xacə,
Bundan gözləyirsən yaxşı nəticə?
Bəllidir onların bütün niyyəti.
Nədir ki bu sülhün əhəmiyyəti?”
Xacə dedi: “Bizə çox xeyri vardır,
Ordumuz yorulub, bu ki aşkardır...”
Sultan gülümsünüb kinayə ilə,
Dedi: “Qorxub qaçdıq. Nə müqavilə?
Bilirik, Toğruldur onlara rəhbər,
O da ilk savaşdan axıra qədər,
Zirehi üstündən açmayıb bir an,
Ona yastıq olub yatanda qalxan.
Eləcə də onun hər bir əsgəri,
Qeyrətlə savaşıb əzəldən bəri.
Bax budur fərqimiz – iradə, qeyrət!
Bizim ordumuzda bulunmur fəqət...”
Nəsə xatırlayıb söylədi sultan:
“Bir şeyə də qaldım məəttəl yaman...
Oğuzlar bu səfər, gördünmü Xacə,
Zirehli-sursatlı gəldilər necə?!
Hardandır onlarda belə var-dövlət?”
Xacə dedi: “Xalqı edirlər qarət.
Bu Səlcuq elatı bilməyir aman,
Xərac verir ona bütün Xorasan.

Arslan elatının beş böyük bəyi,
Alıb Cəbəl[106], Qəzvin, İsfahan, Reyi,
Qoyun yunu kimi xalqı didirlər,
Səlcuq elatına yardım edirlər...”
Sultan qəzəbləndi: “Yalandır, yalan!
Boş uydurmalardır bu soyğun, talan.
And olsun, valilər və bu amillər,
Dedikləri qədər sadiq deyillər.
Nişapur qazısı və əyanları,
Xorasanın varlı zadəganları,
Bir kəlmə xoş sözə olaraq möhtac,
Könüllü verirlər Toğrula xərac.
Düşüb bu yaltaqlar əlacsız dərdə,
Sən də gözlərimə çəkirsən pərdə!
Heratda da vali, əyanlar, amil,
Rüşvətə aldanıb olublar rəzil.
Qeyrəti, şərəfi yerə atıblar,
Düşmənlərə zireh, sursat satıblar.
Bir kişi qalıbmı bu məmləkətdə?!
Bəlkə sən də varsan bu xəyanətdə?!”
Qəfil ittihamdan qorxuya düşdü,
Xacə Əhməd sanki tamam büzüşdü,
Dedi: “Qurban olsun sənə bu canım,
Öldür məni, əgər varsa yalanım...
Əsla xəyanətə çəkmərəm pərdə,
Hətta razıyam ki, sən bu şəhərdə,
Bərpa olsun deyə nizam-intizam,
Xəyanətkarları edəsən edam...”
Bir qədər yumşalıb dedi hökmdar:
“Mən artıq bu haqda vermişəm qərar.
Hər kimin bu işdə varsa təqsiri,
Edam etməliyik hər müqəssiri.
Asılsın hər biri dar ağacından,
Pay alsın düşmənə ehtiyacından.

Yalnız Əbu Təlha Şeybani qalsın,
O, gərək layiqli bir cəza alsın.
Bu acgöz, rüşvətxor, fitnəkar amil,
Rahat ölməyə də layiqli deyil.
Dərisi soyulsun ayaqdan başa,
Qoy bütün şəhər də etsin tamaşa!
Alıb xainlərin hər nəyi ki var,
Qatsın xəzinəyə baş xəzinədar!”

## ƏBU NƏSR ZƏVZƏNİN EVİNDƏ ZİYAFƏT

İndi Əbu Səhl Həmdəvi üçün,
Sanki bir il kimi keçirdi bir gün.
Bu hesabla uzun bir zaman idi,
Sərkərdənin halı pərişan idi.
Arslan elatından düşəndə söhbət,
Səsində, sözündə duyulan hörmət,
Çoxunun gözündən salmışdı onu,
Pis ola bilərdi bu işin sonu.
Hətta vəzirlə də küsdü, barışdı,
Əhvalı pozuldu, fikri qarışdı.
Ancaq bu deyildi qüssəyə səbəb,
Ruhu bir rahatlıq edirdi tələb.
Xırda bir şey üçün qaralır qanı,
Özünə qapanır, sıxılır canı.
Bəlkə qovmaq üçün qəmi, qüssəni,
Düzüb ona aid hərbi hissəni,
Baxış keçirsə də sərkərdə, yenə,
Sanki dərd etmişdi qəlbində binə.
Döyüşçülər getmiş, meydan boşalmış,
Həmdəvi hələ də yerində qalmış.
Əbu Nəsr Zəvzə uzaqdan görüb,
Atı sərkərdənin yanına sürüb,
Dedi gülə-gülə: "Şanlı sərkərdə,
Nə belə fikirli durub bu yerdə?
Mən səni evimə edirəm dəvət,
Məhv etsin kədəri gözəl ziyafət!"
Zorla gülümsünüb dedi Həmdəvi:
"Qəm-qüssə görməsin dostumun evi...
Şərəfli dəvətdən xeyli məmnunam,
Amma bağışla ki, yaman yorğunam".
Əbu Nəsr Zəvzə dedi: "Çox gözəl!

Kim ki, yorğun olur məclisdən əzəl,
Bilir ki, şərabdır bu dərdə dərman,
Ruha da, cismə də o verir fərman.
Nədimlər[107] süzdükcə badəyə şərab,
Çıxır yorğun candan bütün iztirab.
Sonra da mütrüblər[108] verib səs-səsə,
Bir rövnəq verdikdə gözəl məclisə,
Adam öylə sanır yeri cənnətdir,
Dünya başdan-başa bir ziyafətdir!"
Həmdəvi bir qədər tərəddüd etdi,
Nəhayət Zəvzəyə qoşulub getdi.
Yolda rastlaşdılar Beyhaki[109] ilə,
Zəvzə tutdu onu tez şirin dilə.
Çox da məmnun olub belə dəvətə,
Beyhaki də getdi bu ziyafətə.
Yol boyu söhbətlər edib baməzə,
Hətta Həmdəvini güldürdü Zəvzə.
Bir məzarlıq vardı yoldan aralı,
Görcək sərkərdənin dəyişdi halı.
Nə görünmüşdüsə sipəhsalara,
Durub xeyli baxdı qoşa məzara.
Əbu Nəsr Zəvzə taparaq fürsət,
Evdə sual verdi ona nəhayət:
"Xətrinə dəyməsin səmimiyyətim,
Könlünü almaqdır mənim niyyətim.
Məzarlığa xeyli yetirdin nəzər...
Nədir səni üzən bu qüssə, kədər?"
Həmdəvi söylədi: "Xeyli zamandır,
Ürəyim nədənsə çox nigarandır...
Canlanır gözlərim önündə hərdən,
Qorxunc hadisələr... Bilmirəm ki, mən,
Gerçəkdə görürəm, yoxsa yatmışam?
Xəyalı gerçəyə çoxdan qatmışam.
Gözlərim önündə qopur fəlakət,

Bütün vücudumu bürüyür dəhşət.
Oğuzları qırmaq məqsədi ilə,
Bilirəm ki, getsək bu səfər çölə,
Əlçatmaz olacaq bizə bu məqsəd,
Çöllərdə qalacaq minlərlə cəsəd.
Bizim ordumuzu ölüm izləyir,
O susuz çöllərdə məqam gözləyir.
Məni heyran etdi o qoşa məzar...
Hündür və naxışlı baş daşları var...
Nə qədər gözəlmiş... nə qədər rahat?!
Kəfənli-filanlı... gir, uzan və yat!
Son mənzil... Çöllərdə qırılsaq fəqət,
Çətin olsun bizə məzar da qismət!"
Əbu Nəsr Zəvzə dedi: "Əzizim,
Ədalət cəngidir cəngimiz bizim.
Bu şanlı savaşda ölərsə əgər,
Şəhid zirvəsinə yüksələr əsgər".
Həmdəvi dedi: "Bu gözəl sözləri,
O kəsə söylə ki, kordur gözləri.
Haram meydən içib gündə bir ümman,
Sonra deyirik ki "bizik müsəlman!"
Bizi bədbəxt edib bu haram şərab,
Ağlımız da çoxdan olubdur xarab.
Böylə qara pərdə çəkməklə gözə,
Necə olsun nəsib şəhidlik bizə?!
Xərabə könüldə iman nə gəzir?
Bu yaxında Xacə – hömətli vəzir,
Səlcuq bəylərinə elçi göndərib,
Onu da çaşdırıb, yoldan döndərib.
Elçi türkmənlərə söyləyib yalan,
And yeri də olub müqəddəs Quran!"
Beyhaki söylədi: "Bilirəm, ağam.
Mən bu həqiqəti danmayacağam".
Əbu Nəsr Zəvzə dedi gülərək:

“Yetər bu söhbətlər, boşlayın görək.
Lap tutalım yoxdur bizdə ədalət,
Bizdədir iqtidar, bizdədir qüdrət.
Möhtəşəm, çox güclü bir ordumuz var,
Həmdəvi kimi də bir sipəhsalar!”
Həmdəvi söylədi: “Belə bir yalan,
Bütün məmləkəti qoyacaq viran.
Əzizim, əyləncə sanma savaşı,
Soruş məndən, deyim, desin Sübaşı.
Gözümlə görmüşəm rəşadətini,
Arslan elatının cəsarətini.
Səlcuq elatından edəndə söhbət,
İgid Sübaşını bürüyür dəhşət.
Oğuz düşmənlərin baxmaz sayına,
Təkəbbür edənin durar vayına.
Onlara ad verdik – quldur, başkəsən,
Bəs özümüz kimik? Düşündünmü sən?
Haqsızlıqdan öylə bezib ki millət,
Qarğış yuvasıdır bütün səltənət.
Ölkədə sadə xalq ac-yalavacdır,
Bir tikə çörəyə çoxu möhtacdır.
Xalqı diri-diri amillər soyur,
Nə qarınları, nə gözləri doyur.
Ölkəni boğursa əlində rüşvət,
Bizdə nə qüdrət var, nə də ədalət.
Ordu məvacibdən çəkirsə korluq,
Gör nə həddə çatıb bu rüşvətxorluq?!
Bu səbəbdən qaçır minlərlə qulam,
Çünki insanlarda sarsılıb inam.
Dinsiz bir siyasət qurdusa vəzir,
Biz də susmaq ilə olduq müqəssir.
Məhv edir ölkəni məmur tamahı,
Sadə xalqın yoxdur burda günahı.
Çoxdan uğrayıbdır süquta bəlkə,

Rüşvət, yalan içrə boğulan ölkə.
Birdir, ikidirmi, beşdirmi günah?
Mütləq əvəzini verəcək Allah!
Görünüb gözümə bax bu həqiqət,
Labüddür savaşda böyük fəlakət!
Mən aqibətimi dərk etdim[110] bu gün,
Təkcə narahatam son mənzil üçün...”

## SONRAKI PEŞMANÇILIQ

Havalar bir qədər dəyişən kimi,
Sərin payız çağı yetişən kimi,
Ordunu qaldırıb, keçərək önə,
Düşdü sultan Məsud çöllərə yenə.
Getdi səlcuqların ardıyca ordu,
Bu xeyirsiz təqib hamını yordu.
Üç ay ordusuna vermədi aman,
Bezib, Nişapura yönəldi sultan.
Elə ki, uzaqdan ordu göründü,
Şəhər əhalisi yasa büründü.
Camaat tapmırdı bir qarın çörək,
İndi gəl ordunu yedizdir görək!
Bir deyil, beş deyil... yüz min əsgəri!
Necə bürüməsin kədər şəhəri?!
Həm də on minlərlə iri heyvanat,
Fil, dəvə, qatır, at... Yazıq camaat!
Ordu da acından üzülmüş tamam,
Nə qədər boşuna sülənər adam?!
Ümidlərlə gələn hər bir əsgəri,
Soyuq qarşıladı paytaxt şəhəri.
Əlavə vergilər yığıldı bu vaxt,
Tədbirdən kənarda qalmadı paytaxt.
Başqa şəhərlərdən azuqə gəldi,
Beləcə vəziyyət bir az düzəldi.
Böyük qənaətlə ordu birtəhər,
Qaldı Nişapurda bahara qədər.
Elə ki, torpağı oyatdı bahar,
Herata getməyə verildi qərar.
Otlaqla nisbətən zəngindir Herat,
Tam qidalanardı orda heyvanat,
Məktub gəlməsəydi Bağdaddan əgər...
İstiqamətini dəyişdi səfər.

Bu haqda sultanla danışıb bir az,
Xacə Əhməd etdi buna etiraz.
Sultan da fikrindən dönmədi yenə,
Dedi: “Xacə Əhməd, məlumdur sənə,
Bağdad xəlifəsi namə göndərib,
Bu namə də bizi yoldan döndərib.
Gör bir necədir ki, qərbdə vəziyyət,
Xəlifə də yazıb edir şikayət!
Xahiş eyləyir ki, yaxın zamanda,
Sakitlik yaradıb mən Xorasanda,
Gedib İraqı da sahmana salım,
Oranı nəzarət altına alım...”
Xacə Əhməd dedi nəzakət ilə,
Ehtiyatdan doğan bəlağət ilə:
“Ey Şihab əd-Dövlə və Qütb əl-Millə,
Əbu Səid ibn Əmin əd-Dövlə,[111]
Biz bu türkmənləri sandıqca zəif,
Ortaya müşküllər çıxır müxtəlif.
Gözlədikcə çıxır hər şeyin zayı,
Artır oğuzların günbəgün sayı.
Bizim ordumuz da azalıb... bir az,
Belə olan halda gözləmək olmaz.
Hücum etməyin də mənası yoxdur,
Bunlar sanki yaydan çıxmış bir oxdur.
Çöllərə qaçırlar, hey qovuruq biz,
Yuxumuza girir qoyduqları iz”.
Sultan dedi: “Xacə, bu günə qədər,
Etmişik savaşda böyük bir xətər.
Yükümüz çox ağır olub hər zaman,
Sürətli yürüşə verməyib imkan.
Aradan qaldırdıq artıq bu səhvi,
Artıq labüd olub düşmənin məhvi.
Qoşundan ayrıdır indi təminat,
Qoy hərəkət etsin çöllərdə rahat.

Təhlükə bürüyüb bütün ölkəni,
Bu dəfə yolumdan döndərmə məni.
Ordunun zəfərə yetər qüdrəti...
Çünki, Xacə, bizə yaraşmaz qəti,
Bu oğuzlar ilə ölkə bölüşmək,
Otura-otura nüfuzdan düşmək”.
Susdu... sonra yenə danışdı sultan:
“Xacə, bu doğrudur, yoxsa ki böhtan?
Deyirlər ki, elçi türkmənlər ilə,
Danışıq zamanı güc verib dilə,
Yalandan Qurana and içib. Söylə,
Sənmi öyrətmisən elçini böylə?”
Yaltaq-yaltaq gülüb söylədi vəzir:
“Ömrün uzun olsun, qüdrətli əmir,
Elçinin and yeri olub ki Quran,
Güya bu söhbəti bilməyir sultan.
Deyib ki, sülh ilə baş tutsa bu iş,
Vəzir də sultandan edəcək xahiş.
Sultan bağışlayar günahlarını,
Xoşluqla qoysalar silahlarını...”
Bir az fikirləşib söylədi sultan:
“Sənin də içində hökm edir şeytan...
Bu böyük səltənət edir intihar...
Şərabdan təsəlli uman hökmdar,
Yalandan Qurana and içən vəzir...
Güvənc yerlərində şeytanlar gəzir.
Dönüb məmurların dininə rüşvət,
Bürüyüb ölkəni aclıq, cəhalət.
Bir ümid yeri var, baş tutsa əgər,
Xilas edər bizi mükəmməl zəfər”.
Sərkərdələr yürüş əmrini aldı,
Ordu bu qərardan narazı qaldı.
Artıq yersiz idi bu giley-güzar,
Səraxsa getməyə verilmiş qərar.

Getdi Nişapurdan Səraxsa ordu,
Nəhayət şəhərə yetişib durdu.
Məəttəl qaldılar yetirib nəzər,
Sanki yerli-dibli köçübdür şəhər.
Üç-dörd nəfər ilə gəldisə vali,
Gözə dəyməyirdi yerli əhali.
Vali tez vəzirə verdi məlumat,
Güya belə olmuş bütün əhvalat:
"Çox erkən başladı istilər bu il,
Üstəlik Səraxsı eyləyib mənzil,
Oğuzlar burada qaldığı zaman,
Bütün əyaləti etdilər talan.
Nə qədər ot vardı yedi heyvanat,
Baş götürüb getdi burdan camaat.
Şəhər boşalıbdır, az qalıb adam,
Onlar da ki, qarət olunub tamam".
Vəzir bu olayda bir xeyir duyub,
Birinin üstünə beşini qoyub,
Vali deyənləri dedi sultana.
Düşündü ki, sultan bəlkə dayana,
Bəlkə oğuzları təqib etməyə,
Onların ardıyca Mərvə[112] getməyə.
Sultan yenə qurdu gizli məşvərət.
Herata dönməkdən düşüncə söhbət,
Sultan dedi: "Sizi dərk etmirəm mən,
Bizi bunca təhqir edirsə düşmən,
Qorxub qaçmaqdırmı doğru məsləhət?!
Varmı sizdə qürur, şərəf, ləyaqət?!
Hər dəfə verəndə mən qəti qərar,
Siz onu qorxudan etmisiz inkar.
Elə ayaq üstdə ölüb qalmısız,
Bütün məmləkətə nifaq salmısız.
Görüb öz işini bu dedi-qodu,
Etibar etməyir sultana ordu!"

Vəzir təzim edib dedi: “Hökmdar,
Deyərdim fikrimi versən ixtiyar”.
Sultan dedi: “Buyur, verirəm aman,
Amma fikrini de, danışma yalan”.
Vəzir dedi: “Səni qorusun Allah,
Bağışla, əgər ki edirəm günah.
Üzrlü saysınlar sipəhsalarlar,
Yəqin ki, fikrimdən razı qalarlar.
Əmirim, inamsız bir ordu ilə,
Müşküldür ki, zəfər gələ hasilə.
Düşmənə qoşulub minlərlə qulam,
Özü də gedənlər türklərdir tamam.
Say-seçmə qoşunda budursa halət,
Herata getməkdir doğru məsləhət...”
Sultanın qəzəbi həddini aşdı,
Vəzir, sərkərdələr – hamısı çaşdı.
Boğuq bir səs ilə bağırdı sultan:
“Bu məsləhət deyil, üsyandır, üsyan!
Əzəldən bu işdə mənəm günahkar,
Nahaq etdim sənə hədsiz etibar.
Heyif döndərdilər fikrimdən məni,
İt kimi qovurdum saraydan səni.
Hər yana hay salıb qopardın fəryad,
Dediyin “türklər”dən yetişdi imdad.
Səni xilas etdi o Arslan Cazib,
Çünki inanırdı sənə o hacib.
Sən isə məkrli siyasətinlə,
Öz soydaşlarınla, məharətinlə,
Cazibin oğlunu incitdin yaman,
Keçdi türkmənlərə tərəf Süleyman.
Onunla birlikdə iki min qulam...
Sən kimi edirsən indi ittiham?!
Bir sürü acgöz it, rüşvətxor, yaltaq,
Məni özləritək sanırlar qorxaq.

Əcəl yetişəndə verirmi aman,
Qaçıb gizlənsə də evində insan?
Qaçmaqla, Herata getməklə bu gün,
Zəmanət verirsiz sağ qalmaq üçün?!
Bilərək ki, yoxdur başqa yolumuz,
Nə üçün süstəlsin vuran qolumuz?!
Dəfələrlə böyük bir orduyla biz,
Türklərin önündə qalmışıq aciz.
Çünki onlarda var şərəf, sədaqət...
Əgər olsa mənə bir daha qismət,
Sizin hamınızı edərək edam,[113]
Bir dövlət quraram başqa cür tamam.
Əfsus! Əfsus, sizə hədsiz inandım,
Əslimi, soyumu, kökümü dandım!”

## ACI ÇÖLÜNDƏN DƏNDƏNƏKANA QƏDƏR

Qəznəvi ordusu zorla sürünür,
Nə əvvəli nə də sonu görünür.
Bu susuz çölləri yandırır günəş,
Sanki yerdən, göydən püskürür atəş.
Cadar-cadar olmuş istidən torpaq,
Çay vadilərində qopur tozanaq.
Sanki yüz il əvvəl ölmüş təbiət,
Yoxdur yer üzündə ondan əlamət.
Bir yandan əsgəri vurur isti meh,
Zindana çevrilir əynində zireh.
Çıxdıqca canından damla-damla tər,
Cansız müqəvvaya çevrilir əsgər.
Səraxsdan çıxandan çoxu qalmış ac,
Bir içimlik suya əksəri möhtac.
Bütün heyvanat da böylə sıxılır,
Gah orda, gah burda atlar yıxılır.
Acı çöləndədir[114] Səlcuq elatı,
Onun da pozulmuş adi həyatı.
Ölümcül istidə qışlaqda qalmış,
Üstünü də böyük təhlükə almış.
Çoluq-cocuq çəkir yaman əziyyət,
Günbəgün pisləşir çöldə vəziyyət.
Qadın, cocuq, qoca su çəkir hər gün,
Bir neçə quyudan heyvanat üçün.
Günorta edirlər kiçik fasilə,
Çünki sürü, ilxı var minlər ilə.
Səlcuq ordusu da düzülüb səf-səf,
Yürüyürdü Mərvdən düşmənə tərəf.
Ayırıb qoşundan dörd min süvari,
Toğrul bəy sursatla göndərdi geri.
Həm qorunmalıydı arxada elat,

Həm də göndərdiyi ehtiyat sursat.
İyimi min atlı arxada gedir.
Öndəki dəstəyə nəzarət edir.
Öndəki dəstədə beş min süvari,
İki rəhbəri var. Onlardan biri,
Börü-Təgin idi – igid qəhrəman,
Digəri Cazibin oğlu Süleyman.
Bu sərkərdələrə bir qədər əvvəl,
Toğrul xəbərdarlıq etdi mükəmməl.
Çünki Süleymanla iki min qulam,
Qazanmışdılarsa müəyyən inam,
Börü-Təgin ilə üç min əsgəri,
Çox şübhəli idi gələndən bəri.
Bu Börü-Təginə gəlmişdi namə,
Məsud Qəznəvidən! Qopdu həngamə!
Börü-Təgin özü çaşdı az qala,
Toğrul tutdu onu sorğu-suala.
O da çox asanca eylədi izah:
“Toğrul bəy, bu işdə yoxdur bir günah.
Çöldə məni təqib etdiyi zaman,
Namə göndərdim ki, əfv edə sultan.
Sonra mən sizlərdən xəbərdar oldum,
Üç min əsgərimlə sizə qoşuldum.
Yəqin uzun müddət axtarıb məni,
İndi çatdırıbdır çapar naməni.
Doğrusu, məəttəl qalmışam mən də,
Bilirəm, şübhələr yaranıb səndə.
Sına ilk döyüşdə, belədir əgər,
Silahdaşam sənə axıra qədər!”
İndi açılmışdı qarşuda meydan,
Gərək Börü-Təgin, gərək Süleyman,
Meydanda göstərib məharətini,
Sübut eyləsin öz sədaqətini...
Uzaqda çöl birdən toza büründü,

Düşmən ordusunun önü göründü.
Bütün tapşırıqlar olunca bəlli,
Oğuz bölmələri cumdu irəli.
Hər bölmə mükəmməl nizamla gəlir,
Ox, mizraq düşmənin bağrını dəlir.
Hər hücum yerində fəlakət olur,
Yer qana boyanır, cəsədlə dolur.
Hücum eylədikcə oğuzlar qol-qol,
Alıb aparırlar qənimət bol-bol.
Sultan Məsud baxıb yürüş səfinə,
Çalışdı ki, keçsin döyüş səfinə,
Lakin səpələnmiş bir ordu üçün,
Bu qısa müddətdə deyildi mümkün.
Qırılır ortada yüz-yüz əsgəri,
Arxadakıların yoxdur xəbəri.
Baxıb ordusuna xeyli pərişan,
"Bu ordu məhv olur!" söylədi sultan.
Üç sərkərdəsini çağırdı deyə,
Tez gəldi Bəg-Doğdu, Sübaşı, Dayə.
Sərkərdələri də bürümüş dəhşət,
Çaşdırmış onları ağır vəziyyət.
Görəndə ki, yoxdur əhəmiyyəti,
Sultan qısa etdi bu məşvərəti:
"Qarşıda qala var, yaxın məkandır,
O qalanın adı – Dəndənəkandır.
Ordu var gücüylə edib hərəkət,
Qala ətrafına çatıb nəhayət,
Döyüş nizamında durmasa əgər,
Bir günün içində məhv olub gedər.
Son qətiyyət ilə edin idarə,
Çatdırın ordunu dediyim yerə!"

## 22 – 24 MAY 1040-CI İL DƏNDƏNƏKAN DÖYÜŞÜ

Oğuz bölmələri durmadan bir an,
Vurur düşmənləri vermədən aman.
İllərlə gözləyib belə bir fürsət,
Arzuya yetdilər bu gün nəhayət.
Bir tərəfdən gəlir Çağrının səsi,
Tərən-pərən olur rəqib cərgəsi.
Toğrul bəy ordunun bir qolu ilə,
Digər yerdən edir düşmənə həmlə.
Başqa bir dəstə də döyüşür gərgin,
Şücaət göstərir mərd Börü-Təgin.
Börü-Təgin ilə durub yanbayan,
O qəznəviləri qırır Süleyman.
Sursat almaq üçün yaradıb macal,
Dəyişir Çağrını İbrahim Yınal.
Toğrul həmləsini vurunca başa,
Musa dəstəsini atır savaşa.
Zirehlər parlayır, kamanlar atır,
Nalədən, fəryaddan qulaqlar batır.
Hərdən vıyıldayıb yüzlərlə mizraq,
Düşmən cəsədindən yaradır qalaq.
Hər oğuz qılıncı şiddətlə vurur,
Önündə nə zireh, nə qalxan durur.
Yerdə ayaqlanır bir neçə sancaq,
Tökülüb çöllərə dəbilqə, qolçaq.
Ürkür bu şiddətdən dəvələr, fillər,
Qorxudan, təşnədən quruyub dillər.
Sanki dörd tərəfdən qapanıb tələ,
Lakin qəti zəfər deyil bu hələ.
Bir yerdə toplayıb hacib Ərtəgin[115],
Qəznə ordusundan süvari on min,
Nizamla düzərək səfərbər etdi,

Davud Çağrı bəyin üstünə getdi.
Nizamla arxaya çəkildi Çağrı...
Təqib edənlərin yarıldı bağrı,
Qarşıda piyada oxçular vardı!
Sayları on beş min nəfər olardı...
Bir anda ox atdı on beş min kaman,
Günəşin önünü kəsdi bu leysan.
Qırıldı qəznəvi süvariləri,
Sağ qalanları da qaçdılar geri.
İndi ki, qaçmağa uz tutdu rəqib,
Oğuz süvarisi eylədi təqib.
Çağrı Ərtəginə çaparaq çatdı,
Fırlayıb kəməndi boynuna atdı.
Ərtəgin yıxıldı, titrədi, əsdi,
Bir oğuz cəld onun başını kəsdi.
Gəldi Ərtəginin qara xəbəri,
Bu xəbər sarsıtdı qəznəviləri...
Nəhayət yetişdi qalaya sultan,
Böyük qala idi bu Dəndənəkan.
Sultan bir təpənin üstünə çıxdı,
Baxdı ordusuna... dərd onu sıxdı.
Düşündü: "İnamdan, şərəfdən məhrum,
Bu ordu edilib ölümə məhkm.
Çətin ki bir daha göstərib hünər,
Nə vaxtsa qazansın kiçik bir zəfər.
Hər nə olur olsun... qısa zamanda,
Ordu toplaşacaq Dəndənəkanda".
Sultan çox düşündü, çox fikrə getdi,
"Mənə su gətirin!" deyə əmr etdi.
Qoşun dəstə-dəstə gəldikcə üzgün,
Cumur quyulara su içmək üçün.
Qalanın içində var yeddi quyu,
Nisbətən təmizdir bunların suyu.
Hər nə quyu vardı qaladan kənar,

Leş atılıb, suyu edilib murdar.
Ordunun əhvalı bir az düzəldi,
Son bölmələri də qalaya gəldi.
Xilas yeri oldu bu Dəndənəkan,
Amma döyüşçülər susuz, yarıcan...
Sultan çadırında oldu yığıncaq,
O da bir səmərə vermədi ancaq.
Sultan bir-bir baxdı sərkərdələrə,
Üzlərində olan ifadələrə...
Müşahidə əmin etdi ki onu,
Artıq ordusunun yetişib sonu.
Həm çöldə, qırğında itki qədəri,
Həm də Ərtəginin ölüm xəbəri,
Hədsiz artıraraq qüssə, qəmini,
Sarsıtmış onların döyüş əzmini.
Susmuşdu Sübaşı, susmuşdu Dayə...
Sultan Məsud qatıb sözə kinayə,
Dedi: "Çindən tutmuş ta Ruma qədər,
Bütün savaşlarda şanlı, müzəffər,
Böyük sərkərdələr! Nə olmuş sizə,
Qorxaq dovşan kimi dəyirsiz gözə?"
Əli Dayə dedi: "Şanlı hökmdar,
Nə qədər ki, mənim cismimdə can var,
Sadiq nökərinəm, qulunam sənin,
Yoxdur ədalətdə, qüdrətdə tənin.
Sübaşı da öylə sadiqdir sənə,
Hacib Ərtəgin də çıxaraq önə,
Verərək döyüşdə canını qurban,
Bunu sübut etdi, şərəfli sultan.
Əgər çıxmasaydı o mərd meydana,
Çatmazdı ordumuz Dəndənəkana".
Sultan Məsud dedi: "Gözəl! Çox gözəl!
Böyük fəthlərdən sevinib əzəl,
İndi qaçmaq ilə duydun fəxarət,

Sağ qalmağı bizə sandın şərafət!”
Dayə dedi: “Bizi çəkərək çölə,
Oğuzlar qurdular mükəmməl tələ.
Susuzluq ordunu salmışdı əldən...”
Sultan dedi: “Yaman itisən dildən!
Şiddətli hücuma dözə bilmədin,
Ordunu səflərə düzə bilmədin!
Deyirsən ki, ordu susuz qalmışdı...
Bəs oğuzlar suyu hardan almışdı?!
Məgər oğuzların canı can deyil,
Məgər dediklərin ağ yalan deyil?!
Bəli, Əli Dayə, yalandır, yalan!
Gərək həqiqəti düz desin insan.
Oğuzlarda olan nizam-intizam,
Rəşadət, cəsarət, zəfərə inam,
Bizim ordumuzda yoxdursa, əfsus,
Ya etiraf eylə, ya danışma, sus!”
Xacə Əhməd dedi: “Qurbanın olum,
Hər vaxt sülhə doğru yönəlib yolum.
Bəlkə sülh bağlayaq oğuzlar ilə?
Qazanıb savaşda kiçik fasilə,
Buradan birbaşa Herata getsək,
Qəti bir savaşa hazırlıq etsək...”
Sultan Məsud kəsdi onun sözünü:
“Qorxaq tülkü, sən də az öy özünü!
Yalandan Qurana and içən idbar!
Kim sənin əhdinə edər etibar?!
Yaxşı tanıyıram hər birinizi,
Rədd olun, gözlərim görməsin sizi!”
Bu qorxulu sözlər bitməmiş hələ,
Çıxdı məclis əhli çadırdan çölə.
Sultanın qəzəbi soyuyan kimi,
Əmr edib çağırdı tez münəccimi.
Bir canfəşanlıqla eyləyib təzim,

Sözünə bal qatıb dedi münəccim:
“Ömrün uzun olsun, şanlı hökmdar,
Yaradan xəlq edib səni bəxtiyar!
Parlaq bəxt ulduzun heç vaxt sönməsin,
Kədərin dəf olsun, geri dönməsin...”
Sultan dedi: “Qoca, edər kifayət!
Nə bəxtiyarlıqdan açmısan söhbət?
Toyuq-cücə kimi qırırlar bizi,
Bəxtim çoxdan dönüb, görünmür izi...”
Münəccim söylədi: “Yox, sənə qurban,
Bilirsən ki, yoxdur dilimdə yalan.
Mən ki həm falçıyam, həm də münəccim,
Həm də ki, bilirəm min cadu-tilsim”.
Sultan dedi: “Qoca, öymə özünü,
Söyləyirsən əgər söylə düzünü.
Çünki casuslarım gətirib xəbər,
Oğuzlarda da var falçı cadugər.
Guya bu falçını Davud qovubdur,
O da Yınal ilə yaxın olubdur.
İbrahim Yınala deyib cadugər,
Oğuzlar hücuma keçsələr əgər,
Zəfər qazanarlar Dəndənəkanda,
Hökmdar olarlar bütün cahanda.
Doğrudur, bilirəm, bir neçə casus,
Düşmən tərəfinə keçiblər əfsus.
Satılıb onların çoxu düşmənə,
Yalan məlumatlar verirlər mənə.
Heç olmasa sən de sözün düzünü...”
Münəccim bir qədər döyüb gözünü,
Dedi: “Ey sahibi-külli ixtiyar,
Ulduzlar eyləyib məni xəbərdar.
Sabah tərk etməsən Dəndənəkanı,
Bu uğursuz yeri, qanlı məkanı,
Ölüm qəfəsində sıxılar canın,

Bağışla, bağışla, olum qurbanın.
Ulduzlar qurduğu qara məngənə,
Qəznə şəhərində toxunmaz sənə".
Sultan gülümsündü: "Göylər də dönüb,
"Parlaq" söylədiyin ulduz da sönüb.
Ya Arslan Yabqu ki, həbs etdi atam,
Ya da Yağmur bəylə o əlli adam,
Ya da müqəddəsmiş bütün oğuzlar,
Məndən qisas alır göylər, ulduzlar...
Sanmır bu oğuzlar bizi müsəlman,
Deyirlər – dinsiz bir kafirdir sultan...
Get, qoca, get dincəl sübhədək rahat,
Qəznəyə qaçmaqla taparıq nicat..."
Tanrının rəhmiylə açılan səhər,
Oğuz türklərinə gətirdi zəfər.
Qala ətrafında oldu bu görüş,
Başlandı tarixə yazılan döyüş.
Cazibin oğluna verildi fərman,
İki min atlıyla getdi Süleyman.
Hacib Bəg-Doğduyla altı min nəfər,
Mükəmməl təlimli süvari əsgər,
Süleymana qarşı etdi hərəkət,
Təmas nöqtəsində dəyişdi niyyət.
Rəqiblər dayanıb baxdılar bir an,
Bir sevinc yerinə çevrildi meydan.
İllərlə bir yerdə xidmətdə olan,
İllərlə dostluqda, ülfətdə olan,
Qulamlar dost kimi görüşüb yenə,
Möhkəm sarıldılar biri-birinə.
Bəg-Doğdu məəttəl qaldı bu işə,
Sonra da bu hacib düşdü təşvişə.
Çox ağır olacaq bu işin sonu,
Yəqin sultan Məsud əfv etməz onu.
Düzüb bölməsini qayıtdı geri...

Amma qulamların dörd yüz nəfəri,
Cazibin oğlunun yanında qaldı,
O da bir savaşsız qələbə çaldı.
Sonra Börü-Təgin hücuma keçdi,
Önünə çıxanı ot kimi biçdi.
Toğrulun əmriylə yürüyüb ordu,
Düşmən ordusuyla üz-üzə durdu.
Qəznəvilər düşdü elə bir hala,
Oğuzlar gəldikcə qaçdılar dala.
Oğuzlar cumduqca hey qətiyyətlə,
Qarşılaşmadılar müqavimətlə.
Silahını atır, zirehi açır,
Minlərlə qəznəvi çöllərə qaçır,
Ərəblər bir yana, kürdlər bir yana,
Hindlilər yəqin ki, düz Hindistana...
Oğuz ordusu da təqib edirdi,
Nəhayətsiz çöldə qırğın gedirdi.
Cəmi min nəfərlə qalmışdı Məsud,
Hətta döyüşürdü övladı Məvdud.
Çaparaq gəlmişdi bir sərkərdəsi,
Həyacandan gücə çıxırdı səsi.
Bağırdı: "Sultanım, dayanma əbəs,
Qaç canını qurtar, yubanma, tələs!"
Öldü, söyləyərək bu son sözləri,[116]
Dikildi hamının ona gözləri.
Bir oğuz dəstəsi elə bu zaman,
Bir qədər uzaqda açaraq meydan,
Önünə çıxanı edərək tələf,
Sürətlə gəlirdi sultana tərəf.
Bir sultan qulamı, hündür, cüssəli,
Atını çaparaq cumdu irəli.
Bir oğuz mizraqı tuşlayıb atdı,
Mizraq boğazına qulamın batdı.
Bu zərbədən qulam atından aşdı,

Görüb hadisəni sultan da çaşdı.
Özünə gələrək tez mindi filə...
Son müqavimət də qırıldı belə.
Daha yubanmadan, durmadan bir an,
Qaçdı şərqə doğru sürətlə sultan.
Hər imkan düşdükcə düşməni əzib,
Oğuzlar bir müddət etdilər təqib.
Qırıldı təqibdə o qədər adam,
Qaldı sultan ilə yüz nəfər qulam.
Sultan Məsud qaçıb Qəznəyə yetdi,
Qısa bir zaman da sultanlıq etdi.

## BÖYÜK İNSAN – DAVUD ÇAĞRI BƏY

Allahın rəhmiylə dəyişən dövran,
Məhəmməd Toğrulu eylədi sultan.
Sürəkli və ağır bu müharibə,
Oğuza gətirdi şanlı qələbə.
Oğuzlar göstərib misilsiz hünər,
Sonda qazandılar möhtəşəm zəfər.
Artıq keçilmişdi Qəznəvi səddi,
Yox idi sevincin hüdudu, həddi.
Qurmaq istəyərkən Toğrul ziyafət,
Çağrı bəydən aldı öyüd-nəsihət:
"Qardaşım, bu zəfər şanlı zəfərdir,
Dünyanı gəzəcək böyük xəbərdir.
Lakin şərab kimi məst edib səni,
Dumanlandırmasın saf əqidəni.
Çünki bu zəfər də son deyil hələ,
Açılıb qarşıda böyük mərhələ.
Tanrının bəxşidir, fürsətdir bu gün,
Onu sərf eyləmə bayramlar üçün.
Mükəmməl bir dövlət qurmasan əgər,
Bir dirhəmə dəyməz bu şanlı zəfər".
Toğrul gülüb dedi: "Bəs axı dünən,
Ordunun önündə dayanaraq sən,
Qürurla söylədin "Bizimdir cahan!",
Məgər bu tezliklə dəyişər insan?"
Çağrı dedi: "Bəli, doğrudur sözüm,
Tərəddüdsüz buna əminəm özüm.
Lakin bir şərt ilə, çəkərək zəhmət,
Mütləq qurmalısan qüdrətli dövlət.
Bu gün əmrindədir bütün Xorasan,
Gərək burda möhkəm özül qurasan.
Elə ki, yaratdın nizam-intizam,

Yeni mərhələyə səsləyər məqam.
Əvvəlcə alarsan yaxın Cürcanı,
Sonra fəth edərsən Təbəristanı.
Ehtiyac olmadan böyük bir hərbə,
Tezliklə Xorasan qovuşar qərbə.
Reydən Ruma qədər xeyli zamandır,
Arslan elatının hökmü rəvandır.
Bu yolla, qardaşım, qısa zamanda,
Bir özül quraraq sən Xorasanda,
Herat yörəsindən düz Ruma kimi,
Böyük bir ölkənin olub hakimi,
Zirvədən dünyaya baxıb o zaman,
Xatırlayarsan ki, “Bizimdir cahan!”
Görərsən ki, deyil bu sözüm xülya,
Çünki güclülərə baş əyir dünya!”
Toğrul bəy soruşdu təəccüb ilə:
“Bilmirəm nə üçün söylədin belə?
Mənə aid etdin bu işi yalnız...
Yoxsa qoydun məni meydanda yalqız?
Axı nə etdiksə bu günə qədər,
Qardaşım, səninlə etdik bərabər.
Sən bu doğmalığı nə tez unutdun?
Hər çətin günümdə əlimdən tutdun...
Ağır döyüşlərdə çıxaraq önə,
Canlı qalxan oldun hər dəfə mənə.
Sənin öyüdlərin, nəsihətlərin,
Doğru qərarların, məsləhətlərin,
Qələbə gətirdi bizə nəhayət,
Nə tez usandırdı səni bu vəhdət?”
Çağrı gülümsünüb söylədi: “Toğrul,
Qarşıda bircə şey qalsaydı məchul,
Yenə də sinəmi edərdim sipər,
Təki qardaşıma dəyməsin xətər.
Qəznəlilər idi qarşıda əsas,

Artıq düşmənlərdən alınıb qisas.
Bircə düşmənimiz qalıb – şah Məlik,
Özündən çox razı gəzir hələlik.
Biz qəznəvilərlə vuruşan zaman,
Şah Məlik üçün də yaranıb imkan.
Cənddən çıxıb böyük orduyla dərhal,
Xarəzm ölkəsini eyləyib işğal.
İsmayıl[117] döyüşdə olaraq məğlub,
Oğuz bəylərinə göndərib məktub.
Məktubun məzmunu məlumdur sənə...
Yenə əski dostluq çəkilib önə.
Xarəzmi çətində qoymayaq gərək,
Çünki babalarmız kəsib duz-çörək.
Həm əzəldən vardır ittifaq, saziş,
Həm də Börü-Təgin eyləyir xahiş.
Seçmişiksə səni ümumi rəhbər,
Tezliklə bir ordu eylə səfərbər.
Məhv edilməlidir bu qatı düşmən...
Börü-Təgin ilə yola düşüb mən,
Gedib birləşərik İsmayıl ilə,
Onun da nəyi var?.. bilinmir hələ.
Hər halda Məlikin kəsib yolunu,
Qoymarıq tam açsın o əl-qolunu.
Sən də ordu ilə tez köməyə gəl,
Gərək bu zəfər də olsun mükəmməl.
Toğrul... hiss edirəm... bu axır zaman,
Səhhətim pisləşib, incidir yaman...
Yox, yox... dərd olmasın bu heç də sənə,
Nə zaman səsləsən gələrəm yenə.
Amma bundan sonra, edirəm əmin,
Sənə bir nəsnə də görünməz çətin.
Həmd olsun Allaha, vəhdətimiz var,
Güclü ordumuz var, qüdrətimiz var.
Ölkədə bolluq və sabitlik yarat,

Adını hörmətlə çəksin camaat.
Əvvəl kökünü kəs sən bu rüşvətin,
Heç zaman büdrəməz haqq-ədalətin.
Orduyla dövlətin vəhdətini qur,
Sonra labüd olar hər işdə uğur.
Qoy aləm danışsın, desin hər insan:
"Məhəmməd Toğruldur ən böyük sultan!"
Tanrı hifz eyləsin səni, qardaşım,
Şərəfli adınla ucalsın başım!"
Toğrul doluxsunub dedi: "Bəxtəvər!
Sən böyük insansan, sən böyük bəşər!
Uca Səlcuq – babam, atam – Mikail,
Əmim – Arslan Yabqu – igid İsrail,
Davud Çağrı bəy də – qardaşım mənim,
Haqdır ki, cahanda tapılmaz tənim!
Rəhm etsin Tanrımız, o böyük Xaliq,
Bu dahi şəxslərə mən olum layiq.
Atamız Mikail şəhid olarkən,
Dərdin ağrısını duymuşdumsa mən,
Əsla ağlamadım... olsam da cocuq,
Çünki həm sən vardın, həm babam Səlcuq.
Səni babamızdan sanırdım uca,
Mənə həm dost idin, həm müdrik xoca.
At sürmək, ox atmaq, qılınc vurmağı,
Gözə dik baxmağı, möhkəm durmağı,
Öylə ki, düşmənin yarılsın bağrı,
Mənə sən öyrətdin, qardaşım Çağrı...
Səlcuqun, Arslanın arzu, niyyəti,
Bu idi – quruldu Oğuz dövləti!
Biz mübarizəyə durandan bəri,
Gerçəkdə sən oldun elin rəhbəri.
Ən ağır zamanda, ən çətin gündə,
Öylə nur görmüşük sənin üzündə,
Artıb iradəmiz mətanətindən,

Puç olub tərəddüd cəsarətindən,
Hər oğuz göstərib misilsiz hünər,
Sənin zəhmətindir bu şanlı zəfər!
Sən mənə bir daha söyləmə “böyük”,
Haqsızlıqdan qırar belimi bu yük.
Saf qəlbin səsidir, gəlir dilindən...
İcazə ver öpüm sənin əlindən!
Atamın, babamın əvəzi qardaş!”
Axdı Toğrul bəyin gözlərindən yaş...

## GÖZLƏNİLMƏZ GÖRÜŞ

Xarəzmşah ilə gəldi bərabər,
Süvari dəstəsi, iki min nəfər.
Davud Çağrı bəylə görüşən zaman,
İsmayıl Xəndan şah sıxıldı yaman.
Görüb qardaşını, Börü-Təgini,
Son ümidlərdən də üzdü əlini.
Davud gülümsədi: "Nə durdun, igid?
Özün etmədinmi görüşə təkid?
Yəqin ki, şaşırdın belə tədbirdən,
İki qardaş gəlmiş köməyə birdən.
Əmim Arslan ilə atan Altuntaş,
Elə bil olublar doğmaca qardaş.
Öylə dost olublar, öylə mehriban,
Onu doğma əmim sanmışam, inan.
Bu gözəllik xasdır Türk millətinə,
Dostluqda şübhə yox sədaqətinə.
Gərək dəyişəsən İsmayıl, qəti,
Börü-Təgin ilə münasibəti.
Qardaş arasında söz-söhbət olar,
Mehribançılığa bir ibrət olar.
Bilərsən qədrini qohum-qardaşın,
Gərəksiz müşkülə qarışmaz başın.
Aydındır ki, elin olsa vəhdəti,
Birə min qat artar gücü, qüdrəti.
Almaq istərsənsə düşməndən qisas,
Bilərək vəhdətdir qüdrətə əsas,
Söz desəm sözümü salmazsan yerə?...
Cavab verməmişdən düşün bir kərə".
İsmayıl söylədi: "Əstəğfürullah!
Böylə təkəbbürdən qorusun Allah.
Heç düşünməyə də yoxdur ehtiyac,
Əlbəttə, vəhdətdir çox dərdə əlac.

Həm də kimdir ki o, razı özündən,
Davud Çağrı bəyin çıxsın sözündən?”
Çağrı gülümsünüb dedi: “Çox gözəl!
Amma şərtimi də söyləyim əzəl.
Sözümü sən yerə salsan da belə,
Əvvəlki fkrində qalsan da belə,
Düşünmə, inciyib gedəcəyəm mən,
Ümumi düşməndir qarşuda düşmən.
Amma gözəldir ki, olub üç qardaş,
Bu düşmənə qarşı eyləyək savaş.
Axı bu taxt-tacın nədir dəyəri,
Qardaş sevgisini aşsın qədəri?!”.
İsmayıl söylədi: “Yoxdur bir sözüm,
Həmd olsun Allaha, kor deyil gözüm.
Mənimlə, ya mənsiz... nə mənası var?
Davud bəy veribsə savaşa qərar,
Demək Məlik şahın yetişib sonu,
Artıq əcəl almış hədəfə onu.
Əlbəttə, sizinlə bir səfdə durmaq,
Qaniçən düşməni birlikdə vurmaq,
Mənim üçün böyük bir şərafətdir,
Tanrının rəhmidir, uca qismətdir”.
Susaraq dayanmış bu vaxta qədər,
Börü-Təgin dedi: “Dəyməsin nəzər,
Böyük qardaşımın siyasəti var,
Amiranə səsi, bəlağəti var.
Mənim sadəlikdə yoxdur əvəzim,
İstəsən “şah” deyib edərəm təzim.
Ya da əvvəl necə qovdun, qardaşım,
Qov, gedim çölləri bir də dolaşım...
Evimdə, yurdumda olsaydım hərgah,
Cəsarət etməzdi əsla Məlik şah,
Cummazdı üstünə qəfildən sənin,
Girməzdi yurduna Börü-Təginin.

Əfsus ki, aldanıb yaltaq sözünə,
Qardaşını düşmən bilib özünə,
Sən məni eylədin çöllərdə qaçaq...
Mənsə qardaşımdan dönmədim ancaq...”
Bu söz çıxar-çıxmaz onun dilindən,
İsmayıl şah tutdu onun əlindən.
Börü-Təgin bir an durdu, karıxdı,
Sonra qardaşını bağrına sıxdı,
Yaz buludu kimi gözləri doldu...
Bu görüşün sonu uğurlu oldu.

## ŞAH MƏLİK
## CƏZASINA ÇATDI

Olmasalar da tam zəfərə əmin,
Çağrı bəy, İsmayıl və Börü-Təgin,
Yeddi min atlıyla çıxaraq çölə,
Getdilər Ceyhunun sahili ilə.
Məqsəd bu idi ki, qısa bir müddət,
Məlikə göstərib sərt müqavimət,
Onu qoymasınlar bir an da rahat,
Tərəfdar olmasın ona camaat.
Xarəzmdə rahat qalsa bəlkə də,
Nüfuz qazanardı bütün ölkədə.
Həm də ki, müxtəlif vasitələrlə,
Əlaqə qurardı qəznəvilərlə.
Çünki sultan Məsud yazaraq xəlvət,
Acgöz şah Məlikə verib məsləhət,
O da ləngimədən, taparaq macal,
Xarəzm ölkəsini etmişdi işğal.
Bir gün xəbər çatdı iqamətgaha,
Çağrı bəy haqqında dedilər şaha.
Şah Məlik gülərək dedi: “Qoy gəlsin,
Üstümə gəlməklə adı yüksəlsin.
Onların belini sındırmışam mən,
Oğuz bəylərindən çox qırmışam mən.
Öylə vurmuşdum ki, sonuncu dəfə,
Səpələnmişdilər dörd bir tərəfə.
Davud Çağrı bəyi girləyir əcəl,
Gözləməzdim ondan belə bir əməl.
Nə xəyal edir bu axmağın biri?!
Cəmisi yeddi min yığıb süvari,
Böyük şah Məlikə oxuyur meydan!
İtirib ağlını yəqin bu insan...”
Zərrəcə ehtiyat etmədən Məlik,

Hələ bir ziyafət verib üstəlik,
İyirmi min atlı səfərbər etdi,
Davud Çağrı bəylə savaşa getdi.
Ordular üz-üzə gəlincə dərhal,
Şah Məlik hücumlar etdi dalbadal.
Birtəhər dəf edib bu həmlələri,
Davudun ordusu çəkildi geri.
Yenə də ziyafət verdi Məlik şah,
Bir büsat yerinə döndü ordugah.
Bar-bar bağırdı ki, göstərib hünər,
Qazanıb savaşda mükəmməl zəfər.
Lakin şadyanalıq çəkmədi uzun,
Məlik qüdrətini gördü oğuzun.
Gəldi sultan Toğrul, açıldı meydan,
On beş min süvari qopardı tüğyan.
On beş min mərd oğuz, on beş min cəsur,
Ceyhun sahilində saldı vurhavur.
Çağrı bəy də gəldi digər tərəfdən,
Qapandı aypara və hər tərəfdən,
Şahın ordusunu bürüyüb qana,
Ölüm yağdırdılar bütün meydana.
On ildən də artıq uzun bir zaman,
Bu qisas gününü gözləyib hər an,
İndi hər bir oğuz şiddətlə vurur,
Ölümünə vurur, hiddətlə vurur.
Qırılır oğuzun qatı düşməni,
Bəlkə bu qırğının olmayıb təni.
Bir kafirə belə verilmir aman,
Dolur qalaq-qalaq cəsədlə meydan.
Lakin bu qırğında fürsət taparaq,
Üç yüz atlı ilə geri çaparaq,
Şah Məlik götürüb ailəsini,
Çox uzun yol üçün azuqəsini,
Təqibdən qaçaraq düşdü çöllərə,

Aylarla durmadan, uzaq ellərə.
Ər-Taş Yınal[118] onu təqib edərək,
Beş yüz fərsəxdən[119] çox bir yol gedərək,
Nəhayət, yetişib bir dar dərəyə,
Saldı şah Məliki mühasirəyə.
Bir anda dörd minlik oğuz süvari,
Qırıb məhv edərək üç yüz əsgəri,
Şah Məliki bütün sərvəti ilə,
Övladları ilə, övrəti ilə,
Bütün var-yoxuyla əsir aldılar,
Qatır quyruğunda yola saldılar.
Məlik bu şəkildə edilib rəzil,
Davud Çağrı bəyə verildi təhvil.
Şah Məlik bir xilas edərək güman,
Hönkürüb ağladı, dilədi aman.
Çağrı dedi ona: "Sus daha, xain!
Sonuncu hiyləndir ağlamaq yəqin.
Səndə ki rəhmdən yoxdur əlamət,
Diləmə özgədən aman, mərhəmət.
Yoxsa unutmusan o əhvalatı?
On il əvvəl zəif görüb elatı,
Qəfil hücum edib tökdün nahaq qan,
Çoluq-cocuqlara vermədin aman.
Nə pislik etmişdi oğuzlar sənə,
Qırğınlar törətdin hey dönə-dönə?
Güvəndiyin ordu, var-dövlət hanı?!
Çağır yardımına Məsud sultanı![120]
Gəlməz! Çünki ölüb, cəhənnəmdədir,
Məskənin olacaq bir aləmdədir!
Bizi vurdun ona xoş gəlsin deyə,
Səslə indi gəlsin ağan köməyə!
Sən ey buyruq qulu, qaniçən qəddar,
Bilmirdin bu günün sabahı da var?
Atan, baban sənə deməyib məgər,

Oğuzun dar günü çox qısa çəkər?!
Məgər bilməyirdin, ey mənfur adam,
Gec-tez alınacaq səndən intiqam?!
Özün yıxılmısan, ağlama daha,
Böylə rəzil olmaq yaraşmaz şaha!"
Çağrı daha ona vermədi macal,
Şah Məliki edam etdirdi dərhal.[121]

## *VII HİSSƏ*

## ARSLAN ELATINA XÜSUSİ TAPŞIRIQ

### *SIZAN HƏQİQƏTLƏR*

Nə qədər olsa da qorxunc və xəbis,
Allahın önündə acizdir İblis.
Bəs nə üçün verib İblisə möhlət,
Onu İnsan üçün eylədi möhnət?
Bu bir imtahandır, adi imtahan,
Buyursun! Seçimdə azaddır İnsan!
İstərsə uydurub min bir bəhanə,
Öz könül evini qoysun viranə.
Qan töksün, ev yıxsın şan-şöhrət üçün,
Satılsın İblisə hər şəhvət üçün.
Qohumun, qonşunun haqqını yesin,
Fitnələr törədib, yalanlar desin.
Hətta qürrələnib şər əməlindən,
Xalqın ruzisini alsın əlindən.
Haqqın mizanına etsin xəyanət,
Ruzi qəsb etməklə toplasın sərvət.
Ya əbədi sanıb vəzifəsini,
Satsın rüşvətlərə əqidəsini.
İstərsə İblisin önündə getsin,
"Mənəm", "mənəm" deyib zülmlər etsin.
Ancaq unutmasın qürrəli insan,
Həyat imtahandır, adi imtahan!
Bir gün açılacaq üzündən niqab...
Bəd əməllər üçün verəcək cavab!
Bir qətrə su belə itməz həyatda,
Hər zərrə vacibdir bu kainatda.
Ən kiçicik əməl çıxmazsa yaddan,

Gərək qorunasan tüstüsüz oddan.
Mələkdən ucadır o gözəl insan,
Elmi, imanıyla açarsa ad-san.
Necəki beş min il miladdan əqdəm,
Bu uca zirvədə durmuşdu Adəm.
Varsa hesablarda azacıq təxmin,
Xəbərlər dəqiqdir, ol bundan əmin.
Adəm ilə Həvva birgə, firavan,
Cənnətdə sürürdü gözəl bir dövran.
Onlara yad idi qüssə, ehtiyac,
Haram bilinmişdi yalnız bir ağac.
Adəm bilirdi ki, onun nəfsi var,
Bu məyus edirdi Adəmi aşkar.
Bilirdi babamız, bilirdi həzrət,
Açacaq başına nəfsi fəlakət.
Bilmirdi ki, necə tapıb bir əlac,
Bu nəfsi cismindən eyləsin ixrac.
Vurnuxurkən böylə çətində Adəm,
İblis fürsət tapıb bulundu həmdəm.
Gözə görünmədən bir tələ qurdu,
Zərbəni ən zərif bir yerə vurdu.
Həvvanın qəlbinə yol tapdı İblis,
Dərdi dərman kimi göstərdi xəbis.
Dedi: “O ağac ki, haramdır sizə,
Əslində dərmandır pis nəfsinizə.
Onun meyvəsindən yesəniz əgər,
Nəfsinizdən əsər qalarmı məgər?!
Yeyib mələk kimi olarsınız pak,
Daha nəfsinizlə bulanmaz idrak.
Yeyin və qazanın əbədiyyəti,
Daha tərk etməzsiz gözəl Cənnəti”.
Öylə məharətlə dedi hər sözü,
Həvva zənn etdi ki, düşünür özü.
Bu yolla da verib Həvva bir qərar,

Adəmlə söhbətdə eylədi israr.
Eşidib bilincə Adəm niyyəti,
"İblis fitnəsidir!" söylədi qəti.
Bu söhbət uzandı, ötdükcə zaman,
Həvva gah küsdü, gah oldu mehriban.
Min cür şıltaqlıqla, min cür naz ilə,
Adəmi ram etdi tutaraq dilə.
Valehəm elminə xaliq Ustadın!
Misilsiz qüvvədir dünyada qadın!
Söz ustadlarının bəlağətində,
Rəsmin, musiqinin səltənətində,
Böyük fatehlərin şücaətində,
Ən igid ərlərin rəşadətində,
Hər nə dühasından çatdırır xəbər,
Təməlində sevgi durub, müxtəsər!
Viranə olmasa mənzili fəqət,
Sevgi gözəlliyə edəcək xidmət.
Gözəlliklə xilas olacaq bəşər,
Gözəlliyi düzgün dərk etsə əgər...

## REY HÖKMDARI
## İBRAHİM YINAL

Sarayda görüşüb İbrahim Yınal,
Mənsur bəylə tutdu xeyli hal-əhval.
Sonra da İbrahim bir az əsəbi,
Açdı Mənsur bəyə bütün mətləbi:
"Məhəmməd Toğrul bəy göndərib məni,
Təyin eyləyibdir Rey şəhriməni...
Mənsə utanıram xəcalətimdən,
Heç razı deyiləm aqibətimdən...
Min bir bəhanəni gerçəyə qatdım,
İmtina eylədim, boynumdan atdım,
Toğrul bəy sözündən dönmədi yenə,
Yazılı fərman da göndərdi mənə..."
Mənsur dedi: "Qardaş, nə üzür səni?
Bu gündən olarsan Rey şəhriməni.
Doğrudur bu işdən bezmişəm, fəqət,
İstəsən verərəm sənə məsləhət.
Bir vəzir, bir qazı, bir neçə amil,
İdarə edərlər şəhəri kamil.
Ordu da gərəkdir valiyə vacib,
Üstəlik bir dənə vəfalı hacib.
Pis olmaz ağıldan kəm olsa başı,
Çevirməz ordunu valiyə qarşı.
Amil seçməyin də öz şərtləri var,
Mütləq gərək olsun hər biri qəddar.
Amillərdə olsa bir qırıq iman,
Bir dirhəm də vergi yığılmaz, inan.
Qazı divanına şərait yarat,
Qoy məhkəməsindən qorxsun camaat.
Qoy rüşvət yığmağa aludə olsun,
Günahsız kəslərlə zindanın dolsun.
Vaxtaşırı seçib üç-dörd nəfəri,

Əfv et ki, olasan dillər əzbəri.
Camaat danışsın ədalətindən,
Böyük insafından, mərhəmətindən.
Özündən ağıllı, varlı hər kəsi,
Sıxıntıya sal ki, çıxmasın səsi.
Qazının əliylə onu şərə sal,
Bütün var-yoxunu tut əlindən al.
Şəhərdə bol olsa tiryək və şərab,
Bəd əməllərinə çəkilər niqab...”
“Alla, Alla!” deyə gəlib heyrətə,
Son qoymaq istəyib belə söhbətə,
İbrahim söylədi: “Dayan, qardaşım,
And olsun ki, tamam qarışdı başım.
Yəni tanıdığım o igid Mənsur,
Bu qədərmi olub hiyləgər, mənfur?!
Nə zamandır böylə edib idarə,
Sən qan uddurursan yazıq şəhərə?!”
Bir görkəm alaraq qürrəli, məğrur,
Amiranə səslə söylədi Mənsur:
“Bu günü də saysaq olacaq üç gün!
Böyük bir zamandır valilik üçün...”
Yınal qah-qah çəkib güldü ürəkdən,
Sonra gülə-gülə söylədi bərkdən:
“Vay işğəmbəm, aman... şeytana lənət!
Ayə, bəs sənə kim verib məsləhət?”
Mənsur da gülərək dedi: “Bax, indi,
İçim rahatlaşdı, qəlbim isindi.
Doğrudur, dostumsan... di gəl ki zaman,
Bəzi insanları dəyişir yaman.
Şükrlər olsun ki, uca Allaha,
İbrahim əyilməz heç vaxt tamaha.
Heç dəyişməmisən zərrəcə, inan,
Öyləcə qalmısan, sadə, mehriban.
Hə... soruşdun ki, kim verib məsləhət?

O zaman lap başdan eyləyim söhbət.
Beş il bundan öncə fəth etdik Reyi...
Lakin dərk etmədim mən bircə şeyi.
Qızıl bəyə təklif eyləyən kimi,
Dedi – mən olmaram şəhər hakimi.
O zaman lap asan gəlirdi bizə,
Demə bəzi şeylər görünmür gözə.
Sonra artıraraq fəaliyyəti,
Reyə birləşdirdik beş vilayəti.
Çalışıb-vuruşub bütün bu vaxtı,
Biz eylədik Reyi qərbin paytaxtı.
İdarə mərkəzi oldu bu şəhər,
Qızıl Qazi idi hər işdə rəhbər.
Onun mütləq idi hakimiyyəti...
İndi ağırlaşıb yaman səhhəti.
Bir ayın içində əridi tamam,
Şəfa tapmağına qalmayıb inam...
Kaş ulu Tanrımız ona rəhm etsin,
Bu mötəbər insan şəfqətə yetsin.
Çox gəlib-gedibdir möhtəşəm insan,
Ancaq böyləsini görməyib cahan.
Bu qədər ağıllı, bu qədər cəsur,
Qövmünün dayağı, imanlı, məğrur...”
Sanki Mənsur bəyin çöhrəsi soldu,
Qəhər boğdu onu, gözləri doldu...
Tez də gülümsəyib dəyişdi dərhal,
Dedi: “Hə... əzizim İbrahim Yınal,
Üç gün bundan əvvəl yetişdi növbət,
Mən də gəlib qurdum burda məşvərət.
Əslində sarayda olan yığıncaq,
Gözə kül üfürmək kimidir ancaq.
Çünki öz həllini hər bir məsələ,
Tapır bəylər quran gənəşmə ilə.
Bir deyləmi gəldi, lap birinci gün,

Guya hədiyyələr bəxş etmək üçün.
Nüfuz sahibidir bu varlı adam,
Yerlilər göstərir ona ehtiram.
Bir xeyli özünü eylədi tərif,
Mənə vəzir olmaq istəyir hərif.
O deyləmi etdi bu söhbətləri,
O verdi "dəyərli" məsləhətləri.
Necə mən deyəndə gəldin heyrətə,
Mən də mat qalmışdım bu məsləhətə.
Qardaşım, çox şeylər görünmür gözə,
Tacikan adəti yaraşmaz bizə.
Türkə uyğun deyil çirkin siyasət,
Fitnə-fəsad üstdə qurulan dövlət.
Qoy özgələr olsun nökər şeytana,
Ər oğlu ər kimi çıxaq meydana".
İbrahim söylədi: "Doğrudur sözün,
Mərhəba Mənsur bəy, açıqdır gözün.
Hər cəfaya dözüb, çəkib əziyyət,
Öz dövlətimizi qurduq nəhayət.
Amma nə faydası? Toğrul bəy tamam,
Deyləmilər kimi qurur intizam.
Toplayır saraya tamam yadları...
Axı nə bilir bu yad övladları,
Sən, mən və minlərlə qeyrətli oğuz,
Çöllərdə, dağlarda yuxusuz, susuz,
Hər bir çətinliyə gətirərək tab,
Nə qədər çəkmişik əziyyət, əzab?!
Bütün əyan-əşrəf yadlardır ancaq,
Türk dili sarayda edilib yasaq.
Unutsa dilini övladlarımız,
Birə min artacaq fəsadlarımız.
Atılır kənara hər adətimiz,
Bir dirhəmə dəyməz əziyyətimiz.
Məgər bundan ötrü edirdik savaş?!"

Mənsur bəy söylədi: “Darıxma, qardaş,
Məhəmməd Toğrul bəy gözəl insandır...
Qarışıq zamandır, çətin zamandır.
Bu çətinliklər də müvəqqətidir,
Dövlətimiz oğuz, türk dövlətidir.
Sən gələcək üçün olma narahat,
Hər şeyi yoluna qoyacaq həyat.
Nə dilimiz itməz, nə adətimiz,
Ən əsas odur ki, var dövlətimiz.
Arslan Yabqu dedi bizə bir zaman,
“Savaş meydanıdır əzəldən cahan!”
Çağrı bəy də dedi “Bizimdir cahan!”
Qorusun Tanrımız, uca Yaradan,
Qeyrətli, imanlı türk millətini,
Təməli pak olan türk dövlətini!”

## BANU İLƏ BUĞA BƏYİN SÖHBƏTİ

Oğuz ellərinin kədəri, qəmi,
Sanki bürümüşdü bütün aləmi.
Ta Azərbaycandan Seyhuna qədər,
El-el, qapı-qapı gəzdi bəd xəbər,
Qızıl Qazi bəyin ölüm xəbəri!
Böyük təəssüflə andı bu əri,
Batıdan doğuya böyük məkanda,
Hər bir ahıl qoca, hər bir cavan da.
Çünki hər bir oğuz sevirdi onu,
Kimsə gözləməzdi belə bir sonu.
Bu böyük sərkərdə, ağıllı rəhbər,
Yenilməz döyüşçü, yenilməz əsgər,
Qəlbi saf bulağın suyundan duru,
Oğuz ellərinin fəxri, qüruru,
Artıq ayrılmışdı doğma elatdan,
Köç edib getmişdi fani həyatdan.
İndi Leyli-Banu, ömür yoldaşı,
Onun vəfadarı, onun sirdaşı,
Qırx gündür bürünüb qapqara dona,
Bu geniş dünya da dar gəlir ona.
Ağlamaqdan qonur gözləri şişmiş,
Nəzəri məchul bir yerdə ilişmiş.
Onu tənhalığa sövq edib istək,
İndi alaçıqda oturmuşdu tək.
Nitqi tutulmuşdu sanki qəhərdən,
Yalnız köks ötürür sakitcə hərdən.
Sonra... sol çiyninə əyildi başı,
Yenə seltək axdı gözünün yaşı.
Bu zaman otağa gəldi kənizi,
Onun da solmuşdu qəmdən bənizi.
Görünür üzündə cırmaq yerləri,

Dərinə işləmiş dırnaq yerləri.
Matəmin belə bir adəti vardı,
Qadınlar üzünü cırmaqlayardı.
Götürülən zaman yerdən cənazə,
Hər qadın atardı əlini üzə.[122]
O zaman qopardı öylə bir şüvən,
Dəhşətə gələrdi bunları görən.
Baxdıqca özgələr gəlib heyrətə,
Oğuz yaslarında olan adətə...
Kəniz dedi: “Banu, Buğa bəy gəlib”.
Oturduğu yerdə bir az dikəlib,
“Gəlsin!” dedi banu zəif səs ilə,
“Yaxşı” deyib kəniz tez çıxdı çölə.
Az sonra Buğa bəy gəldi otağa,
Banu yer göstərdi əziz qonağa.
Buğa bəy əvvəlcə keçib oturdu,
Çox narahat oldu... yenə də durdu:
“Banu, oturmağa çatmır hövsələ,
Qoy elə danışım... dayanım belə.
Keyfini soruşmaq yersizdir, bacı,
Ölümdür, qismətdir... yoxdur əlacı.
Bir yaxşı xəbər də gətirim dilə...
Gəlirlər... Çağrı bəy, Toğrul bəy ilə”.
Banu əlləriylə tutdu üzünü,
Sonra bir əliylə silib gözünü,
Soruşdu: “Buğa bəy, belə tezliklə,
Gəlməzlər yəqin ki, bura elliklə?”
Buğa dedi: “Mənə yetişib xəbər,
Olacaq dövlətə paytaxt bu şəhər...
İndi səfər etmək deyildir çətin,
Şam vaxtı çatarlar şəhərə yəqin”.
Banu dedi: “Söylə, qardaşım Buğa,
Dönəcəkmi qəlbim fərəhdən dağa,
Görsəm qardaşımı, sultan Toğrulu?

Yoxsa bu ürəyim, dərd ilə dolu,
İnanmıram dözə daha bir dərdə...
Söylə, həqiqətə çəkmədən pərdə.
On ildən artıqdır görmürəm onu...
Dəyişibmi onu sultanlıq donu?
Üzəcəkmi məni, söylə, xəcalət?”
Buğa fikrə gedib qısa bir müddət,
Dedi: “Əsla, bacım, Toğrul dəyişməz,
Dəyişmək istəsə bizə gənəşməz...
Yəni, çox böyükdür səlahiyyəti,
Məlumdur aləmə gücü, qüdrəti.
Bildiyimə görə, ədalətlidir,
Sadə xalqa qarşı mərhəmətlidir.
Bizim bəylərə də göndərib xəbər,
Yəni... sultan Toğrul gələnə qədər,
Gərək uzaqlaşaq Rey şəhərindən,
Hətta əyalətin həndəvərindən...
Biz bu vaxta qədər edirdik güman,
Artıq başa çatmış bu dava-filan...
Görünür yeni bir tapşırığı var,
Yəqin çox da uzun çəkməz intizar”.
Banu dedi: “Qardaş, yetmədi məgər,
Küsülü göründük gözə bu qədər?”
Buğa bəy söylədi: “Yəqin yetməmiş,
Amma bu qurma da hədər getməmiş.
Arslan elatından kim yedi yumruq,
Toğrulun önündə buladı quyruq.
Hansı hökmdara verdik əziyyət,
Bizdən Toğrul bəyə etdi şikayət.
Hər kim Toğrul bəydən istədi kömək,
Hakimiyyətini tanıdı demək”.
Banu dedi: “Bəli... Qızıl bəy ilə,
Çox uzun söhbətlər edərdik belə...
Arslan elatının məşhurdur adı...

Bir vaxt söz gəzdi ki, güya Bağdadı,
Yağmalamaq üçün yığışmısız siz...
Bir gün namə aldıq xəlifədən biz.
Bağdad xəlifəsi qorxmuşdu yaman,
Bir namə yazaraq etdi and-aman.
Bürümüşdü onun canını təşviş,
Qızıl Qazi bəydən edirdi xahiş.
Qızıl da... çox şeylər anlatdı mənə,
Dedi ki: "Xəlifə ürkərək yenə,
Məsud Qəznəviyə edib şikayət.
Gərək biz yürüdək öylə siyasət,
Arslan elatından qorxub xəlifə,
Toğrul bəyə yazsın namə hər dəfə".
Sonra da birlikdə Qızıl bəy ilə,
Yazdıq xəlifəyə cavab risalə[123]".
Bir damla yaş düşdü onun gözündən,
Yandırıb-yaxaraq axdı üzündən.
Buğa bəy də görüb birtəhər oldu,
Dərin köks ötürdü, gözləri doldu.
Banu dedi: "Qardaş, bu vaxta qədər,
Sanardım ki, məndə var öylə hünər,
Sıra dağlar kimi gəlsə də dərd-qəm,
Dözərəm yükünə, duraram möhkəm.
Nə bilim ki, fələk tutub dilimdən,
İgidim Qızılı alar əlimdən?!
Əcəl oxu ötdü, qəddimi əydi,
Canımdan da əziz bir cana dəydi.
Get, qardaşım, qalma məndən nigaran,
Deyirlər, təbibdir dərdlərə zaman...
Bir gün ötüb gedər bu nalə, bu ah,
Keçsin günahımdan tanrımız Allah!"
Buğa bəy söylədi: "Unutdum tamam,
Bəylər göndəriblər banuya salam.
Bir də... artar dedik ağrı-acımız,

Elatı tərk etsə banu bacımız”.
Banu az duyulan təbəssüm ilə,
Dedi: “Gətirməyin bu sözü dilə.
Mən necə ayrılım yar ellərindən,
Qızıllı, qazılu nəsillərindən.
Arslan elatının gəliniyəm mən,
Bu cəsur elatı tərk edim nədən?
Övladlarım üçün doğmadır elat,
Əsla bu yönəmdə olma narahat.
Bilirəm, dərd üzüb hər birinizi,
Qorusun Tanrımız xətadan sizi!”

## BANU İLƏ SULTAN TOĞRULUN SÖHBƏTİ

Qapıdan içəri girəndə banu,
Matəm geyimində görərkən onu,
Elə bil ki, Adəm babadan bəri,
Nə varsa dünyanın dərdi, kədəri,
Hamısı Toğrulun üstünə düşdü,
Bir günahkar kimi gəlib görüşdü.
Çünki oturmuşdu sarayda, taxtda,
Dərd-qəm bacısını üzdüyü vaxtda.
Onun hüzuruna gəlmişdi bacı,
Çünki qalmamışdı başqa əlacı:
Belə də söylədi, dedi: "Qardaşım,
Köçdü bu dünyadan ömür yoldaşım.
Köçdü o mərd, cəsur, böyük qəhrəman,
Amalı uğrunda çarpışan insan.
Çağrının, Toğrulun gələndə adı,
Uçardı, olsaydı bir cüt qanadı.
Canından da artıq sevirdi sizi..."
Toğrul dedi: "Banu, qınama bizi...
Məgər unudardı səni qardaşın?
Sonu bilinmirdi dava-dalaşın...
Yaxşı bilirsən ki, bunları özün...
Yaxır ürəyimi sənin hər sözün.
Sevirdik Qızılı dünyalar qədər...
Bizi də sarsıtdı bu böyük kədər.
Xəbər çatan kimi çıxmışıq... ancaq,
Həm bəd xəbər qəfil, həm də yol uzaq.
Əziyyət vermisən özünə hədər,
Özüm gələcəkdim yanına səhər".
Banu dedi: "Toğrul, bilirdim yəqin,
Öylə bir fikrin də olmayıb sənin.
Siyasət oyunu hələ bitməmiş,

“Barışıq” zamanı hələ yetməmiş,
Sən necə gələrdin bizim elata?
Bəs mən nə deyərdim bu camaata?
Toğrul bəy bu boyda bir səfər etdi,
Doğma bacısını görməyib getdi...
Belə deyəcəkdi eşidən hər kəs,
Bura gəlməyim də deyildir əbəs.
Bacı özü gəldi, görsün qardaşı,
Düşməz xəncərinin qiymətli qaşı.
Həm də olmaz belə səliqə-sahman,
Rəiyyət evinə gələrsə sultan...”
Toğrul bəy arxaya çevrilib durdu,
Düşüncəli gedib taxtda oturdu.
Dedi: “Vaxt var idi bir otlaq üçün,
Məəttəl qalardıq, olardıq üzgün.
Dözüb hər çətinə, verib əl-ələ,
Girişdik savaşa əjdərlər ilə.
İyirmi il olar, gecə və gündüz,
Hər an ölüm ilə durub üzbəüz,
Odlu səhralarda çəkib əziyyət,
Bir içim, bir qurtum suya da həsrət,
Rahatlıq bilmədik, yuxusuz qaldıq,
Meydanlara girdik, qələbə çaldıq,
Yatanda silahlı-sursatlı yatdıq...
Həmd olsun Allaha, arzuya çatdıq,
Oğuz dövlətini qurduq nəhayət,
Düşündüm – yetişib artıq səadət.
Heyhat... gerçəklərdən uzaq bir xəyal,
Dəyişdi arzular, dəyişdi əhval.
Bir amal uğrunda silahdaşlarım,
Yaxın qohumlarım, yol yoldaşlarım,
Elə bil gəzirlər bircə bəhanə,
Etiraz edirlər hər işdə mənə.
Hətta doğma bacım qınayır nahaq,

Nədir bu imtahan, nədir bu sınaq?”
Banu tez yaxına gəlib bir qədər,
Söylədi: “Kim vurar daha çox zərər?
Yalançı, tariflər deyən bir yaltaq,
Yoxsa hər fitnədən, məkrdən uzaq,
Haqqı üzə deyən doğru bir insan?
Doğma bacın sənə deyərmi böhtan?
Nə çətin şeydir ki, gəlib saraya,
Səni bənzədərək günəşə, aya,
Tariflər söyləyib yadlar kimi mən,
Heç uzaqlaşmayım həndəvərindən?
Yaddır oğuzlara belə bir adət,
Bu səbəbdən itir arada ülfət...”
Toğrul təəccüblə baxdığı zaman,
Bacısı söylədi: “Belədir, inan!
Arslan elatının rəşadətinə,
Böyük bəylərinin əziyyətinə,
Layiq olmadımı bir Rey şəhəri,
Nədir bu şəhərin axı dəyəri?
Nədən göstərmədin bu nəvazişi?
Elə ağızucu, bir sözgəlişi,
Təklif eyləsəydin böyük bəylərə,
Ucalardı adın-sanın göylərə...”
Toğrul dedi: “Yaxşı bilirsən ki, sən,
Arslan elatına güvənmişəm mən.
Qızıl, Mənsur, Əhməd, Buğa və Göyxan,
Etibarlı dostlar olub hər zaman.
Mənə və Çağrıya qardaş olublar,
Silahdaş olublar, sirdaş olublar,
Demişəm, deyirəm mən dönə-dönə.
Lakin xatırladım bir şeyi sənə...
Hamımız bilirik bunu mükəmməl,
Hardasa... təxminən otuz il əvvəl,
Soyu soyumuzdan olan bu elat,

Qara Dağ tərəfdə sürürdü həyat.
Babamız Səlcuqun məsləhətiylə,
Əmimiz Arslanın məharətiylə,
Cəndə tərəf gəldi bu elat bir gün,
Bizim elat ilə birləşmək üçün.
Elat tabe oldu yabqu Arslana,
"Arslan elatı" da deyildi ona.
Xəzər dənizindən Seyhuna qədər,
Oğuz məkanları deyildi məgər?
Yüzlərlə elatlar var idi, ancaq,
Kimsə düşünmədi vəhdət, ittifaq.
İlk öncə başlayıb fəaliyyətə,
Məhz Qara Dağlılar gəldi vəhdətə.
Qövmi duyğuları göründü aşkar,
Bu elata xasdır vəfa, etibar.
Hədsiz çılğınlıqdır qəbahətləri,
Dünyaya məlumdur cəsarətləri.
Oğuz dövlətini təkrar yaratmaq,
Əlbəttə, bu böyük məqsədə çatmaq,
Bu oğuzların da olub niyyəti,
Onunçün qurdular bu ünsiyyəti.
Dönmək istəyirlər qoca Şirvana,
"Xızır yurdu" adlı doğma məkana.
Belə deyirlər ki, həmin məkanda,
Güclü dövlət olub qədim zamanda,
Oğuz türklərinə məxsus bu dövlət,
Süquta uğrayıb.[1] Çünki Xilafət,
Çox qüdrətli olub, həmən o zaman,
Əsarət altına düşübdür Şirvan.
Oğuz türklərinin əksəriyyəti,
Qəbul etməyərək bu əsarəti,
Gəlib Qara Dağda salıblar məskən...
Bilirsən bunları bircə-bircə sən.
Qövmümüz ən böyük arzuya çatdı,

Oğuz dövlətini qurdu, yaratdı.
Arslan elatı da, görünür aşkar,
Gedəcək Şirvana, geci-tezi var.
Belə bir zamanda, belə bir vaxtda,
Zorla oturdummu onları taxtda?"
Banu dedi: "Qardaş, doğrudur sözün,
Ancaq gəl təsəvvür eylə bir özün.
Ağır xəstə ikən Qızıl yataqda,
Bəylər dərdli ikən bizim otaqda,
Dolaşır bir xəbər xalqın dilində:
"Birisi gəlibdir, fərman əlində,
Sultan göndəribdir Reyə şəhrimən"
Əhvalı təsəvvür edirsənmi sən?"
Toğrul dedi: "Bəli, haqlısan bacım,
Amma yox idi bir başqa əlacım.
Şəksiz, edəcəkdi Qızıl etiraz,
Yumşaq davranaydım mən gərək bir az.
Amma bacım, sən də bir yadına sal,
Yad deyil bizə nə İbrahim Yınal,
Nə də Əhməd, Mənsur, Göyxan və Buğa...
Adları gələndə dönürəm dağa.
Belə qardaşları olan bir adam,
İçində hiss edər öylə bir inam,
Necə ki, Çağrı bəy etmişdi bəyan,
Elə də söyləyər – bizimdir cahan!"
Sanki bütün dərdi, qəmi unutdu,
Banu qardaşının əlindən tutdu:
"Sənə qurban olum, çətin zamandır,
Qəlbim sizdən ötrü çox nigarandır.
Davud Çağrı bəyin çıxma sözündən,
Bir kimsəni incik etmə özündən.
Ümumi zəfərdir bu böyük zəfər,
Narazı qalmasın bir bəy, bir əsgər.
Allah eyləməsin, düşsə rəqabət,

Məkrli düşmənə verilər fürsət.
Cəza tələb etsə bəzən ədalət,
Yenə mümkün qədər eylə mərhəmət.
“Çağrının, Toğrulun bacısıyam mən!”
Deyərək bir qürur gəlirsə hərdən,
O dəmdə üz tutub uca dərgaha,
Yalvarıram Rəhim, Rəhman Allaha,
Xəcil eyləməsin heç zaman bizi,
İblisin şərindən qorusun sizi.
Sizdən uzaq olsun təkəbbür, tamah,
Sizi hifz eyləsin tanrımız Allah!”

## SULTAN TOĞRULUN ELÇİSİ İLƏ BÖYÜK BƏYLƏRİN SÖHBƏTİ

Ədəb-ərkan ilə verərək salam,
“Sultan elçisiyəm!” söylədi adam.
Onu diqqət ilə süzərək Göyxan,
Dedi: “Şərəf verib bizlərə sultan!
Gəl əyləş, elçi bəy, söylə sözünü,
Dostluq məclisində hiss et özünü”.
Elçi də əyləşdi. Dedi: “Çox şadam!
Məclisə baxanda fəxr edir adam.
Bəylər! Buğa, Mənsur, Əhməd və Göyxan!
Bu böyük bəyləri tanıyır cahan.
Olaraq sizinlə belə həmsöhbət,
Duyuram qəlbimdə böyük fəxarət.
Tanrımız qorusun Toğrul sultanı,
O, yaratmış mənə böylə imkanı!”
Buğa bəy söylədi: “Sağ ol, afərin!
Elə bil cənnətdə hazırdır yerin.
Bu qədər ki, bizi edirsən tərif,
Fikirlər oyanır bizdə müxtəlif.
Nəyinə gərəkdir burda siyasət?
Güya özgələrlə edirsən söhbət.
Elə bil gəlmisən başqa dövlətə,
Atam oğlu, son qoy bu siyasətə.
Sultan Toğrul bizim sultanımızdır,
İndi dövran bizim dövranımızdır.
Eyni soydan olan qardaşıq ona,
Silahdaşıq ona, sirdaşıq ona.
Kimə lazımdır bu sözdə dəbdəbə?
Qardaşım, birbaşa keçək mətləbə”.
Elçi xeyli gülüb dedi: “Çox gözəl!
Şair deyiləm ki söyləyim qəzəl.

O zaman sözümü deyim müxtəsər,
Biz bura gəlmişik bir neçə nəfər.
Ordugaha[125] qədər ötürdü məni,
Kənarda saxladım mühafizəni...
Bəylər! Sultan dedi, yaxın zamanda,
Olacaq ölkəmiz əmin-amanda.
Əgər işlər getsə sahmanlı, abad,
İstəsəz olarsız xidmətdən azad.
Yaxud istəməsəz – tamam əksinə,
Sultan xidmətində qalarsız yenə.
Böyük vəzifələr verilər sizə...”
Mənsur dedi: “Yəni çıxarıq üzə.
Bu “küsülü qalmaq” yetər nəhayət,
Yəni ki, dəyişir tamam siyasət”.
Elçi dedi: “Bəli, doğru buyurdun...”
Göyxan gülümsədi: “Sən bizi yordun.
Bu qəliz söhbətdən ağrıdı başım...
İşimizin adı nədir, qardaşım?”
Elçi yenə güldü: “Bu minval ilə,
Deməк bağlayırıq biz müqavilə.
Çox gözəl! Sultanın dediyi kimi,
Mosul[126], Diyarbəkir[127], Hillə[128] hakimi,
Müttəfiq olsunlar bizimlə gərək,
Söz verib and içsin hər biri tək-tək.
Ya da ki, basqından çəkib əziyyət,
Etsinlər sultana sizdən şikayət.
Savaşdan gələcək qənimət malı,
Arslan elatının olsun halalı.
Daha sonra... girib Rum ölkəsinə,
Ölkənin Van adlı ərazisinə,
Yetər ki, edəsiz iki-üç savaş,
Bir az ehtiyatla, bir qədər yavaş...
Rum ordusu haqda yığın məlumat,
Əgər Rum padşahı olsa narahat,

Məlumdur bizlərə elə bu başdan,
Nə şəkildə cavab verəcək sultan".
Əhməd dedi: "Bəli, belə rahatdır.
Yəni ki, bu elat asi elatdır.
Etmirlər sultana əsla itaət,
Mütləq veriləcək cəza nəhayət".
Elçi dedi: "Bəli, təxminən belə...
Siz artıq keçmisiz neçə mərhələ.
Bir də... sultan dedi – lazımsa əgər,
Əlavə təchizat, əlavə əsgər,
Söyləsinlər bəylər edib məsləhət,
Təki qazanılsın müvəffəqiyyət".
Elçi də bəylər də razı qaldılar,
Sonra da qonağı yola saldılar.
Elçi yetişəndə öz dəstəsinə,
Bir az rəsmilik də qatıb səsinə,
Soruşdu: "Nə deyim, bəylər, sultana?"
Buğa yaxınlaşıb bir qədər ona,
Dedi: "Bir tələdir onun dəvəti,
Bizi həbs etməkdir onun niyyəti.
Üstümüzə gəlsə, deyin sultana,
Gedəcəyik Ruma, ya Xorasana!"[129]
Elçi yola düşdü dəstəsi ilə...
Yolda bir əsgəri söylədi belə:
"Bu Qara Dağlılar yamandır, yaman!
Bir gün təpinəcək bunlara sultan..."
Digəri söylədi: "Eh, boşla görək...
Onlara meydan ver, vermə su, çörək.
Sultan Mahmud ilə etdilər savaş,
Sultan Məsud ilə etdilər savaş...
Əcəb söz danışdın sən də, bəxtəvər,
Elata sultandan toxunmaz xətər.
Çünki qohumdurlar yeddi babadan,
Həm də eyni eldən, eyni obadan..."

Elçi gülməyini zorla boğaraq,
Çevrilib qışqırdı: "Kimdir o axmaq?!
Ay uşaq, danışma başından yekə,
Dilin bir fərsəxdir, ağlın bir tikə!"

## GÖZƏL MƏQSƏD

Beş min süvari və bir qədər sursat,
Əlavə alaraq sultandan elat,
On min süvariylə edib hərəkət,
Cəzirə[130] önündə durdu nəhayət.
Yaxın məkan idi çünki Cəzirə,
Həm Mosula həm də Diyarbəkirə.
Ordugah qurmağa verildi qərar...
Bu zaman elata gəldi bir çapar.
Keşikçilər onu atdan endirib,
“Kimsən, haradansan?” deyə dindirib,
İlk məlumat üçün verdilər sual,
Çapar cavab verdi onlara dərhal:
“Oğuz bəylərinə bizim əmirdən,
Namə gətirmişəm Diyarbəkirdən.
Əhməd Nəsrüddövlə[131] göndərib məni...”
Bir keşikçi alıb ondan naməni,
Ata süvar olub bir qədər çapdı,
Təlim keçən yerdə Buğanı tapdı.
Bəy düzərək bir qol atlı əsgəri,
Təlim keçirirdi gələndən bəri.
Artıq bu təlimlər çatmışdı sona,
Keşikçi naməni verəndə ona.
Az sonra görüldü təcili tədbir,
Bəylər gənəşməyə toplaşdı bir-bir.
Əhməd Davud oğlu başladı sözə:
“Bu namədən məlum oldu ki, bizə,
Gəlişimiz heç də olmadı qəfil,
Çoxdan xəbərdarmış bunlar elə bil.
Doğrusu, gizli də deyildi səfər...
Amma təəccübüm deyildir hədər.
Demək... lap əvvəldən xəbərləri var,
Yoxsa bu tezliklə gəlməzdi çapar.

Bir sual rahatsız eyləyir məni...
Kim xəbərdar etmiş Nəsrüddövləni?”
Göyxan dedi: “Bunun bir səbəbi var,
Sultan ətrafına etmir etibar.
Deməli, sarayda var öylə adam,
Çaxnaşma salmağa gözləyir məqam.
O məchul kimsə də bilib tədbiri,
Xəbərdar eyləyib Diyarbəkiri...”
Buğa bəy söylədi: “Deyil ki pünhan,
Məcburdur bir sıra işlərə sultan.
Doldurub saraya tamam yadları,
Adamın dilinə yatmır adları.
Türk dili edilib sarayda yasaq,
Fars dili məqbuldur orada ancaq.
Bizim elatda da... elə bu dildə,
Danışır cocuqlar bayırda, çöldə.
Belə baxırsan ki... neyləsin uşaq,
Bu dildə oxuyub yazırsa ancaq?”
Mənsur dedi: “Bəylər, bu öz yerində,
Gənəşmə qurarıq günün birində,
Bir çıxış taparıq bu həngamədən...
Hələlik danışaq gələn namədən.
Nəsrüddövlə, Kırvaş[132], Hillə hakimi[133],
Üçü də birləşib müttəfiq kimi,
Oxuyurlar indi bizlərə meydan,
Deyəsən, çaşdırıb onları şeytan?”
Göyxan dedi: “Bah, bah... Nə böyük sınaq?!
Üç vali birləşib, qurub ittifaq.
Belə qara gora, lap cəhənnəmə!
Bir bundan ötrü də batalım qəmə?!
O Nəsrüddövlə ya nə bilim... Kırvaş,
Nə qanırlar nədir mərdanə savaş?!
Meydan oxuyurlar nərə nərçələr,
Qara qartallara yoluq sərçələr!”

Bəylər gülüşdülər. Söylədi Əhməd:
“Hələ aşığımız düşməyibsə bəd,
Bunlar nədən böylə namə yazırlar?
Yəqin özlərinə qəbir qazırlar.
Məncə... günü bu gün, çıxaq savaşa,
Bu tapşırığı da çatdıraq başa.
Üçü də bir yerdə toplaşıb əgər,
Daha yaxşı! Getməz vaxtımız hədər!”
Quzoğlu söylədi: “Doğru qərardır,
Ancaq önəmli bir işimiz vardır.
Çünki sultan Toğrul verib göstəriş,
Əgər ki, sülh ilə həll olunsa iş,
Cümlə qüvvələri edib səfərbər,
Rum ərazisinə girək bərabər”.
Mənsur dedi: “Bəli, biz gərək əvvəl,
Bunlara izahat verək mükəmməl.
Birlikdə qüvvəmiz artar ikiqat,
Kafərin üstünə gedərik rahat...
İcazə versəniz elçi gedərəm,
Bu gözəl məqsədi izah edərəm”.
Əhməd Davud oğlu dedi: “Ay kişi,
Heç xeyir gətirməz, boşla bu işi!”
Buğa dedi: “Bəylər, bizdən deməkdir,
Həm də tapşırığa əməl etməkdir.
Çünki doğru fikir yürüdür sultan,
Qardaş olmalıdır cümlə müsəlman.
Mümkün olmasa da vahid xilafət,
Hər halda vacibdir belə bir vəhdət.
Nə fərqi var? Olsun kürd yaxud ərəb,
Dini qardaşlıqdır ortada mətləb.
Xoş olar belə bir məqsədə yetmək,
Düşmənin üstünə birlikdə getmək.
Daha deməsinlər: “Girin savaşa,
Biz kənarda durub edək tamaşa”.

Budursa bir kəsin əgər niyyəti,
Deməli yalandır sülhü, vəhdəti.
Mən savaşa girim, o da izləsin,
Arxadan vurmağa fürsət gözləsin.
Arxamızda varsa on beş min əsgər,
Rum ilə savaşa girərik məgər?
Qoy Mənsur bəy getsin, eyləsin izah,
Razı olmasalar bizdə nə günah?
Əgər sustalıblar həriflər qana,
Çəkərik onları açıq meydana!”

## DİYARBƏKİR VALİSİNİN TƏDBİRİ

Cəzirəyə yaxın bir yerə gəlib,
Ordugah qurdurub, bir az dincəlib,
Sonra Nəsrüddövlə açdı məşvərət,
Müttəfiqləriylə etdi məsləhət.
Söylədi Mosulun hakimi Kırvaş:
"Sabah sülh olacaq və yaxud savaş...
And olsun ki, çaşıb qalmışam düzü,
Gəlir danışığa Mənsur bəy özü..."
Nəsrüddövlə dedi təkəbbür ilə:
"Danışığa gəlir... Bu nədir hələ?!
Savaşdan ömürlük əl çəkəcəklər,
Bir-bir hüzurumda diz çökəcəklər!
Qoy gəlsin... Qoy gəlib diləsin aman...
Bu Arslan elatı çaşmışdı yaman!"
Dübeys dedi: "Səbr et, əsla tələsmə!
Sülhə ümid varsa önünü kəsmə!
Bir də... nə bilirsən təklifi nədir?"
Nəsrüddövlə dedi: "Yalnız fitnədir!
Oğuzlar hiyləni adət ediblər,
Bu yolla aləmi qarət ediblər..."
Kırvaş dedi: "Dostum, bir söylə mənə,
Nə pislik ediblər oğuzlar sənə?"
Nəsrüddövlə dedi: "Çıxıb yadından,
Necə soyulmuşdu Rey və Həmədan?"
Kırvaş dedi: "Bəli, soyulub şəhər,
Oğuzdan olmayıb orda bir nəfər.
Deyləmilər edib şəhəri qarət,
Sənin qohumların, budur həqiqət...
Qana qərq olmuşdu bütün Həmədan,
Oğuzlar mal üçün tökməz nahaq qan.
Dostum, deyirsənsə düz de hər şeyi,

Oğuzlar savaşla fəth edib Reyi.
Həm qalib gəldilər o Taş-Fərraşa,
Həm qəznəvilərlə girib savaşa,
Hacib Həmdəvini, böyük sərkəri,
Məğlub edib aldı onlar şəhəri...
Əlqərəz, müxtəsər... təklifim budur,
Bizimlə söhbətə gəlirsə Mənsur,
Demək heç önəmli deyildir savaş,
Yersizdir indidən bu boyda təlaş...
Bilirik, bu elat gedəcək Ruma,
Van ərazisinə, qəfil hücuma...
Əgər doğrudursa belə bir tədbir,
Nədən oğuzlarla olmayaq əlbir?
Onlar da müsəlman biz də müsəlman,
Belə bir vəhdətə sövq edir zaman..."
Dübeys dedi: "Kırvaş, tələsmə belə,
Elatın fikrini bilmirik hələ.
Əlbəttə bu birlik olardı gözəl,
Gəlsin, Mənsur bəyi dinləyək əzəl..."
Nəsrüddövlə dedi: "Etməyin xəyal,
Uydurmayın burda boş-boş ehtimal.
Əşşi, nə müsəlman, nə din, nə vəhdət?!
Bu birlik başıma açar fəlakət,
Rum boyda ölkəyə olaram düşmən!
Rum ilə sərhəddə yaşayıram mən!
Həm də ki... ağalar, sanmayın yersiz,
Namə göndərmişəm sizdən xəbərsiz.
Çağırdım elatı açıq meydana...
Bu boş xəyalları atın bir yana!
On beş min süvari ləşkərimiz var,
Zirehli-sursatlı əsgərimiz var!"
Bu sözdən Dübeysin çatıldı qaşı,
Titrətdi yerində qəzəb Kırvaşı,
Dedi: "Köməyinə gəlmişik əgər,

Sandınmı sən bizi özünə nökər?!”
Yaltaq bir təbəssüm verib üzünə,
Nəsrüddövlə şəkər qatıb sözünə,
Dedi: “Tövbə, tövbə! Əsla qardaşım!
Mənim sizdən başqa yoxdur sirdaşım.
Heç lüzum da yoxdur kədərə, qəmə!
Mən quz tayfasına yazaraq namə,
Edərək onları savaşa təhrik,
Siyasət güdmüşəm ağıllı, müdrik.
Gücümüz doğurmaz onlarda şübhə,
İsrarlı olarlar daha da sülhə”.

# XƏYANƏT NƏTİCƏSİNDƏ MƏNSUR BƏYİN ƏSİR EDİLMƏSİ

Mənsur bəylə birgə iyimi nəfər,
Gəlib ordugaha çatdılar səhər.
Atlardan endilər. Elə bu zaman,
Onları gözləyən bir neçə əyan,
Nümayiş etdirib hörmət, ehtiram,
Gəlib görüşdülər, verdilər salam.
Əyanlardan biri söylədi: "Ağa,
Hörmət borcumuzdur gələn qonağa.
Ağam edir səni çadıra dəvət,
Buyur, birgə gedək, olmasın zəhmət.
Tədarük görmüşük yaxın çadırda,
Yoldaşlarınız da dincələr orda".
Sağında, solunda iki keşikçi,
Əyanla birlikdə yollandı elçi.
Elə ki, Mənsur bəy girdi otağa,
Dübeys ilə Kırvaş durdu ayağa.
Nəsrüddövlə isə yerində qaldı,
Bəy ona ötəri bir nəzər saldı.
"Əs-Salam əleykum!" söylədi Mənsur,
Dübeys salam alıb söylədi: "Buyur,
Mənsur bəy, keç əyləş, olsa da zəhmət,
Gəlişinlə verdin bizə şərafət..."
Əyləşdilər. Mənsur dedi Dübeysə:
"Bircə şeyi ağlım dərk etmir nəsə...
Bir tərəfdən namə... sonra bu hörmət?
Hətta gəlişimdən duydun şərafət.
Mən də məmnun oldum bu nəzakətdən,
Hər müsəlmana xas gözəl cəhətdən.
Çünki gələn qonaq verirsə salam,
Allahın adına edib ehtiram,

Ayağa durursa əgər müsəlman,
Zatında saflıq var, qəlbində iman”.
Nəsrüddövlə baxdı, qızardı tamam,
Dedi: “Seçməmişik biz səni imam,
Fətva verməyinə yoxdur ehtiyac,
Təlim-tərbiyənə deyilik möhtac”.
Kırvaş dedi: “Qardaş, dayanın görək,
Tikanlı sözlərə burda nə gərək?!”
Mənsur gülümsədi: “Çox yaxşı, çox xub,
Məlum oldu necə yazılıb məktub!”
Dübeys dedi: “Söylə, Mənsur bəy bizə,
O hansı məqsəddir hökm edir sizə?
Nədən çıxmısınız böylə səfərə,
Nədən yol almısız Diyarbəkirə?”
Mənsur dedi: “Budur siyasətimiz,
Müsəlman əhlidir türk millətimiz,
Ərəb, kürd, deyləmi, cümlə müsəlman,
Bizimlə vəhdətə gələrsə, inan,
Birlikdə gücümüz çoxalar qat-qat!
Belə bir məqsədlə gəlib ki elat,
İttifaq yaradıb keçək hücuma,
Tutarlı zərbələr endirək Ruma.
Bu gün başlamasaq onlarla hərbə,
Böyük bir üstünlük verərik qərbə.
“Taxta büt” dinindən olanlar[134] daha,
Bu günün işini qoymaz sabaha.
Onlar bizdən öncə bulsalar vəhdət,
İslam ellərində qopar fəlakət”.
Yersiz hırıldayıb istehza ilə,
Nəsrüddövlə dedi: “Bir söylə hələ,
Tutalım birləşib bir hücum etdik,
Bir şəhər uğrunda zəfərə yetdik,
Möhtəşəm ordunu düzüb səflərə,
Rum padşahı cumsa biz tərəflərə,

Kim onun önündə gətirər davam?
Sən düşünən qədər deyilik avam...”
Mənsur dedi: “Müslüm, Allaha sığın!
Neyləyər zalımlar gəlsə bir yığın?
Heç o barədə də qalma nigaran,
Dərhal qarışacaq bu işə sultan...”
Kırvaş dedi: “Razı olmasaq əgər,
Şərtləriniz nədir? Söylə müxtəsər”.
Mənsur bəy söylədi: “O da mümkündür,
Sülh ilə ayrılmaq daha düzgündür.
O zaman bircə şərt kəsək bu yerdə,
Mosul şəhərində, Diyarbəkirdə,
Gərək məscidlərdə xütbələr bütün,
Oxunsun sultanın adına hər gün.
Bilsin Diyarbəkir, bilsin ki Mosul,
Ən böyük sultandır Məhəmməd Toğrul.
Məncə... tələb etməz bu sözlər sübut...”
Çökdü ortalığa ağır bir sükut.
Sonra Kırvaş dedi: “Bizə bir müddət,
Məsləhət etməkçün gərəkdir möhlət.
Deyiləcək sizə verilən qərar,
Ordugahınıza gələcək çapar”.
Elə bu sözlərlə söhbət də bitdi,
Mənsur bəy otağı tərk edib getdi.
Dübeys düşünərək dedi: “Əcaib!
İndidən özünü sanır bu qalib...
Ancaq doğrudur ki, qəlbində nə var,
Dilində də odur, açıq və aşkar...”
Valilər bir müddət etdilər söhbət...
Sonra da oldu bir böyük xəyanət.
Bir sərkərdə gəlib çatdırdı xəbər,
Dedi: “Mənsur bəylə iyirmi nəfər,
Hamısı birlikdə edildi dustaq,
Heç biri savaşa girmədi ancaq.

Mənsur bəy dedi ki, söylə Kırvaşa,
Mosula cumacaq elat birbaşa.
Oradan Hilləyə, sonra Bağdada,
Çətin ki, çatasız – dedi – imdada”.
Kırvaşın üzünü bürüdü heyrət,
Dedi: “Nəsrüddövlə, sənə min lənət!
Nədən elçiləri eylədin dustaq,
Kimə lazımdır bu fitnə, fırıldaq?!”
Dübeys qalxıb dedi: “Qulaq as mənə,
Çox nahaq etibar etmişəm sənə!
Öz qoşunum ilə dönürəm geri,
Sən artıq qorudun Dyarbəkiri!”
Nəsrüddövlə dedi: “Səbr eylə, qardaş,
Məndən ayrılsanız səninlə Kırvaş,
Qırarlar oğuzlar bizləri asan,
Tələyə düşərik, səbr eylə, dayan!
Nahaq etməmişəm Mənsuru əsir,
Bu yolla quzlara edərik təsir...
Mosulun üstünə gedərsə elat,
Biz də arxasıyca gedərik rahat.
Ordumuz böyükdür, sayımız çoxdur,
Bu səfər quzlara qurtuluş yoxdur!”

## *VIII HİSSƏ*

## **DAĞLILARIN SAYAD-XIZIYA QAYIDIŞI**

### ARSLAN ELATININ MÜTTƏFİQLƏR ÜZƏRİNDƏ QƏLƏBƏSİ

Ardıcıl gələrək bir neçə çapar,
Eyni bir xəbəri etdilər təkrar.
"Boşdur oğuzların ordugah yeri,
Cənub-şərqə gedib on min süvari".
Eşidib özündən çıxmışdı Kırvaş:
"Sən aldatdın məni, yalançı, dikbaş!
Verdin, Nəsrüddövlə, şeytanın qulu,
Sən Diyarbəkirə qurban Mosulu!"
Nəsrüddövlə isə qalıb məəttəl,
Susub durmuşdusa önündə əvvəl,
Sonradan özünə gəlib bir qədər,
Dedi: "Yox, Mosula toxunmaz xətər,
Sıx-sıx edəriksə onları təqib,
Olmaz bir hadisə əsla əcaib.
Girsələr oğuzlar əgər şəhərə,
Edərik onları biz mühasirə.
Bu oğuzlar üçün olar bir tələ...
Axmaq deyillər ki, etsinlər belə!"
Kırvaş dedi: "Axı tutmusan əsir!
Nə oldu qurduğun o yekə tədbir?!
Yoxsa düşünürdün bir bəyə görə,
Qoyacaq oğuzlar silahı yerə?!"
Dübeys dedi: "Əşşi, nə silah-milah?
Oğuzun fikrini bilir bir Allah!
And olsun, yenə də qurublar kələk...

Söhbət vaxtı deyil... qərara gələk!”
Nəsrüddövlə dedi fikrini təkrar,
Sürətli təqibə verildi qərar.
On beş min süvari düzülüb səfə,
Sürətlə çapdılar Mosul tərəfə.
Sərf etməmək üçün bir anı hədər,
Çapdılar atları gecəyə qədər.
Gecədən sübhədək qısa bir müddət,
Edə bilsələr də az istirahət,
Əsgərlərin çoxu yuxusuz qaldı,
Ordu yenə yürüş əmrini aldı.
Dünənki sürətdən yox idi əsər,
Yol boyu uzanıb seyrəldi səflər.
Arxada qopdu bir hay-haray qəfil,
Titrədi bu səsdən yer-göy elə bil.
Nəsrüddövlə baxıb gəldi dəhşətə,
İnana bilmirdi bu fəlakətə.
Az qala itirsin bədbəxt huşunu...
Yürüş səflərində olan qoşunu,
Döyüş meydanında qalmışdır aciz,
Sanki üzərinə gəlirdi dəniz.
Çarəsiz əsgərlər söyür, qışqırır,
Oğuz süvarisi qırdıqca qırır...
Nəsrüddövlə birdən ayıldı səsə,
Baxdı qarşısında duran Dübeysə.
Dübeys var gücüylə çığırdı: “Oyan!
Əməldə dovşansan, dildə pəhləvan!
Görmürsən oğuzlar qırırlar bizi?!
Mən döyüş səfinə düzüm mərkəzi,
Arxada qırğındır, ora tələsim,
Bəlkə bu qırğının önünü kəsim.
Sən də Kırvaş ilə düz qalanları,
Çıxarın ön səfə ox atanları.
Biz nizamla geri çəkilən zaman,

Oğuz ordusuna verməyin aman!”
Dübeys atı çapıb dörd bir tərəfə,
Beş min süvarini düzüncə səfə,
Az qala ürəyi ağzına çatdı,
Bağırmaqdan onun səsi də batdı.
Qorxaq sərkərdələr çaşmışdı tamam,
Vurnuxub qalmışdı minlərlə adam.
Beş min süvarini Dübeys nəhayət,
Döyüş səflərinə düzdüsə... fəqət,
Gec idi... Seyrəlmiş arxada meydan,
Torpağın üstünü qızartmışdı qan.
Dəhşətli bir sükut bürüdü çölü,
İki mindən artıq yaralı, ölü...
Rəqiblər özünə gəlməmiş hələ,
Oğuzlar etdilər daha bir həmlə.
Yenidən meydanda qızışdı ara,
Getdikcə açıldı böyük aypara.
Oğuz aslanları girişdi hərbə,
Öndən, cinahlardan vurdular zərbə.
Kökündən qoparar ən böyük dağı,
Oğuz həmləsinin bu şiddət çağı.
Rəqib ordusunda pozulmuş nizam,
Bir əsgərində də qalmamış inam.
Çökür ön cərgələr hey nəhayətsiz,
Orta, arxa qalmış fəaliyyətsiz.
Arslan elatının hər bir əsgəri,
Görür öz işini əzəldən bəri.
Rəqib ordusunda orta qarışdı,
Məğlubiyyət ilə hamı barışdı.
Hər kəsə əzizdir deyə öz canı,
Qaçıb tərk etdilər qanlı meydanı.
Hər şey məlum oldu bircə təmasla,
Təqib etmədilər oğuzlar əsla.
Bir anda ordunu düzərək səfə,

Çapdılar atları şimal tərəfə.
Düz axşama qədər bu üç müttəfiq,
Edəcəklərini bilmədən dəqiq,
Öz qoşunlarını axtarıb hərə,
Yığdılar ordunu sonda bir yerə.
Tövbə etmək ilə hərbi xidməti,
Qaçmışdı ordunun əksəriyyəti.
Yığıldı yeddi min cəmi süvari,
Qorxu içindəydi dönənlər geri.
Deyişib, söyüşüb bu müttəfiqlər,
Küsüb ayrıldılar köhnə rəfiqlər.
Yolları bir idi, oldular yoldaş,
Beş min atlı ilə Dübeys və Kırvaş.
Bir qədər yol gedib, durdular gecə,
Nəhayət ordugah qurdular gecə.
Çox "qonaq" oldular bu ordugaha,
Sandılar oğuzlar qayıtmaz daha.
Amma Nəsrüddövlə əksinə tamam,
Gecə yuxusuna qataraq haram,
İki min atlıyla çapırdı geri,
Bilirdi, oğuzlar Diyarbəkiri,
Mütləq alacaqlar, buna yox şübhə,
Gücü də qalmayıb aça bir cəbhə.
Yalnız bircə şeyə ümidi qalmış,
Bu ümid də onu yollara salmış.
Onu son ümidi... Mənsur bəy idi,
Bəyi azadlığa buraxıb indi,
Ağlayıb, yalvarıb eyləsin xahiş,
Bəlkə qan-qadasız ötüşsün bu iş.
Öz taxtı-tacını qorusun deyə,
Bütün var-yoxunu versin hədiyyə.
Bu fikirlə gəldi Diyarbəkirə...
Artıq razılaşıb hər cür təhqirə,
İyirmi bir nəfər oğuzu dərhal,

Azad buraxmağa o tapdı macal.
Hətta Arslan eli gələnə qədər,
Mənsurla görüşə oldu müyəssər.
Mənsur bəy saraya gəldiyi zaman,
Nəsrüddövlə ondan dilədi aman.
Ağladı, yalvardı, söylədi: "Ağa,
Hazıram nökərin, qulun olmağa.
And olsun, edirəm özümə nifrət,
Gərək etməyəydim bu boyda qələt.
Bütün xəzinəmi verirəm bəxşiş,
Əvəzində... yalnız kiçicik xahiş..."
Mənsur bəy nə onu təhqir eylədi,
Nə də kinayəli sözlər söylədi.
Soruşdu: "Nədir o... kiçik xahişin,
Bütün xəzinədir əgər bəxşişin?"
Nəsrüddövlə dedi: "Gəlir elatın...
İstəyirəm alım canımı satın.
Olsamda önündə sənin müqəssir,
Məni öldürməyin, etməyin əsir.
Əgər istərsiniz, girin şəhərə,
Xoşuna gələni götürsün hərə..."
Mənsur gülümsədi: "Yaxşı xahişdir,
Xislətinə uyğun alış-verişdir..."

## ARSLAN ELATI MOSULU VƏ DİYARBƏKİRİ DƏ FƏTH ETDİ

Arslan elatının beş min əsgəri,
Səhər fəth eylədi Diyarbəkiri.
Əhməd ilə Buğa burda qaldılar,
Bütün vilayəti ələ aldılar.
Diləyib tanrımız Allahdan uğur,
Beş min süvariylə Göyxan və Mənsur,
Cənub-şərqə tərəf çıxdılar yola,
Tezliklə çatdılar onlar Mosula.
Şəhər ətrafında bir neçə cərgə,
Çadır qurub ordu saldı düşərgə.
Gecəni təlaşla keçirdi şəhər,
Girdilər şəhərə oğuzlar səhər.
Şəhəri tərk edib qaçmışdı vali,
Başçısız qalmışdı şəhər, əhali.
Altı yaxud yeddi ay[135] müddətində,
Başdan-başa Mosul vilayətində,
Öz qaydalarını qoyaraq tamam,
Yaratdı oğuzlar nizam-intizam.
Məscidlərə də bu qayda toxundu,
Toğrulun adına xütbə oxundu.
Xütbələr bu adla oxundu ancaq,
Xəlifənin adı[136] edildi yasaq.
Şəhərdə gəzirdi belə söz-söhbət:
“Kırvaş xəlifəyə edib şikayət,
Hirslənib Bağdadda yaman xəlifə,
Xəbərlər göndərib dörd bir tərəfə.
Ərəb hakimlərə, kürd hakimlərə,
Ona tabe olan daha kimlərə.
Onlar da bir ordu edir səfərbər,
Azı iyirmi min süvari əsgər”.

Bunları eşidib Mənsur və Göyxan,
Adam göndərdilər Bağdada pünhan.
O adam da edib bir aylıq səfər,
Gəlib söylədi ki, doğrudur xəbər.
Xəbər göndərdilər elə həmin gün,
Anasıoğlu və Buğa bəy üçün.
Elatın hər iki qismi də birdən,
Çıxdılar Mosuldan, Diyarbəkirdən.
Görüşüb oğuzlar qurdular birgə,
Cəzirə çölündə hərbi düşərgə.
Xəlifə Qaimin yığdığı ordu,
Böyük xəyallarla ayağa durdu.
Sürətlə getdilər, az dincəldilər,
Cəzirə çölünə yorğun gəldilər.
Üzüldü əsgərlər uzun səfərdə,
Güclə otururdu çoxu yəhərdə.
Yüz fərsəxə yaxın səfər[137] boyunca,
Yata bilməmişdi kimsə doyunca.
Xəlifə ordusu çatdı bu düzə,
Oğuz ordugahı göründü gözə.
Yenə dincəlməyə yetmədi zaman,
Düşərgə salmağa verildi fərman.
Dəclə[138] sahilində, çay qırağında,
Ordugah quruldu qürub çağında.
Nəhayət, dincəlmək olardı... ancaq,
Qəfildən uzaqda qopdu tozanaq.
Sanki bir ox idi yaydan qoparaq,
Oğuz süvarisi gəlir çaparaq!
Yenə dincəlməyə ümid üzüldü,
Xəlifə ordusu səfə düzüldü.
Seçib iki oxluq uzun məsafə,
Oğuz ordusu da düzüldü səfə.
Xəlifə ordusu durub nigaran,
Öz rəhbərlərindən gözləyir fərman.

Hündür bir təpədə qərargah qurmuş,
Rəhbərlik edənlər orada durmuş.
Oğuz ordusuna yetirib diqqət,
Öz aralarında edirlər söhbət.
Sanki bu məsəl də deyilib burda:
“Uzun söhbət verər dəvəni qurda”.

## XƏLİFƏ ORDUSUNUN MƏĞLUB EDİLMƏSİ

Oğuzlar tərəfə Cəlalüdddövlə[139],
Baxaraq söylədi: "Durublar hələ...
Yəqin oğuzların ümidi yoxdur,
Görərək sayımız ikiqat çoxdur.
İndi həm qorxurlar hücum etməyə,
Həm də utanırlar geri getməyə".
Kırvaş gülüb dedi: "Sözümə inan,
Biz hələ Bağdadda toplaşan zaman,
Oğuzlar hər şeydən olub xəbərdar,
Bu işdə onların səriştəsi var..."
Dübeys xəbər aldı: "Bəs nədən belə,
Əvvəlcə sürətlə etdilər həmlə,
Sonra dayandılar, durdular tamam?
Bəlkə cumacaqlar düşəndə axşam?"
Kırvaş dedi: "Məgər deyil ki məlum,
Oğuzlar gecələr etməzlər hücum?
Yaddır oğuzlara quldur xisləti,
Bunu qəbul etməz türk ləyaqəti..."
İstehzalı gülüb Cəlalüddövlə,
Dedi: "Bilirsənsə qəzəl də söylə!
Mədh eylə, təriflə, ucalar başın,
Düşər əsərlərə adı Kırvaşın!"
Kırvaş dedi: "Bəlkə acıdır sözüm,
Ancaq çox şeylərə şahidəm özüm...
Bilirsən oğuzlar nədən durublar?
Bizə mükəmməl bir tələ qurublar.
Vardır oğuzlarda ətraflı xəbər,
Biz necə, neçə gün etmişik səfər.
Bilirlər yorğunuq... durub üz-üzə,
Rahatlıq verməzlər bir an da bizə.
Oğuzlara "boz qurd" demirlər nahaq,

Belə ov qurdlara aiddir ancaq.
Gözləyirlər, bizi tərk edə taqət...
Hücum etsək belə yox əhəmiyyət,
Biz hücum etdikcə, on min süvari,
Mükəmməl nizamla dönəcək geri.
Biz də iyirmi min süvari ilə,
İzləyib onları düşsək bu çölə,
Az vaxtda bizi lap haldan salarlar,
Bir gün üstümüzü qəfil alarlar...”
Dübeys qoymadı ki, sözü bitirsin,
Dedi: “Kırvaş, səni anan itirsin!
“Yazıq oğlum!” deyib dizinə vursun,
Arvadların sənin vayına dursun!
Bayaqdan dilindən zəhər tökülür,
Qorxudan adamın dizi bükülür.
Qurtar bizi daha bu əziyyətdən,
Söylə, necə çıxaq bu vəziyyətdən?..”
Burda son qoyuldu uzun söhbətə,
Oğuzlar başladı fəaliyyətə.
Ox məsafəsinə gəlib çatdılar,
Çaparaq gəldilər, sərrast atdılar.
Dəstə-dəstə gələn nizamlı səflər,
Vurduqca çökürdü yerə hədəflər.
Dəstə daxilində hər bir süvari,
Qövsəbənzər çapıb dönürdü geri.
Hücum vaxtı atıb oxu dalbadal,
Gəlib öz yerində dururdu dərhal.
Girirdi döyüşə növbəti dəstə...
Beləcə hücumlar edib üst-üstə,
Çox ağır xəsarət vurub düşmənə,
Ordu mövqesində dayandı yenə.
Rəqib ordusunda qarışdı ara,
Çoxuna dəymişdi oxlardan yara.
Onlar da atdılar... yayları ancaq,

Oğuz yayı qədər vurmurdu uzaq.
Qazansınlar deyə onlar da uğur,
Ox məsafəsinə getdilər məcbur.
Amma oğuzlar da çəkildi geri...
Əvvəl asta getdi on min süvari,
Sonra yavaş-yavaş çoxaldı sürət,
Bir qaçdı-qovduya döndü vəziyyət.
Sürətlə çapdıqca qarşı tərəflər,
Düşmən ordusunda seyrəldi səflər.
Sərkərdələri də görərək bunu,
Dayandırsalar da bütün ordunu,
Nizam yaratmağa yetmədi zaman,
Çünki vermədilər oğuzlar aman.
Birinci zərbənin ağır şiddəti,
Birdəfəlik qırdı müqaviməti.
Çəkildi geriyə düşmən ordusu,
Qaçdılar meydandan daha doğrusu.
Bu təqib, bu qırğın dayandı axşam,
Yenidən puç oldu xəyallar tamam.
Qalıb Kırvaş, Dübeys, Cəlalüddövlə
Üz-üzə bu acı həqiqət ilə,
Qurdular çadırda gecə məşvərət,
Az qala sübhədək uzandı söhbət.
Səhər açılanda yenə ordular,
Öz mövqelərinə gəlib durdular.
Bağdad ordusundan çıxan bir çapar,
Çapıb köhlənini hər nə gücü var,
Şimal küləyinin bağrını dəldi,
Oğuzlara tərəf sürətlə gəldi.
Ön cərgələr baxıb çəkdi qəh-qəhə,
Kim isə qışqırdı: “Bax bu əbləhə!
Bədbəxt ayılmayıb hələ yuxudan,
İtirib qibləni ya da qorxudan!”
Hərə bir söz dedi, atmaca atdı,

Nəhayət, bu çapar orduya çatdı.
Ordunun önünə çıxınca Göyxan,
Bütün cərgələrdə yarandı sahman.
Çapar da Göyxana yetirib diqqət,
Ərəb köhlənindən endi nəhayət.
Bir namə var idi onun əlində,
Cəld gəlib dayandı bəyin önündə.
Naməni uzatdı, Göyxan da aldı,
Açaraq ötəri bir nəzər saldı.
Sonra da ərəbcə dedi çapara:
"Namə göndərirlər düşəndə dara.
Tab gətirmədilər bircə döyüşə!
Nə ehtiyac vardır böylə görüşə?"
Ərəb dedi: "Əmir, aman diləram...
Mən belə şeyləri hardan bilərəm?"
Göyxan gülümsədi, dedi: "Yaxşı, get,
Öz əmirlərini sən xəbərdar et.
Eybi yox, gələrik görüşə... Amma,
Ortaya çıxsa bir hiylə, müəmma,
And olsun, heç kimə vermərik aman,
Mosul, Bağdad olar yer ilə yeksan!"

## GÖRÜŞÜB, DANIŞIB, RAZILAŞDILAR

Çəkilmişdi deyə ordular geri,
Təhlükəsiz idi bu görüş yeri.
Hər iki tərəfdən gəlib mərkəzə,
Bəylər və əmirlər başladı sözə.
Oğuzlar tərəfdən – Göyxan və Mənsur,
Gəlmişdi igidlər, adları məşhur.
Digər tərəfin də heyəti böylə:
Kırvaş, Dübeys bir də Cəlalüddövlə.
Hörmətlə verildi, alındı salam,
Salam sahibindən rəhmətdir kəlam.
Kırvaş dedi: "Bəylər, müqəddəs Quran,
Buyurur – qardaşdır cümlə müsəlman.
Biz – Cəlalüddövlə, mən, bir də Kırvaş,
Sual verdik – Nədən olmayaq qardaş,
Müsəlman, mərd, cəsur oğuzlar ilə?
Düşsün bu qardaşlıq qoy dildən dilə..."
İstehzalı gülüb söylədi Göyxan:
"Bu fikir yaranıb sizdə nə zaman?
Bu məğlubiyyətdən əzəlmi olub,
Ya sonra qafanız ağılla dolub?
Bəs kim Mənsur bəyi etmişdi əsir,
Kimdir xəyanətkar, kimdir müqəssir?
Elçini tutanın nə imiş qəsdi,
Sülh ilə uzanan əli kim kəsdi?
Nə yaxşı deyirsiz dindən, imandan?
Misal da çəkirsiz bizə Qurandan.
Var imanınıza böyük bir şübhə,
Məncə həll etməli hər şeyi cəbhə!"
Dübeys dedi: "Haqdır bu sözüm, qardaş,
Mənsurun həbsini nə mən, nə Kırvaş,
Nə arzu etmişik, nə də bilmişik...

Sülh məramı ilə bura gəlmişik.
Hər kim bu fitnəni, hiyləni qurmuş,
İndi bayquş kimi tənha oturmuş...
Cavabsız qalmayıb bu qəsd, bu qəza,
Siz vermisiz ona layiqli cəza...”
Mənsur dedi: “Artıq deyil ki pünhan,
Sizin məhvinizlə bitəcək meydan.
Açılar yolumuz sonra Bağdada.
Nədən bu fürsəti biz verək bada?!
Töküb zəhləmizi, düzünü deyim,
Sərsəri xəlifə Abbasi Qaim...
Olacaqsa bizim Mosul və Hillə,
Keçəcəksə əgər Bağdad da ələ,
Nə üçün dayanaq, çəkilək geri?!
Ərmağan eyləsək bu boyda yeri,
Məmnun olar bizdən o Toğrul sultan,
Münasibətimiz olar mehriban...”
Bu yerdə sevincək Cəlalüddövlə,
Söylədi: “Mənsur bəy, səbr eylə hələ.
Bağdad xəlifəsi Abbasi Qaim,
Sülhün tərəfdarı olubdur daim.
Sizin haqqınızda yazıb sultana,[140]
Sultan da tez cavab yazıb ki ona,
Dağlılar yaxşı iş tutmayıb belə,
Xəlifə Qaimi incitmək ilə...
Məktubda yazıbdır sultanın özü,
Çatdıraq sizlərə dediyi sözü...”
Mənalı baxışıb Mənsurla Göyxan,
Həmfikir oldular baxışla pünhan.
Mənsur gülüb dedi: “Bilməzdm qəti,
Xəlifəyə varmış bunca hörməti.
Büveyhi əlində olub oyuncaq,
Sultan Toğrul üçün əzizdir ancaq!
And olsun ki, heç nə dərk etmirəm mən,

Sultan bizi yoldan eylədi nədən?!
Yayınıbsa çox şey onun gözündən,
Çıxmarıq sultanın yenə sözündən,
Həm qohumdur bizə, həm böyük sultan!”
Sonra da hiddətlə danışdı Göyxan:
“Yenə xəlifənin gətirdi bəxti,
Tutub didəcəkdim mən o bədbəxti!
Yəni Abbasini nə ilan vurdu,
Bizim üstümüzə göndərdi ordu?!
Hər yerdə qurmuşduq səliqə sahman...
Onu xilas etdi ölümdən sultan!
Yaman xilas oldu bu əcəlindən,
Qoy sultan Toğrulun öpsün əlindən!”

# VAN HÖKMDARININ
# ƏSİR EDİLMƏSİ

Aslan pəncəsindən bir quzu kimi,
Qaçıb xilas olmuş Hillə hakimi,
Bağdadda Qaimlə görüşən zaman,
Gəlmədi dilinə bir kəlmə yalan.
Ağıllı adamdır çünki xəlifə,
Çətində doğru yol seçir hər dəfə.
Şikayət etməklə Toğrul sultana,
Xəbərdarlıq edib bütün cahana.
Arxası türklərə bağlıdır əgər,
Özünü yenilməz sanır müxtəsər.
Büveyhilər onu sıxırdı hələ,
Çoxdan həll olardı yoxsa məsələ.
Arslan elatını edib bəhanə,
Nəhayət ki, yazdı Toğrula namə.
Hətta işi qurdu xəlifə öylə,
Onu alqışladı Cəlalüddövlə.
Davranır onunla xeyli mülayim,
Çünki bilirdi ki, xəlifə Qaim,
Büveyhi qurumu müvəqqətidir,
Ara dövlətidir, kənd dövlətidir.
Qaim bilirdi ki, çəkməz çox uzun,
Bağdada gəlişi böyük oğuzun.
Bilirdi türklərin sədaqətini,
Görürdü möhtəşəm türk dövlətini.
Amma Dübeys ilə edəndə söhbət,
Yürütdü yenə də Qaim siyasət:
“Amanın günüdür, edin ehtiyat,
Bir də bu yerlərə dönməsin elat.
Bu Arslan elatı gəlsə bir daha,
And olsun, qalacaq ümid Allaha!
Allah razı olsun böyük sultandan,

Xilas etdi bizi bu boyda qandan.
Əgər etməsəydik ona şikayət,
Qaçılmaz idi bu böyük fəlakət.
Bu cəsur elatdır, bilməyir yasaq,
Sultanın sözünü eşidir ancaq.
Nə qədər Toğrula biz olsaq yaxın,
Elat üstümüzə eyləməz axın!
And olsun, eşidən gəlir heyrətə...
Valehəm onlarda olan qeyrətə!
Yoxdur canlarında qorxu bir gilə!
Cəmisi onca min süvari ilə,
Hücum eyləyirlər Rum ölkəsinə,
Sığışmır insanın əqidəsinə!
Bütün valiləri edin xəbərdar,
Bu elata qarşı bircə çarə var.
Siz sultan Toğruldan yapışın möhkəm,
Çalışın bu işdə mənimlə bahəm.
Sultanın vardırsa mənə hörməti,
Ətrafımda qurun hər siyasəti”.
Arslan elatını edib bəhanə,
Xəlifə tədricən çıxırdı önə.
Eynən də yüksəlir adı sultanın...
Amma yürüşdədir eli Arslanın.
Yürüş etmək üçün düzülüb səfə,
Getdilər igidlər Vana bu dəfə.
Oğuzlar çıxaraq Diyarbəkirdən,
Rum ərazisinə girdilər birdən.
Qısa bir zamanda çatdılar Vana,
Yenə də çıxdılar açıq meydana.
Vanın valisində vardı məlumat,
Son bir ildə nələr etmişdi elat.
Əsla yol vermədən qorxu, təşvişə,
Hazırlıq etmişdi vali görüşə.
Deyirdi: “Gülüncdür! On min süvari,

Fəth edib bu qədər kəndi, şəhəri.
Xəlifənin böyük ordusu belə,
Bacarmamış on min süvari ilə.
İndi Van üstünə keçib hücuma,
Meydan oxuyurlar möhtəşəm Ruma!
Nizam-intizamsız bu vəhşi kütlə,
Nə sayaq çəkişər böyük Rum ilə?!
Beş min piyadam var, on min süvarim,
Kamil təlim almış hər bir əsgərim.
Süvarilər də var sərhəddə beş min,
Eşidib gələrlər köməyə yəqin.
Tezliklə türkləri gömməsəm gora,
Xəbər göndərərəm imperatora.
Fikrimcə o qədər döyüş uzanmaz,
Kimsə Ruma gəlib zəfər qazanmaz.
Mən bağışlamaram türkə bu səhvi,
Çox uzaqda deyil onların məhvi.
Zənnimcə bir meydan savaşı yetər,
Türklərin fatehlik həvəsi itər!"
Belə arzularla, amallar ilə,
Başında min cürə xəyallar ilə,
Sağlam düşüncədən olaraq məhrum,
Etdi oğuzların üstünə hücum.
Yüngül süvarilər yürüdü əvvəl,
Qaldılar ortada onlar məəttəl...
Çünki rumlularda var idi qayda,
Bu süvarilərdən çox idi fayda,
Döyüşdə birinci çıxaraq önə,
Ox yağdırardılar onlar düşmənə.
Düşmən səfləri ki pozular belə,
Ağır süvarilər edərlər həmlə.
Sonra piyadalar hücuma keçər,
Nizə və mizraqla düşməni biçər.
Lakin... alınmadı bunlar bu dəfə,

Süvari qoşunu döndü hədəfə.
Ox məsafəsinə hələ çatmamış,
Oğuzlara tərəf bir ox atmamış,
Oxa tuş gəldilər onlar özləri,
Daha da bərəldi domba gözləri.
Yoxdur uzaqvuran oxların təni,
Oğuzlar uzaqdan qırır düşməni!
Yıxıldı meydanda xeyli süvari,
Yaralanmayanlar çapdılar geri.
Rumlular bir müddət çaşıb qaldılar...
Ağır atlıları işə saldılar.
Zirehli geyimdə başdan ayağa,
Bu atlılar getdi xeyli qabağa,
Nəzərdə tutulmuş yerə gəldilər...
Oxlar zirehləri asan dəldilər.
Dəmir müqəvvalar vurnuxub qaldı,
Hərəsi bir neçə “ox payı” aldı.
Valinin canını almışdı qorxu,
Elə bil görürdü dəhşətli yuxu...
Ağır atlıları qurtarsın deyə,
Göndərdi ordunu vali köməyə.
Oğuzlar sürətlə edib hərəkət,
Düşmən təqibindən “qaçıb” bir müddət,
Bütün bölmələri ayrı saldılar,
Hissə-hissə vurub zəfər çaldılar.
Tökülməsin deyə yerə nahaq qan,
Aman istəyənə verdilər aman.
Rumlular az itki verdilər... ancaq,
Qəti bir şəkildə enmişdi sancaq.
Döyüşçülər qaçıb gözdən itmişlər,
Oğuzlar valini əsir etmişlər.
Mərhəmətli oldu bu işin sonu,
Azad buraxdılar oğuzlar onu.
Sağ-salamat gəldi şəhərə vali,

Lap məəttəl qaldı Vanda əhali.
Dinc xalqa vermədən zərrə əziyyət,
Xeyli silah-sursat yığıb qənimət,
Oğuzlar keçdilər Azərbaycana,
Yenə də gəldilər gözəl Zəncana.
Hər şeydən xəbərdar olan Vəhsudan,
Göndərdi elata xeyli ərmağan.

## ŞİRVANŞAH QUBAD[141] XƏBƏRDAR EDİLDİ

Yaratmamaq üçün lazımsız maraq,
Əyan-əşrəfin də gözündən iraq,
Dəvət eyləyərək otağa pünhan,
Vəzirlə məşvərət qurdu Vəhsudan.
Soruşdu: "Yəqin ki, bilirsən, vəzir,
Gizli görüşməkdə məqsədim nədir?"
Vəzir dedi: "Ağam, deyiləm əmin...
Arslan elatıyla bağlıdır yəqin.
Nədənsə edirsən yəqin ehtiyat...
Nə törədib yenə bu məşhur elat?"
Vəhsudan söylədi: "Hələlik heç nə...
Hər nə ediblərsə, məlumdur sənə.
Zənnimcə... gedəcək elat Şirvana".
Vəzir dedi: "Ağam, məgər sultana,
Gərək olmayacaq bu elat daha?
İnamım da yoxdur bu cür izaha..."
Bir qədər düşünüb dedi Vəhsudan:
"Əksinə... inanır bu elə sultan...
İnanır... inanır, özü də lap çox,
Buna heç zərrəcə şübhəmiz də yox.
Olay görməmişəm mən buna bənzər,
Gəl.. yaxın tarixə yetirək nəzər.
Əvvəl Xorasana gəldi bu elat,
Bir gün oturmadı yerində rahat.
Dünyanın ən güclü ordusu ilə,
Bu elat vermədən ara, fasilə,
Beş il savaş etdi qeyri-bərabər,
Ta Mahmud Qəznəvi ölənə qədər.
Sonra Arslan eli qərbə yönəldi,
Xorasana Səlcuq elatı gəldi.
Arslan eli qərbdə qaldı bir zaman,

Onların ardıyca buyurdu sultan.
Arslan eli girdi Azərbaycana,
Diyarbəkir, Mosul, sonra da Vana...
Vəzir, sən yadında saxla bu sözü,
Bu yolla gedəcək sultanın özü".
Vəzir sual verdi: "Axı nə üçün,
Belə nəticəyə gəlmisən bu gün?
Bu söylədiklərin qalsın bir yana...
Nədən getməlidir elat Şirvana?"
Vəhsudan söylədi: "Bir yum gözünü,
Toğrulun yerində hiss et özünü".
Vəzir fikirləşib dedi: "Doğrudur,
Ardıcıl olarsa, düz yol da budur".
Vəhsudan söylədi: "Gördünmü? Əhsən!
Bəlkə əhvalat da eşitmisən sən.
Bu elat danışır düşdükcə imkan,
Baba yurdlarıdır guya ki, Şirvan".
Vəzir dedi: "Ağam, belədir əgər,
Şübhə də qalmadı bir buğda qədər.
Demək... bu yaxında gəlib Təbrizə,
Arslan eli mehman olacaq bizə".
Vəhsudan söylədi: "Əminəm daha.
Gərək xəbər verək biz Şirvanşaha.
O, Yezidin oğlu Qubad Şirvanşah,
Gərək tez edilsin bu işdən agah.
Bu gün göndərərik biz ona xəbər,
Yoxsa ki, qəflətən böyük səhv edər.
Arslan elatıyla başlasa hərbə,
Toğrul dərhal vurar Şirvana zərbə.
Sultan gedər olsa əgər Şirvana,
Əvvəlcə girəcək Azərbaycana.
Sözsüz ki, çökəcək hakimiyyətim...
Mənim isə yoxdur belə niyyətim.
Toğrul alacaqdır Azərbaycanı,

Sadəcə bilinmir vaxtı, zamanı.
Bizim vəzifəmiz budur ki ancaq,
Mümkün olan qədər vaxtı uzadaq.
Bəlkə o vaxtacan taparam imkan,
Olaram sultana gərəkli insan.
Bəlkə edər məni ölkəmdə məlik...
Amma bir ümiddir bunlar hələlik".
Daha itirmədən boş yerə zaman,
Göndərdi Şirvana xəbər Vəhsudan.
Çox pərişan oldu Şirvanşah Qubad,
Onsuz da işləri gedirdi bərbad.
Var idi şimaldan böyük təhlükə,
Daha bir sınaqla üzləşdi ölkə.
Bu dəfə cənubdan... böyük bir elat,
Adlı-sanlı, cəsur, cahangir elat!
Bu Xızır yurdunda məskən salacaq,
Paytaxta çox yaxın yerdə qalacaq!
Qubad ibn Yezid düşdü təşvişə,
Daha yubanmadan başladı işə.
Toplayıb Şirvanşah nə qüvvəsi var,
Paytaxt ətrafına çəkdirdi hasar.
Dəmir darvaza da qoydurdu[142] möhkəm,
Aldı Yezidiyyə[143] möhtəşəm görkəm.

## BÖYÜK BƏYLƏRLƏ İBRAHİM YINALIN VİDA GÖRÜŞÜ

Elatın Zəncanda olduğu son gün,
İbrahim də gəldi görüşmək üçün.
Səfərə hazırlıq etsə də elat,
Sevindi görüşə bütün camaat.
El əziz qonağa göstərib hörmət,
Onun şərəfinə verdi ziyafət.
O günü səhərdən axşama kimi,
Elatda gəzişdi Reyin hakimi.
Kəsildi çöllərdə qoçlar, dəvələr...
Sərildi yerlərə gözəl gəvələr,
Dörd bir yanda açdı süfrələr elat,
Sanki qurulmuşdu böyük toy-büsat.
Bir yerdə qopuzlar verib səs-səsə,
Söz deyən ozanlar girişib bəhsə.
Bir neçə yerdə də açılıb meydan,
Güləşir növbəylə yüzlərlə cavan.
Elat bəzənibdir ayaqdan-başa,
İki göz istər ki, etsin tamaşa.
Yalnız gün batanda taparaq macal,
Böyük bəylər ilə İbrahim Yınal,
Gəlib əyləşdilər birgə nəhayət,
Etdilər çadırda bir xeyli söhbət.
Yorsa da ziyafət tamam Yınalı,
Xeyli yüksəlmişdi onun əhvalı.
Söylədi: “Mən Reyə gəldiyim gündən,
Sanki ağac kimi qopub kökündən,
Əcaib mühitdə sıxılıb qaldım,
Ötənləri tez-tez yadıma saldım.
Nə saysız var-dövlət, nə taxt, nə də tac,
Sıxılan qəlbimə etmədi əlac...
Heç nə əvəz etməz doğma elləri,

Açıq könülləri, doğru dilləri...
Oğuz ayrı düşsə doğma elatdan,
And olsun ki bəylər, küsür həyatdan.
Həmd olsun Allaha, bu gün elə bil,
Cənnət guşəsində etmişəm mənzil.
Bu doğma dil, doğma adət-ənənə,
Bütün varlığımı qaytardı mənə...
İçimdəki hisslər yaratmış təzad,
Həm xeyli qəmginəm, həm də xeyli şad”.
Göyxan dedi: “Qardaş, şadlığın sənin,
Bu gözəl görüşlə bağlıdır yəqin.
Amma anlamadım... Nədəndir o qəm?”
Yınal dedi: “Mənim könlümə həmdəm,
Əzizdən də əziz oğuz elimdir,
Adət-ənənəmdir, doğma dilimdir...
Təəssüf ki, hər şey məhv olub gedir,
Edənlər tədbirlə bu işi edir.
Qurduq arzulanan böyük dövləti...
Nədir oğuz üçün əhəmiyyəti?!
Başınız çəksə də min bir əziyyət,
Tək sizin elatda qalıbdır vəhdət.
Böyük bir hissəsiz Səlcuq elindən,
Amma... ayrılığın fəryad əlindən!
Sabah köç edirsiz uzaq Şirvana...
Ayrılıq əzəldən dərddir insana”.
Əhməd Davud oğlu dedi: “İbrahim,
Yorğunluqdan oldun belə mülayim.
Bələdəm mən sənin ləyaqətinə,
Dar gündə gücünə, dəyanətinə...
Doğma qardaş kimi əzizsən mənə,
Amma var bir neçə iradım sənə.
Əvvəla, uzaqda deyildir Şirvan,
İki yol uzaqdır burdan Xorasan.
Sonra da... bilmirəm nədir bu kədər?

Ayrılıb görüşmək az olub məgər?
Min dəfə ayrıldıq, birləşdik yenə.
Nədən bu ayrılıq dərd oldu sənə?"
Bir az fikirləşib söylədi Yınal:
"Məni də rahatsız edir bu sual.
Çox ayrılıqlara gərmişik sinə,
Görüşüb vəhdətdə olmuşuq yenə.
Həm də bir-birindən olsaq da uzaq,
Yumruğu bir yerə vurmuşuq ancaq.
Bu dəfə... bu dəfə fərqlidir tamam,
Elə bil içimdə sarsılıb inam.
Görüşmək istərdim yenə də, fəqət,
Çətin olsun mənə bir daha qismət..."
Buğa bəy söylədi: "Bu olur hərdən,
Çox belə hisslərə qapılmışam mən.
Sən çalış bu hissi başından çıxar,
İçində yer edib bağrını sıxar..."
Yınal dedi: "Hər bir dərdə əlac var,
Adamın əlində olsa ixtiyar...
Əlim ən bəsit bir işə də yatmır,
Bir söz söyləməyə haqqım da çatmır.
Gənəşmə qurardıq, bəylər, bir zaman,
Hər kəs öz fikrini edərdi bəyan.
Qurulur sarayda indi məşvərət,
Düşür yaltaqların əlinə fürsət.
Baxıb görürsən ki, qorxağın biri,
Nədir ki, sarayda var məxsus yeri,
Sultan Toğrula da verir məsləhət,
Heç zərrə qədər də çəkmir xəcalət.
Doludur sarayda ərəb, deyləmi,
And olsun, fars dili töküb zəhləmi".
Mənsur dedi: "Sultan bilir işini,
Boş yerə dəyişməz öz vərdişini.
Yaxşı bilirsən ki, türklər nə üçün,

Sultan sarayında çox azdır bu gün.
Məni, yaxud səni, İbrahim Yınal,
Aydınlıq xətrinə çəkirəm misal,
Çağırsa sarayda sultan xidmətə,
Sadəcə gülərik belə dəvətə...”
“Əbəttə gülərik!” söylədi Yınal.
Mənsur dedi: “Buyur, cavabını al!
Savaşıb, vuruşub qazandıq zəfər,
Bununla bitdimi işimiz məgər?!
Kim idarə etsin bəs bu dövləti?
Bəli, xoşlamırıq biz siyasəti,
Könlümüzcə deyil sarayda xidmət,
O vəzifələrə yox bizdə rəğbət.
Nədir vəzil, vəkil ya xəzinədar?
Sərkərdə olmağın şərafəti var!
Sarayda vurnuxmaq bizə yaraşmaz!
Yox, mənim qardaşım, böylə iş aşmaz.
Bax, mənim əzizim, bax budur səbəb,
Doluşub saraya deyləmi, ərəb”.
Acı-acı gülüb söylədi Göyxan:
“Düzünü deyim ki, etmirəm güman,
Sultana bir xeyir verim sarayda.
Ora getməyimdən kimə nə fayda?..
Gərək çoxlu sayda cavan seçilsin,
Onlara xüsusi təlim keçilsin.
Qoy dövlət işini bilsin hər cavan,
Yadlara da möhtac olmasın sultan.
Bu cavanlar tutsun bütün sarayı,
Çoxalsın sarayda türklərin sayı”.
İbrahim söylədi: “Gözəl arzudur,
Sultan Toğrulun da istəyi budur.
Əlbəttə, dönərdi əmələ istək,
Qurmasaydı vəzir[144] min cürə kələk.
Bir zaman istədi hiyləgər idbar,

Etsin oğuzları ordudan kənar.
Demişəm sultana bunları bir-bir,
Yenə əməlindən əl çəkmir vəzir.
Sultan edir ona o qədər hörmət,
Sözümə verməyir bir əhəmiyyət.
Mən bu haqsızlıqdan gəlmişəm cana,
Məndən əziz imiş vəzir sultana.
Bir il bundan əvvəl gəlib həvəsə,
Tikdirdi bir neçə böyük mədrəsə.
Sultan çox yerlərdə açdırdı məktəb...
Yenə saf deyilmiş, sən demə, mətləb.
"Nizamiyyə"[145] oldu məktəblər tamam,
Onlarda da vəzir yaradır nizam!
Bəylər, bütün bunlar məlumdur sizə,
Çox hörmət edilir o şərəfsizə.
Oğuzlar can qoyub qurdular dövlət,
Vəzifələr oldu yadlara qismət.
Oğuza xeyri nə böylə ölkənin?!
Adı mənim oldu, dadı özgənin!"
Buğa bəy söylədi: "Səbr eylə bir az,
Günəş çıxan kimi çəkilməz ayaz.
Bütün çətinliklər müvəqqətidir,
Dövlətimiz bizim türk dövlətidir.
Söz yox, hələ hər şey deyil mükəmməl,
Əsası odur ki, möhkəmdir təməl.
Nə dilimiz itər, nə adətimiz,
Bircə pozulmasın bu vəhdətimiz.
Qanundur sultanın qoyduğu qayda,
Bir gün dəyişiklik edər sarayda.
Hər nə cür kələkbaz olsa da vəzir,
Əsla edə bilməz Toğrula təsir.
Davud Çağrı bəydən başqa bir insan,
Döndərməz fikrindən onu heç zaman.
Toğrul qardaş kimi bizə əzizdir,

Cəsurdur, igiddir, qəlbi təmizdir,
O, adil sultandır, ağıllı rəhbər!”
Araya sakitlik çökdü bir qədər...
Bəylərin könlündən olmayan söhbət,
Buğanın sözüylə bitdi nəhayət.
Başqa bir mövzuya qarışdı başlar,
Xatırlandı ən son böyük savaşlar.
Diqqət çəkdi Vanda olan əhvalat,
İbrahim topladı xeyli məlumat.[146]

## ULU BABA YURDUNA – SAYAD-XIZIYA QAYIDIŞ

Allahın rəhmiylə səhər açıldı,
Günün şəfəqləri yerə saçıldı.
Zəncandan çıxaraq düzəldi yola,
Arslan Yabqu eli getdi şimala.
Arazı keçdilər, Kürü keçdilər,
"Xızır yurdu" adlı yerə köçdülər.
Bölündü burada otlaq yerləri,
Qışlaq, binə, bustan, yaylaq yerləri.[147]
Beş bəyin adıyla bölgülü halda,
Elat məskən qurdu bu beş mahalda.[148]
Sayad-Xızı yurdu, oğuz torpağı,
Peyğəmbərin eli, Xızır ocağı,
Doğma övladları qoynuna aldı,
Bu elat öz baba yurdunda qaldı.
Nə qədər sınağa çəksə də həyat,
Beş bəyin adını yaşatdı elat.
Xalqın yaddaşına dəymədi zərər,
Kafirlərə fürsət verənə qədər.
Sovetlər dövründə "tarix" quruldu,
Yaddaşlara ağır zərbə vuruldu.
Baş tutdu kafirin qismən niyyəti,
Unutdu kökünü əksəriyyəti.
Lakin nə fitnə də qursa fitnəkar,
Başlanğıcı varsa mütləq sonu var.
Kim çəkmək istərsə gözlərə pərdə,
Özünü, nəslini salacaq dərdə.
Heç vaxt unutmasın hiyləgər insan,
Daha tədbirlidir vahid Yaradan.
O gündən ki haqqın yolunu seçdim,
İlham meylərindən badələr içdim,

Oxuyub öyrəndim, gəzib axtardım,
Elm ilə zülmətin bağrını yardım.
Apaydın görüncə dörd bir tərəfi,
Babamın oxuyla vurdum hədəfi.
Aşıb fitnəkarın “tarix” səddini,
Tanıyıb öyrəndim cümlə cəddini.
Açıldı düyünlər, haqq çıxdı üzə,
Çökdü saxtakarlar qarşımda dizə.
Sızan həqiqətlər döndü bir selə,
Mən də nəzmə çəkib gətirdim dilə.
Ata babam boyu – isalu-əfşar,
Bir vaxt İsaluda[149] qurmuşdu diyar.
Ana babam iç-quz, alagöz quzman,
Bir ozan nəslidir sözü bir ümman.
Anamın nənəsi quzman-qazaqdır,
Onun qədim yurdu Qarabulaqdır[150].
Qazıludan[151] olmuş bir ulu nənəm,
Qədim əlişarlu-əfşar da mənəm.
Sən mahallarımı soruşsan əgər,
Deyərəm – Göyxandır bir də Qomişər.
Qədimdə babamız Qomiş ya Buğa,
Xızır ellərində qalxıbdır dağa.
Bu elin bir oğlu yenilməz Arqar,
Arqarın adıyla bustanımız var.
Oğuzun oğludur şərəfli Göyxan,
Onun qardaşıdır babamız Dağ xan.
Artıq aydındır ki, bax bu səbəbdən,
“Dağlu”[152] da deyirlər bizlərə hərdən.
“Dağlı” olmağıma bir səbəb də var,
Onun da sirrini yazmışam aşkar.
Bu adın özünə düz min il əvvəl,
Arslan Yabqu eli qoyubdur təməl.
Elat Manqışlaqda yaşayan zaman,
“Qara Dağ” adlanıb bu qədim məkan.

“Qara Dağlı”, “Dağlı” olub camaat.
Savaşıb, vuruşub bu cəsur elat,
İranda, İraqda çəksə də həsrət,
Öz baba yurduna gəlib nəhayət.
Xızır məkanının beş mahalı var,
Qədim babalardan qalıb yadigar:
Qomişər və Göyxan – bunları bildik,
Üçüncü mahaldır Gədi ya Gədik.
Dördüncü “Quşçu”dur nəzərə alsaq,
Beşinci mahaldır Xızı-Beşbarmaq.
Farsların diliylə tarixçi alban[153],
Bu oğuz yurduna söyləyib “Xursan”.[154]
“Xusr sanq” – yəni ki “Xızır qayası”,
Təməlindən pakdır yurdun mayası.

* * *

Türkü parçalamaq istəyən xain,
Silərəm cahandan kökünü sənin!
Mərdanə savaşa ordun da yoxdur,
Tarixin saxtadır, yurdun da yoxdur.
Çək görüm meydana “alim”lərini,
Boğum o iblisin xadimlərini!
Min il sövdələşsən manqurtlar ilə,
Bir ağlabatan söz gəlməz hasilə.
Sox indi gözünə qələmlərini,
Gəl öp bu Dağlının qədəmlərini!

* * *

Nəyi var, nəyi yox – öz millətimdir,
Mənim qürurumdur, şərafətimdir!
Bir ölçü dərk etməz dünyada bəşər,
Məndə olan Vətən sevgisi qədər.
Müqəddəs qismidir Azərbaycanım,
Canımdır, qanımdır böyük Turanım!

Millətim – ulu Türk, vətənim – Turan,
Əqidəm İslamdır, kitabım – Quran!
Olmaz bundan böyük səadət daha,
Həmd olsun, şükr olsun rəbbim Allaha!

## TURAN DANIŞIR

Birgə dalğalanan bayraqlara bax,
Hər bayraq şərəfli dastan danışır!
Bir ümid bürümüş müqəddəs yurdu,
Vüsal duyğusuyla zaman danışır!

* * *

Bir sərhədd yoxdursa məhəbbətimə,
Kimsə tuş gəlməsin qoy nifrətimə.
Təkəbbür də yaddır mərd xislətimə,
Mənim mənliyimdən cahan danışır!

* * *

Bir türk oğlu kimi açıb gözümü,
Haqqın tərəfində gördüm özümü,
Adillər dərk edər doğru sözümü,
Çünki türk dilində iman danışır!

* * *

Dönüb həqiqətlər amansız selə,
Daha meydan verməz bir yaman dilə!
Türk qardaşlarıyla tutub əl-ələ,
Azərbaycan adlı məkan danışır!

* * *

Qardaşlıq eşqindən doğan niyyətin,
Səadət mənzili bulunmaz çətin!
Cəmlənib diqqəti bəşəriyyətin,
Bu gün ərlər yurdu Turan danışır!

## SORUŞ

Sayad-Xızır yurdu türk oylağıdır,
Altı ağac, altı tözümdən[155] soruş.
Tuğumdan, tamğamdan[156] xatirələr var,
Alovumdan qalan közümdən soruş!

* * *

Tülkü toplantısı tələlər qurdu,
Arslan elatını gizlincə vurdu,
Xaraba qoydular müqəddəs yurdu,[157]
Dərdi məndə olan dözümdən soruş!

* * *

Yad oğlu ölsə də "türkəm" söyləməz!
Elatsız yurdumda torpaq göyləməz,
Göysüz yaylaqlarda ellər köyləməz,
Dərəmdən, dağımdan, düzümdən soruş!

* * *

İntizar oysa da qəlbimi xəlvət,
Məni sındırmadı bu uzun həsrət.
Cəsur xislətimə yaddır şikayət,
Könlümün içini gözümdən soruş!

* * *

Məkrli yağılar açsa da savaş,
Qeyrətim önündə durmaz başa-baş.
Məni düşmənimdən soruşma, qardaş,
Sən məni gəl mənim özümdən soruş!

## *IX HİSSƏ*

# BÖYÜK SƏLCUQLU DÖVLƏTİNİN SULTANI MƏHƏMMƏD TOĞRUL

### *SIZAN HƏQİQƏTLƏR*

Adəm bir harama salınca tamah,
Nəfsinə aldanıb törətdi günah.
Baş tutdu İblisin qurduğu kələk.
Həzrəti Cəbrail, o uca mələk,
Allahdan aldığı fərmana görə,
Adəmi, Həvvanı endirdi Yerə.
Yalnız Yer üzünə gəldiyi zaman,
Cənnətin qədrini dərk etdi İnsan.
Hönkürüb ağladı... gec idi fəqət...
Adəm babamızdan qaldı bu adət,
Dünyaya gələndə ağlayar insan,
Cənnətin feyzi var qanında nihan.
Hər Adəm oğlunun öz xisləti var,
Xislətinə uyğun öz niyyəti var.
Əgər pak deyilsə onun niyyəti,
Görsə də rədd edər saf həqiqəti...
Adəmdən Nuhadək keçdi bir müddət,
Çox qüvvətli idi sağlam təbiət.
Yüzillərlə sürüb insanlar həyat,
Artıb çoxaldılar sürətlə, rahat.
Adəm övladları artdıqca belə,
Bölünüb nəsillər, tayfalar ilə,
Tamah ucbatından açaraq meydan,
Qətllər törədib tökürdülər qan.
İblis könüllərə saldıqca nifaq,
Ağıl da dərk etməz – nədir ittifaq?

Sülh barəsində heç düşünməz bəşər,
Kor kimi İblisin ardıyca düşər.
Təkəbbür hissindən aldıqca ilham,
Nəfsi fəryad edər : “Qisas, intiqam!”
Düşməni İblislə olaraq sirdaş,
Beləcə zülm edir qardaşa qardaş.
Qəddardır, qorxaqdır imansız insan...
Müqəddəs Quranda deyir Yaradan:
“Zaman-zaman sizi yönəltməsək Biz,
Çoxdan məhv edərdiz nəslinizi siz!”
Haqdır ki, babamız Adəmdən bəri,
Qəsd edir insana öz əməlləri...
Bu qədər çəksə də başı müsibət,
Yenə Adəm oğlu almayır ibrət.

## DÜŞÜNDÜRÜB MƏNİ BU BÖYÜK MƏTLƏB

Çox şey məlum oldu İbrahim bəyə,
Səhər yola düşüb qayıtdı Reyə.
Gələrək saraya İbrahim Yınal,
Sultan Toğrul ilə görüşdü dərhal.
Hər nə öyrənmişdi səfərdə elat,
Rum ordusu haqda geniş məlumat,
İbrahim söylədi sultana bir-bir,
İzahlar da verdi xəbərə dair.
Beləcə İbrahim etdi məruzə,
Nə sevinc, nə kədər verdi büruzə.
Quruluq hiss edib onun səsində,
Bir inciklik sezib qiyafəsində,
Sultan dedi: "Qardaş, sənə nə olmuş?
Elə bil səsin də, üzün də donmuş".
Bir cavab vermədi Yınal sultana,
Üzünü azacıq çevirdi yana.
Sultan Toğrulun da dəyişdi halı,
Yüngülcə məzəmmət etdi Yınalı.
Dedi: "Heç bilmirəm nə deyim sənə?
Düşübdür əlinə sənin bəhanə.
İbrahim nə hayda, aləm nə hayda!
Türklər olmalıymış yalnız sarayda!
İzah eyləməkdən gəlmişəm cana,
Yenə də burnunu tutursan yana.
Ay kişi, ay qardaş, ay sənə qurban,
Səbr eylə, yaradaq ölkədə sahman.
Yerli məmurları cəlb etdikcə biz,
Daha sabit olur bizim ölkəmiz.
İstərsə deyləmi, istərsə də türk,
Yerli məmurların xeyri var böyük.
Çünki bir şəhərdə bir neçə amil,

Vergi işlərini həll edir kamil.
Çünki qohumdurlar əksəriyyəti,
Rahatdır onların fəaliyyəti.
Bircə amil oğuz olarsa belə,
Asilik, qalmaqal verməz fasilə.
Yayınar vergidən əksər əhali,
Sonra gərək düşsün ortaya vali.
Sonra hər şəhərdə valiyə gərək,
Bir cəza dəstəsi göndərim kömək.
Cəza dəstələri hər bir şəhərdə...
Hansı ölkə dözər bu boyda dərdə?
Məmurlar sarayda, başqa xidmətdə,
Məmur dəstələri hər əyalətdə...
Gəl indi türklərlə doldur sarayı!
Varmı oğuzların bu qədər sayı?!
Qoysaq hər şəhərə bir dəstə oğuz,
Axırda qalarıq tamam ordusuz.
Deyləmi ordusu yaradaq bəlkə?
Qısa bir müddətdə dağılar ölkə.
Xəzinədar, vəzir və başqa işdə,
Lazımdır təcrübə, savad, səriştə.
Onsuz da camaat narazı gəzir,
Böyük təsəllidir deyləmi vəzir.
Camaat vəziri görüb sarayda,
Çalışırlar olsun hər yerdə qayda.
Məmur seçimində yoxdursa əlac,
Ərəb, fars dilinə vardır ehtiyac.
Daimi deyildir belə bir qurum,
Sözsüz ki, tezliklə dəyişər durum.
Əgər istəyirik nisbət dəyişsin,
Savadlı cavanlar gərək yetişsin.
Düşündürüb məni bu böyük mətləb,
Hər böyük şəhərdə açmışam məktəb.
Gərək cocuqlarda yaradaq həvəs,

Əldən verməsinlər fürsəti əbəs.
Elmlə yaranmış bu boyda aləm,
Daha kəsərlidir qılıncdan qələm...”
Çətin ki, Toğrulun məzəmmətindən,
Böyük qardaş kimi nəsihətindən,
Nəticə çıxardı İbrahim Yınal,
Tamam başqa şeylər edirdi xəyal.

## BİZANS PATRİARXININ[158] DÜŞÜNCƏLƏRİ

Sofya kilsəsində oturub sakit,
Kerularios[159] və bir mitropolit[160],
Sanki guşələri deyilmiş xəlvət,
Edirlər yavaşdan, aramla söhbət.
Mitropolit dedi: "Müqəddəs ata,
Necə izah edək biz camaata?
Ölkəmiz üçün bu ağır zamanda,
Düşmüşük nüfuzdan biz Vatikanda.
Kilsə imperator Konstantinə[161],
Kömək etməkdənsə salmış çətinə..."
Patriarx Mixail dedi: "Əgər biz,
Xaliqin önündə bükürüksə diz,
Yaraşarmı olaq nökər şeytana,
Müti bir qul olaq biz Vatikana?
O Roma papası göstərib inad,
Saxta sənədlərə edir istinad.
Azdırırsa xalqı dinindən tamam,
Edirəm mən onu açıq ittiham.
Razılıq vermərəm həm də heç zaman,
Olsun ianəyə[162] şərik Vatikan.
Nədən ölkəmizdə yığılan sərvət,
Roma papasına olmalı qismət?!
Bundan xəbərdardır sadə insanlar,
Bütün sərkərdələr və zadəganlar.
Hər şeyi çox yaxşı bilir camaat,
Heç də bu barədə olma narahat".
Bir az düşünərək dedi həmsöhbət:
"Narahat etməyir məni ibadət.
Siyasi cəhətdir əsas məsələ...
Kim bilir ki, nələr olacaq hələ?
Çünki Vatikanın nüfuzu vardır,

Təsir dairəsi bizə aşkardır.
Dini fərqlənməni çəkərək önə,
Yaxud da taparaq başqa bəhanə,
Papa bizi tamam hörmətdən salar,
Ölkəmiz tək qalar, yardımsız qalar.
İmperator bundan edir ehtiyat...
Məni də bax budur edən narahat".
Mixail söylədi: "Oğlum, bir düşün,
Nəyə əsaslanmış dünya görüşün?
Vəzifəmizdirsə haqqa ibadət,
Bizə gərək deyil əsla siyasət.
Həm də... qazmış əgər özü üçün gor,
Bizdən nə istəyir bu imperator?
Küfrə və zinaya şirnikmiş adam,
Kilsənin malına göz dikmiş adam,
Əlbəttə meydanda tək qalacaqdır...
Dünya cəzasını o alacaqdır.
Haqq dünyasında da bəllidir yeri,
Odur cəhənnəmin əhlindən biri.
Acgöz Aleksiyə[163] verərək rüşvət,[164]
Dul qadın almağa edib cəsarət.
Müqəddəs İncili almamış saya,[165]
Dinsizdir özü və arvadı Zoya.[166]
Hökmdar nəslindən olan bu arvad,
Ağır sürgünlərdən edərək azad,
Bu Konstantinə ərə getmişdir,
Onu "imperator" elan etmişdir.
Nədən dəstək olum böylə insana?
Hələ bu günahlar qalsın bir yana...
Kilsənin malına o əl uzatmış,
Guya xəzinənin malına qatmış.
Nəfsi hökm eyləyib imperatora,
Patriarx Studit öləndən sonra,
Müsadirə etmiş var-dövlətini,

Guya göstəribmiş ədalətini.
Bəli... Studitin böyük sərvəti,[167]
Bu Konstantinin oldu qisməti.
Amma patriarxın topladığı mal,
Gərək ediləydi kilsəyə halal.
İmperator isə etdi əksinə...
Bu adam nökərdir şeytan nəfsinə.
Bizə hörmətsizlik edirsə aşkar,
Nədən olsun ona kilsə tərəfdar?!”

## İMPERATORLA PATRİARXIN GÖRÜŞÜ

Kilsəyə toplaşmış yüzlərlə insan,
Liturgiya[168] başa çatdığı zaman,
Sonda xaça bir də təzim etdilər,
Nəhayət kilsədən çıxıb getdilər.
Şənbədən başlayan bu dini ayət,
Bazar günü səhər bitdi nəhayət.
İmperator axşam göndərdi xəbər,
Dini rəhbər ilə görüşdü səhər.
Mehriban-mehriban başlayan söhbət,
Sonradan aldı bir ciddi qiyafət.
Qəzəbi tutsa da Konstantinə,
Patriarx salmadan işi çətinə,
Mülayim danışdı, təbəssüm ilə,
Dedi: “Oğlum mənim, olaqmı kölə?
Enəkmi onların səviyyəsinə,
Keçəkmi iblisin himayəsinə?”
İmperator dedi: “Müqəddəs ata,
Kim istər qəlbini iblisə sata?
Nədən yaranmışdır səndə bu güman,
Guya ki, yol verib küfrə Vatikan?”
Patriarx söylədi: “Yox, mənim balam,
Yaraşmaz mənə ki, şübhədə qalam.
Çox dəqiqdir məndə olan məlumat,
Böyük bir günahdır imanda ifrat.
Bəli, küfrə doğru gedir Vatikan,
Aləmə göndərir yalançı fərman.
Dekretaliyalar – yalanisidor,[169]
Tövbə etmələri çox çətin, çox zor”.
Konstantin dedi: “Müqəddəs ata,
Bir qədər başqa cür baxaq həyata.
Tutaq ki, kim isə səhv edib bir az,

Nəyimizə lazım kəskin etiraz?
Bəlkə danışmayaq bu haqda hələ?
Çünki var bundan da vacib məsələ...”
Patriarx Mixail söylədi: “Əgər,
Haqqı söyləməkdən qorxursa bəşər,
Demək, imanında mükəmməl deyil,
Bu xaçpərəst üçün düz əməl deyil.
Artıq ölkəmizdə bilir hər insan,
Hansı yolu tutub gedir Vatikan.
Özüm də sadə bir xaçpərəst kimi,
Xalqın qarşısında dedim fikrimi”.
İmperator dedi: “Neynək, çox gözəl...
Doğru danışmaqdır hər şeydən əzəl.
Etiraz edərik... Gözləyək ancaq,
Dində səbr eyləmək deyildir yasaq”.
Bu yerdə dözməyib güldü Mixail,
Konstantin isə ötürdü dil-dil:
“Müqəddəs ata, sən bilirsən özün,
Nə böyük hökmü var bir kəlmə sözün.
Nədən düşmən olaq şimala, qərbə,
Şərqdə başlayıbsa səlcuqlar hərbə?
Bir dəfə gəldilər üç-dörd il əvvəl,
Heç kimə, heç nəyə qoymadan məhəl,
Qurd sürüsü kimi girdilər Vana...
Vali məktub yazdı səlcuq sultana.
Sultan da dedi ki, baş verib qəza,
Mütləq o qoşuna verəcək cəza.
Məlumdur ki, sultan edib kəşfiyyat,
Ordumuz haqqında yığıb məlumat.
Əgər böyük ordu göndərsə sultan,
Təhlükə önündə qalacaqdır Van”.
Patriarx söylədi: “Deyilmi məlum?
Zülm edənlər olar zülmə də məhkum.
Əgər etməsəydik biz Vanı işğal,[170]

Yəqin ki, olmazdı indi belə hal”.
İmperator dedi: “Düşünmürəm mən,
Bu səbəbdən olub bizimlə düşmən.
Fatehlik eşqinə düşübdür sultan,
Çox təkəbbürlüdür bu türk müsəlman!
Süvari göndərib hələ yeddi min,
Daha böyük ordu toplayır yəqin.
Səfərbərlik edib bütün yurdumuz,
Əlli min nəfərdir indi ordumuz.
Liparit[171] də gəlib, gürcü zadəgan,
O etibarlı və imanlı insan.
Hərbi sahədə çox təcrübəsi var,
Etmişəm hər zaman ona etibar.
Göndərdim onunla Katakalonu[172],
Yaxşı olmalıdır bu hərbin sonu”.
Patriarx söylədi: “Ancaq mən isə,
Deyərdim, başqa cür olub hadisə.
Şərqə uzatmaqla yenə sərhəddi,
Özümüz aşmışıq bu işdə həddi.
Bəs nə etməliydi səncə müsəlman?”
İmperator fikrə gedib bir zaman,
Dedi: “Müsəlmanlar zəifdir bu gün,
Açıqdır yol böyük arzumuz üçün.
Biz Yerusəlimi[173] alarıq asan,
Qurtular işğaldan müqəddəs məkan.
Müsəlmanın iki xəlifəsi[174] var,
Bir əldə deyildir tamam ixtiyar.
Bölünüblər xırda əyalətlərə,
Dini baxımdan da təriqətlərə.
Qonşu davasına qarışıb başlar,
Gedir fasiləsiz qanlı savaşlar.
Düşüb müsəlmanlar indi pis günə,
Təkcə bu oğuzlar çıxıblar önə.
Onlar da yenicə qurublar təməl,

Bu dövlət də hələ deyil mükəmməl.
Göstərə bilməzlər çox müqavimət,
Onları asanca qırıb nəhayət,
Qoyarıq islamı müdafiəsiz,
Torpaqlar alarıq mücadiləsiz.
Haqqa gətirərik bütpərəstləri[175],
Çoxalar dünyanın xaçpərəstləri.
Türkü, farsı, kürdü bir də ərəbi,
Kimlərə ki tutub Rəbbin qəzəbi,
Tamam silməliyik yer üzündən biz,
Ya da xaç önündə çökəcəklər diz!
Ötməz hesabımla uzun bir zaman,
Ruma tabe olar o Azərbaycan.
Sonra da asanca alıb Arranı,
Tabe eyləyərik məğrur Şirvanı.
Bu gün qüvvətlidir vuran qolumuz,
Dörd yana açıqdır bizim yolumuz.
Əvvəl Yerusəlim, sonra da Məkkə!
Yoxdur önümüzdə dayanan ölkə.
Durmuş qarşımızda bir ovuc oğuz...
Nə qədər olsalar cəsur, qorxusuz,
Davam gətirməzlər Rum ilə hərbə,
Ölümcül olacaq birinci zərbə.
Ordumuz güclüdür, sayımız çoxdur,
Mükəmməl zəfərə şübhə də yoxdur.
Tezliklə arzular keçər həyata...
Bax buna görə də, müqəddəs ata,
Yersizdir ixtilaf Vatikan ilə,
Səbr edək bir qədər, gözləyək hələ".
Patriarx düşünüb əvvəlcə bir az,
Dedi: "Etmək olmaz buna etiraz...
Əlbəttə, səbr etmək yaxşı əməldir,
Səbrlə görülən hər iş gözəldir".

## ZAB ÇAYI[176] SAHİLİNDƏ SÖHBƏT

Halsız, kefsiz idi özü əvvəldən,
Bu gənəşmə onu lap saldı əldən.
Çadırında tənha qaldı Həsən bəy[177],
Dərin düşüncəyə daldı Həsən bəy.
Düşündükcə gəldi qəm qulac-qulac[178],
Nə təsəlli tapdı, nə də bir əlac.
Başını qaldırıb baxdığı zaman,
Yüngülcə diksinib duruxdu bir an.
Gövhəri-Eyn durmuş önündə səssiz,
“Nə durmusan? Əyləş...” deyib həvəssiz,
Həsən yer göstərdi Gövhəri-Eynə,
Dedi: “Deyləm oğlu, halsızam yenə,
İçimdə naməlum bir sıxıntı var,
Bu geniş dünyanı edib mənə dar...”
Gövhəri-Eyn dedi: “Şərəfli əmir,
Çox su aparacaq hələ bu xəmir.
Sərkərdələr rahat buraxmaz səni,
Etməyənə qədər onlar deyəni.
Ya gərək əmrindən çıxıb sultanın,
Dəstursuz yürüyək üstünə Vanın.
Ya da ki, göstərib sərtlik, qətiyyət,
Verməyib təkidə bir əhəmiyyət,
Hər kəsi yerində oturdasan sən...”
Acı-acı gülüb söylədi Həsən:
“Ay atam balası, görmürsən məgər,
Necə coşub-daşır bütün həndəvər?
Məmlük[179] bəyləriylə olub tərəfdar,
Oğuz bəyləri də edirlər israr...
Bəylərin fikrində yağmadır ancaq,
Sanırlar savaşı oyun-oyuncaq.
Cəmisi yeddi min süvari ilə,

Nə sayaq eyləyək biz Vana həmlə?
Gedir yavaş-yavaş əldən ixtiyar,
Bu Van səfərinin bir bəlası var...
Bəlkə də bax budur qəlbimi sıxan,
Qəfil bir dərd kimi ortaya çıxan”.
Gövhəri-Eyn baxıb təəccüb ilə,
Dedi: “Yəni... bitmiş bu mücadilə?
Deməli... bəy, artıq vermisən qərar...
Öyləsə, edirəm bir daha təkrar,
Sərhəddi kimsəsiz qoymaq bir yana,
Hazırlıqsız hücum etməklə Vana,
Zəfərə olmadan mükəmməl inam,
Sultanın əmrindən çıxırıq tamam.
Əlbəttə, uğurlu olarsa səfər,
Sultan qəzəblənməz bizə o qədər.
Vay o gündən yürüş ola uğursuz,
Hələ itkilər də verək lüzumsuz,
Nə qədər olsaq da onun əzizi,
Sultanın qəzəbi məhv edər bizi...”
Həsən bəy söylədi: “Elədir. Ancaq,
Mən yürüşü etsəm orduya yasaq,
O zaman nə olar? Düzünü söylə!”
Gövhəri-Eyn dedi: “Əmir, əfv eylə...
Gedəcək bu ordu yürüşə sənsiz,
Yəni... ya Həsənlə, ya da Həsənsiz”.
Həsən gülümsədi: “Doğrudur bu da...
Ancaq su səhəngi sınarsa suda,
Bu işdə görməzlər böyük qəbahət,
Kənarda qalmaqsa olar xəcalət.
Məhz buna görə də vermişəm qərar,
Bəylər edirlərsə bu qədər israr,
Ordunun önündə gedəcəyəm mən,
Qayıda bilərsən geriyə lütfən”.
Gövhəri-Eyn dedi: “Söyləmə əmir...

Sadiq olmağıma bu şübhə nədir?
Durmaram bir addım səndən kənarda,
Necə ki, sən məni qoymadın darda.
Bağdad zindanından çıxardın məni...”
Həsən dedi: “Açma olub-ötəni.
Hər nə oldu, ötdü, qaldı dünəndə...
Deməli, gedirsən yürüşə sən də?”
Gövhəri-Eyn dedi: “Bəli, gedirəm.
Üstəlik belə bir xəyal edirəm,
Məncə... hər ziyanda bir xeyir də var.
Kim bilir?.. bəlkə də olub bəxtiyar,
Çətinlik çəkmədən alarıq Vanı,
Artar ordumuzun şərəfi, şanı.
O Arslan Yabqunun elatı əgər,
Qazandısa Vanda böyük bir zəfər,
Nə üçün biz bunu etməyək təkrar?”
Həsən bəy söylədi: “Böyük fərqi var,
Bizim ordumuzun o camaatla,
Mükəmməl nizamlı cəsur elatla.
Bizdə o nizamdan yoxdur əlamət,
Ordu başbuğuna etmir itaət.
Yürüşə gedirik... amma inamsız,
Sərkərdələr  məğrur, ordu nizamsız,
Belədir... gəlsə ya gəlməsə xoşun...
Qısa bir zamanda yığılmış qoşun,
Bir əməlli təlim görməmiş belə,
İnanmıram çatsın uzaq mənzilə”.
Çadırda söhbətdən tamam bezdilər,
Çıxıb qərargahda bir az gəzdilər.
Keçib çadırların arası ilə,
Gəldilər birlikdə onlar sahilə.
Bu zaman dağlardan xəfif meh əsdi,
Sanki buludlar da şərqə tələsdi.
Sayrışdı ulduzlar, ay da göründü,

Çayın sularında əksi süründü.
Həzin şırıltıyla axan Zab çayı,
Sanki yırğaladı köksündə ayı.
Təbiət dəyişdi səhərə yaxın,
Küləklər şimaldan eylədi axın.
Bu külək də əsdi qısa bir zaman,
Səhər hər tərəfi bürüdü duman.
Düzülüb səflərə yeddi min əsgər,
Şimal-qərbə doğru etdilər səfər.
Dağlara, düzlərə çökmüşdü duman,
Üç addım önünü görmürdü insan.

## ORDUNU XİLAS EDƏRƏK ŞƏHİD OLAN SƏRKƏRDƏ

Sərkərdədən istər böyük fərasət,
Dumanlı dağlarda yola nəzarət.
Lap sultan Toğrul da dayansa başda,
İntizamsız ordu neylər savaşda?
Ordu dar yollarla edib hərəkət,
Geniş düzənliyə çıxdı nəhayət.
Xəfif bir küləklə seyrəldi duman,
Həsən bəy gur səslə əmr etdi: “Dayan!”
Böyük ordu vardı qarşı tərəfdə,
Döyüşə tam hazır! Durmuşdu səfdə.
Həsən bəy bildi ki, çıxarsa çölə,
Əlüstü dörd yandan qapanar tələ.
Demə düşmən onu çoxdan pusurmuş,
Ölçülü-biçili bir tələ qurmuş.
Meydan savaşının mənası yoxdur,
Rumlular ən azı beş dəfə çoxdur.
Həsən bəy verməyib düşmənə fürsət,
Cəld arxaya doğru etdi hərəkət.
Saxlayıb yanında beş yüz süvari,
Əmr etdi ki, ordu qayıtsın geri.
Sərkərdələr buna etdi etiraz,
Həsən bəy çığırdı: “Başqa cür olmaz!
Geniş düzə getmək ölüm deməkdir,
Bu dar dərədən də çıxmaq gərəkdir.
Dağlardır dərənin sağı və solu...
Beş yüz süvariylə kəsərəm yolu,
Yalnız bu şəkildə qazanıb zaman,
Tələdən çıxmağa taparıq imkan...”
Borular, təbillər səsləndi birdən,
Əlli min döyüşçü, durduğu yerdən,
Öncə etsələr də yavaş hərəkət,

Yolboyu tədricən çoxaldı sürət.
Hədə-qorxu gəlsin deyə düşmənə,
Ağır süvarilər çıxdılar önə.
Dağlar arasıyla keçən dar yolu,
Tutdu Həsən bəyin süvari qolu.
Bayaqdan sürətlə gələn rumlular,
Dar keçid önündə qəfil durdular.
Daha sonra yüz-yüz düzülüb səfə,
Getdi zirehlilər keçid tərəfə.
Dağlar arasında açıldı meydan,
Cumdu bir-birinə yüzlərlə insan.
Rumlu sərkərdələr dağa qalxdılar,
Ordan döyüş gedən yerə baxdılar.
Katakalon gülüb istehza ilə,
Dedi: “Məlum oldu artıq məsələ.
Hiyləgərlər yaman azdırıb izi...
Bu dörd-beş yüz nəfər yubadır bizi.
Günlərlə düşünüb qurmuşduq tələ,
Onlar da rahatca qurtuldu belə...”
Sonra əmr eylədi bir sərkərdəyə:
“Gərək alınsınlar mühasirəyə!
Üç min nəfər yüngül piyada seçin,
Dağların üstüylə arxaya keçin!
Bu yolla məhv edin onları rahat,
Bir nəfər çıxmasın burdan salamat!”
Lakin bu tədbir də vermədi fayda,
Həsən bəy yaratdı belə bir qayda,
Hər dəfə nizamla dəyişib yeri,
Az-az, ehtiyatla çəkildi geri.
Məqsədinə yetdi, düşmən yubandı,
Günortaya qədər savaş uzandı.
Nəhayət... düşdülər mühasirəyə,
Endi piyadalar dağdan dərəyə.
Həsən bəy çox ağır yaralar aldı,

Amma yıxılmadı, yəhərdə qaldı.
Gövhəri-Eyn ilə on-on beş nəfər,
Çıxarıb meydandan onu birtəhər,
Sürətlə yardılar mühasirəni,
Çapıb tərk etdilər qanlı dərəni.
Bir sərkərdə dedi Katakalona:
“Deyirəm... çatdıraq bu işi sona...”
Katakalon dedi: “Yox artıq, yetər,
Gələn dəfə olar bundan da betər.
Çox çətin də olsa işi bitirdik,
Amma gör nə qədər adam itirdik?
Ordumuz var ikən bu qədər böyük,
Nə üçün savaşaq biz bölük-bölük?
Yox, gedən deyiləm burdan o yana,
Qoy özləri çıxsın açıq meydana”.
Gövhəri-Eyn isə dəstəsi ilə,
Dayanmadan gedib çatdı sahilə.
Təqibdən arxayın olaraq indi,
Çayın sahilində atından endi.
Hamı endi atdan. Bir neçə nəfər,
Gövhəri-Eyn ilə gəlib bərabər,
Bəyi endirdilər yəhərdən yavaş.
Qan içində idi sinə, boyun, baş...
Bəyin ətrafında durmuş hər adam,
Öz yaralarını unudub tamam,
Suçlu cocuq kimi dayanıb baxır,
Acı göz yaşları üzündən axır.
Gövhəri-Eyn isə diz üstdə çökdü,
Ağlayıb, sızlayıb göz yaşı tökdü.
Bəy gözünü açdı... soruşdu yavaş:
“Deyləmi... qurtarıb deyəsən savaş?”
Gövhəri-Eyn bu dəm sevincək oldu,
Ruhu da cismi də ümidlə doldu,
Bərkdən dedi: “Əmir, qurtardı döyüş,

Kafir ordusuna yox imiş dönüş!
Qalmadı kafirdən heç bircə nəfər,
Əmir, qurban sənə, qazandıq zəfər!”
Gəldi Həsən bəyin səsi çox zəif:
“Aldatma deyləmi... heyif, çox heyif...
Görürsən? Kimlər ki, pozur vəhdəti,
Onlardır gətirən hər müsibəti.
Unutma, vəhdətsiz qalan müsəlman,
Kafir tələsinə olacaq qurban!”
Həsən bəy çevirib yana üzünü,
Bu fani dünyaya yumdu gözünü.

## AZƏRBAYCAN SULTAN TOĞRULU KÖMƏYƏ ÇAĞIRIR

Dözə bilmirdi bu sinə dağına,
Gözləri dönmüşdü qan çanağına.
Cavan Həsən bəyin ölüm xəbəri,
O səhər Toğrula çatandan bəri,
Kədər ümmanının içində batdı,
Nə gündüz dincəldi, nə gecə yatdı.
O, nə çörək yedi, nə də su içdi...
Ağrılı-acılı bir zaman keçdi.
Sultan Toğrul təkcə vəziri ilə,
Yəni, Amidülmülk Kündüri ilə,
Çox qısa zamanda edib məsləhət,
Tapşırdı ki, etsin saraya dəvət,
İbrahim bəy ilə Kutalmış[180] bəyi,
Olacaq bu bəylər onun gərəyi.
Vəzir də namələr yazıb müxtəsər,
Bu böyük bəylərə göndərdi xəbər.
İnanmırdı Yınal baxıb sözünə,
Təcili "əziyyət" versin özünə.
Vəzir düşünənin əksinə, Yınal,
Çatdırdı saraya özünü dərhal.
İkindi namaza bir qədər qalmış,
Gəldilər – İbrahim, bir də Kutalmış.
Hər ikisi dərdli, kədərli, qəmgin...
Sultanla görüş də başladı gərgin,
Möhkəm qucaqlayıb sultan Toğrulu,
Hönkürüb ağladı əmisi oğlu.
İbrahim Yınal da kənarda durdu,
Yetim cocuq kimi boynunu burdu.
Vəzir Kündüri də taparaq fürsət,
Göndərdi otağa ətirli şərbət.

Sakitcə içdilər şirin şərbəti...
Nəhayət, Kutalmış açdı söhbəti:
“Dərddən elə bil ki, zamanım bitmiş,
Elə bil mənim də əcəlim yetmiş...”
Xırıltılı səslə söylədi sultan:
“Əcəldən danışma, hələ bir dayan...
Kimsə danışmasın ölümdən hədər,
Düşmənlərdən qisas alana qədər.
Həsən kimi oğul itirmişik biz,
Danışma qardaşım, danışma yersiz!”
Kutalmış söylədi: “İzin ver mənə,
Göz dağı çəkdirim qanlı düşmənə!”
Sultan Toğrul dedi: “Vardır təklifim,
Rəhbərlik edərək sən və İbrahim,
Ordu toplayasız qısa zamanda,
Yürüş eyləyəsiz vaxtı çatanda.
Müntəzəm ordunu göndərsəm əgər,
Kim bilir ki, sonra baş verər nələr?
Rum ölkəsi kimi böyük bir dövlət,
Seçə bilər daha bir istiqamət.
İkinci cəbhəni bağlamaq üçün,
Gərəkdir qüvvəmiz paylaşa düzgün”.
İbrahim söylədi: “Doğrudur fikir...
Amma Rum diqqəti şimala çəkir.
Anlaya bilmirəm, hansı duyğudan,
Quzeyə getmişlər güney-doğudan?”
Sultan Toğrul dedi: “İbrahim Yınal,
Səndən gözləyirdim belə bir sual.
Qüdrətli başbuğsan, vardır şöhrətin,
Ancaq zərrə qədər yox siyasətin.
Azərbaycan, Şirvan bir də ki Arran,
Türk, islam yurdudur bax bu üç məkan.
Bunlarda qeyri-türk olsa da rəhbər,
Xalis türk qövmüdür camaat əksər.

Onları arxada buraxaraq Rum,
Güneyə, doğuya eyləməz hücum.
Əvvəl almaq istər Azərbaycanı,
Ardıyca Arranı, sonra Şirvanı.
Buna görə getmiş ordu güneydən,
Gəlir soraqları indi quzeydən.
Hələ dursalar da orda farağat,
Vəhsudan olubdur yaman narahat.
Köməyə çağırdı bizi təcili,
Ağıllı adamdır, şirindir dili.
Altı minlik qoşun gedib güneydən,
Dörd min də göndərdim Təbrizə Reydən.
Qoy Kutalmış getsin Azərbaycana,
Ordakı ordunu salsın sahmana".
Burda Kutalmışa baxaraq sultan,
Dedi: "O bəylərə verirəm aman...
Kim ki, Həsən bəyin çıxıb sözündən,
Səni eşitməsə küssün özündən.
Yusunlar günahı qanları ilə,
Lap yeri gələrsə canları ilə.
Vermirəm onlara ənam, məvacib,
Yalnız qələbədir onlara vacib.
Ya zəfər qazanıb dönsünlər geri,
Ya da hər birinin zindandır yeri".
Sonra İbrahimə dedi: "Burda sən,
Mükəmməl bir ordu tərtib edirsən.
Doğudan minlərlə oğuzlar gəlir,
Bir ordu topla ki, əmrə müntəzir.
Hər səhər obaşdan axşama qədər,
Şərait quraraq savaşdan betər,
Bir ay keç orduyla təlim mükəmməl,
Varsa qoy sıradan çıxsın hər əfəl!
Gedəndən sonra da Azərbaycana,
Ümumi ordunu yığıb meydana,

Ən azı on beş gün təlim keç yenə,
Tam tabe olsunlar başbuğ deyənə.
Verirəm mən sənə hər səlahiyyət,
Nizam-intizamdır başlıca niyyət!
Əsgərlərə de ki, qazansaq zəfər,
Sultan səxavətə çəkmədən çəpər,
Hər kəsə verəcək yetərli ənam...
Yarat əsgərlədə sarsılmaz inam!
Girməsin bir kafir Azərbaycana...
Məliklik verərəm mən Vəhsudana.
Edəcək ərzaqla ordunu təchiz,
Bu barədə artıq şərt kəsmişik biz”.

## VƏHSUDANLA İBRAHİM YINALIN GÖRÜŞÜ

Qalxıb yatağından durdu Vəhsudan,
Az qala təbibi qopardı fəğan:
“Ağam, ağırlaşar yenə səhhətin,
Zəifdir vücudun, var hərarətin...”
Vəhsudan söylədi: “Az danış, təbib,
Olar mənim üçün böyük bir eyib.
Sən bu bəhanəni atma araya,
İbrahim bəy Yınal gəlib saraya”.
Bu zaman baş vəzir girdi otağa,
Təəccüblə dedi: “Durmusan ağa?!”
Vəhsudan söylədi: “Nə olub yəni?
Bezdirib yataqda uzanmaq məni.
Həm də ki, Yınal bəy gəlibdir qonaq,
Kişinin yanında biabır olaq?!”
Vəzir dedi: “Ağam, səbr eylə, deyim,
Taxt otağındadır oğuz İbrahim...”
“Get söylə gəlirəm!” dedi Vəhsudan,
Vəzir çıxdı. Ötdü qısa bir zaman...
Vəhsudan nəhayət gəlib otağa,
Salam verib alqış dedi qonağa.
Salamını alıb dedi İbrahim:
“Narahat etməyə yox idi fikrim.
Allah şəfa versin. Nə olub sənə?
Bu nə xəstəlikdir düşüb öhdənə?”
Vəhsudan söylədi: “Bərk soyuq dəyib,
Belimi qurudub, qəddimi əyib.
Məni halsız edib, üzüb hərarət,
Nə isə... Yınal bəy, çəkdim xəcalət”.
İbrahim söylədi: “Yox, yox, heç zaman!
Belə şeydən ötrü qalma nigaran.

Vacib olmasaydı əgər məsələ,
Mən səni narahat etməzdim belə.
Keç əyləş taxtında, çəkmə əziyyət,
Rahat əyləş, edək qısaca söhbət".
Bu sözlə Vəhsudan bildi müxtəsər,
Oturacaq taxtda ölənə qədər.
Sultan yardım etmiş, həm də üstəlik,
Seçmiş Vəhsudanı özünə məlik.
Sevinib taxtında oturdu rahat,
Dedi: "Allah səni etsin salamat!
Çox vəfasız imiş bu fani dünya,
Həyat da... acılı-şirinli röya...
Çox şadam, Yınal bəy gəlibdir özü!
Gözləyirdim səni, söyləyim düzü.
Var ol bəy, sağ ol ki, gəldin yanıma,
Rahatlıq gətirdin xəstə canıma.
Çünki bu rumlular gəlirlər yaman,
Bu kafir ölkəsi bilməyir aman...
Bir neçə il əvvəl aldılar Vanı,
Töküldü yüzlərlə insanın qanı.
Sovurdular Vanının külünü göyə,
"Türklərlə, farslarla əlbirsiz"[181] deyə,
Van əhalisini edirlər sürgün,[182]
Etibarlı sərhədd yaratmaq üçün.
Müsəlman əhlinə növbə çatıbdır,
Amma müsəlman da hələ yatıbdır.
İslamın üstünü təhlükə alıb,
İndi bircə ümid türklərə qalıb.
Sözsüz ki, Allahdan ümid üzülməz,
Allah istəməsə müşkül çözülməz.
And olsun ki, bu gün açılıb meydan,
Cihad etməlidir hər bir müsəlman.
Lakin hamı durub edir tamaşa,
Yalnız oğuzlardır qalxan savaşa.

Mən bu həqiqətdən olmuşam agah,
Qoruyur türkləri o qadir Allah!
“Bu da yekə-yekə danışır” demə,
Edərəm hər nə ki düşür öhdəmə”.
İbrahim söylədi: “Bilirəm, bəli,
Vardır bu dostluğun kökü, təməli.
Arslan elatından eşitmişəm mən,
Sadiq dostsan bizə, həm də kürəkən.
Haqqında xoş sözlər söylədi sultan,
Uzaq olsun bizdən məkrli şeytan.
Bura gəlməyimin vardır səbəbi,
Belədir sultanın əmri, tələbi,
Nə qədər savaşsaq kafirlərlə biz,
Edəsən ordunu ərzaqla təchiz”.
Vəhsudan gülərək dedi: “Əzizim,
Din, iman borcumuz belədir bizim.
Kafirlərə qarşı yaradaq vəhdət,
Cihad həm savaşdır, həm də ibadət.
Fani dünyadır da... ötübdür yaşım,
Az xeyir gətirər meydan savaşım.
İbrahim bəy, demək olmasın üzə,
And olsun, canım da qurbandır sizə.
Etmişik orduya ərzaq tədarük,
Əsla çətin deyil, şərəfdir böyük,
Sultan Toğrul kimi böyük hökmdar,
Eyləyirsə mənə bunca etibar.
Çünki böyük ordu toplayaraq Rum,
Şimal-qərbdən bizə edəcək hücum.
Rum girmək istəyir Azərbaycana,
Sonra da açılar yolu Şirvana.
Kafirə uymayan müsəlman kimi,
Oğuzlarla qohum bir insan kimi,
Mən sizə güvəndim, sizə inandım,
Əhdə vəfadaram, pozulmaz andım.

Qoruyun kafirdən bu gözəl yurdu,
Oğuz ordusudur müqəddəs ordu!
Allahın rəhmiylə, var məndə inam,
Türk ordusu ilə qorunar islam!”

ANADOLU – ULU TÜRK YURDU

Əlli min nəfərlik böyük bir ordu,
Pasin ovasında[183] düşərgə qurdu.
Liparit düzəndə saldı ordugah,
Dağın üstündə də qurdu qərargah.
Katakalon üzdə olsa da sakit,
Xoşuna gəlmirdi gürcü Liparit.
Yunan Katakalon düşdükcə fürsət,
Liparit haqqında edirdi qeybət:
"Gör bir necə soxmuş özünü gözə,
Sanki İsus kimi edib möcüzə!
Dində xidmətləri, meydanda zoru,
Valeh eyləyibmiş imperatoru!
Sanki əfsun edib Konstantinə,
İnandırıb onu sədaqətinə.
Məni – yunan oğlu Katakalonu,
Əksildib sərkərdə seçməklə onu.
Deyəsən çönübdür tərsinə dövran,
Sərkərdə gürcüdür, köməkçi yunan!"
Gəlib qulağına çatırdı söhbət,
Liparit vermirdi bir əhəmiyyət.
İntizam yaradıb orduda sabit,
Aldı idarəni ələ Liparit.
Son vaxtlar olsa da Yınal nigaran,
Yetişdi nəhayət başbuğa fərman.
Əməl edib sultan verən fərmana,
Ziyan dəyməməkçün Azərbaycana,
Rum ərazisinə etdi hərəkət,
Pasin ovasında durdu nəhayət.
Düşmənlə üz-üzə qurdu düşərgə,
Gənəşmə keçirdi bəylərlə birgə.
Az sonra gələrək keşikçi əsgər,
Çatdırdı başbuğa belə bir xəbər:

“Gəlib danışığa elçi dəstəsi,
Göndərib onları Rum sərkərdəsi”.
Yınal yubatmadı onları bir an,
Gəldi bir elçi və iki tərcüman.
Biri fars dilini bilən bir yunan,
İkincisi isə gürcü tərcüman.
Gürcünü göndərmiş Liparit özü,
Çünki su içmirdi elçidən gözü.
Lakin imperator onu seçmişdir,
Yəqin ki, yetərli təlim keçmişdir.
İbrahim bəy ilə danışan zaman,
Yekəbaşlıq etdi o elçi yunan:
“Bu danışıqların olsa faydası,
Deyərəm necədir işin qaydası.
Tökülməsin deyə nahaq yerə qan,
İmperatorumuz eyləyir bəyan:
Rum ərazisinə girmisiz nahaq,
Yenə də sülh yolu mümkündür ancaq,
Bizdən zəifsiniz, ordunuz kiçik
Qan, savaş olmayıb amma hələlik.
Sülh ilə çıxsanız bizim məkandan,
Çəkilsəniz şərqə Azərbaycandan,
Qalxar ortalıqdan gərəksiz nifaq,
Bəlkə bağlayarıq sonra ittifaq”.
İbrahim bəy dedi: “Yaxşı xəyaldır,
Dibi zəhər olan bir dolça baldır.
Keçərdi həyata bu hiylə, bu fənd,
Elə də sadəlövh deyilik hərçənd.
İmperatorunuz danışır yalan,
Artıq tökülmüşdür Zab suyuna qan”.
Elçi dedi: “Axı məlumdur sizə,
O qoşun girmişdi ərazimizə.
Bir də ki... nə qədər ölübsə sizdən,
Elə o qədər də qırılıb bizdən.

Bilərək on dəfə az olduğunu,
Təqib də etmədik sizin ordunu...”
Bir qədər əsəbi dedi Kutalmış:
“Sizin imperator qarışıq salmış,
Öz ərazisiylə Van torpağını.
Sancır hara gəldi öz bayrağını...
Van ərazisini etmisiz işğal,
Sultanın xoşuna gəlməyib bu hal.
Böyük sultan Toğrul, böyük cahangir,
Sizə mərhəmətli təkliflər edir,
Birinci – təcili tərk edin Vanı,
İkinci – unudun Azərbaycanı.
O torpaq müsəlman əyalətidir,
Xalqı xəlifənin rəiyyətidir.
Bizimçün əzizdir hər bir müsəlman,
Çünki xilafəti qoruyur sultan!
Tanrıdan verilib türkə şərafət,
Haqqı qorumaqdır müqəddəs niyyət!
Üçüncü – istərsə tapsın bir əlac,
Versin imperator illik bac-xərac.
Dördüncü – hökmdar eyləyir təkid,
Sizin o paytaxtda qurulmuş məscid,[184]
Təcili şəkildə edilsin təmir,
Məsciddən ucalsın yenə də təkbir![185]
Nə qədər tez etsə şərtlərə əməl,
Öylə də yaranar sülh üçün təməl!
Çox da sevinməsin sülhə o kafir,
Sürəkli deyilsə, gətirməz xeyir.
Çatdır bu sözləri imperatora,
Şirin vədlər ilə düşmərik tora.
Nə röya görünüb Konstantinə,
Bu qədər güvənmiş öz qüdrətinə?
Qadın qucağında oturub taxtda,
Şərabdan məst olub belə bir vaxtda.

Anadolu qədim türk torpağıdır,
Onun yaraşığı türk bayrağıdır!
Əsrlərlə öncə etmisiz işğal,[186]
Türk ilə gəlibdir bura istiqlal!
Ya tərk edib gedin bizim torpağı,
Ya da çəkdirərik sizə göz dağı...
Nahaq iş tutmaq da deyil fikrimiz,
Torpaq qəsb etməyə gəlməmişik biz.
Ədalət naminə gəlib ordumuz,
Azad olmalıdır qədim yurdumuz!"
Elçinin gözləri bərələ qaldı,
Udqunub özünü tez ələ aldı.
İbrahim Yınala söylədi: "Cənab,
Çox etməyin məni siz sual-cavab.
Nə deyiblər mənə, deyirəm onu...
Yəqin danışığın yetibdir sonu".
Yınal dedi: "Gour, nə yaman çaşdın?
Çünki öz həddini əzəldən aşdın.
Çirkin simanıza vurmayın bəzək,
Üzdə bəzəklisiz, daxildə təzək.
Sizdən ədəblidir qapımda köpək,
Sizə ədəb-ərkan öyrədək gərək.
On dəfə çox olsa ordunuz sayda,
Çaqqal sürüsündən nə böyük fayda?!
Şahid olacaqsan savaş günündə,
Nə qədər acizsiz türkün önündə!
Söylə sərkərdənə, o pəzəvəngə,
Orduyla gəlibsə buyursun cəngə!
Bir daha tarixi salaq yadına,
Hörmətlə yanaşsın türkün adına!
Yenə də bir öyüd etməsə hasil,
Onu cəhənnəmə edərik vasil!
Sizi haqqa qarşı qoyubdur tamah,
Haqqı hifz eyləyir tanrımız Allah!"

## PASİN SAVAŞINDA MÜKƏMMƏL ZƏFƏR

Katakalon çıxıb ən öndə durdu,
Borular səsləndi, təbillər vurdu.
Yönəldi meydana durduğu yerdən,
İyirmi min ağır süvari birdən.
Oğuz ordusundan dörd-beş min atlı,
Yüngül geyimli və yüngül sursatlı,
Yaylara ox qoyub yaylım atdılar,
Düşmən sırasında xof yaratdılar.
Vardı rumluların xəbəri çoxdan,
Uzaq məsafəyə atılan oxdan.
Gerçəkdə görüncə çaşıb qaldılar,
Dayanıb, vurnuxub, hay-küy saldılar.
Oğuzlar duyaraq fürsəti dərhal,
Atdılar düşmənə oxu dalbadal.
Yıxıldı düşmənin ön cərgələri...
Ağır zirehləri, dəbilqələri,
Oxlardan daha çox vurdu xəsarət.
Katakalon sanki çəkib xəcalət,
Qışqır-bağır salıb fəallıq etdi,
Nəhayət qoşunu irəli getdi.
Çevrilməmək üçün açıq hədəfə,
Katakalon geri qaldı bu dəfə.
Oğuzların öndə dayanmış qolu,
O qol ki, bayaqdan kəsmişdi yolu,
Əsas qüvvələrdən durmuş çox uzaq,
Katakalon bunu görmüşdü. Ancaq,
Bunu oğuzların səhvi sanaraq,
Asan qələbəyə o inanaraq,
Daha da həvəslə eylədi həmlə,
Nə bilsin ki, onu gözləyir tələ?
Oğuzlar qəflətən dönüb arxaya,

Vurnuxub, qarışıb, qaçdılar guya.
Çaparaq oğuzun mərd aslanları,
Atılıb keçdilər daş tarqanları[187].
O tarqanları ki, yeddi min əsgər,
Qurmuşdu gecədən səhərə qədər.
Tarqanın üstündən atıldı rahat,
Yüngül süvariylə öyrəncəli at.
Çünki məşqlər vaxtı, bir qədər əvvəl,
Təlim almışdılar atlar mükəmməl.
Bu səddi rumlular görüb çaşdılar,
Bir qismi dəyərək yerə aşdılar.
Arxa cərgələr də qarışdı tamam,
Oğuzlar gördü ki, yetişmiş məqam.
Minlərlə ox uçub döndü leysana,
Tarqanın daşları boyandı qana.
Katakalon hay-küy salaraq yenə,
İstədi göstərsin şəxsi nümunə,
Səddi aşmaq üçün çaparkən atı,
Ağırlıq eylədi zireh-sursatı.
Atın dırnaqları toxundu daşa,
Süvarisi ilə yıxıldı qoşa.
Katakalon elə yerində qaldı,
Kutalmış başının üstünü aldı.
Qılıncı endirib boynunu vurdu,
Kəsilmiş başını qaldırıb durdu.
Liparit də dağda durub bayaqdan,
Nə baş verdiyini görmür uzaqdan.
Qalan iyirmi min süvarini də,
Döyüşə göndərib durdu yerində.
Bu zaman açıldı öylə mənzərə,
Titrədi nərədən düzən, dağ, dərə.
Beş min süvariylə İbrahim Yınal,
Necə ki, şığıyır ovuna qartal,
Pusqudan çıxaraq cinahdan gəlir,

Görüntü kafirin bağrını dəlir.
Yerində dayanmış on min piyada,
Bir anın içində qaldı arada.
Dörd min oğuz cumub girdi savaşa,
Min süvari çıxdı dağa birbaşa.
Düşdü Liparitin dağlara səsi,
Bir anda qırıldı mühafizəsi.
Qılıncı çəkməyə verməyib macal,
Onu əsir etdi İbrahim Yınal.
Beləcə rumlular rəhbərsiz qalıb,
Hərəsi bir cürə əmrlər alıb,
Nizamsız kütləyə döndülər tamam,
Qurtuluş, sağ qalmaq oldu tək məram.
Dar oldu onlara bu geniş cahan,
Oğuzlar bir kəsə vermədi aman.
Çatanda bu xəbər Konstantinə,
Az qaldı ağlasın öz halətinə.
Əlli min döyüşçü, böyük bir ordu,
Bir günün ərzində necə yox oldu?!
Tez də patriarxn yanına qaçdı,
Şərtləri söyləyib, dərdini açdı.
Sonra Zoya ilə edib məsləhət,
Qurdu sarayında böyük məşvərət.
Sultanın şərtləri bəyan edildi,
Müzakirə oldu, qərar verildi:
“Təmir edilərək məscid paytaxtda,
Xidmətə başlasın qısa bir vaxtda.
Adına oxunsun xütbə sultanın,
Ərazisi azad edilsin Vanın.
Ancaq verilməsin sultana xərac,
Düşünüb tapsınlar buna bir əlac”.
Ona gülənlərə qoymadan məhəl,
Konstantin etdi şərtlərə əməl,
Çarəsi yox idi, edilib məğlub...

Sonra sultana da göndərdi məktub.
Lipariti azad eyləsin deyə,
Xeyli qızıl pul da göndərdi Reyə.
Qızılları geri qaytardı sultan,
Lakin əsirə də verərək aman,
Gürcü Lipariti buraxdı azad...
Davam edəcəkdi bəlkə də cihad,
Bəlkə çökəcəkdi Bizans da tamam,
Yaranmışdı deyə münasib məqam.
Əfsus, üsyan edib İbrahim Yınal,
Ölkə daxilinə saldı qalmaqal.
Lakin beşiyində boğuldu üsyan,
Çağırıb danladı Yınalı sultan.

## ƏN BÖYÜK SULTAN

Necə başbuğ olub Dəndənəkanda,
Toğrul tanınmışdı bütün cahanda,
İndi sultan kimi şanlı zəfəri,
Oldu o dövrün ən böyük xəbəri.
Bizans qopardısa batıda fəryad,
Güneydə sevindi xəbərə Bağdad,
Doğuda çatdısa Çin sərhəddinə,
Quzeydə yetişdi Dərbənd səddinə.
Bütün Türküstanda, İraq, İranda,
Arranda, Şirvanda, Azərbaycanda,
Tanındı sultanın hakimiyyəti,
Çünki vəhdət idi onun niyyəti.
Çağrının, Toğrulun qurduğu dövlət,
Bir daha göstərdi nədir ədalət.
Olmuşdu xalq onun rəhminə bələd,
Çox insaflı idi sultan Məhəmməd.
Aləm əxlaqına olmuşdu valeh,
İbadəti doğru, əməli saleh.
Qaranlığı yaran nur kimi saçdı,
Binalar tikdirdi məktəblər açdı.
Rüşvəti kökündən qoparıb atdı,
Qanun-qaydalı bir dövlət yaratdı.
Şanlı fateh idi, böyük sərkərdə,
Gərək deyil ona bəzəkli pərdə.
Allahdan verilmiş ona bu şərəf,
Hər zaman yol tutub o haqqa tərəf.
Cümlə müsəlmanlar çəkəndə möhnət,
Onun səyləriylə yarandı vəhdət.
Nədən məhz türkləri seçdi xilaskar?
Haqqın mizanı var, tərəzisi var!
Sözsüz, danışan da vardı əksinə,
Hər şeyi görürdü kim ki tərsinə.

Bir gün vəzir ilə sarayda sultan,
Belə söhbət üçün taparaq imkan,
Dedi: “Sən bunları görmürsən əgər,
Yoxdur bu dünyada səndən bəxtəvər”.
Vəzir dedi: “Yaxşı görürəm, ağam,
Həmd olsun Allaha, hələ ki sağam.
İçində paxıllıq duyanlar da var,
Kafir fitnəsinə uyanlar da var.
Bəli, aldananlar vardır şeytana...
Hələ bu şeytanlar dursun bir yana,
Hər iki xəlifə siyasətində,
“Ən doğru müsəlman” qiyafətində,
Hər mümkün olanı alaraq ələ,
İslam dünyasına salmış vəlvələ.
Dərk edər o kəs ki, pakdır xisləti,
Nə qədər vacibdir İslam vəhdəti?!
Allahın hökmüdür ibadət, vəhdət,
Fərqi, firqələri doğub siyasət...”
Sultan dedi: “Bəli, görürmüş gözün...
Varmı buna dair başqa bir sözün?”
Dayandığı yerdə çətinə düşdü,
Vəzir Amidülmülk sanki büzüşdü.
Sultan dedi: “Qorxma! De, mən də bilim”.
Vəzir dedi: “Başa bəladır dilim...
Bilirsənmi... ağam, bu son zamanlar,
Nə qədər dəyişib bəzi insanlar?
Elə lap qardaşın... İbrahm Yınal...
Hər dəfə çəkmişəm bu işə sığal.
Ancaq deyəcəyəm... Rumla savaşda,
Sən onu qoymuşdun ən öndə, başda.
O, sənin sayəndə şöhrətə yetdi,
Sonra da... sonra da asilik etdi.
Sən onu əfv etdin... O nə etdi bəs?
Olarmı bir insan heç bu qədər tərs?!

Yaxşı olmayacaq bu işin sonu.
Gah Bağdad türkləri aldadır onu,
Gah Fatimilərlə danışır pünhan,
Elə oğuzlardan nə qədər insan,
Olublar bu işdə ona tərəfdar,
Sultanlıq eşqinə düşübdür aşkar.
Sənə baş əyəndə bütün xilafət,
Xəlifə verəndə yeddi cür xələt,[188]
Heç İbrahim səni etmədi təbrik,
Nədir onu edən bu işə təhrik?"
Sultan dedi: "Vəzir, mən bilsəm, inan,
Olacaq ölkəyə layiqli sultan,
Oturdaram onu taxta mən bu gün!
Amma öldürmərəm, etmərəm sürgün...
Hər necə olsa da əzizdir mənə,
İnanmıram etsin asilik yenə..."

# *X HİSSƏ*

## SULTAN MƏHƏMMƏD ALP ARSLAN

### *SIZAN HƏQİQƏTLƏR*

Boğmasa qəlbləri tamah, təkəbbür,
Yalan və təcavüz etməz təzahür.
Cənnətdə xəlq etdi Tanrı insanı,
Cənnətdir insanın doğma məkanı.
O uzaq səyyarə, o gözəl məkan,
Nəfs ilə uyuşmaz heç vaxt, heç zaman.
Necə qalib gələk öz nəfsimizə?
Bunu peyğəmbərlər öyrədib bizə.
Hər qövmə peyğəmbər göndərib Allah,
Onları sirlərdən eyləyib agah.
Tanrıdan vəhy ilə aldıqca xəbər,
Qövmünü xəbərdar edib peyğəmbər.
Ya da mələklərə verərək fərman,
Ayələr göndərib uca Yaradan.
Yerdəki fitnələr, bu fəlakətlər,
Bu müharibələr, bu müsibətlər,
Nədən təkrarlanır bəs zaman-zaman?
Görünsün insana yaxşı və yaman.
Bacardıqca nəfsi azaltsın, silsin,
İnsan yaxşıların qədrini bilsin.
Tanrı sağlamlığı vermiş əmanət,
Sən ona nəfsinlə etmə xəyanət.
Uyub haramlara, keyfə, işrətə,
Cismini, ruhunu salma möhnətə!
Haramlar vicdanı qüvvədən salar,
İşrətdən cismin də süstəlib qalar,
Olarsan düşmənin İblisin qulu,

Haram olar sənə Xaliqin yolu.
Düşmənin İblisdir, ardıyca getmə,
Xaliqin Allahdır, nankorluq etmə!
Yaradanı atıb haramı tutma,
İnsan olduğunu heç vaxt unutma!
Kim qəbul etmirsə bu həqiqəti,
Qəlbini satmaqdır onun adəti.

## İBRAHİM YINALIN ÜSYANI

Axır ki, qan saldı araya şeytan,
Qaldırdı İbrahim silahlı üsyan.
Alındı araya bütün Həmədan,
Çünki bu şəhərə gəlmişdi sultan.
Sultan, ətrafında beş yüz əsgəri,
Sürətlə tərk edib gecə şəhəri,
Önünə çıxanı edərək tələf,
Birbaşa yollandı paytaxta tərəf.
Bilirdi ki, bu hal olacaq təkrar,
Toğrul Alp Arslana göndərdi çapar.
Özü isə gəldi paytaxtı Reyə,
Bu şəhər də düşdü mühasirəyə.
Gəlib Alp Arslana çatınca xəbər,
Düzülüb səflərə otuz min əsgər,
Yüyəni buraxıb yala yatdılar,
Sürətlə çaparaq Reyə çatdılar.[189]
Rey yaxınlığında çıxıb bir düzə,
Oğuz orduları durdu üz-üzə.
Meydan ortasına atı sürərək,
Sərkərdə Alp Arslan gəlib durdu tək.
İbrahim də atı çapıb mərkəzə,
Gəlib Alp Arslanla durdu üz-üzə.
Bəylər salamlaşdı hörmət-izzətlə,
Sonra Alp Arslana baxıb diqqətlə,
İbrahim soruşdu: “Niyə Alp Arslan?
Axı vəliəhddir məncə Süleyman[190]...”
Alp Arslan soruşdu: “Sultan sağikən,
Vəliəhd axtarmaq deyilmi erkən?”
Sanki gözlərində ildırım çaxdı,
Yenə Alp Arslana diqqətlə baxdı,
İbrahim söylədi: “Öz əminlə sən,
Gör necə sayqısız söhbət edirsən...”

Alp Arslan söylədi: “Vəzifəm budur.
Sən etmisən bizi savaşa məcbur.
Başbuğ olmağıma verilib fərman,
Sən sultana qarşı etmisən üsyan.
Böyüklərə hörmət etməyən adam,
Öz kiçiklərini unutsun tamam!
Qardaşın Çağrı bəy, qardaşın Ər-Taş,
Deyirlər – haqsızdır etdiyin savaş.
Sultan ordusunun başbuğu kimi,
Savaş meydanının mənəm hakimi.
Əmrim də budur ki, tökülməsin qan,
Qohum-əqrabandır burda hər insan.
Təslim ol, başlama yersiz savaşı,
Vurma bir-birinə qohum-qardaşı.
Ancaq eyləyirəm səni xəbərdar,
Bağışlanmağına çox az ümid var...”
Başını köksünə endirib Yınal,
Çevrilib getməyə tapmamış macal,
Alp Arslan söylədi: “İbrahim əmim!
Səndən bir xahişim olacaq mənim.
Əgər qalib olsan bu meydanda sən,
Aydın məsələdir, özün bilərsən.
Əgər mənə zəfər bəxş etsə Allah,
Sal yerə, olmasın əlində silah,
Eyləmə sən məni əmi qatili!”
Olmadı söhbətin, sözün hasili,
Sülhün yollarını bağladı şeytan,
Gərildi əsəblər, qızışdı meydan.
Hər iki tərəfdən otuz min əsgər,
Mərdlikdə, cürətdə tamam bərabər,
Cumdu bir-birinə, başladı savaş,
Kəsildi, çapıldı əl, qol, ayaq, baş.
Nəhayət Alp Arslan qazandı zəfər,
Boğdu hər hissini içində kədər.

Lakin bir şey onu sevindirdi tək,
Üstələndiyini Yınal görərək,
Sancdı qılıncını nəhayət yerə...
Sevinmək olardı məhz buna görə.
Asilər yenildi Alp Arslan bəyə,
O da əsirləri apardı Reyə.
Basdı Alp Arslanı bağrına sultan,
Sonra dedi: “Dedik “bizimdir cahan”,
Amma saydığını sayırmış fələk...
Əfv eyləməyəydim o dəfə gərək”.
Alp Arslan söylədi: “İlk dəfə atam,
Heç on səkkiz yaşım olmamış tamam,
Səfərə göndərdi, döyüşə getdim,
Böyük bir orduya başbuğluq etdim.
O gün məğlub etdik qəznəviləri[191],
Fərəhlə, fəxrlə dönəndə geri,
Sevincindən yola çıxaraq atam,
Məni qarşıladı, dedi: “Çox şadam!
İbrahim, Kutalmış, Toğrul və Ər-Taş,
Hər zaman olublar mənə silahdaş.
Səninlə də oğlum, ucaldı başım,
Oldun etibarlı bir silahdaşım!”
Bu üsyan xəbəri atamı üzər,
Çətin ki, Çağrı bəy[192] bu dərdə dözər”.
Sultan dedi: “Oğlum, unutma heç vaxt,
Sevməz zəifləri bu vəzifə, taxt.
Qanun-qaydasıyla güclüdür dövlət,
Qohum, yad üçün də birdir ədalət.
Ədalət tərəzin fərqli çəkərsə,
Əcaib də olmaz ölkə çökərsə.
Yınalın yerində olsaydı özgə,
Duyğum qərarıma salmazdı kölgə.
“Qardaşımdır” deyə onu əfv etdim,
Ölkəni yıxacaq böyük səhv etdim.

Bir daha etmərəm bu səhvi təkrar,
Burda səninçün də böyük ibrət var.
Öldürə bilmədim öz qardaşımı,
O da gəlmişdi ki, kəssin başımı...
Nə qədər igidlər itirdik nahaq,
Gec də olsa səhvi düzəltdik ancaq.
Bilirəm, ağırdır... bir az möhkəm ol,
Edam etməliyik, yoxdur başqa yol.
Nə qədər də doğma olsa bu adam,
Bir çarə var – gərək edilsin edam!”[193]

## ALP ARSLAN
## SULTAN OLDU

İbrahim Yınalın qəfil üsyanı,
Möhkəm sarsıtmışdı Toğrul sultanı.
Heç sonra da şəkər olmadı həyat,
Əvvəlcə Çağrı bəy eylədi vəfat.
Sonra da köç etdi əziz xatunu,
Sultan dərd içində dəfn etdi onu.
Xəstəlik də əzab verirdi yaman...
Lakin əyilmədi dərdlərə sultan.
Hərbi məşqlərə də tez-tez gəlirdi,
Yenə də gur səsi qulaq dəlirdi.
Dövlət işində də çox çalışırdı,
Abadlıq həvəsi aşıb-daşırdı.
Yerləşsinlər deyə bəylər və ordu,
Bağdadda böyük bir qəsəbə qurdu.
Burada tikdirdi gözəl bir saray,
Bağ-bağat saldırdı, yaxın idi çay.
Bu şəhərdə oldu öz toy-düyünü[194],
Yetmiş yaşlı Toğrul həmən o günü,
Türk əsgərləriylə olub qol-boyun,
Şıdırğı rəqs etdi gözəl bir oyun...
Sadə insan idi Məhəmməd Toğrul,
Böyük sultan idi Məhəmməd Toğrul.
Mübariz, müsəlman, yenilməz fateh,
Hələ çox edəcək bəşəri valeh!
Hər türk oğlu sevir Toğrul sultanı,
Sevən könüllərdir onun ünvanı.
Adı qəlbindədir böyük sultanın,
Təkcə türklərin yox, hər müsəlmanın.
Seyhundan Bizansın şərqinə qədər,
Körfəzdən Dərbəndin səddinə qədər,
Növbəti, böyük türk dövləti qurdu,

O da damğasını[195] tarixə vurdu.
Toğrul vəfat etdi[196]... ölkə qarışdı,
Sultan olmaq üçün çoxu çalışdı.
Necə ki, etmişdi Toğrul vəsiyyət,
Amidülmülk edib buna riayət,
Taxtda əyləşdirdi tez Süleymanı,
Çox uzun sürmədi onun dövranı.
"Ən layiqli sultan özüməm!" deyə,
Gəldi ordusuyla Kutalmış Reyə.
Amidülmülk gördü pisdir vəziyyət,
Sultan Süleymanla edib məsləhət,
Yenə Alp Arslana göndərdi xəbər,
Vaxtında yetişdi şanlı müzəffər.
Otuz min əsgərlə eylədi yürüş,
Damqan yörəsində baş tutdu görüş.
Kutalmış ordunu çəkdi Damqana,
Qarşı durmaq üçün o Alp Arslana.
Deyildi ordular heç də bərabər,
Kutalmış yığmışdı əlli min əsgər.
Qürub vaxtınadək savaş uzandı,
Yenə də Alp Arslan zəfər qazandı.
Kutalmış bəy isə ağır yaralı,
Can verdi meydandan bir az aralı.
Tapıb cəsədini onun Alp Arslan,
Ağladı... yas tutdu ona bir zaman.
Artıq dərk etmişdi bütün məmləkət,
Kimin olmalıdır tam hakimiyyət.
Qalmadı sultanın başqa əlacı,
Qoydu Alp Arslanın başına tacı.
O idi Toğrula layiqli əvəz,
Qalmadı kimsənin qəlbində qərəz.
Lap qalmış olsa da kimsədə istək,
İçində boğuldu belə bir məslək.
Məlum da deyildi çünki cahana,

Ağılda, qüdrətdə tay Alp Arslana!
Ağırlıq edirmi bədənə başı,
Açsın Alp Arslana meydan savaşı?!
Qısa bir müddətdə igid Alp Arslan,
Yaratdı ölkədə səliqə-sahman.
Sultan azad etdi Amidülmülkü,
Vəzir təyin etdi Nizamülmülkü.
Sonra hərbi səfər edərək qərbə,
Bizanslılar ilə başlayıb hərbə,
Qars[197] ilə Anini keçirdi ələ,
Çatdı Gürcüstanda başa mərhələ.[198]
Sultandan xəbərlər gözləyib daim,
Eşidib sevindi xəlifə Qaim.
"Əbu-Fəth"[199] ləqəbi verdi sultana,
Bu ad yaraşırdı çox Alp Arslana.
Qayıdandan sonra Reyə – başkəndə,
Sultan səfər etdi bu dəfə Cəndə.
Baba məzarını edib ziyarət,
Gəlib Xorasanda durdu nəhayət.
Hər yanda tanındı hakimiyyəti,
Üstəlik baş tutdu əsas niyyəti.
Şərqdəki oğuzlar gördü sultanı,
Yenidən qaynadı hər kəsin qanı,
Bir çox oğuz eli yönəlib qərbə,
Getdilər birbaşa Bizansla hərbə.
Axınların sayı öylə çoxaldı,
Rum imperatoru məəttəl qaldı.
Bir qismi də getdi Ərəbistana,
Fatehlik edərək girdi meydana.
Öncədən duyaraq keyfi kökəldi,
Sultan Xorasandan başkəndə gəldi.
Reyə çatan kimi aldı məlumat:
"Gürcüstanın çarı dördüncü Baqrat,
Alan elləriyləri yaradıb vəhdət,

Ordusu Arrana edib hərəkət.
Qırıblar nahaqdan dinc insanları,
Gəncədə, Şəkidə müsəlmanları”.
Yaman təsir etdi bu Alp Arslana,
Təcili yürüşlə getdi Arrana.
Onun gəldiyini eşidən kimi,
Alan tayfaları, gürcü hakimi,
Qarət mallarını atıb getdilər,
Qaçdılar dağlara, gözdən itdilər.
Tezliklə Gəncəyə gəldi Alp Arslan,
Durdu ordusuyla burda bir zaman.
Şəddadi Fəzl[200] ona edərək təzim,
Sultanın adına qurdu mərasim.
Hədiyyələr ilə gəlib Şirvanşah[201],
Qüdrətli sultana gətirdi pənah.
Daha sonra sultan Şəkiyə getdi,
Ordan Gürcüstana hücumlar etdi.
Sultanın ordusu aldı Tiflisi,
Çıxmadı Baqratın sorağı, səsi.
Oğuzlar ölkəni gəzdilər tamam,
Vermədi Baqratdan xəbər bir adam,
Qoymuşdu rəhbərsiz yurdu, torpağı...
Haçandan-haçana çıxdı sorağı,
Gizləndiyi yerdən göndərdi xəbər,
Gəlib elçiləri bir neçə nəfər,
Dedilər: “Bağışla, edib qəbahət,
Edəcək sultana Baqrat itaət.
Heç zaman olmazdı Arrana hücum,
Onu təhrik edir bu işlərə Rum.
Rədd cavabı versə imperatora,
Çar özü düşəcək çətinə, zora.
Bizans qüdrətlidir, var imkanları,
Satın alıb gürcü zadəganları,
Qoyacaq onları Baqrata qarşı,

Uzaqdan görünməz nədir bu çarşı[1]?
Bizi təhdid edir məharətiylə,
Parçala, hökm sür! – siyatətiylə.
Bu gün parça-parça olub ölkəmiz,
Bizansın önündə çox acizik biz.
Yalnız türk xalqının yetər qüdrəti,
Silsin yer üzündən bu bic dövləti...”

## REY ŞƏHƏRİNDƏ MƏŞVƏRƏT

Alp Arslan söylədi: “Belə bir təklif,
Adıma yazılmış hüdudsuz tərif,
Şübhəli göstərir bir az niyyəti,
Təkidə çevirir sanki dəvəti”.
Nizamülmülk dedi: “Şərəfli sultan,
Bu sözlərin deyil sadəcə güman.
Bir az əvvəl Rumdan yetişdi xəbər,
Edilir çox böyük ordu səfərbər.
İndi də gəlibdir dəvət Misirdən...
Qurma iş, ya tələ olarsa birdən,
Sən uzaq səfərdə olduğun zaman,
Rumlular girsinlər ölkəyə asan.
Fatimilər səni edirsə dəvət,
Mütləqdir ortada incə siyasət.
Yalnız bu tərəfdən düşünək hələ,
Tutalım heç yoxdur bir hiylə, tələ”.
Sərkərdə Sav-Təgin dedi: “O zaman,
Yalnız bir məsələ edilər güman.
Sultan ki, doğuya eylədi səfər,
Oğuzlar yenidən oldu səfərbər.
Maşaallah! Seltək axdı camaat,
Doğudan batıya onarla elat.
Bir qismi Rum ilə sərhəddə getdi,
Orda Mənsur[203] bəylə axınlar etdi.
Böyük bir qismi də Süleyman[204] bəylə,
Rum ərazisində savaşır səylə.
Sonra Həmədandan paytaxta qədər,
Sultanın əmrini gözləyir ellər.
Bir də iyirmi min, ya buna yaxın,
Süvari eyləmiş Misirə axın.
Başbuğları da ki, Xarəzmi Atsız,
O, Fatimiləri edib rahatsız.

Bəlkə bu səbəbdən qonşu xilafət,
Səni mehman kimi eyləyir dəvət?”
Vəzir dedi: “Bəli, bu da səbəbdir,
Ancaq dəvət deyil, artıq tələbdir...”
Sultan dedi: “Əsla.. başqadır məqsəd,
Səbəbi şikayət olsaydı şayəd,
Yazan gizləməzdi fikrini nahaq,
Kimə lazım idi böylə təmtəraq?
Məni eyləyirlər Misirə dəvət,
Heç bir şikayətdən yoxdur əlamət”.
Sav-Təgin söylədi: “Şərəfli sultan,
Bu ehtimalımda vardırsa nöqsan,
Gəlməyir ağlıma başqa bir fikir...”
Bir qədər düşünüb danışdı vəzir:
“Zənnimcə yoxdur bir əhəmiyyəti,
Dəvət edənlərin nədir niyyəti?
Fərq etməz naməni kim necə yazır,
Vacibdir biz olaq hər şeyə hazır...”
Alp Arslan söylədi: “Bax belə! Əhsən,
Axı mən bilirəm aqil vəzirsən”.
Vəzir bu tərifdən gələrək vəcdə,
Dedi: “Bir pişik də sıxılsa küncdə,
Müdafiə üçün qabarır beli...”
Sultan bu sözlərə gülərək xeyli,
Dedi: “Xaliq onu yaratmış çevik,
Düşməz künc-bucağa ağıllı pişik”.
Yenə ciddiləşib söylədi vəzir:
“Rum imperatoru yaman tələsir...
Yəqin ki, ediblər onu xəbərdar,
Son olaylardan da məlumatı var.
Bilir ki, günbəgün artır qüvvəmiz,
Şərqdən axıb gələn oğuzlarla biz,
Yarada bilərik qüdrətli ordu...”
Bu yerdə Alp Arslan taxtından durdu,

Bir qədər gəzişib dedi: “Çox gözəl,
Olaylara diqqət yetirək əzəl.
Rumda imperator olur sərkərdə...
Məqsədin üstündən açılır pərdə.
Belə bir seçimə vardırsa lüzum,
Demək böyük hərbə hazırlaşır Rum.
Buyurun... bu gün də yetişdi xəbər,
Edilir böyük bir ordu səfərbər.
Rumlular bilir ki, heç təsadüfən,
Qərbə iki yürüş etməmişəm mən.
Mükəmməl öyrənib əraziləri,
Dolğun məlumatla dönmüşəm geri.
Sonra şərqə doğru edərək yürüş,
Oğuz elləriylə keçirdim görüş.
Qalmadı təklifim mənim cavabsız,
Oğuzlar gəldilər saysız-hesabsız.
Axınlar etdilər sərhəddə bir il,
Bu təcrübə üçün az zaman deyil.
Lakin rumlular da deyillər axmaq,
Ölümdür kənarda dayanıb baxmaq.
Rumlular göndərib şimala xəbər,
Minlərlə axışıb gəlib firənglər.
Böyük səfərbərlik edib ölkədə,
İki yüz min əsgər yığıb bəlkə də,
İmperatorları yürüş edəcək...
Həm də mümkün qədər şərqə gedəcək”.
Sultan yenə gəlib oturdu taxtda.
Vəzir dedi: “Ağam, belə bir vaxtda,
Getmək istəyirsən Misirə hələ?
And olsun, ağlıma gəlməzdi belə!
Qarşında özümü sanıram cahil,
Xəlq eyləmiş səni Yaradan kamil!”
Sultan dedi: “Vəzir, güc vurma dilə,
Səmtini bilməyən yetməz mənzilə.

Bax bu məsələnin iki həlli var:
Birincisi – bu gün tam açıq-aşkar,
Ordu toplamağa verirəm fərman,
Böylə qazanıram üç-dörd gün zaman.
İkincisi – qəbul edib dəvəti,
Hər işi görürəm tamam xəlvəti.
Sayımız olmasa kimsəyə bəlli,
Düşmən də hazırlıq görməz əməlli".
Vəzir dedi: "Əgər bilmirsə düşmən,
Ordumuz nə qədər olar təxminən,
Verər ordumuza böyük üstünlük,
Qəfil yaradarıq meydanda tünlük".
Sav-Təgin söylədi: "Deyirəm bəlkə,
Gizli yığışmaqda varsa təhlükə,
Aşkarlıq yoluyla edək hər şeyi,
Toplantı mərkəzi eyləyək Reyi..."
Sultan dedi: "Yoxdur heç bir təhlükə,
Zaman da yetəcək hər tədarükə.
Öncə Atsız bəyə sən göndər xəbər,
Mən Misirə səfər edənə qədər,
Çıxsın o yerlərdən getsin şimala,
Gətirsin qoşunu yararlı hala.
Xəbərdar edilsin Mənsur, Süleyman,
Toplanış yeri də olmalıdır Van,
Yəni, Van gölünün cənub sahili...
Sənə tapşırıram burdakı eli,
Həmədandan tutmuş düz Reyə qədər,
Yəqin toplayarsan otuz min əsgər.
Söylə ki, lazımsız bu gün dövlətə,
Qəbul edilirsiz hərbi xidmətə".
"Baş üstdə, göz üstdə!" dedi Sav-Təgin.
Alp Arslan vəzirə dedi: "Ən çətin,
Azuqə etməkdir indi tədarük,
Yüz minlik orduya, azı üç günlük.

Çox da lazım deyil, girməsin gözə,
Yoxsa məqsədimiz çıxacaq üzə.
Ancaq hazır ol ki, uzansa savaş,
Daha qalmayasan arada çaşbaş.
Nə qədər, harada savaşsaq da biz,
Əsgərlər aramsız edilsin təchiz!”

# KONSTANTİNOPOLUN KÜÇƏLƏRİNDƏ

Konstantinopol[205] – paytaxt şəhəri,
Böyük  bir xəbərlə açdı səhəri.
Şanlı imperator Diogen Roman[206],
Nəhayət ki, verib yürüşə fərman.
Üç yüz mindən də çox toplayıb əsgər,
Şərq sərhədlərinə edəcək səfər.
Bu xəbər küçədə, bazar-dükanda,
Söhbət mövzusuna döndü bir anda.
Birisi səsinə verib qətiyyət,
Deyir: “Belə tələb edir vəziyyət!
Vəhşi səlcuqları qırmasaq tamam,
Bizansa rahatlıq olacaq haram!”
Digəri təmkinlə dinləyib onu,
Söyləyir: “Bu hələ deyildir sonu!
Səlcuq türklərini məhv edib əvvəl,
Böyük işlər üçün qoyarıq təməl.
Ərəb, fars, kürdün də yetişər vaxtı,
Xilafət mülkünün yıxılar taxtı.
Çəkərik çarmıxa müsəlmanları,
Məsihə[207] and olsun, axar qanları...”
Bayaqdan onlara baxan ağsaqqal,
Dözməyib söhbətə qoşuldu dərhal:
“Təkəbbürlü olma, möhtərəm cavan,
Düşündüyün qədər deyildir asan.
Nifrinlər ağlını alıblar yəqin,
Yoxsa silinməzdi yaddaşın sənin.
Uzlar, peçeneqlər[208] əvvəllər elə,
Gələrdilər kiçik dəstələr ilə.
Siz məndən də yaxşı bilirsiz bunu,
Təkəkəbbürlük etdik... nə oldu sonu?
“Ağılsız vəhşilər” deyib inandıq...

Özümüzü çox-çox ağıllı sandıq.
Nəticədə saysız süvari ordu,
Bütün Avropanın qəsdinə durdu.
Sanki cəhənnəmə dönmüşdü dünya...
Fessalonika və Makedoniya,
Frakiya, hətta Ellada[209] belə,
Talandı amansız soyğunlar ilə.
Sonra da bu qoşun edib hərəkət,
Paytaxtın önünə gəldi nəhayət.
Yunanlı qüruru edildi təhqir,
Konstantinopol əsirdi tir-tir...
Yox idi türklərə qarşı iqtidar,
Verdi imperator doğru bir qərar.
Göndərdi türklərə çoxlu bac-xərac,
Çünki qalmamışdı başqa bir əlac.
İndi nə deyirsən, möhtərəm cavan?
Yenəmi uyduraq şirin bir yalan?
Deyildir nə vəhşi nə də sərsəri,
Şərqə sahib olan səlcuq türkləri.
İranda qurublar elə bir dövlət,
Əsir önlərində bütün xilafət.
Deyirsən "türkləri məhv edib əvvəl,
Böyük işlər üçün quraraq təməl"
And olsun müqəddəs Konstantinə,
Hər şeyi görürsən tamam tərsinə!
Səlcuq türklərini məhv etsək əvvəl,
Qalmaz bir "böyük iş" və ya bir əngəl.
Hamı qarşımızda bükər dizini,
Silərik islamın tamam izini.
Durmasa meydanda səlcuqlar əgər,
And olsun Məsihə, düz Çinə qədər,
Bütün torpaqlara olarıq sahib...
Əfsus ki, qarşıda güclüdür rəqib.
Şanlı imperator, şərəfli Roman,

Kappadokiyalı[210] igid qəhrəman,
Yunan xalqımızın cəsur övladı,
Sərkərdələr içrə başdadır adı!
Döyüş təcrübəsi, əsgər vərdişi,
Sövq edib, ağılla başlayıb işi.
O, bütün Bizansdan toplayıb əsgər,
Səlcuqlara qarşı edəcək səfər.
Verirsə düşmənə layiqli qiymət,
Zəfərlə qayıdar geri nəhayət!”

## ROMAN DİOGENLƏ ARVADININ SÖHBƏTİ

Hökmdar Diogen sarayda, səhər,
Müşavirə qurdu qısa, müxtəsər.
Son hazırlıq üçün uzaq səfərə,
Göstərişlər verdi sərkərdələrə.
Sonra Yevdokiya gəldi otağa,
Diogen taxtından qalxıb ayağa,
Gəlib xanımıyla durdu üz-üzə,
Xəfif təbəssümlə başladı sözə:
“Dünən sərt danışdım... hirsli idim mən,
Düşündüm ki, yəqin incimisən sən...”
Gözəl Yevdokiya qürurla baxıb,
Söylədi: “Al şərab sel kimi axıb
Dünən oynatmışdı yerindən səni,
Nə isə... unudaq olub keçəni.
Həm də ali qandır damarda qanım,
Kin saxlamaz əsla zadəgan xanım”.
Diogen söylədi: “İmperatoru,
Əlacsız qoyub bir gözəlin toru.
Nə qədər çalışdım puç oldu heyhat,
Məhəbbət torundan tapmadım nicat.
Bəli... əsilzadə, zadəgan xanım!
Əsirindir sənin cismim və canım!”
Azacıq duyulan naz-qəmzə ilə,
Gözəl Yevdokiya söylədi belə:
“Mənim özümün də, şanlı hökmdar,
Buna bənzər kiçik çətinliyim var.
Bir igid vardır ki, məqsədi məchul,
Kübar adətləri etməyir qəbul.
Öyüd-nəsihətim vermir səmərə,
Əyalətdən gələn bir cəngavərə”.
Əvvəl mat-mat baxıb xanıma bir an,

Güldü qəhqəhəylə Diogen Roman.
Sonra da otaqda gəzişib bir az,
Dayanıb söylədi: "Yox, çətin olmaz!
Hər necə olsam da kobud bir əsgər,
Baş kəsib qan tökən dəli cəngavər,
Yumşalır ürəyim görəndə səni...
Sən də belə... sən də qınadın məni...
Hərdən qulağıma çatır bu söhbət,
Yəqin ki, həsəddən doğur bu qeybət.
Deyirlər Diogen fərasətlidir,
Cəngavər də olsa siyasətlidir.
O Konstantinin[211] dul arvadını,[212]
Alıb və ucaldıb miskin adını.
İmperator olmaq məqsədi ilə,
Guya dul qadını tutmuşam dilə.
Unutqan adamlar eyləyir qeybət!
Çıxıb yadlarından etdiyim xidmət.
Bütün ömrüm boyu qılınc vurmuşam,
Bir çox döyüşlərdə öndə durmuşam.
Döyüşlərin ağır çağlarında mən,
İrəli atıldım qorxu bilmədən.
Hələ imperator olana qədər,
Adım olmuş idi dillərdə əzbər..."
Yevdokiya dedi: "Artdıqca şərəf,
İmperator taxtı seçildi hədəf!
Bir neçə xainin uyub sözünə,
Təhlükəli bir yol seçdin özünə.
Konstantin Dukas öldüyü zaman,
Sui-qəsd yoluyla tökəcəkdin qan.
Sən övladlarıma pis baxmaq ilə..."
Diogen dözməyib söylədi belə:
"And verirəm tanrı Məsihə səni,
Bu ağır günahla suçlama məni.
Yüz dəfə demişəm, ey gözəl pərim,

Olmayıb bu işdən əsla xəbərim!
Mən sərkərdələrin təkidi ilə,
Dini rəhbərlərin təkidi ilə,
Hökmdar olmağa vermişəm qərar,
Bilirdim ki, bunun zərurəti var.
Sadə bir hərislik deyildi taxta...
Hələ nəzər salsaq bir də o vaxta,
O mənsub olduğun kübar təbəqə,
Özləri mənimlə qurub əlaqə,
Dedilər – ölkənin çoxdur düşməni,
Çapıb talayırlar yurdu, vətəni.
Belə bir məqamda yurda hökmdar,
Mütləq olmalıdır hərbi peşəkar...
Sən də bu xəbəri vaxtında aldın,
Məni həbs etdirib zindana saldın.
Ancaq edam günü əfv etdin məni...
Bilirdin ki, necə sevirəm səni!"
Yevdokiya dedi: "Bilirdim, bəli,
Yoxsa deyildim ki bu qədər dəli?
Yoxsa mən səni heç əfv də etməzdim,
Sonra səni seçib ərə getməzdim!"
Diogen danışdı bir qədər məyus:
"Sən bütün bunları bilərək, əfsus,
Hər kiçik bir şeyi edib bəhanə,
Bu köhnə söhbəti açırsan yenə.
Nə övladlarına toxundu xətər,
Nə də bir kimsəyə dəymədi zərər".
Yevdokiya dedi: "Kiçik bəhanə?!
Hər şey belə sadə görünür sənə?!
Dünən ziyafətdə ötərək dil-dil,
Anasına çəkib – dedin – Mixail[213].
Məni həqiqətən sevsəydin əgər,
Sən oğlumu təhqir edərdin məgər?!"
Yenə də gülərək Diogen Roman,

Dedi: “Sən verməzsən kimsəyə aman!
İlk dəfə gördüyüm o gündən bəri,
Məni məftun etmiş qisasçı pəri!
Duyub Mixailin incə qəlbini,
Müqayisə etdim onunla səni.
Yevdokiya, sənin övladın məgər,
Mənə əziz deyil öz oğlum qədər?!..
Sən mənə bu uzaq səfərdən əzəl,
Xeyir-dua verib yola sal, gözəl!”
Yevdokiya dedi: “Şanlı hökmdar,
Bütün Bizans sənə edir etibar.
Qoy müqəddəs Üçlük[214] olsun köməyin,
Yetsin muradına arzun, diləyin.
Uğurlar gətirsin sənə bu səfər,
Sevindirsin bütün Bizansı zəfər!”

## ROMAN DİOGEN KAPPADOKİYA VƏ PONT[215] ƏRAZİLƏRİNDƏ

Öz yunan qövmünün ənənəsiylə,
Dünya fatehinin təntənəsiylə,
Ordunun önündə gedir hökmdar,
Sanır ki, haqqı var, ixtiyarı var.
Üç yüz mindən artıq toplayıb əsgər,
Edib imperator hərbə səfərbər.
Necə öyünməsin Diogen Roman?!
Belə orduları az görüb zaman!
Sanır Axillesdir[216], məğlubedilməz,
Zəif yerlərini bir kimsə bilməz.
Tilsimdən güc almış cisminin zoru,
Vurub öldürəcək igid Hektoru.[217]
Ya da Apollondur[218], həqiqi, diri,
Tərənnüm eyləyir göyü və yeri.
Yadına salsaydı Homeri[219] bir an,
Onu çaşdırmazdı yalançı ad-san.
Kimi ki çatdırdı zəfərə hiylə,
Məhv oldu həyatı fəlakət ilə.
Çoxda ki, hər yerdə cəngavər Roman,
Dini önə çəkdi düşdükcə imkan.
Aldanıb iblisə, susayıb qana,
Şan-şöhrət eşqiylə girib meydana.
Sadəcə, islamı edib bəhanə,
İşğalçı bir ordu toplayıb yenə.
Güya Roma, Bizans islamdan əzəl,
Sülh quşları olub gözəldən gözəl.
Diogenin nəfsi yumub gözünü,
Dünyanın fatehi sanır özünü.
"Mömin xaçpərəstəm" desə də dili,
Etmişdi nəfsinə pərdə İncili.

Vaxtında alsaydı İncildən ibrət,
Etməzdi iblisə belə itaət.
Elə bu nəfsi də məhv etdi onu,
Rəzillik içində yetişdi sonu...
Hələlik Diogen, şanlı hökmdar,
Ordunun önündə duyur iqtidar.
Çıxdı görüşünə doğmaca yurdu,
Kappadokiyadan keçəndə ordu.
Güldən, çiçəklərdən yağdırıb yağış,
Yol boyu xalq dedi orduya alqış.
Ordu  dincəlməkçün qısa bir müddət,
Pont əyalətinə gəldi nəhayət.
Ordu Sebastia[220] önündə durdu,
Şəhər ətrafında düşərgə qurdu.
Şəhərin valisi dini rəhbərlə,
Tədarük edilmiş hədiyyələrlə,
Gəlib çadırına imperatorun,
Təriflər dedilər adına onun.
Sonra din xadimi dua edərək,
Dedi: "Muradına yetdi bu istək.
Yollarda qalmışdı gözümüz bizim,
Çünki çoxdur sənə sözümüz bizim".
Müqəddəs ataya baxıb hökmdar,
Soruşdu: "De görək, nə sözünüz var?"
Din xadimi dedi: "Uzun zamandır,
Bizim əhvalımız çox pərişandır.
Malazgirdi işğal edəndən bəri,
Axınlar edərək oğuz türkləri,
Tez-tez bu şəhərə basqın edirlər,
Soyğunçuluq edib çapıb gedirlər.
Ermənilər qorxub qaçıb çöllərə,
Bir qismi sığınıb bizim ellərə.
Ancaq olmadılar bizlərə həyan,
Üstəlik şəhərə vururlar ziyan".

Diogen dedi: “Bu müvəqqətidir.
Ermənilər Bizans rəiyyətidir,
Yazıq bir tayfadır, düşüb didərgin...
Səbr edin vəziyyət olsa da gərgin.
Həm də ordumuzda beş minə qədər,
Hal-hazırda vardır erməni əsgər.
Bir qədər dözün ki, qısa zamanda,
Hər şey qaydasınca olar məkanda”.
Din xadimi dedi: “Böyük hökmdar,
Səbr etmək gözəldir, doğrudur qərar.
Qoy Məsihin nuru bağrına dolsun,
Qoy müqəddəs Üçlük köməyin olsun.
Müqəddəs Xaç olsun silahın sənin,
Qırılıb məhv olsun cümlə düşmənin.
Qoy Məsihdən gəlsin qəlbə ilhamın,
Kəsəsən kökünü sən bu islamın.
Ancaq... əfv et... yenə edirəm cürət,
Bu Sebastiada pisdir vəziyyət.
Ermənilərə ki deyirsən “yazıq”,
Bağışla... düzəliş edim azacıq.
Dönüb həyatımız tamam zəhərə...
Yazıq, qaçqın kimi gəlib şəhərə,
Tayfa inanılmaz qısa müddətə,
Tamam uyğunlaşdı hər şəraitə.
Yaradıb silahlı quldur dəstəsi,
Soyurlar burada hər varlı kəsi.
Tabe olmamağa kim etsə cürət,
Açırlar başına böyük fəlakət.
Neçə-neçə adlı-sanlı yunanı,
Döyüblər küçədə çıxınca canı.
Veclərinə deyil din məhkəməsi,
Onlara yad şeydir Bizans kilsəsi.
Mən bəzi şeyləri etmişəm aşkar,
Bunların türklərlə əlaqəsi var.

Bəziləri məmlük olublar əvvəl,
Odur ki, deyillər dində mükəmməl.
Dəyişib çoxunda tamam xisləti,
Türk ordularında hərbi xidməti.
Ölkəmizdə bəzi ermənilər var,
Verilib onlara böyük ixtiyar.
Orduda, dövlətdə, hətta sarayda,
Bəlkə də verirlər ölkəyə fayda.
Onlarla əlaqə qursa məmlüklər,
Ölkəni içindən dağıdar türklər.
Məmlük ermənilər kimi bəlkə də,
Bir böyük təhlükə yoxdur ölkədə.
Ən varlı yeridir indi şəhərin,
Yaşadıqları yer ermənilərin.
O zaman ölkəmiz alanda Vanı,
Bəzi insanların sıxıldı canı.
Erməni xalqını edəndə sürgün,
Qınadım dövləti, çox oldum üzgün.
Ancaq indi əmin olmuşam qəti,
Doğru iş tutubmuş Bizans dövləti...”
Qəzəb Diogenin əydi üzünü,
Şəhər valisinə dikdi gözünü.
O bədbəxtin sanki qırıldı beli,
Danışmaq istədi, tutuldu dili.
İmperator dedi: “Bax bu məsələ,
Sirr olsun, bir kimsə bilməsin hələ.
Adi həyatını yaşasın şəhər,
Güya heç çatmayıb mənə bu xəbər.
Qoy arxayınlaşsın quldur dəstəsi...”
Sonra sakitləşdi, dəyişdi səsi:
“Yorulmaq bilmədən, müqəddəs ata,
Dini təbliğ edin siz camaata.
Qayıtsa kilsənin keçmiş şöhrəti,
Bizansın da artar gücü, qüdrəti”.

## İMPERATOR ERMƏNİLƏRİ CƏZALANDIRIR

Düşərgədə, azca qalmış səhərə,
Beş yüz nəfər əsgər qalxdı yəhərə.
Avqustda, yuxunun ən şirin vaxtı,
Qoşun bir sel olub şəhərə axdı.
Basaraq erməni məhəlləsini,
Tamam bağladılar əhatəsini.
Bryennius idi sərkərdələri,
O, həbs etməliydi erməniləri.
Diogen verdiyi bu gizli fərman,
İcra edilirdi səhər obaşdan.
Bir anda oyandı yuxudan şəhər...
Həyacan içində, işdən bixəbər,
Çıxıb küçələrə, durub camaat,
Səs gələn tərəfə baxırdı mat-mat.
Tədricən gözlərdən çəkildi yuxu,
Kəskin bir marağa çevrildi qorxu.
Diqqəti çəkirdi səs gələn tərəf,
Nəhayət ucunu göstərdi kələf.
Uzaqda seçilən qaraltı, kütlə,
Göründü səhərin açması ilə.
Yunan atlıları nizamla gedir,
Yüzdən çox əsirə nəzarət edir.
Gedir süvarilər sağda və solda,
Əsirlər də qaçır sırayla yolda...
Müqəddəs ataya göndərib çapar,
Hüzuruna dəvət etdi hökmdar.
O da düşərgəyə gəldi durmadan,
Qəbul etdi onu Diogen Roman.
Diogen birbaşa keçdi mətləbə:
"Yalnız qətiyyətdən doğar qələbə.
Şəhər valisinin zəif xisləti,

Salıb etibardan hakimiyyəti.
Böyük zəfərlərdən danışırıq biz,
Quldurlar əlində qalmısız aciz...
Tutmuşuq onlardan yüz nəfər fəal,
Keçilib ətraflı bir sorğu-sual.
Seçib başçılardan on-on beş adam,
Axşamüstü edin meydanda edam!
Qalan fəalları biz elə bu gün,
Ailələriylə edərik sürgün.
Ən əsas-göndərin xəbər dörd yana,
Qoy bütün əhali gəlsin meydana.
Sən, müqəddəs ata, hazırla fərman,
Kilsənin adından edərsən elan.
Elə bir fərman ki, xalqı oyatsın,
Hamının içində bir xof yaratsın.
Yaxşı bilirsən ki, hörmət, iqtidar,
Yalnız qorxu üstdə olar bərqərar”.

## ROMAN DİOGEN
## VƏ SƏRKƏRDƏLƏRİ

Çox düşüncələrdən sonra hökmdar,
Nəticə olaraq vermişdi qərar.
Sərkərdələrini edərək dəvət,
Açdı çadırında kiçik məşvərət.
Dedi: "Düşünürəm yetişib zaman,
Yürüşə səsləyir bizləri meydan.
Sonu var hər nəyin varsa əzəli,
Vəhşi oğuzların çatıb əcəli.
Bir az əvvəl mənə verdilər xəbər,
Alp Arslan Hələbə[221] eyləyib səfər.
Cəmisi əlli min süvari ilə,
Böyük ərazilər keçirib ələ.
Nahaq deməyirlər adına "sultan",
Nahaq qazanmayıb bu boyda ad-san.
Hökmü altındadır o Azərbaycan,
Şirvan, Albaniya, Gürcüstan, İran,
Şərqdə Asiyanın sonsuz çölləri,
Bağdad xilafəti, ərəb elləri.
Etiraf edim ki, bu dinsizə mən,
Hörmət bəsləyirəm içimdə hərdən".
Bryennius dedi: "Bax bu köçəri,
Deyilənlər qədər deyil sərsəri.
Bu son dörd-beş ilə yetirək diqqət,
Gör yürüdür necə incə siyasət.
Üç tərəfdən kəsib əlaqəmizi,
Ada sakininə döndərib bizi.
Oğuzlar aləmə yayıblar xəbər,
Guya baba yurda qayıdır türklər.
Yunanlar getsinlər Yunanıstana,
Ermənilər dönsün qoy Hindistana..."
Alyattes gülərək kinayə ilə,

Söylədi: “Sözündən çıxır ki belə,
O vəhşi köçəri ədalətlidir,
Öz qövmünə qarşı mərhəmətlidir.
Bu həqiqətdirsə, söylə o zaman,
Toğrul ölən kimi həmin Alp Arslan,
Niyə öz qövmünün bağrına çökdü,
Öz qohumlarının qanını tökdü?”
Bryennius dedi: “Düşünmə ki sən,
Səlcuqların belə vurğunuyam mən.
Düşməni tanımaq bir zərurətdir,
Saymamazlıq etmək pis əlamətdir.
Toğrul, səlcuqlarda birinci sultan,
Aydın məsələdir, öldüyü zaman,
Onun da övladı yox idi deyə,
Böyük bir çaxnaşma düşdü ölkəyə.
Toğrulun qardaşı oğlu Alp Arslan,
Savaşdı, qazandı və oldu sultan.
Bu qoca dünyada belədir adət,
Oğuzlar üçün də deyil qəbahət”.
Andronik Dukas cavan zadəgan,
Düşünmədən dedi: “Həm də Alp Arslan,
Doğma əmisindən sonra bəlkə də,
Taxta ən layiqli olub ölkədə”.
Səhvini dərk edib o, birdən-birə,
Pörtdü, gözlərini zillədi yerə.
Təcrübəsizlikdən dedi bu sözü...
Çünki Andronik Dukasın özü,
Qohumuydu keçmiş imperatorun,
Doğma əmisiydi Konstantin onun.
Diogen Dukasa yetirdi diqqət,
Gördü ki, səhv edib, çəkir xəcalət.
Birdən imperator güldü ürəkdən,
Sərkərdələri də gülüşdü bərkdən.
Bu təhlükəli an gülüşlə bitdi,

Dukas ürəyində şükürlər etdi.
Zarafat da edib qısa bir zaman,
Yenə ciddiləşdi Diogen Roman.
Dedi: “Hazırlığı çatdırın başa,
Fikirlər yönəlsin indi savaşa.
Öncə Malazgirdi keçirək ələ,
Sonra başlayacaq əsas məsələ.
Alp Arslana gərək göndərim çapar...
Əgər ağlı varsa bir çarə tapar.
Bir çarə var onun vəziyyətində,
Dönüş etməlidir siyasətində.
Əgər müqavimət göstərsə mənə,
Onun oğuz qövmü qalar pis günə.
Kəssəm bu türklərin kökünü tamam,
Yetim kimi qalar önümdə islam!”

## *XI HİSSƏ*

# ARSLANIN ERKƏYİ DİŞİSİ OLMAZ

### ALP ARSLAN HƏLƏB ŞƏHƏRİNDƏ

Dini ismaili[222] təriqətindən,
Özü Fatimilər[223] xilafətindən,
Təmsil edib Məad əl-Müstənsiri[224],
Bir namə yazaraq onun vəziri,
Sözsüz ki, içində nəsə bir niyyət,
Oğuz Alp Arslana göndərdi dəvət:
"Ey Allah yolunun sadiq nökəri,
Müqəddəs savaşın haqq cəngavəri.
Cəsur türk qövmünə layiqli insan,
Tarixin bildiyi ən böyük sultan,
Nəsib olsun bizə qoy bu şərafət,
Səni ölkəmizə edirəm dəvət.
Qoy şəfqət daşıyan şərəfli ordu,
Xain baxışlardan qorusun yurdu".
Çoxdan vardı deyə belə niyyəti,
Sultan qəbul etdi bu xoş dəvəti.
Əlli min süvari qalxıb yəhərə,
Getdilər cənuba, uzaq səfərə.
Edilsə də sultan Dəməşqə dəvət,
Əvvəlcə Hələbə etdi hərəkət.
Mirdasoğlu Mahmud, Hələb hakimi,
Qorxdu bu xəbəri eşidən kimi,
Şəhər qazısını tutaraq dilə,
Göndərdi görüşə Alp Arslan ilə.
O zaman idi ki, oğuz əsgəri,
Artıq adlamışdı Fəratdan bəri.

Hələb hakimindən xeyli narazı,
Kiçik bir dəstəylə yollanıb qazı,
Fərat sahilində görüb Arslanı,
Hədsiz təriflərlə öydü sultanı:
“Məğribdən məşriqə bütün cahanı,
Hökmünə ram etmiş səlcuq sultanı.
Ey qalib doğulmuş qüdrətli oğuz,
İtaətindədir Hələb yurdumuz.
Məhəmməd isminə layiqli xələf,
Sən bizə bəxş etdin böyük bir şərəf.
Nə qədər ki, vardır cismimizdə can,
Sadiq qullarınıq ey böyük sultan!”
Alp Arslan soruşdu: “Qoca, kimsən sən?”
Qazı dedi: “Şəhər qazısıyam mən”.
Alp Arslan söylədi: “Qulaq as, qazı,
Sənin pişvazından qalsam da razı,
Maraqlıdır mənə, deyim ki, düzü,
Nə üçün gəlmədi Mahmudun özü?”
Qazı dedi: “Sənə qurban bu canım,
Gərəkdir düzünü deyim, sultanım.
Hələbin hakimi, qorxudan yazıq,
Əfv eylə, bir xəta edib azacıq.
Cümlə əhli kimi bütün şəhərin,
Mahmud da qulundur, sadiq nökərin”.
Sultan qəzəbləndi: “Möhtərəm qazı,
Mahmud hörmətsizlik eyləyib azı.
Mənim hüzuruma gəlməsə əgər,
Oğuz yağmasıyla çökəcək şəhər!”
Ordu şəhəri tam araya aldı,
Şəhər ətrafında düşərgə saldı.
Qazı da sürətlə yolu qət etdi,
Birbaşa hakimin yanına getdi.
Qorxusundan əsən Hələb hakimi,
Bağırdı qazıyla görüşən kimi:

“Sən nə eylədin ki, qoca sərsəri,
Mühasirə etdi quzlar şəhəri?!
Yelbeyin! Üzünə tüpürüm sənin!
Çıxdın axırına bütün ölkənin!”
Qazı da yazıq bir görkəm alaraq,
Şirin dillərini işə salaraq,
Dedi: “Canım olsun canına fəda,
Heç zərrə qədər də etmədim xəta.
Alp Arslan dedi ki, sayqıları var,
Sadəcə, görüşə gəlsin hökmdar.
Yəqin, ağam, sultan görməkçün səni,
Alıb əhatəyə bu yan-yörəni”.
Hökmdar bağırdı: “Danışma yalan!
Budur! Sayqısını göstərdi sultan.
Əsəbimdən dişim ətimi kəsir,
Şəhərdə camaat qorxudan əsir...
Sənin saqqalını yolaram bir-bir,
Düzünü de mənə! İş nə yerdədir?!”
Qazı dedi: “Ağam, inan sözümə,
Düşmən deyiləm ki, özüm özümə?
Başına and olsun, demirəm yalan,
Görüşmək istəyir səninlə sultan.
Ancaq... başqa cürə əmr etdi... bir az...
Qoy deyim... deməsəm bu düzgün olmaz.
Məhəmməd Alp Arslan dedi ki, qazı,
Mahmud hörmətsizlik eyləyib azı.
Dedi – hüzuruma gəlməsə əgər,
Oğuz yağmasıyla çökəcək şəhər”.
Mahmud dizlərinə döyüb dedi: “Vay!
Bizi bədbəxt edər belə bir olay!
Dilin quruyaydı ay qoca bayquş,
Bizi bu bəlaya sən eylədin tuş!
Bu  oğuz yağması bir fəlakətdir!”
Qazı dedi: “Ağam, qoca adətdir.

Kim ki, oğuzlarla edər ədavət,
Gec- tez əllərinə salaraq fürsət,
Çox vaxt öldürmədən bircə insanı,
Yağma eyləyirlər xanədanını.
Çox şəhərlər olub bu dərdə düçar,
Alıb aparıblar hər nələri var.
Əvvəl qızıl, gümüş olunur qarət,
İkinci gün çatır misə də növbət.
Üçüncü gün bir az kasad olur ov,
Taxta qapı, çömçə, süpürgə, oxlov...
Kim ki, oğuzlardan gizlər malını,
Soruşmaq da olmur sonra halını.
Torpaq doldururlar ağzına tamam,
"Oğuz qovurğası" adlanır təam..."
Qazının sözünü kəsərək Mahmud,
Dedi: "Qoca bayquş, danışma kobud!
Yaxşısı budur ki, eylə məsləhət,
Nə edək ki, ötsün bizdən fəlakət?!"
Qazı dərhal dedi: "Bəli, hökmdar,
Olay düşünməyə eyləyir vadar...
Heç düşünməyə də yoxdur ehtiyac,
Dərdin özündədir əslində əlac.
Gəl... hədiyyələrlə gedək görüşə,
And olsun ki, səbəb yoxdur təşvişə.
Artır təcrübəmiz ötdükcə zaman,
Bəzən ilk baxışdan tanınır insan.
Ağam, bu Alp Arslan yaxşı insandır,
Dünyaya məlumdur – adil sultandır.
Allah bəndəsidir, gözəl bəndədir.
Ancaq... ağam, əfv et... təqsir səndədir".
Hökmdar qazıya yetirib diqqət,
Hərəkətsiz durdu qısa bir müddət.
Sonra dedi: "Yaxşı... görüşə gedək...
Sultan Məhəmmədi bəxtiyar edək!

Qazı, belə işlər fərasət istər,
Sən bacarığını bir daha göstər.
Zövqün də yaxşıdır, sərrastdır gözün,
Get xəzinədən seç hədiyyə özün".
Qazı yenə də mat qoydu hakimi:
"Ağam, gəl geyinək oğuzlar kimi!"
Mahmud gözlərini döyüb bir qədər,
Sonra da soruşdu: "Kişi, nə təhər?"
Qazı dedi: "Ağam, nə müşkülü var?
Uzunboğaz çəkmə, köynək və şalvar,
Bunları geyinib əynimizə biz,
Bir yay da keçirək çiynimizə biz.
Ağam, and olsun ki, rəğbətli olar,
Hər bir hədiyyədən qiymətli olar".
Mahmud gülümsünüb dedi: "Hiyləgər!
Siyasətdə tayın vardırmı məgər?!"

## ALP ARSLAN HƏLƏB HAKİMİNİ ƏFV ETDİ

Gündüz bürkü yaman verdi əziyyət,
Sonra yaxşılaşdı bir az vəziyyət.
Dənizdən meh əsib axşama yaxın,
Qərbdən şərqə doğru eylədi axın.
Düzüb çadırları bir neçə cərgə,
Artıq qurmuş idi ordu düşərgə.
Alıb geyimlərlə oğuz görkəmi,
Hələb qazısıyla Hələb hakimi,
Əllərdə qiymətli hədiyyələrlə,
Dillərdə təriflər, mədhiyyələrlə,
Edib çadırında təzim sultana,
Nigaran durdular onlar yan-yana.
Sultan da taxtında əyləşib rahat,
Dedi: "Təzadlarla doludur həyat.
Mahmud ibn Mirdas! Şaşırdın məni,
Özümə dost bilim ya düşmən səni?"
Mahmud büzüşərək dedi: "Sultanım,
Sənin qədəminə fədadır canım.
Ağlıma gəlməz bu! Nə karəyəm mən,
Sənin dostun olum ya sənə düşmən.
Olsa, olsa, olsa, sənə nökərəm,
Xətalı işlərdən mən bixəbərəm.
Ya əmir! Dəyməsin ayağına daş,
Sən islam uğrunda edirsən savaş.
Amalın islamdır, əməlin saleh,
Edir ədalətin aləmi valeh.
And olsun ki, türklər çəkilsə geri,
Kafirlər alarlar tamam hər yeri.
Qəbul eylə mənim itaətimi,

Görərsən qulluqda sədaqətimi...”
Sultan gülümsünüb kinayə ilə,
Dedi: “İnanardım bu şirin dilə,
Ancaq başqa cürə gəlir xəbərin,
Qol-budaqlı imiş əlaqələrin”.
Qazıdan soruşdu: “Bir söylə bizə,
O kimdir ki, niqab çəkərək üzə,
Aşkarda dost olub müsəlmanlara,
Gizlində dost olur o şeytanlara?!”
Qazı qorxa-qorxa dedi: “Hökmdar,
Elə adamların bircə adı var...
“Münafiq”... adlanıb onlar hər zaman...”
Sultan dedi: “Belə buyurur Quran!
İndi bəs necə mən, bir münafiqə,
O ki, rumlularla qurur əlaqə,
O ki, vəzifəyə, sərvətə görə,
İt kimi sürtüşür xaçpərəstlərə,
Hələb şəhərini edim etibar?!”
Mahmud dizə çöküb dedi: “Hökmdar,
And olsun, bu deyil hiylə, siyasət,
Qorxudan doğubdur məndə bu niyyət.
Mən düşmən olmaram sənə heç zaman...”
“Qalx ayağa, dinsiz!” əmr etdi sultan.
Şəhər hakimi cəld ayağa qalxdı.
Qazı heyrət ilə Mahmuda baxdı,
Dedi: “Ağam, səndən törəyib bu şər?!
Axı məhv olardı büsbütün şəhər!”
Alp Arslan söylədi: “Qoca, karıxma,
Bir olan Allaha şükr et, darıxma.
Dinsiz bir axmağın törətdiyi şər,
Cümlə qövmə şamil olurmu məgər?”
Qazı söylədi: “Həmd olsun Allaha,
Qəlbimdə bir şübhə qalmadı daha.
Sultanım, mən gördüm ədalətini,

İmanından doğan mərhəmətini”.
Sultan gülümsünüb söylədi: “Əhsən!
İmanı, insafı önə çəkdin sən!
Deməli, əfv edim, möhtərəm qazı,
Bu münafiq Mahmud ibn Mirdası?
Yaxşı, qazı, olsun... əfv etdim onu...
Lakin hələ deyil bu işin sonu.
Bu dəfə mən onu edirəm təhkim,
Hələb şəhərinə hökmdar, hakim.
Qoy gedib şükr etsin uca Allaha,
Dini kafirlərə satmasın daha.
Sürdürmək üçün öz səltənətini,
Qula çevirməsin məmləkətini.
Kafirin önündə tir-tir əsməsin,
Haqdan ümidini heç vaxt kəsməsin.
Bir xaç ətrafında taparaq vəhdət,
Düşmən kütlə-kütlə edir hərəkət.
Tək dayanmalıdır meydanda sultan?!
Qardaş olmalıdır cümlə müsəlman,
Fərq etməz türk olsun, fars, kürd ya ərəb!
Bunu Allah bizdən eyləyir tələb!
Yoxsa parça-parça bölünəkmi biz,
Kafirlər önündə qalaqmı aciz?!
Əsla! Yetərincə var ibrətimiz,
Öz əlimizdədir səadətimiz”.
Sultanın sözündən alıb cəsarət,
Mahmud ibn Mirdas dedi nəhayət:
“Sən məni əfv etdin, ey şanlı sultan,
Keçsin günahımdan uca Yaradan.
Ağlımı şeytanlar aldı başımdan,
Üz çevirib cəsur türk qardaşımdan,
Kafirlə dostluqda axtardım nicat...
İncə siyasətdir, düşündüm... heyhat.
Əslində satmışdım ləyaqətimi,

Dinimi, xalqımı, məmləkətimi...”
Sultan dedi: “Mahmud, ədalətli ol,
Nəfsinə ağa ol, səxavətli ol.
Zalımlardan qorxub qoparma fəryad,
Allaha sığın ki, Ondandır imdad.
Kim ki, səhvən etsə dosta xəyanət,
Etiraf etməyə tapsın cəsarət.
Dostdan üzr istəmək şərafətlidir,
Təkəbbürlü olmaq xəcalətlidir!”

## ALP ARSLANIN RƏDD CAVABI

Hələbdə işləri sahmana saldı,
Sultan bir gecə də şəhərdə qaldı.
Gündüz ordusunu düzərək səfə,
Alp Arslan yol aldı Dəməşq tərəfə.
Namaz vaxtlarında edib fasilə,
Getdilər dənizin sahili ilə.
Ordu yolda oldu qüruba qədər,
Bizans elçisindən gəlincə xəbər.
Yetişib mərkəzdə sultana çapar:
Dedi: "Rum şahından bizə elçi var".
Sultanın əmriylə bir anda ordu,
Hərəkəti kəsib yerində durdu...
Qaldırıb havaya iri bir bayraq,
Kiçicik təpədə qərar tutaraq,
Bizans elçiləri, cəmi on nəfər,
Sol cinahdan uzaq durdu bir qədər.
Artuk bəy onlara çapar göndərdi,
Çapar elçiləri geri döndərdi,
Onları yaxın bir dərəyə saldı,
Özü də bir qədər kənarda qaldı.
Artuk bəy gözlədi... vaxt ötdü yeyin,
Gəldi Alp Arslanla Sundacı, Afşin.
Sultan: "Gəlsin elçi!" deyə əmr etdi,
Dörd nəfər süvari çaparaq getdi.
Sultan gülə-gülə dedi: "Artuk bəy,
Bizim üçümüzdə müxtəlifdir rəy.
Rum elçilərinin barəsində biz,
Yol boyu danışdıq hey fasiləsiz.
Artuk bəy, sən də öz fikrini söylə,
Nədən dinc oturmur Diogen böylə?"

Artuk bəy qımışıb dedi: “Arslan bəy,
Mən yalnız sultanla olaram həmrəy”.
Yenə də gülərək söylədi sultan:
“Bəh-bəh, necə incə, necə mehriban?!”
Bəylər gülüşdülər. Afşin bəy dedi:
“Sultan razılaşar mənimlə indi.
Qorxur bu Bizansın imperatoru,
Sarsıdıb kafiri oğuzun zoru.
Axınçı dəstələr bezdirib onu,
Diogen bilir ki, yetişib sonu.
Qorxub həlledici, böyük savaşdan,
Yaltaqlıq eyləyir elə bu başdan”.
Sundacı söylədi: “Düşünürəm mən,
Deyil bu Diogen adi bir düşmən.
“Taxta büt” dininin sadiq nökəri,
Həm də ölkəsinin cəsur rəhbəri,
O şəxsi ki, dartır zirvəyə şeytan,
İnanma əl çəksin məkrindən asan.
Məncə zərrə qədər etməyir təşviş,
Bu özündən razı, qəlbi kor keşiş”.
Aldı Alp Arslanı bu bəyin sözü,
Tutuldu bir anlıq sultanın üzü.
Düşündü: “Doğrudan qəribə işdir...
Görən bu “kor keşiş” hansı keşişdir?
Hələbdə... yuxuda görmüşdüm gecə...
Gerçəkdə eşitdim elə indicə...”
“Rum elçisi gəlir!” dedilər bu an,
Bu səsə fikirdən ayıldı sultan.
Gəldi hüzuruna sultanın elçi,
Yanında da vardı bir tərcüməçi.
Başladı söhbətə elçi və sultan,
Vasitəçi oldu yaşlı tərcüman.
Riayət edərək ədəb-ərkana,
Elçi baş endirib dedi sultana:

“Böyük imperator Diogen Roman,
Ədalət naminə eyləyir bəyan,
Geri qaytarılsın Malazgird, Ahlat,
Sonra danışqlar olacaq rahat.
Torpaqları geri qaytarsa sultan,
Bəlkə də sülh üçün yaranar imkan.
Yoxsa imperator başlayıb hərbə,
Öncə Malazgirdə vuracaq zərbə”.
Sultan gülümsünüb söylədi: “Yenə,
Bizans savaş üçün gəzir bəhanə.
Elçi, söylə görüm, nə vaxtdan bəri,
Bizansa məxsusdur Van sahilləri?”
Elçi cavab verdi: “Möhtərəm sultan,
Bu torpaq uğrunda Bizans və İran,
Bütün tarix boyu açaraq meydan,
Savaşıb, vuruşub axıdıblar qan.
Hansı bir tərəfsə qazanıb zəfər,
Torpaq onun olub müəyyən qədər”.
Sultan dedi: “Bəli, budur həqiqət.
Gah ona gah buna olubsa qismət,
“Vətən” olmayıbmış hələ o torpaq,
Kimsə də “mənimdir” deməsin nahaq.
Əldən-ələ keçib şərəf naminə...
O köhnə vərdişə uymusuz yenə.
Artıq  türklər edib oranı məskən,
Artıq o məskənə deyilir “vətən”.
Bir də ki, sən özün bilirsən gözəl,
Bizans türk torpağı olubdur əzəl.
Öz ulularımdan eşitmişəm mən...
İndi övladını səsləyir vətən.
Qınamasın deyə nəsillər məni,
Gərək ki, əliboş qaytarım səni.
Yoxdur ixtiyarım olsam da sultan,
Türk oğlu torpağı etməz ərmağan.

Get elçi, gözünlə görəcəksən sən,
Necə ləyaqətlə qorunur vətən!
Söylə Diogenə, imperatora,
Onu təkəbbürü salmasın tora.
Mənə hədə-qorxu gəlməsin hədər,
Alın yazısıdır türklərin zəfər.
Hifz etsin xalqımı Yaradan özü,
İslam dünyasının bizdədir gözü.
Tanrımız Allaha sığınaraq biz,
Qoymarıq islamı müdafiəsiz!"

## XƏLİFƏ QAİM
## ABBASİYƏ XƏBƏR ÇATDI

Nəhayət... göründü Bağdad şəhəri...
İnsafsızca qovur çapar kəhəri.
Elə bil bu çapar baxmırdı yola,
Şəhərdə də atı çapdı dördnala.
Sürətlə keçərək dar küçələrdən,
Sarayın önündə endi yəhərdən.
Çapara olmadı bir sorğu-sual,
Bəlkə kimsə buna tapmadı macal.
Birbaş taxt evinə çapar gedərək,
Xəlifə önündə təzim edərək,
Dedi: “Salam olsun, ya əmir sənə!
Hər nə tapşırmışdın gedəndə mənə,
Öyrənib gəlmişəm vaxtından əvvəl,
Həmd olsun Allaha, tamam, mükəmməl”.
Xəlifə söylədi: “Xoş gəldin, Adəm,
Adəmlər içində dərdimə həmdəm.
Təcili qayıtdın bu səfərindən...
Nə xəbər gətirdin Şam[225] şəhərindən?”
Adəm dedi: “Ağam, bağışla məni,
Əgər qəmləndirsə xəbərim səni.
O cəsur türk oğlu, igid Alp Arslan,
Heç Şama gəlməyə tapmadı imkan.
O, Hələbdə qaldı bir neçə müddət,
Şəhər hakimini etdi məzəmmət.
Mən Şamda gözlədim, nigaran qaldım,
Yolumu təcili Hələbə saldım.
Gördüm ki, əlli min oğuz əsgəri,
Alıb əhatəyə bütün şəhəri.
Mahmud ibn Mirdas, o dinsiz axmaq,
Rum ilə sazişə giribdir yaltaq.

Var imiş sultanın bundan xəbəri...
Bəladan qurtuldu Hələb şəhəri!
Əgər olmasaydı ağıllı qazı,
Sultan asdırardı ibn Mirdası.
Rəhmi gəlib ona, edib məzəmmət,
Sultan verib xeyli öyüd-nəsihət.
Ağam, rəhmlidir bu cəsur sultan,
Başqası qoyardı Hələbi viran”.
Xəlifə söylədi: “Şübhəm də yoxdur,
Adildir, ədlindən insafı çoxdur.
Tərif söyləmirəm qaynımdır[226] deyə,
Sultan sevimlidir hər bir bəndəyə.
Quz qövmündə olan üç xüsusiyyət,
İman, sədaqət və dəli cəsarət,
Məhəmməd sultanın qanında vardır,
Məqsədə çatmaqda çox inadkardır.
Orucla, namazla nəfsini boğar,
İnsaf və ədalət imandan doğar...
Adəm... söylə görək, hansı səbəbdən,
Gəlmədi Alp Arslan Şama Hələbdən?”
Adəm dedi: “Sultan çıxmışdı yola,
Yarı eyləmişdi yolu az qala.
Hələb şəhərində tutdum ki xəbər,
Rum elindən gəlib nümayəndələr,
Sultan yolda edib onlarla söhbət...
Sonra da şimala edib hərəkət...”
Xəlifə soruşdu: “Bəs nədən belə,
Sultan geri döndü bu təcil ilə?”
Adəm dedi: “Ağam, öyrənə bildim.
Əvvəlcə özüm də əmin deyildim...
Elçi dəstəsiylə rastlaşan zaman,
Mənə tanış gəldi qoca tərcüman.
Muzdlu əsgər olub otuz il əvvəl,
Türkcə və ərəbcə bilir mükəmməl.

Çox şeylər bilir o qoca erməni...
Elə görən kimi tanıdı məni.
Fürsət tapıb onu çəkdim kənara,
Mənə sirdaş oldu beş-on dinara.
Üç yüz mindən artıq toplayıb əsgər,
Rum imperatoru edib səfərbər,
Malazgird önündə sulayır meydan...
Bu səbəbdən getdi şimala sultan,
Cəmisi əlli min süvarisi var".
Xəlifə "əlli min" deyərək təkrar,
Fikirli-fikirli otaqda gəzdi...
Sanki bu sükutdan özü də bezdi,
"Üç yüz mindən artıq!" deyərək durdu.
"Tarixdə bildiyim ən böyük ordu!
Haradan bunlarda bu boyda qüdrət?!
Allah kafirlərə verməsin fürsət!
Yuxuda görmüşdüm... böyük sel gəlir,
Getdikcə çoxalır, artır yüksəlir...
Bu sel qəfil alıb aparır məni...
Sel – düşmən ordusu deməkdir yəni?
Qarşı tərəfdə də cəmi əlli min!.."
Adəmin səsində duyuldu təmkin:
"Ya əmir, bu yuxu gözəl yuxudur...
Doğrudur, adamı bir az qorxudur,
Amma şad xəbərdən bir nişanədir...
Həm də ki, bilmirəm bu qorxu nədir?
Dar günlər görmüşük bundan da betər,
Bizim bildiyimiz min ömrə yetər.
Bilmirikmi quzlar döyüşür necə?!
Səbr etmək lazımdır bir az sadəcə..."
Bu sözlərdən sonra çatıldı qaşı,
Endi Xəlifənin köksünə başı,
Dedi: "Anlayıram ey Adəm, səni...
Düzdür, oğuzların tapılmaz təni,

Ancaq şər deməsən xeyir də gəlməz,
Arxayınçılıqla işlər düzəlməz...
Birdən məğlub olsa türklər savaşda...
Qalmaz xilafətdə daş üstdə daş da...
Mən nə danışıram?! Dilim qurusun...
Bizi bu bəladan Allah qorusun!”

# XƏDİCƏ ARSLAN XATUN[227]

Tək qaldı otaqda... getmişdi Adəm,
Xəlifə Qaimi üzürdü dərd-qəm.
Bəd güman ardıyca gəldi bəd güman,
Fikirlər ruhuna vermədi aman:
“Bu əyləşdiyim taxt, başımdakı tac,
Hökmüm, nəcabətim etmirsə əlac,
Tale yazısıdır demək bu savaş,
Bütün vücudumu bürüyüb təlaş...
Bu savaşda məğlub olarsa sultan,
İslam aləmini bürüyər böhran...
Əsir həyacandan ayağım, əlim,
Bəlkə bu təlaşla gəlib əcəlim?
Yox... uca Allahdan ümid üzülməz,
Haqsız olan tərəf sevinib gülməz.
Yetsin dualarım uca dərgaha,
Çünki ümid qalıb adil Allaha...
Xədicə xatuna deyim, deməyim?...
Dərdləşsəm rahatlıq tapar ürəyim.
Çünki mərd qadındır Xədicə Arslan,
Həm də... qardaşıdır xatunun sultan.
Həm də o qadında olan dəyanət,
Mənim də qəlbimə verər cəsarət”.
Beləcə düşünüb Qaim bir qədər,
Xədicə Arslana göndərdi xəbər.
Tezliklə Xədicə gəldi otağa,
Qaim ehtiramla qalxdı ayağa.
Eşitdiklərini gətirib dilə,
Xəlifə danışdı həyacan ilə.
O gözlədiyinin əksinə tamam,
Xatun gülümsünüb söylədi: “Ağam,
Şad xəbər azacıq umulan yerdə,

Çəkmə bədbinliklə qara bir pərdə.
Nə qədər bulunar möhlətdə iblis,
O qədər cəng edər yaxşı ilə pis.
Başa çatmayınca onun möhləti,
Adəm övladının sürər möhnəti.
Namərdlər tələlər qursa da mərdə,
Axırda özləri düşəcək dərdə.
Bədbinlik nədir ki, olsun bizə yük?
Varlıq tanımıram Allahdan böyük.
Tanrının izini olmasa əgər,
Ağacdan bir yarpaq düşərmi məgər?
Haqqı çətinlikdə qoyarmı Allah?
Rəhmi sonsuz olan Allaha pənah...
Kafir toplusuna yenilməz qəti,
Gözəl Məhəmmədin sadiq ümməti.
Yüz kafir ölkəsi qursa da vəhdət,
Müslümlərə Allah verəcək qüdrət.
Allahdır varlıqda vahid iqtidar,
Zalımdan qorxmağın nə mənası var?
Sultan qardaşımdır, canımdan əziz,
Qəlbi saf bulağın suyundan təmiz,
Ancaq haqq uğrunda girsə meydana,
Divlər də yenilər cəsur sultana.
Borcumuz odur ki, dualar edək,
Tanrıdan sultana diləyək kömək.
Onu uca Tanrı hifz edir əgər,
İnşaallah, sultan qazanar zəfər!"
Xəlifə qürurla açdı qəddini,
Aşdı bu sözlərlə qorxu səddini.
Dəyişdi qətiyyət tamam üzünü,
Məchul bir nöqtəyə dikib gözünü,
Dedi: "Xaliq Allah, həmd olsun sənə,
Daha bir həqiqət göründü mənə.
Bu oğuz qövmündə olan cəsarət,

Deyil dəlilikdən doğan əlamət.
Ədalətdən doğan əlamət imiş,
Təkəbbürə qarşı bir nifrət imiş.
Bax budur oğuzu ucaldan daim...”
Nəsə fikirləşib xəlifə Qaim,
Gülümsünüb dedi: “Belədir, bəli,
İmandır hər gözəl işin təməli.
Arslan xatun, sənə heyran oldum mən,
Mənə ümid verdin sözlərinlə sən...
Onu uca Tanrı hifz edir əgər,
İnşaallah, sultan qazanar zəfər!”
Arslan xatun dedi: “Elədir, əmir,
Vəhdət olan yerdə çətinlik nədir?
Sən də öz əmrində olan ordunu,
Göndər, qoy qorusun doğma yurdunu”.
Qaim çaşbaş dedi: “Gec deyil... yəni?
Hə... sən lap yuxudan oyatdın məni...
Yəni... sən deyirsən... onca min nəfər,
Bu böyük savaşda bir xeyir verər?
Ancaq yox... doğrudur, düz buyurursan,
Nə üçün bayaqdan susub durursan?”
Sakitcə söylədi Xədicə Arslan:
“Qoy getsin orduyla ibni Mühelban.
Qoy cahan bilsin ki, Abbasi Qaim,
İslam dünyasında xəlifə, hakim,
Hər zaman düşünür rəiyyətini...
Hamı dərk edəcək saf niyyətini.
Ağıllı insandır ibni Mühelban,
Qoy lap elçi olsun sənin adından.
Əmin olsun aləm növbəti dəfə,
Kimdir yer üzündə vahid xəlifə
İnşaallah, sultan qazansın zəfər,
Çəkilsin adınız birgə, bərabər.
On min əsgərinin azdır qüdrəti,

Ancaq sultan görər səmimiyyəti”.
Qaim dedi: “Bəli, doğrudur tamam,
Sonra kimsə məni etməz ittiham...
Həmd olsun, şükr olsun uca Allaha!
Sənə heyran oldum, xatun, bir daha...”
Tezliklə Qaimdən alaraq fərman,
Yollandı səfərə ibni Mühelban.

## ALP ARSLANLA DİYARBƏKİR VALİSİNİN SÖHBƏTİ

Bizans elçiləri getdi nəhayət,
Sultan bəylər ilə qurdu məşvərət.
Dedi: “Bundan sonra olsa səhvimiz,
İnanın, labüddür tamam məhvimiz.
Çıxıb Həmədandan artıq Sav-Təgin,
Urmiya gölünə çatıbdır yəqin.
Atsız Xarəzmiylə birləşib əgər,
Deməк əmrində var qırx beş min əsgər.
Süleyman bəy ilə Mənsur da yəqin,
Olar əsgərləri iyirmi beş min,
Vanın cənubuna gələrlər gecə,
Gözləyərlər bizi dağda gizlicə.
Bilirsiz, o qədər yaxın deyil yol,
Gəlsin təchizatla arxada bir qol,
Bizsə yubanmadan edək hərəkət,
İndi hər bir şeydən ümdədir sürət...”
Afşin dedi: “Əfv et, şərəfli sultan...
Belə bir olayı bidiyin zaman,
Nə səbəbdən etdik səfər Hələbə?”
Sultan dedi: “Səbəb birdir – qələbə!
Bütün qüvvəmizlə çıxsaydıq çölə,
Dursaydıq rumlular gəlməmiş hələ,
Aylarla gedərdi bəlkə də döyüş...
Çox şeyi həll edər bu qəfil görüş.
İnşaallah! Bəylər, qalxın yəhərə,
Qoy Tanrı yönəltsin bizi zəfərə!”
Ordu çox sürətlə etdi hərəkət...
Üç yerdə dincəlib qısa bir müddət,
Nəhayət çatdılar Diyarbəkirə,

Xəbər göndərdilər yerli əmirə.
Vali Nizamüddin[228] gələnə qədər,
Zülmətə qərq oldu bütün həndəvər.
Ocaqlar qalandı bir neçə yerdə,
Əhali də qorxdu Diyarbəkirdə.
Nəhayət ki, vali gəldi şəhərdən,
Şəhər kənarında endi yəhərdən.
Yeyin addımlarla irəli gedib,
Sultanın önündə o təzim edib,
Ədəb-ərkan ilə verərək salam,
Dedi: "Qurban olum, bağışla ağam,
Bir qədər gecikdim, bir az səngidim,
Hədiyyə... yığırdım deyə ləngidim..."
Yorğun-yorğun gülüb söylədi sultan:
"Mənə lazım deyil heç bir ərmağan.
Kimdən nə almısan özünə qaytar,
Mənim səndən yalnız bir tələbim var.
Hədiyyələrinlə tez qayıt geri,
Gedəcək səninlə dörd min süvari.
Qoy şəhərdə sənə etsinlər kömək,
Göndər ordu üçün təcili yemək".
Vali dedi: "Bəli, baş üstdə ağam!
Ancaq... əfv et məni soruşacağam...
Ətraf qaranlıqdır, görməyir gözüm,
Bir şey də dərk edə bilmirəm özüm.
Ağam, sən dördcə min süvari ilə,
Edirsən üç yüz min kafirə həmlə?!
Üç gündür danışır bütün əyalət,
Deyirlər – qopacaq böyük qiyamət!
Sən isə deyirsən... Cəmisi dörd min?"
Bu yerdə qımışıb söylədi Afşin:
"O zaman ordunu qaldır ayağa,
Özün də əmirtək buyur qabağa.
Kafirlərə qarşı öndə gedərsən,

Möminlərə layiq cihad edərsən”.
Vali tez söylədi: “Yox, sənə qurban!
Xəstəyəm, qalmayıb məndə daha can...”
Sultan dedi: “Kişi, bilməm bu nədir?!
Unutdunmu necə olmusan əmir?![229]
Bu boyda müsəlman xalqın içindən,
Hansı məziyyətlə seçilmisən sən?
Belə bir insanı qoyaraq əmir,
Çox böyük səhv edib deyəsən vəzir!
Əmələ gəlməzdi heç belə bir iş,
Vəzir etməsəydi yüz dəfə xahiş.
Hələ göz yumuram bu böyük səhvə...
Nədir bəs cihada verdiyin töhfə?”
Azlıqla olsa da edin ittihad[230],
Hər müsəlman üçün vacibdir cihad”.
Vali tez yalvardı: “Ey böyük sultan,
Məni də sövq edir vəhdətə iman.
Möhlət ver, göstərim sədaqətimi,
Taxtıma, tacıma ləyaqətimi.
Bu andan edərəm mən də intibah[231],
On minlik bir ordu yığaram sabah.
Beş min piyadadır, beş min süvari...
Ağam, icazə ver, qayıdım geri”.
Sultan dedi: “Tez get, burda dayanma,
Ərzaqı topla ver, daha yubanma.
Qoşun barəsində tələsmə hədər,
Vaxtın vardır sabah axşama qədər.
Keçəcək buradan bizim təchizat,
Sən o dəstə ilə əlaqə yarat.
Durmayın yolunun üstündə səfil,
Bu görüş savaşa dönməsin qəfil.
Qoşunu hazırla, eylə səfərbər,
Bizim təchizatla gəlsin bərabər.
Ancaq... sən özün də bilirsən yəqin,

Nə qədər gülüncdür sənin əməlin.
Üç yüz min qoşunla yürümüş kafir,
On min əsgər verir bu Diyarbəkir.
Beş min atlı, beş min piyada dəstə,
Ordusu bir ovuc, əmiri xəstə,
Özü də deyəsən edir intibah...
Nizamülmülkdədir nə varsa günah!”

## *XII HİSSƏ*

# İSLAM ORDUSUNUN MÜKƏMMƏL QƏLƏBƏSİ

### AHLAT YAXINLIĞINDA GƏNƏŞMƏ

Gəldi Sav-Təginlə ibni Mühelban,
Böyük bir gənəşmə çağırdı sultan.
Çadırda Alp Arslan taxtda oturmuş,
Bəylər, sərkərdələr önündə durmuş.
Türkcə bilməyirdi ibni Mühelban,
Ərəbcə söylədi ona Alp Arslan:
"Sən özün bilirdin getməzdən əvvəl,
Yoxdur danışığa bir yönlü təməl.
Elçi gedən zaman sən və Sav-Təgin,
Xoş bir nəticə də ummurduz yəqin.
Sülh haqda danışmaq yersizdir, ancaq,
Bu elçilikdə var başqa bir maraq.
Zənnimcə sənə də bəllidir eyham...
Danış başdan-başa hər şeyi tamam".
Dərin köks ötürüb ibni Mühelban,
Dedi: "Rum şahıyla görüşən zaman,
Necə tapşırmışdın mənə əzəldən,
Dedim, xəlifənin elçisiyəm mən.
Rum şahı o dəmdə sözümü kəsdi,
Danışdıqca coşdu, qəzəbdən əsdi.
Dini, xəlifəni, sultanı bir-bir,
Ədəbsiz-ədəbsiz eylədi təhqir..."
Alp Arslan söylədi: "Bu qədər yetər".
Sonra Sav-Təginə yetirdi nəzər.
Sav-Təgin söylədi: "Şərəfli sultan,
Düşmən ordusunda biri var – Tarxan,

Böyük sərkərdədir, türkdür, oğuzdur,
Səhv eyləmirəmsə tayfası “uz”dur.
“Tarkanus” çağırdı onu bir yunan,
Bildim ki, bu odur, sən deyən “Tarxan”.
Keçərkən elə ki, yaxına çatdım,
Ona bir söyüşlü atmaca atdım.
Verilibdir ona böyük ixtiyar,
Ən azı qırx beş min süvarisi var.
Çünki ordugaha yetirib nəzər,
Bizim çadırlara tamamən bənzər,
Çadırları gördüm, beş minə qədər,
Vaxt da sərf etmədim saymağa hədər.
Öyrəncəli baxış etdi kifayət,
Sanamaq vaxt alar, çoxdur əlamət.
Soldadır çadırlar o ordugahda,
Səfdə duracaqlar həmən cinahda”.
Alp Arslan gülərək dedi: “Afərin!
Söyüş də bilərmiş igid Sav-Təgin...”
Sav-Təgin söylədi: “Atmaca atdım...
Bəlkə də yuxudan onu oyatdım.
Çünki eşidərkən həmən sözləri,
Elə bərəldi ki, onun gözləri,
Düşündüm çıxacaq hədəqəsindən...”
Sultan ciddiləşdi... lakin səsindən,
Hiss olunurdu ki, xoşdur əhvalı,
Dedi: “Qoy kənara hər ehtimalı.
Onlarla əlaqə qurulsun gərək.
Bu barədə sonra... Bəs indi görək,
Hansı durumdadır qarşı qüvvələr?
Məruzə eyləyin, danışın bəylər!”
Süleyman bəy dedi: “Şərəfli sultan,
Səni hifz eyləsin uca Yaradan!
Sənin əmrin ilə toplandıq elə,
Keçsək də bir neçə çətin mərhələ,

Bizim sayımızdan nəinki düşmən,
Hətta ən sonacan xəbərsizdim mən.
Yüz qırx beş min nəfər əsgərimiz var,
Rumlular da bundan deyil xəbərdar.
Çöldə ki, düzmüşük cəmi əlli min,
Bizi bu sayda da sanırlar yəqin.
Başqa cür düşünən olarmı məgər?
Aləmi çaşdırdı Hələbə səfər!"
Artuk bəy söylədi: "Doğrudur. Ancaq,
Düşmənin sayını olmaz unudmaq.
Bir dağa çıxmasan görünməz yəni,
Düşmən ordusunun uzunu, eni.
Üç yüz min əsgərdir, həm də müxtlif,
Yunanlar, firənglər... Etmirəm tərif,
Demirəm ki, olsun kimsədə təlaş...
Ancaq ağır savaş olacaq savaş".
Alp Arslan söylədi: "Bilir hər əsgər,
Nə qədər lazımdır bizə bu zəfər.
Tale savaşıdır böyükdən böyük,
Haqlıdır, cəsurdur, yenilməzdir Türk!
Meydana çıxacaq küfrlə İslam,
Bəylər, müqəddəsdir bu uca məqam!
Seçmişdir bizi bu savaşa layiq,
Bizi hifz eyləsin tanrımız Xaliq!"

## DİOGENİN NİYYƏTİ

Şirin xəyallara açaraq meydan,
Göylərdə gəzirdi Diogen Roman.
Yığıb alaçığa sərkərdələri,
Şövq ilə danışır bayaqdan bəri:
“And olsun ki, cəmi bir həmlə yetər,
Bununla da bütün intizar bitər.
Artıq Alp Arslanın yetişib sonu,
Əcəl Malazgirdə çəkibdir onu.
Cəmisi əlli min süvari ilə,
O türk özü gəlmiş bu son mənzilə.
Van sahillərində düşərgə qurmuş,
Başqa bir çarəsi yox deyə durmuş.
Bilir ki, geriyə çəkilsə əgər,
Onu qovacağıq ölənə qədər.
Elçi də göndərib diləyir aman,
Sülhsevər olubmuş bu əfi ilan.
Mən də hiyləgərin burnunu ovdum,
Gələn elçiləri it kimi qovdum”.
Alyattes söylədi: “Şanlı hökmdar,
Məncə Alp Arslanın bir tədbiri var.
Sözsüz ki, dərk edir vəziyyətini,
İndi işə salıb siyasətini.
Çıxmayıbsa ağlı başından əgər,
Verməz ordusunu qırğına hədər.
Bilir ki, xeyrinə deyil bu meydan,
İstəyir bu yolla qazansın zaman.
Bu səbəbdən elçi göndərib sənə,
Zənnimcə elçilər gələcək yenə”.
Dukas dedi: “Amma qəribədir çox,
Bu gələn elçinin bir güzəşti yox!
Həqiqətən sultan qorxursa əgər,
Nəsə bir güzəştə getməzdi məgər?

Anlamıram, necə qorxağın biri,
Hətta Malazgirddən çəkilmir geri?"
Hamı susub baxdı Dukasa bir an...
Sonra Bryennius dedi: "Bir dayan,
Sabah da elçilər gələcək yenə,
Onda güzəştləri deyərəm sənə.
Üçlüyə and olsun, yalvaracaqlar,
Baş əyib, diz çöküb ağlayacaqlar!
Sən, Dukas, eyləmə zərrəcə təşviş,
Ahlat, Malazgirdlə bitməyəcək iş".
Diogen qürurla dedi: "Doğrudur!
Sülh istəyirlərsə şərtlərim budur:
Düz Fars körfəzindən Dərbəndə kimi,
Bütün qərbin olum vahid hakimi.
Şirvan, Albaniya və Azərbaycan,
Şərtsiz olmalıdır mənə ərmağan.
Göz dikməsin sultan Ərəbistana,
Qoy çəkilsin getsin şərqi İrana!
Əgər bu şərtlərim olunsa təmin,
Sülh də bağlayaram onlarla yəqin.
Bunun özü insaf deyilmi məgər?!
Bu yaxşılığı dərk etməsə əgər,
Mənə müqavimət göstərsə sultan,
And olsun, sel kimi axacaqdır qan.
And olsun, soyunu kəsərəm tamam,
Səmalar da etməz məni ittiham!
Lakin bu da deyil ən son niyyətim,
Nəticədə islam qalacaq yetim!"
Bryennius dedi: "Var ol, hökmdar!
Sənsən yer üzündə vahid iqtidar!
Hər kim ki, baş əyməz xaçın önündə,
Özü günahkardır öz ölümündə!"
Diogen söylədi: "Sultandan əgər,
Sabah axşamacan gəlməsə xəbər,

Daha gözləməyə yoxdursa lüzum,
Birisi gün səhər eyləyək hücum.
Zirehli piyada əsgərlərə mən,
Rəhbərlik edərəm döyüşdə şəxsən.
Sol cinahda duran süvari qoşun,
Əmrində olacaq Bryenniusun.
Digər atlı qoşun Alyattes ilə,
Sağ tərəfdən edər düşmənə həmlə.
Ehtiyat qoşunu – otuz min nəfər,
Arxada duracaq bizdən bir qədər.
Onların başçısı olacaq Dukas...
Tərəddüd eyləmə, Dukas, qulaq as!
Bu qoşunda çoxlu zadəganlar var,
Savaşda qazanıb onlar etibar.
Çox təcrübəlidir əksəriyyəti,
Sən də unutma bu xüsusiyyəti.
Çətində onlarla eylə məsləhət...
Əslində görmürəm buna zərurət.
Çətinliyin olmaz bir zərrə qədər,
İlk böyük zəfərin olar bu zəfər.
Sultan yaxşı bilir vəziyyətini,
Görüb ordumuzun tam qüdrətini,
Hərdən çəkiləcək arxaya yavaş,
Çox çalışacaq ki, uzansın savaş.
Yəqin düşünür ki, o vaxta qədər,
Çatar imdadına bəlkə bir nəfər.
Ancaq özündə də yoxdur bu inam,
Çünki hər kəs onu edir ittiham.
Təkidiylə endi taxtdan qardaşı,
Kutalmışla oldu qanlı savaşı.
Ondan üz döndərib qohum-əqraba,
Çünki düçar edib xalqı əzaba.
Çətin ki, yetişsin ona bir kömək,
Əlacsız qalıbdır qarşımda demək”.

Alyattes söylədi: “Bilmirəm, ancaq,
Elə dərin deyil zənnimcə nifaq.
Deyirlər Kutalmış oğlu Süleyman,
Bu Alp Arslan ilə dostdur mehriban.
Həm də xəlifənin qaynıdır əgər,
Kömək çağırmağa olmaz müyəssər?”
Diogen söylədi: “Yalan söhbətdir,
Əsassız şayədir, boş bir qeybətdir.
Həm də xəlifənin olsa qüdrəti,
Verməzdi sultana bu şərafəti,
Şəxsən buyurardı din savaşına.
Yox... bu sultan qalıb başlı-başına!”

## UZ SÜVARİLƏRİNİN DÜŞƏRGƏSİNDƏ

Bir vaxt şimal-qərbə doğru tutub yol,
Ayrılıb getmişdi “uz” adlı bir qol.
Altı yüz min nəfər olardı sayı...
Bu möhtəşəm elat keçib Dunayı,
Bütün Avropanı lərzəyə saldı,
Şimaldan Bizansın üstünü aldı.
Zəfərlər qazandı, yağmalar etdi...
Sonra da ən ağır çağları yetdi.
Zəif idi deyə bu eldə vəhdət,
Tezliklə başına gəldi fəlakət.
Bəlaya çevrildi qəfil soyuqlar,
Dözmədi qocalar, xırda cocuqlar.
Sonra da yayıldı ağır xəstəlik,
Aramsız savaşlar oldu üstəlik.
Axırda qüvvədən düşdü oğuzlar.
Parça-parça olub bölündü uzlar.
Uzların bir qismi[232] Bizansa gəldi,
Hərbi xidmət ilə adı yüksəldi.
Malazgirdə yürüş edəndə Roman,
Onun sərkərdəsi uz oğlu Tarxan,
Türk süvarisinə seçildi rəhbər,
Olardı sayları qırx beş min nəfər,
On beş min peçeneq, otuz min uzlar.
Bizans ordusunda olan oğuzlar,
Yadırğamışdılar az qala dili,
Əvəz eylədikcə nəsil nəsili.
Öz şücaətiylə, olsa da cavan,
Ad-san qazanmışdı uz oğlu Tarxan.
Gecədir... Sakitdir Rum düşərgəsi,
Hərdən eşidilir atların səsi.
Öz alaçığında sərkərdə Tarxan,

Məşvərət eylədi uzun bir zaman.
Oturmuş alaçıq içrə dörd nəfər,
Həyacanlıdırlar onlar bir qədər.
Sakit görünsə də gizli yığıncaq,
Bir təlatüm vardır daxildə ancaq.
Sərkərdə Tarxan bəy dedi: "Nəhayət,
Bu gün açıqlandı tamam həqiqət.
Düzünü deyim ki, uzun bir zaman,
Şübhələr qəlbimə vermirdi aman.
Bizans ordusunun tərkibində biz,
Ad-san qazanmışıq, bəylər, şübhəsiz,
At çapıb, ox atıb, qılınc vurmuşuq...
İndi səlcuqlara qarşı durmuşuq.
Səlcuqlar barədə, hələ gəncikən,
Bir dəfə babamdan soruşmuşam mən.
O da düşünmədən demişdi belə:
"Biz eyni kökdənik səlcuqlar ilə.
Səlcuqlu, peçeneq, həm də bizim uz,
Qədimdən bir adla adlanıb – oğuz".
Çox təəccübləndim o zaman, düzü,
Ancaq unutmadım deyilən sözü.
İndi, bəylər, budur, yetişib sınaq,
Döyüş də qınaqdır, qaçmaq da qınaq".
Soruşdu bəylərdən biri: "Lap elə,
Dilləri eynidir bizim dil ilə?"
Tarxan bəy söylədi: "Olmasın şübhən.
Lap yaxından gördüm elçiləri mən.
Biri ərəb idi, söyləyim sizə,
Üçü bənzəyirdi büsbütün bizə.
Dilləri də eyni, geyimləri də,
Hətta acı-acı deyimləri də!"
Burada gülərək danışdı Tarxan:
"Elçilər yanımdan ötüb keçən an,
Biri digərinə göstərib məni,

Dedi: "Bir buna baq, it sütəməni![233]
Oquz tonu geymiş, oqları da var.[234]
Bənzərlük eyləyir əslisi mırdar.[235]
Ərligi, bəgligi dəgməz bir qıla,[236]
Urasan ki, çıqsun gözündən cıla!"[237]
And olsun, quruyub qaldım bir zaman,
Yaxşı ki, olmadı kənardan baxan..."
Bəylər için-için güldülər yavaş,
Bir-birinə baxıb buladılar baş.
Sonra da çadıra çökdü sükunət,
Yenə Tarxan bəyə yönəldi diqqət.
O, söylədi: "Bəylər, ömrümdə hələ,
Duymamışdım ağır duyğular belə.
Fikirləşin bəylər... ancaq mən özüm,
Qərara gəlmişəm, qətidir sözüm.
Səlcuqlular bizə deyillər düşmən,
Öz qövmümə qarşı vuruşmaram mən!"
Söylədi bəylərdən biri: "A Tarxan,
Deyirlər zalımdır sultan Alp Arslan.
Biz onlara tərəf keçərik tamam...
Ancaq olacaqmı bizlərə inam?
Sonra da Rumdakı arvad-uşağı,
Rəzil eyləməzmi düşmən qınağı?
Qorxuram, elatı atıb gedərik,
Onları ölümə düçar edərik..."
Tarxan dedi: "Əsla düşmə təşvişə,
Çarə var, əlac var hər çətin işə.
Biz səlcuqlar ilə birləşsək əgər,
Çıxarıq döyüşdən mütləq müzəffər.
Qalib tərəf kimi şərt kəsən zaman,
Şərtinə bir şərt də artırar sultan,
Toxunulmaz olar və sağ-salamat,
Gələr yanımıza o doğma elat".
Bəylər bu sözlərlə oldular razı,

Tarxan da söylədi: “Həm də ən azı,
Qəbul etməsələr hərbi xidmətə,
Axır qovuşarıq doğma millətə.
Ancaq olun mənim sözümdən əmin,
Kənarda qalmağa yoxdur bir zəmin.
Çətini bir dəfə edib imtahan,
Götürəcək bizi xidmətə sultan!”

## ZƏFƏRİN TƏMƏLİ VƏHDƏTDİR

Ordugahda durub Roman Diogen,
Düşünür: "Düzənlik çox uzun və gen,
Yalnız türk ordusu dayanan yerdə,
Bir qədər arxada, o həndəvərdə,
Dağlar var... Sözsüz ki, başlasa döyüş,
Yoxdur onlar üçün arxaya dönüş.
Dönsələr, pozarlar nizamı tamam,
Əlverişli olar bizə bu məqam.
Amma yox, buraxmaz belə bir nöqsan,
O qədər yelbeyin olmaz ki sultan...
Türkləri hücuma sövq edər bu da,
Çünki düzən sahə yoxdur arxada.
Bu dəfə yalandan qaçmazlar geri,
O fənd üçün deyil bu savaş yeri.
Mövqe savaşına dursalar əgər,
Mütləq edər məni tale bəxtəvər.
Rahat, şərafətli, böyük qələbə...
Xəbər tez yayılar şimala, qərbə,
Roman Diogeni tanıyar cahan!
Kəsməsəydi indi qarşımı sultan,
Əngəlsiz olardı dörd yana yolum,
Artıq bütün aləm olardı qulum!
Üç yüz minlik ordu! Bu vaxta qədər,
Təkcə Diogenə olub müyəssər,
Belə ordu yığmaq, belə bir qüdrət!
Kim etməz qorxudan mənə itaət?!"
Elə şirin idi bu arzu, xəyal,
Bilmədi nə üçün düşüb qalmaqal.
"Türklər düzülürlər!" qışqırdı kimsə,
Diogen xəyaldan oyandı səsə.
Əmrlər verdikcə olundu təkrar,

Bütün bölmələrə göndərdi çapar.
Təbillər, şeypurlar çaldı "düzülüş",
Hamı düşündü ki, başlayır döyüş.
Sanki baxışmağı bilib kifayət,
Ordular üz-üzə durdu bir müddət.
Birdən... çaşıb qaldı Diogen Roman,
Sıranın önünə çıxaraq Tarxan,
Titrək və gur səslə əmr etdi: "Hücum!"
Heç bir izaha da qalmadı lüzum.
Sanki tamamilə hissiz, duyğusuz,
Bir anda qırx beş min süvari oğuz,
Yavaş etsələr də əvvəl hərəkət,
Anbaan çoxaldı, yüksəldi sürət.
Alp Arslan baxaraq bu hadisəyə,
Göstərişlər verdi Süleyman bəyə:
"Süleyman bəy, tez ol, bir qədər tələs,
Gələn süvarinin qarşısını kəs.
Ancaq vurmağa da tələsmə hələ,
Çünki... bu uzlardır edirlər həmlə.
Kim bilir?... bəlkə də... Allaha pənah!
Hər şeyə qadirdir yaradan Allah!"
Otuz min atlıyla getdi Süleyman,
Bir anda gərildi otuz min kaman.
Ox məsafəsinə çatanda Tarxan,
Durdu... əmr eylədi qoşuna "Dayan!"
Başının üstünə qalxdı sağ əli,
Atını çaparaq getdi irəli.
Gəlib Süleymanla durdu üz-üzə,
Dedi: "Sıranızda yer verin bizə!"
Cəld atı çaparaq dördnala sultan,
Gəlib Sülemanla durdu yanbayan.
Soruşdu: "Sən kimsən?!" O dedi: "Tarxan!
Mən səni tanıdım, sultan Alp Arslan!
Qəbul eylə bizi hərbi xidmətə,

Layiqdir oğuzlar bu şərafətə.
Bütün əsgərlərim türkdür, oğuzdur,
Mən də türk oğluyam, tayfam da uzdur".
Alp Arslan söylədi: "Afərin Tarxan!
Afərin, qeyrətli, vəfalı insan!
Hərbi xidmətə də layiqlisən sən,
Ancaq... qaydaları yaxşı bilirsən..."
Tarxan dedi: "Bəli, bilirəm sultan,
Bilirəm, olacaq sınaq, imtahan...
Sultan, əminəm ki, olmarıq xəcil.
İndi verməliyik silahı təhvil"....
Haqqı hifz eyləyir tanrımız Allah!
Az sonra canlandı bütün ordugah,
Uzlar, peçeneqlər sanki bir anda,
Bir cənnət guşəsi tapdı cahanda.
O qədər doğmadır burda hər insan,
Hər biri gülərüz, sadə, mehriban,
Bir şey də gəlməyir gözə əcaib,
Kimsə hiss etmədi özünü qərib.
Gələnlər qədər də sevindi ordu,
Yox idi sevincin həddi, hüdudu.
Qəfildən gəlmişdi minlərlə soydaş,
Belə bir məqamda, arxa, silahdaş.
Gəzir, qucaqlaşır minlərlə adam,
Bəli, bayram idi, möhtəşəm bayram.
Sonra Sav-Təginlə görüşdü Tarxan,
Heç danışmağa da verməyib aman,
Qucaqlayıb onu dedi: "Qardaşım,
Keçsə də tərbiyə olunmaq yaşım,
Vaxtında, yerində verdin nəsihət!"
Bəylər gülüşdülər, uzandı söhbət.
Alp Arslan qılarkən namaz çadırda,
Açıb əllərini göyə axırda,
Söylədi: "Həmd olsun Sənə ya Rəbbim,

Eşitdin səsimi, duamı mənim!
Ya Rəbbim, ya Allah, ya uca Rəhman,
Sənsən çətinləri eyləyən asan.
Məhəmməd ümməti bu gün dardadır,
Cümlə müsəlmanlar intizardadır.
Ya Rəbbim! Könlüm də məlumdur Sənə,
Ölsəm də qalsam da şərəfdir mənə.
Böyükdür boynumda məsuliyyətim,
İslam zəfəridir bircə niyyətim!”

## MALAZGİRD SAVAŞINDA İLK QARŞIDURMALAR

Oyandı oğuzlar. Yetişdi zaman,
Sübh namazı üçün verildi azan.
Ordunun bir qismi durdu keşikdə,
Digər qismi qıldı namaz eşikdə.
Sonra ordugahda dəyişdi yerlər,
Qıldı namazını qalan əsgərlər.
Doxsan beş min əsgər çıxdı bozqıra[238],
Bir anda düzüldü yüzlərlə sıra.
Ordunun önünə çıxdı Alp Arslan,
Ağ atı meydanda eylədi cövlan.
Şəhid geyimindən sanki iqtibas,
Ağ idi əynində büsbütün libas.
Alp Arslan gur səslə dedi: “Qardaşlar,
Bu andan başlayan böyük savaşlar,
Vətən uğrundadır, din uğrundadır,
Böyük məsuliyyət elə bundadır.
Nə qədər dünyada varsa müsəlman,
Qəlbi bizimlədir, qalıb nigaran.
Nələr olmalıdır bu xalqa qismət,
Zəfər sevinci ya böyük fəlakət?
Bu suala bu gün, elə bu anda,
Cavab verməliyik qanlı meydanda!
Məhv edilməlidir bu dinsiz ordu,
Sevinməməlidir kafirin yurdu!
Müsəlman qardaşım, şanlı mücahid,
Bu amal uğrunda olsaq da şəhid,
Ordumuz olacaq sonda müzəffər,
İgidlər! İrəli! Allahu əkbər!”
Bir anda heyəti yüz minə yaxın,
Möhtəşəm bir ordu edərək axın,
Düşmənin üstünə etdi hərəkət...

Diogen uzaqdan yetirib diqqət,
Gülümsəyib dedi: “Tələsir yaman,
Ölümünə doğru yürüyür sultan!”
Ucadan “Hazır ol!” deyə əmr etdi,
Qərargaha doğru çaparaq getdi.
Türklər dayandılar. Doxsan beş min yay,
Sanki gərilməklə qopardı haray,
Ağır bir xışıltı, vahiməli səs...
Ölüm qorxusuyla qısıldı nəfəs,
Ön sıralardakı rumlular bu an,
Başları üstünə qaldırıb qalxan,
Durdular... Ox atdı türklər dalbadal.
Yenə də doğurdu heyrət bu ikmal,
Çox uzağı vuran bu oğuz yayı,
Dalbadal atılan oxların sayı.
Çökdü rumluların ön cərgələri,
Tez qarışdı işə sərkərdələri,
Alyattes bağırdı: “İrəli! Hücum!”
İzah etməyə də heç yoxdur lüzum,
Rumlular getdilər necə nifrətlə,
Cumdular irəli necə sürətlə?
Səlcuqlu ordusu dəyişdi yeri,
Sürətlə, bir qədər çaparaq geri,
Yenə də nizamla düzülüb səfə,
Yenə ox atdılar düşmən tərəfə.
Dörd-beş dəfə təkrar olundu bu hal,
Rumlu ordusunda pozuldu əhval.
Yerində boğulur hücum hər dəfə,
Nə hücum alınır nə müdafiə.
Hər dəfə qırıldı minlərlə adam,
Rumlular əlacsız qaldılar tamam.
Bu hal Diogenin səbrini kəsdi,
Atını meydana sürdü, tələsdi.
Dərk etdiyi kimi haqqı çağırdı,

Ordunun önündə durub bağırdı:
“Artıq hər bir kəsin səbri tükəndi,
Qırır bizi aşkar türklərin fəndi.
Daha ön cərgələr yıxılan zaman,
Durmasın kimlər ki gəlir arxadan.
Qoy tapdaq altında qalsın yaralı,
Deməк belə imiş onun iqbalı.
İnadlı, israrlı təqiblə əgər,
Qovsaq biz türkləri axıra qədər,
Ya təslim olarlar şərtsiz-filansız,
Ya da qırırlarlar burda amansız!”

## DÖYÜŞƏ TÜRK OĞLU ALP ARSLAN GEDİR

Döyüşə Türk oğlu Alp Arslan gedir,
Tanrının seçdiyi müsəlman gedir.
Yenilməz "Məhəmməd" adlı müzəffər,
Uca Dərgahdan var üstündə nəzər.
Peyğəmbər sevgisi, adına hörmət,
Verir Alp Arslan yenilməz qüdrət.
Haqqı qorumaqdır onun niyyəti,
Ruhuna hökm edir Əli[239] qeyrəti.
Qılıncı bərq vurur Zülfüqar[240] kimi,
Savaş meydanının odur hakimi.
Yetmiş yardımına onun mələklər,
Atına qol-qanad verib küləklər.
Bilir o cəngavər – dardadır İslam,
Bəllidir özünə tutduğu məqam.
Göy də, yer də deyir dil açıb sanki:
"Ey ulu Türk oğlu, möhkəm dayan ki,
İslam dünyasının səndədir gözü,
Sənsən Haqdan gələn yardımın özü!
Haqqa səcdə edən türk oğlu türksən,
Sən bu şərafətlə daim böyüksən!
Haqq olan Allahın haqq hesabı var!
Çox böyük orduyla gələn zülmkar,
Çökəcəkdir dizə sənin önündə,
Olacaqdır xəcil savaş çölündə.
Vur, vur, təkbir deyən dilinə qurban,
Haqq uğrunda vuran əlinə qurban!
Sənə qüdrət vermiş o uca Qadir,
İmanına xatir, dininə xatir!"

## MÜKƏMMƏL ZƏFƏR

Rumun ən qüdrətli imperatoru,
Ən şanlı, hörmətli imperatoru,
Sultanın önündə əlacsız qaldı,
Təkəbbürü onu bəlaya saldı.
Sonsuz nifrət ilə qana susadı,
Təqibə başladı uzun-uzadı.
Say üstünlüyünü sanaraq əsas,
Həm də qaçhaqaçdan alıb ehtiras,
"Az qalıb, çatırıq!" deyə aldandı,
Nə arxaya baxdı, nə də dayandı.
Təqibdən yorulub elə əvvəldən,
Piyada qoşunu düşərək əldən,
Tezliklə nizamı pozdular tamam,
Hətta durdu çöldə minlərlə adam.
Dözməyib təqibin bu sürətinə,
Zirehli süvari düşdü çətinə.
Ağırlıq eylәd zireh-sursatlar,
Adda-budda çökdü torpağa atlar.
Roman Diogen də durdu nəhayət,
Qalmadı qəzəbdən onda əlamət.
Yüngül süvarilər ötəndə onu,
Bildi ki, yetişib təqibin sonu.
Onun da kəsildi tamam nəfəsi,
Əmr verməyə də çıxmadı səsi.
Alp Arslan təpəni aşaraq getdi,
Bütün ordusuyla nəzərdən itdi.
Sonra... sonra qopdu böyük fəlakət,
İmperator etdi özünə nifrət...
Təpənin üstündən gəlirdi bəri,
Bayaqkılar qədər səlcuq əsgəri.
Məlum eylədi bir ötəri nəzər,
Əsla yorğun deyil bu süvarilər.

Demək, pusqu varmış, özü də müdhiş...
Duyub imperator içində təşviş,
Sağa, sola baxdı, arxaya baxdı...
Gözündən bir gilə acı yaş axdı.
Ordunun önündə gəlir Süleyman,
Açılır aypara... Vermədən aman,
Böyük bir sürətlə cumur meydana,
Keçdiyi hər yeri bürüyür qana.
Necə vuruşsa da rumlular çılğın,
Artıq başlamışdı möhtəşəm qırğın.
Sonra doxsan beş min süvari ilə,
Alp Arslan cinahdan edərək həmlə,
Düşmənin yolunu bağladı tamam,
Qırğın axşamadək eylədi davam.
Roman Diogeni atdan saldılar,
O imperatoru əsir aldılar.

## ALP ARSLAN
## ƏSİR EDİLMİŞ İMPERATORU
## AZAD BURAXDI

Nə qədər çıxsa da səsi yanıqlı,
Nə qədər olsa da nitqi acıqlı,
Diogenin fikri sona gəlincə,
Tərcüman o qədər danışır incə.
Bir az gülümsünüb dedi Alp Arslan:
"İnsaflı müsəlman... Söylə tərcüman,
Sən də acıyırsan onun halına,
Heyfislənirsənmi bu əhvalına?"
Tərcüman danışdı sıxıntı ilə:
"Bilmirəm... mən özüm qalmışam belə..."
Sultan dedi: "Kişi, sən söylə ona,
İlkin əzabları çatıbdır sona".
Tərcüman dilini tez işə saldı,
Diogen eşidib məəttəl qaldı.
Dedi: "Bu idisə sənin niyyətin,
Kimə lazım idi əzəl diqqətin?
Yenicə sağaltmış təbiblər məni,
Hər gün də bolluca öyərək səni,
Danışıblar sənin ədalətindən,
Böyük insafından və mürvətindən.
Doğrudur, mənəvi yaralar qalmış,
Yaralı çiynimsə tamam sağalmış.
Əgər verəcəksən mənə əziyyət,
Nə idi öncəki bu hörmət, izzət?"
Sultan dedi: "O vaxt gördüyüm yuxu,
Oyatmışdı məndə müəmma, qorxu.
Ancaq səni əsir etdiyim o gün,
Açıldı kələfin üstündən düyün.
Təəccüblü gəlməz sənə böylə iş,
İmperator dönüb olarsa keşiş?"

Xeyli fikirləşib söylədi Roman:
“Deməк verəcəksən sən mənə aman?”
Sultan gülüb dedi: “Suala sual!
O zaman sən söylə, cavabını al.
Nə cəza verərəm fikrincə sənə?”
Diogen bir qədər düşünüb yenə,
Dedi: “Sənə əsir düşdüyüm o gün,
Çox heyfisləndim sağ qaldığım üçün.
Sanırdım... deyirəm fikrimi aşkar,
Cahanda kimsə yox türk kimi qəddar.
Ancaq gündən günə fikrim dəyişdi,
Bu mənim ağlıma heç gəlməmişdi...
Gördüm insanlığı, mədəniyyəti,
Əsirlərə qarşı münasibəti.
İlk günlər mən bunu təsadüf sandım...
Adət olduğuna sonra inandım.
Sən demə islamda var belə qanun,
“Əsirlərə qarşı insaflı olun!”
Bilirəm, sən çoxlu namaz qılırsan,
Müqəddəs Kitabdan öyüd alırsan,
İmanlı nökərsən uca Allaha,
Məndə də təcavüz qalmayıb daha...”
Alp Arslan söylədi: “Yerində və düz!
Sevilməz islamda bu söz – təcavüz!
Ancaq gərək fidyə[241] verəsən mənə,
Çünki mən verirəm azadlıq sənə!
Bir sual da verim, güc vur başına,
Sən inanırsanmı Din Savaşına?”
Diogen söylədi: “Bilirsən yəqin,
Elə bir dindir ki, inandığım din,
Verir insanlara öyüd, nəsihət,
Yasaqdır təcavüz, nifrət, həqarət.
Elə İslamda da, bildiyim qədər,
Gərəkdir ki, mömin olsun sülhsevər”.

Alp Arslan söylədi: “Doğrudur, bəli.
Bəs nədir bu böyük şərin təməli?”
Diogen söylədi: “Deyiləm əmin,
İnsan xislətidir səbəbkar yəqin.
Tutalım, dünyada yoxdur din, iman,
Məgər təcavüzdən əl çəkər insan?!”
Alp Arslan söylədi: “Əlbəttə ki, yox!
Qan-qadalar olar dəfələrlə çox.
Varsa ürəyində zərrəcə inam,
Çəkinər Allahdan ən qəddar adam.
Sülhə səsləyirsə əgər insanı,
Yoxdur insanlara dinin ziyanı.
Din nökər olmasa kor siyasətə,
Salmaz insanları bir əziyyətə!
Allah sevgisinə olarsa mənzil,
O könül insanı etməz əzazil.
Soxulmasa dinə çirkin siyasət,
Olmaz yer üzündə bunca rəzalət!
Yaradıb, şişirdib təriqətləri,
Haqq yoldan sapdırıb ibadətləri,
İnsan öz başına açır fəlakət,
Allah kəlamından almayır ibrət.
Sən, mən – inanırıq vahid Allaha,
Bundan gözəl vəhdət olarmı daha?!
Buraxsa şeytanlar Haqq Dini azad,
Bəlkə də yox olar bu fitnə-fəsad!”
Diogen söylədi: “İgid Alp Arslan,
Kəskin olmasaydı bu qədər dövran,
Yəqin ki, səninlə dost olardıq biz,
Böyük bir insansan, ürəyi təmiz!”
Bəli, bu sözlərlə söhbət də bitdi...
Azad buraxıldı, Diogen getdi,
Sultanın verdiyi on beş min əsgər,
Yola saldı onu Toqata[242] qədər[*].

Necə ki, yuxuda görmüşdü sultan,
Keşişə çevrildi Diogen Roman.
Qoca arvadı da atmışdı onu,
Aldığı kimi də satmışdı onu.
Taxtda əyləşmişdi başqa bir adam,
Bizans Diogenə yad oldu tamam.
Qaynar mil çəkdilər iki gözünə,
"Kor keşiş" dedilər sonra özünə.
Böyük bir sərkərdə, bir imperator,
Ölümündən əvvəl edilmişdi kor.

## XAÇ YÜRÜŞLƏRİNİN BAŞLANMASI HAQQINDA

Bizans hökmdarı bir neçə gündür,
Qəm-qüssə əlindən yaman üzgündür.
Birinci Komnenos[243] düşünür gərgin,
Bir seçim önündə dayanıb bədbin:
"Bizansa yad gözlə baxır Vatikan...
Fransız əsilli İkinci Urban[244],
O Roma Papası... edərmi kömək?
Yaxşıca, ətraflı düşünüm gərək...
Gərək Vatikanda oyadım maraq...
Ancaq hansı yolla... necə, nə sayaq?
Bizans kilsəsini sevmir Vatikan,
Kin var, ədavət var ortada yaman.[245]
Çoxdan pozulubdur dostluq, ittifaq,
Vergilər üstündə yaranıb nifaq.
Dindarlar nifaqı salıb dərinə,
Lənətlər deyirlər biri-birinə.
Di gəl indi belə ağır zamanda,
Özünə bir dost tap o Vatikanda...
Ancaq... bir çarə də vardır bu işə...
Gərəkdir Urbanı salım təşvişə!
Bir namə göndərim Urbana gərək,[246]
Səlcuqlara qarşı istəyim kömək.
Yazım ki... sən kömək etməsən əgər,
Olacaq Bizansın ömrü müxtəsər.
Belə bir məqamda, bundan əmin ol,
Türklərin önündə açılacaq yol.
Bizans dövlətinə yad münasibət,
Açar başınıza böyük müsibət.
Konstantinopol yenilsə əgər,
Bütün səyləriniz olacaq hədər.
Bu oğuz əsilli tayfalar ki var,

Öz niyyətlərini deyirlər aşkar.
Güya indi Bizans adlanan məkan,
Qədim türk məskəni olub bir zaman.
Bu həqiqətdir ki, əzəldən bəri,
Mahir döyüşçüdür hər bir nəfəri.
Qorxudan doğmayıb bu fikir məndə,
Gəl yaxın keçmişi yada sal sən də.
Düz iyirmi dörd il bu gündən əvvəl,
Ağıllar süstəlib qaldı məəttəl.
Üç yüz mindən artıq toplayıb əsgər,
Romen Diogenes etdi səfərbər.
Bizans hökmdarı çıxıb səfərə,
Yetişib Malazgirt deyilən yerə,
Ordunu çıxarıb geniş bir düzə,
Oğuz Alparslanla durub üz-üzə.
Sultan yüz qırx beş min əsgəri ilə,
Bizans ordusuna eyləyib həmlə.
Minlərlə əsgərin tökülüb qanı,
Cəsədlərlə dolub döyüş meydanı.
O gün məğlub oldu qüdrətli ordu,
O gün qara matəm bürüdü yurdu...
Türklərin bu savaş məharətləri,
Dəlilik həddində cəsarətləri,
Bəlkə düşündürsün sizləri də bir,
Bəlkə əlbir olub düşünək tədbir?
Yazım ki... yazım ki... müqəddəs ata,
Yalnız sən qadirsən bu təbliğata.
Rumun kilsəsi də verib doğru rəy,
Qardaşlıq naminə göstərəcək səy.
Birlikdə türkləri biz məğlub edək,
Sonra ərəblərin üstünə gedək.
Səlcuq dövlətində qarışıb başlar,
Sultanlıq uğrunda gedir savaşlar.
Parça-parça olub bütün məmləkət,

Məlikşah[247] dövründən yoxdur əlamət.
Türklər bir-birini qırdığı zaman,
Qəfil hücum üçün yaranıb imkan...
Türk məğlub eyləsə Bizansı əgər,
Yenilməz dünyanın sonuna qədər!
Bəli, məktub yazıb istəyim kömək!
Bir elçi göndərim Romaya gərək!”
Aleksi Komnenos bilmədən belə,
Bizansı dəfn etdi bu qərar ilə.
Nə bilsin nə oyun qurubdur fələk?
Bilmirdi – gələcək elə bir “kömək”,
Qarət elətdirib Bizansı əvvəl,
Sonra məhvi üçün quracaq təməl.

* * *

Bizansdan başlayıb elçi səfəri,
Romaya yetişdi bir qış səhəri.
Monte-Vatikana[248] atını çapdı,
Gəlib divarların önünə çatdı.
Yəhərdən atılıb cəld endi yerə,
Döydü darvazanı bir neçə kərə.
Kiçik pəncərəni kilsə sakini,
Açıb sorğu-sual etdi elçini.
Bu sorğu-sualı çatınca sona,
“Bir qədər gözləyin” söyləyib ona,
Pəncərəni örtüb getdi xidmətçi,
Darvaza önündə gözlədi elçi.
Elçiyə çox uzun gəldi bu müddət...
Eşidildi cəftə səsi nəhayət.
Sonra da qapılar gəldilər dilə,
Ağır açıldılar, cırıltı ilə.
Qapıda dörd nəfər xidmətçi vardı,
Birisi tövləyə atı apardı.

Daxil olan kimi içəri elçi,
Qapını bağladı iki xidmətçi.
Digəri elçiylə yanaşı getdi,
Ona kilsəyəcən nəzarət etdi.
Üç kardinal ilə bağda bu zaman,
Söhbət eyləyirdi ikinci Urban.
Məktubu uzadıb iki əlində,
Elçi təzim etdi Papa önündə.
Məktubu elçidən aldı kardinal,
Elçi bir dizini bükərək dərhal,
Papanın əlindən öpərək qalxdı,
Urban məmnunluqla elçiyə baxdı:
"Oğlum, bu səfərin nədir səbəbi,
Söylə, Komnenosun nədir mətləbi?
Elçi göndəribsə şanlı hökmdar,
Yəqin ki, çox ciddi bir məsələ var".
Elçi dedi: "Bəli, müqəddəs ata,
Söyləyim varmadan hər təfsilata.
Türklər böyük ordu edib səfərbər,
Tez-tez ölkəmizə edirlər səfər.
Bizans kilsəsiylə edib məsləhət,
Komnenos qərara gəlib nəhayət.
Bizə çox vacibdir bu gün ittifaq,
Əleyhimizədir hər cürə nifaq.
Əvvəlcə türkləri biz məğlub edək,
Sonra ərəblərin üstünə gedək.
Ümumi düşmənlə qanlı savaşda,
Papa durmalıdır hamıdan başda".
Sanki vacib imiş bu sözlər, bu an,
Kardinallar ilə baxışdı Urban.
Sonra da elçiyə söylədi: "Oğlum,
Əvvəlcə məktubdan bir hali olum,
Kardinallarla da edim məsləhət...
Bir qərar verərik yəqin nəhayət.

Sən isə hələlik dincəl bir qədər,
Yəqin üzüb səni bu uzaq səfər”.

* * *

Üç kardinal ilə əyləşib xəlvət,
Kilsə daxilində qurub məşvərət,
Əvvəlcə oxuyub məktubu Urban,
Dalıb düşüncəyə qısa bir zaman,
Dedi: “Təfriqəçi Bizans kilsəsi!
Günahlar içində yanır ölkəsi!
Nəhayət yetişdi onun bəlası,
Türklərin əliylə gəldi cəzası.
Yoxdur qəlblərində İsusa inam,
Sanki xalkedonçu[249] olublar tamam.
Biz katoliklərik, rəbbimiz İsus,
Bizlərdə rəhm var, İsusa məxsus...
Zənnimcə... belə bir məqamda gərək,
O imansızlara eyləyək kömək...”
Bir kardinal dedi: “Müqəddəs ata,
Pis təsir eyləyər bu camaata.
Biz indi Bizansa eyləsək kömək,
Cəzasız qalacaq azmışlar demək.
İnsanlar haqq yolu tamam çaşarlar,
Kilsədən qorxusuz uzaqlaşarlar.
Kimsə Vatikana etməz itaət,
Vergi də verməzlər bizə nəhayət”.
Urban gülümsünüb söylədi: “Bəli,
Sadə görünsə də işin əvvəli,
Zadəganlar ilə biz olsaq əlbir,
Çox xeyir gətirər bizə bu tədbir.
Mən zadəganlarla edərəm söhbət...
Ancaq bir şərt ilə... olsa da zəhmət,
Komnenos bu şərtə eyləsin əməl,

Qoysun bu tədbirə bir rəsmi təməl...
Bizans kilsəsindən seçilən heyyət,
Gəlib etsin mənə qoy müraciət.
Bəli! Mart ayında, Pyaçenzada![250]
Dini yığıncaqda, rəsmi qaydada!"
Bu dəfə dilləndi digər kardinal:
"Sən, müqəddəs ata, bizi başa sal.
Dinsizlərə yardım etməksə niyyət,
Belə təntənədən nə əhəmiyyət?"
Urban dedi: "Sizi qorusun İsus,
Gec başa düşürsüz siz məni əfsus.
Söylədiyim kimi baş tutsa bu iş,
Çağırış barədə etməyin təşviş.
Bizansın adını çəkmədən belə,
Xalqı qaldırarıq başqa ad ilə...
Yerusəlim! Bəli, o uzaq diyar!
Bilirsiz, orada ziyarətgah var.
"Rəbbin tabutu"dur  kilsənin adı,
Bizə çatmayırmı onun fəryadı?!
Dörd yüz il əsarət altında şəhər,
Dinsiz müsəlmandan çox çəkib zərər.
Bəli, oğlum mənim, olma narahat,
Xalqı qaldıracaq bircə bəyanat...
Ancaq gizli qalsın bax bu məsələ,
Çünki yetişməyib məqamı hələ...
Elçiyə şərtimi söyləyin getsin,
Vaxt azdır, təcili Bizansa yetsin".

* * *

Buludlu, yağmurlu bu yaz səhəri...
Boz rəngə bürünüb Bulon[251] şəhəri.
La-Manş sakit-sakit yırğalanırdı,
Sular tənbəl-tənbəl dalğalanırdı.

Pərişanlıq  yayır bozluq, rütubət,
Bürüyüb şəhəri ağır sükunət.
Sanki qıy çəkməsə qağayı hərdən,
Bir səs də çıxmazdı kiçik şəhərdən.
Son günlər olsa da qəsrində üzgün,
Hersoqa[252] fəallıq gətirdi bu gün.
Səfərdən qayıdıb bu gün qardaşı,
Yenə siyasətə qarışıb başı.
Mizin arxasında iki zadəgan,
Söhbət eylədilər uzun bir zaman.
Qotfrid soruşdu: "Söylə Balduin[253],
Nədən uzun çəkdi səfərin sənin?"
Balduin söylədi: "Ömrümdə hələ,
Əziyyətli səfər olmayıb belə.
Düz Pyaçenzadan Bulona qədər,
Hökmüranlıq edir çamur və kədər.
Özün bilirsən ki, hər yeni bahar,
Edir Avropanı aclığa düçar.
Aclıq və xəstəlik bir qırğın salıb,
Elə kəndlər var ki, tamam boş qalıb.
Sonra da daşqınlar, aramsız yağmur,
Hər tərəf bataqlıq, hər tərəf çamur.
Yollarda yaranıb elə vəziyyət,
Hətta atlılar da çəkir əziyyət...
Dilənçilər ilə hər tərəf dolu,
Hər addımbaşı da kəsirlər yolu.
Sanki qat-qat artır ötdükcə illər,
Böyük şəhərlərdə evsiz səfillər.
İdarə olunmur şəhər, əyalət,
Hər yanda quldurluq, ölüm, cəhalət..."
Qotfrid söylədi: "Yenilik deyil,
Artsa da bəlalar hətta ilbəil...
Bizə öz dərdimiz edir kifayət...
Sən Pyaçenzadan bir eylə söhbət!"

Başını tərpədib dedi Balduin:
“İkinci Urbanın özü də yəqin,
Bu səfalət içrə çətinlik çəkir,
Aclar necə versin kilsəyə nəzir?!
Papanın özü də, digərləri də,
Ölkələrin dini rəhbərləri də,
Bu çətinliklərdən açdılar söhbət,
Hamını düz yola etdilər dəvət.
Hər şey adi idi... bircə məsələ,
Mənimçün qaranlıq qalıbdır hələ...
Təfriqəçi dindən olan bəndələr,
Bizans kilsəsindən nümayəndələr,
Başlayar-başlamaz bu dini tədbir,
Papanın əlindən öpdülər bir-bir”.
Qotfrid soruşdu kinayə ilə:
“Yoxsa vicdanları gəlibdir dilə?!”
Balduin tez dedi: “Əşşi, nə vicdan...
Ötəri də olsa danışdı Urban.
Boğur Komnenosu türk təhlükəsi,
Ağır durumdadır Bizans ölkəsi.
Hökmdar adlanan o kor dilənçi,
İkinci Urbana göndərib elçi,
Yalvar-yaxar edib diləyir kömək...”
Qotfrid dilləndi: “Bir dayan görək.
Papa nə kraldır nə də cəngavər,
Axı nə edəcək bir dini rəhbər?
Yoxsa Papa edib ordu səfərbər,
O uzaq Bizansa edəcək səfər?
Varmı tanıdığın kral, hökmdar,
Belə bir yürüşə etsin iqtidar?!
Hansı kral edib xalqı səfərbər,
Səksən min, doxsan min toplayar əsgər?
Haradadır söylə o böyük sahib,
Bu boyda orduya versin məvacib?!”

Hiyləgər-hiyləgər gülüb Balduin,
Dedi: “Var bir kral! Adı iman, din!
Əqidə uğrunda, ölənə qədər,
Ac-susuz, parasız döyüşər əsgər.
Xalqı bu savaşa qaldırar asan,
Rəbbin adı ilə nüfuzlu Urban”
Əsəbi şəkildə hersoq dedi: “Sus!
Oyuncaq deyildir rəbbimiz İsus!”

* * *

Yenə sarayında Aleksey Komnin,
Batıb ümmanına düşüncələrin:
“Kömək istəyirdin?! Hm... bu da kömək!
Xaç yürüşü! Bədbəxt! Sən özün, demək,
Dərin məzar qazdın öz dövlətinə,
Aldandın Urbanın siyasətinə!
Fransa... Klermon[254]... Böyük yığıncaq![255]
Müqəddəs çağırış![256] Tələdir ancaq!
Budur, Fransadan qoşun yürümüş,
Büsbütün Bizansı qorxu bürümüş!
Bəli, yüz mindən çox “müqəddəs” əsgər,
Amyenli Pyotru[257] seçərək rəhbər,
Edirlər ölkəni yolüstü qarət...
Özüm öz başıma açdım fəlakət!”
Xidmətçi qapıda göründü bu an,
“Amyenli Pyotr!” dedi ucadan.
“Buyursun!” deyərək Komnin əmr etdi,
Xidmətçi baş əyib tez gözdən itdi.
Tezliklə müqəddəs ata buyurdu,
Komnindən bir qədər aralı durdu.
Bir xilaskar kimi gülümsəyərək:
“Oğlum mənim, daha sən deyilsən tək,
Rəbbimiz İsusun istəyi ilə,

Müqəddəs Urbanın dəstəyi ilə,
Köməyə yetişib böyük bir ordu,
Qoy səninlə birgə qorusun yurdu”.
Söyləyib Pyotr süzdü Komnini,
Komnin güclə boğub nifrəti, kini,
Dedi: “Bəli, ata, elədir, ancaq,
Siz məni sanmayın belə utancaq.
Bəzəksiz-filansız verirəm sual,
Kimə lazım idi belə qalmaqal?
Kimə lazım idi belə bir ordu,
Büsbütün talasın yolüstü yurdu?
Müqəddəs yürüşə çıxmış bir əsgər,
Qardaş qatilinə çevrilib məgər?
Yerusəlimdirsə əgər son dilək,
Necə edəcəksiz Bizansa kömək?
Bizans türklər ilə savaşan zaman,
Siz Yerusəlimi seçmisiz ünvan”.
Pyotr söylədi: “İkinci Urban,
Klermonda çıxış eyləyən zaman,
Olsaydı çağırış “Bizansa yardım”,
Bir kimsə atmazdı heç bircə addım.
Bunun səbəbləri bəllidir sənə...
Vatikan veribdir tapşırıq mənə.
Yolüstü məhv edib vəhşi türkləri,
Alım ərəblərdən[258] o pak şəhəri.
Bu iş olmazsa da bizə müyəssər,
Bütün ordu şəhid olarsa əgər,
Təmizlənmək ilə hər bir günahdan,
Nicat tapacağıq rəbbə pənahdan”.
Elə bu sözlərlə söhbət də bitdi,
Amyenli Pyotr çevrilib getdi.
Bizans hökmdarı yenə tək qaldı,
Onu düşüncələr cənginə saldı:
“Şərəf axtarmazdı belə yürüşdə,

Görsəydi türkləri bircə döyüşdə.
Onu təkəbbürü gətirir dilə,
Yoxsa danışmazdı qürurla belə”.

* * *

Bosfor sahilində Birinci Komnin,
Durmuş arasında əsgərlərinin.
Bu zaman bir qayıq, bələdçi ilə,
Artıq yan almışdı yaxın sahilə.
Bələdçi sahildə Komnini gördü,
Qayıqdan atılıb yerə, yüyürdü,
Gəlib hökmdarın önündə durdu,
Dedi: “Son vuruşa başladı ordu”.
Hökmdar soruşdu: “Nədən “son” vuruş?”
Bələdçi söylədi: “Yoxdur qurtuluş.
Ordu düzülməyə tapmamış macal,
Türklərin elçisi yetişdi dərhal.
Yəni başçıları göndərib çapar,
Xaçpərəst ordunu etdi xəbərdar:
“Əgər ziyarətə gedirsizsə siz,
Silah-əslahəni təhvil veriniz.
Yox əgər savaşa vermisiz qərar,
Tanrımız doğrunu etsin bəxtiyar!”
Xaçpərəst ordusu çox saymazyana,
“Doğru bizik!” deyə girdi meydana.
Sayca az olsa da bu türklər üçqat,
Saldılar onları tələyə rahat.
Qırıldı xaçlılar qısa zamanda,
On minlərlə cəsəd qaldı meydanda.
Basdıqca türklərin süvariləri,
Xaçlılar nizamsız qaçdılar geri.
Pyotrun qorxudan tutuldu dili,
Ağlayıb hönkürdü, əsirdi əli.

Adı Valter[259] olan dəli cəngavər,
Qalan əsgərləri edib səfərbər,
O da çox ağılsız bir seçim etdi,
Türklərin üstünə, savaşa getdi.
Amyenli Pyotr sərsəri kimi,
Hey lənətləyirdi bütün aləmi.
Gah bar-bar bağırıb gah hönkürürdü,
Gah da dəli kimi birdən gülürdü.
Sonra dedi mənə pıçıltı ilə:
"Gərək inanaydıq əsl İncilə!
İsus demişdi ki, gələcək Əhməd!
Sonuncu peyğəmbər, adı "Məhəmməd".
Xalkedonçular da düz verib xəbər,
Allah ola bilməz İsus peyğəmbər!
İsus heç Allahın oğlu da deyil,
Dedi ki, dinlərin içində kamil..."
Qövr etdi Komninin kini, qəzəbi,
Dedi yavaş səslə, lakin əsəbi:
"Kəs səsini, küçük, həddini aşma,
Qorxaq firəng kimi yolunu çaşma!
Vurma bülbül kimi önümdə cəh-cəh,
Atdıraram səni odlara, əbləh!
Belə sözlər deyən dinsizdir aşkar,
Sən də o sözləri eyləmə təkrar!
Türk olsun, ya ərəb, ya qeyri millət,
Hər bir müsəlmana edirəm nifrət.
İslamın kökünü kəsənə qədər,
Bizans vuruşacaq, bizimdir zəfər!
Əfsus... sənin kimi qorxaqlar da var...
İtil göz önündən, şərəfsiz idbar!"
Bələdçi də sanki qeybə çəkildi...
Komninin gözləri yerə dikildi:
"Kömək diləyirdim... bax bu da kömək!
Özüm öz ölkəmi məhv etdim demək!

Xaç yürüşlərinin ana məkanı,
Fransa... doğmuşdur səni – Urbanı!
Mən axmaq da sənə etdim etibar,
Ah Urban! Gör səndə nə hiylələr var!?
Yüz min ac səfili edib səfərbər,
Açıqca qırğına göndərən rəhbər...
Kasıbları böylə verərək qurban,
Təmizlik işləri aparır Urban.
Bizans ölkəsini tələyə saldı,
Bizans kilsəsinə qələbə çaldı!
İndi Avropadan gələn hər ordu,
Çapıb-talayacaq bizim bu yurdu.
Yolüstü qarətlər olunca adət,
Nəhayət çökəcək dizə məmləkət.
Yalavac Avropa zadəganları,
Əldən də verməzlər bu imkanları.
"Xilaskar" adıyla gəlib dalbadal,
Nəhayət ölkəmi edərlər işğal!"

## HAQQ TANRIM!

1

Türkəm! Tanrım məni uca yaratmış,
Hünərim önündə bulunmaz hünər!
Açılsın tarixi bəşəriyyətin,
İsmimlə bərabər yazılmış zəfər!
Haqq Tanrım, ismimə dəyməsin zərər!

2

Vətən sularına axsa da qanım,
Torpağım uğrunda çıxsa da canım,
Yetər ki, var olsun azad məkanım,
Bir ana, bir cocuq duymasın kədər!
Haqq Tanrım, elimə dəyməsin zərər!

3

Uçaram göylərdə tərlanlar kimi,
Gəzərəm torpaqda aslanlar kimi,
Coşaram sevgimdən ümmanlar kimi,
Sevgim müqəddəsdir vətənim qədər!
Haqq Tanrım, yurduma dəyməsin zərər!

4

Ay-ulduzlu bayraq – ruhuma qida,
Onun varlığına varlığım fəda!
İxtiyarsız qopur dilimdən nida,
Yaşa Türk elləri, yaşa bəxtəvər!
Haqq Tanrım, dilimə dəyməsin zərər!

5

Açıq bir kitabdır mənim surətim!
Çünki ədalətdən doğar niyyətim,
Mərdlik timsalıdır uca millətim,
Səndən dilək dilər bu ər oğlu ər,
Haqq Tanrım, yurduma dəyməsin zərər!
Haqq Tanrım, dilimə dəyməsin zərər,
Haqq Tanrım, elimə dəyməsin zərər!

## GECƏ BİR AYPARA YARDI ZÜLMƏTİ

Gecə bir Aypara yardı zülməti,
Odur bayrağımın göydə surəti!
Onun nuru ilə nurlandı gecə,
Dedi:"Dan ulduzu doğar indicə!
O, qızıl Günəşdən gətirər xəbər..."
Açılar yurdumda əbədi səhər!
Al rəngə boyanar sonsuz üfüqlər,
Bəzəyər səhəri qızıl şəfəqlər!
Bu zorlu sınaqlar çox çəkdi, düzü...
Mutluydu bu nurlu gecənin özü!
Çəkil ey qaranlıq, bitsin intizar,
Çəkil! Hər zülmətin bir səhəri var!
Yandırıb-yaxsa da həsrətlər məni,
Zərrəcə əymədi zülmətlər məni.
Öz ulularımla fəxr etdiyimtək,
Adımla fəxr etsin nəslim də gərək!
Nə imiş mənimçün hünərli zəfər,
Adımı, haqqımı dərk etdim əgər?!
Ey səmtim əksinə əsən ruzigar,
Mənə də veribdir Tanrı ixtiyar!
Bilirsən, oğuzam, türkəm, azərəm,
Coşqun Qara dəniz, odlu Xəzərəm!
Bir dağ çayıyam ki, sellərim yatmaz,
Qarşımda duranı tarix yaşatmaz.
Qüdrətli Tanrım var – əbədi və tək,
Kitabım Qurandır – hər elmə özək!
Öylə Elim var ki, ellər xaqanı,
Öylə Dilim var ki, dillər xaqanı!
Elə bayrağım var – ulu sancaqdır,
Zülmətin bağrına sancılacaqdır!
Elə bir Yurdum var – Müqəddəs diyar,

Hər bir zərrəsində şəhid qanı var!
Öz dinim, öz dilim, öz adətim var,
Türk adlı möhtəşəm bir millətim var!
Sönməzdir içimdə bu od, bu atəş,
Vətənə eşqimdən nur alır Günəş!
Tanrıya sevgimlə dövr edir həyat,
Türksüz məhvərindən sapar Kainat!

# İZAHLAR

1. Sayad-Xızının Qomişər mahalının Qarabulaq camaatının dünya qədər qədim və çox məşhur “xaqani” oğuz ləhcəsi, dillərin xaqanı, şahı deməkdir. “Kitabi-Dədəm Qorqud” e.ə. VII əsrdən b.e. X əsrə qədər zaman ərzində, Qaraçay ərazisindən, Şirvandan Sır-Dərya çayına qədər böyük məkanda məşhur olmuş bu türk ləhcəsində yazılmışdır.
2. Yabqu – kral, şah.
3. Qadir xan – Qaraxanilər dövlətinin hökmdarı.
4. Sultan Mahmud Qəznəvi – dövrünün ən qüdrətli sultanı, 998 – 1030-cu illərdə Qəznəvilər dövlətinin hökmdarı olmuşdur.
5. Əli Təgin – Arslan Yabqunun müttəfiqi, Qaraxani Qadir xanın qardaşı.
6. Hadisə 1025-ci ildə baş vermişdir. Əli Təgin və qardaşı Əhməd Xocənd, Balasaqun, Fərqanəyə hakim oldular. Bu hadisələrdə Arslan Yabqunun başçılıq etdiyi Səlcuqlular oğuz elatının xüsusi rolu olmuşdur. Bu səbəbdən də Sultan Mahmud və Qadir xan birləşmiş qoşunlarını Əli Təginin üzərinə yürüt-müşlər.
7. Gənəşmə – oğuzların məsləhət yığıncağı.
8. Dəstur – icazə, izin deməkdir, sözün hərfi mənası “birgə vurmaq”dır.
9. Rum ölkəsi – Bizans
10. Mikayılın vəfatından sonra onun övladları Məhəmməd Toğrul bəyi və Davud Çağrı bəyi babaları Səlcuq bəy tərbiyə edib böyütmüşdü.
11. Qızıl bəy Yəhya oğlu – Məhəmməd Toğrul bəyin bacısının əri.
12. Oğuzlar bu ifadəni salamlaşma kimi də istifadə etmişlər, mənası – “qüvvət gəlsin”, “qoluna qüvvət” kimi açıqlanır.
13. Təbbaz – Qəznəvi ordusunda hərbi musiqiçilərə verilmiş ad.
14. Yazır – Kaşğariyə görə, oğuz türklərinin aid olduqları 24 boydan biridir.
15. Hisar – o dövrdə Qəznəvi dövlətinin tərkibində olan quzey Hindistanda şəhərdir.
16. Sübaşı – oğuzlarda sərkərdə.
17. Mərci – mərcimək.

18. Herat – indiki Əfqanıstan ərazisində şəhər.
19. Əsabehi-tuzi – kətan sarıqdan düzəldilmiş baş örtüyü, çalma.
20. Soqma (soxa) – oğuzların uzunboğaz çəkmələri, ayaqqabıları.
21. Şirvan (Şiroğuz, Sır oğuz, Hun) dövləti – Arran (Albaniya) ölkəsinin qərbində, Kür çayından Dərbəndə qədər ərazidə qədim dövlət. Sovetlər dövründə, qədim Hun dövlətinə Albaniya ölkəsinin əyaləti kimi "baxmaq" qanun idi. Halbuki elə sovetlər dövründə geniş təbliğ edilən "Alban tarixi"ndə Kür çayından şimalda Hun dövlətinin olması aşkar qeyd edilmiş, bu ərazinin Türküstanın bir hissəsi olduğu dəfələrlə vurğulanmışdır. Sovetlər dövründə Beşbarmaq – Dərbənd səddlərinin güya Sasanilər tərəfindən tikilməsi aksiom kimi qəbul edilmişdi. Birincisi – səddlərin tikilməsi haqqında mənbələrdə olan məlumatlar biri digərini təkzib edir, ikincisi – sasani şahları heç bir gün də Hun ərazisində hökmranlıq etməmişlər. Əksinə, "Alban tarixi"n-də qeyd edildiyi kimi, sasanilərin ən qüdrətli şahı Xosrov Ənuşirəvan Şimal hökmdarının bir məktubundan qorxuya düşərək qaçmış, Dəclə çayının aşağı axarındakı sarayında oğlu tərəfindən qətlə yetirilmişdir.
22. Seyhun – Sır-Dərya çayı.
23. Buzan çayı – indiki Don çayı. Çayın hər iki adı (Buz-an, Don) türk dilində donan, buz bağlayan çay deməkdir
24. Yatuq – oğuzların heyvandarlıqdan oturaq həyata keçmiş soydaşlarına məzəmmət mənasında verdikləri ad.
25. Qara Dağlılar (Böyük Dağlılar, Oğuz oğlu Dağ xanın nəsli) – ərəb xilafətinin işğalı dövründə Hun (sonrakı Şirvan) dövləti ərazisindən Xəzərin şərqinə keçmiş, Qara Dağ adlandırılan ərazidə (indiki Manqışlaq) yaşamış, XI əsrin əvvəllərində Cəndə gələrək Səlcuq elatı ilə birləşmiş, Arslan Yabqunun xidmətinə keçdikləri üçün tarixdə daha çox "Arslan elatı" kimi tanınmış, Səlcuqlu dövlətinin qurulmasında çox böyük rolu olmuş, 1044 və ya 1045-ci ildə yenidən Şirvana (Sayad-Xızıya) qayıtmış oğuzlar.
26. Tus şəhəri – İranın Xorasan əyalətində şəhər
27. Sipəhsalar – Qəznəvi ordusunda sərkərdə
28. Darvazat – Dərbənd
29. Bəsrə gölü – Fars körfəzi
30. Cənd – o dövrdə Aral gölünün şərqində mövcud olmuş dövlət.

31. Sultan Mahmud Qəznəvi 1030-cu ildə vəfat etmişdir
32, 33. Məsud və Məhəmməd – Sultan Mahmud Qəznəvinin övladları
34. Xacə Əbu ün-Nəsr Əhməd – Sultan Məsud Qəznəvinin vəziri
35. O dövrdə oğuzlara "türkmən" də deyilirdi, lakin bu hadisənin kütləvi xarakter alması "Arslan Yabqunun elatı" adlandırılan oğuzların (Qara Dağlıların) Şirvana getməsindən sonra olmuşdur.
36. Yağmur bəyin və onunla Nişapura getmiş əlli nəfər əsilzadə oğuzun sui-qəsd nəticəsində öldürülməsi hadisəsi 1031-ci ildə baş vermişdir.
37. Ərəbə – araba
38. Alla – oğuzların danışığında "Allah" sözünün "Alla" və ya "Ala" kimi tələffüz formalarından biri.
39. Sahibi-divani-risalət – Əbu Nəsr Zəvzə, baş hakim.
40. Yağmur bəylə birlikdə sui-qəsd nəticəsində öldürülmüş əlli nəfər əsilzadə oğuzun qisasını almağa qalxmış Arslan elatına qarşı sultan Məsud 1033-cü ilin mart ayında Əli Dayənin və Hacib Bilgənin sərkərdəliyi altında ordu göndərmişdir.
41. Xarəzmşah Harun
42. Cənd – o dövrdə Aral gölünün şərqində mövcud olmuş dövlət.
43. Mənbələrdə Sultan Mahmud Qəznəvinin oğuzun Qayı boyundan olduğu bildirilir.
44. Qovğa meydanı – yurd yerinin mərkəzində saxlanılan geniş meydan. Alaçıq dövründən qalan bu adəti oğuzlar son illərə qədər yaşatmışlar.
45. Səlcuqlar elatının salamat qalan qismi 1034-cü ilin noyabr ayında Ceyhun (Amudərya) çayının şərq sahilində məskən salmışdır.
46. Sayad qəsəbəsi və Sayadlar çölü – indiki Türkmənistan ərazisində, Cərco şəhəri ilə Xələc qəsəbəsi arasında ərazi (eyni toponimlər – Sayad-Xızı, Sayadlar, Xələnc, Xələc – Azərbaycan ərazisində də vardır).
47. Hacib Bəg-Doğdu – Sultan Məsud dövründə Qəznəvi ordusunda sultan qulamlarının (qvardiyanın) komandanı
48. Nəsa və Fəravə vilayətləri – indiki Türkmənistanda Qızıl Arvat – Qızıl Rabat.
49. Axın savaşı – oğuz süvarilərinin sayca dəfələrlə böyük düşmən ordularına qarşı döyüş taktikalarından biri. Oğuzlar

bölük-bölük gələrək gözlənilməyən vaxtda və istiqamətdə zərbə vuraraq sürətlə də geri çəkilirdilər.

50. İbrahim Yınal – Yusif bəyin oğlu, Səlcuq bəyin nəvəsi, Məhəmməd Toğrulun əmisi oğlu, bəzi mənbələrə görə Toğrulun ögey qardaşı

51. Qol – o dövrdə oğuz orduları döyüş səflərinə "qol" adlanan hissələrlə bölünərək düzülürdülər ki, hər qolun öz adı, yeri və vəzifələri var idi.

52. Qarşu – cəbhə

53. 1036-cı il, 29 iyul.

54. Yeravul – oğuz ordusunun ön qolu.

55. Alafa – atların və döyüşçülərin ərzaqları.

56. Sübaşı – oğuzlarda baş komandan, böyük başbuğ.

57. Mehtərə – hərbi orkestr.

58. O zaman Alp Arslanın cəmi 9-10 yaşı olardı.

59. Arslan elatının (Qara Dağlıların, ) İraqda xidmət edən qismini "İraq oğuzları" adlandırırdılar. Əslən Azərbaycanın Sayad – Xızı rayonunun Sayadlar kəndindən olan və 1938-ci ildə "pantürkçü" adı ilə edam edilən unudulmaz şair Mikayıl Müşfiq "Sənə qurban" şeirində özünü "qara dağlı" adlandırmışdır.

60. İsfahan hakimi deyləmi Kakuyə oğlu Əlaüddövlə

61. Semnan – Tehran şəhərindən təxminən 150 km şərqdə yerləşən şəhər

62. Damqan – Semnan şəhərindən şimal-şərqdə şəhər

63. Qəznəvi sərkərdəsi Əbu Səhl Həmdəvi

64. Taş-Fərraş – Rey valisi. Mənbələrin verdiyi məlumata görə, Yağmur bəyin öldürülməsində, Arslan elatının digər bəylərinə hazırlanan, lakin baş tutmayan sui-qəsdlərin təşkilində iştirak etmişdir.

65. Quzoğlu – Arslan elatının sərkərdələrindən biri

66. Meytərə – suqabı

67. Qara – böyük

68. Qədimdə, oğuz elatının yurd yerində yabqu və böyük bəylərin çadırları "otaq" adlandırılırdı və digərlərindən seçilmək üçün rəngli keçələrdən qurulurdu.

69. Sürtük aşıq – aşığın rahat durması üçün bir tərəfi azacıq sürtülərdi ki, gözə çarpmasın, adətən sürtük aşıqla oynamaq qadağan olunardı.

70. Alçı – qalib gəlməyi, üstün olmağı xoşlayan. Aşığın altı üzündən biri də belə adlanır.
71. Qurşaq – çox qədim tarixi olan güləş növü
72. Qədeş – böyük qardaş
73. Deyləmi – indiki İranın Gilan və Mazandaran əyalətlərinin sakini.
74. Tutmac – qədim türk xörəyidir. Azərbaycanda "dağlıların xörəyi" kimi tanınıb.
75. Tonyuququn şərəfinə yazılmış abidənin 3-4-cü sətirlərində yazılır: "İlteriş qağan və müdrik Tonyuququn zəhməti hesabına Qapağan xaqan və türk Sir xalqı mövcuddur". Sır (sir, şir) oğuz tayfaları Sırvan (Şirvan) ərazilərindən Sır-Dərya çayına qədər böyük ərazidə yaşamışlar.
76. Sır-oğuz (şiroğuz) – Beş Barmaq dağının adlarından biridir. Şiroğuzların başkəndi Upa olmuşdur. Xızının (Sayad-Xızının) Beş Barmaq mahalında Upa kəndinin xarabalıqları bu gün də mövcuddur.
77. Rusiya ərazisində yaşayan Qaraçay camaatı da özlərinə "Xızır övladı" və "Dağlı" (Taulu, tavlu) deyirlər.
78. Qədim mənbələrdəki qarışıq məlumatlardan, Sovetlər dövründə "Dər-bənd – Beşbarmaq istehkamlarının sasanilər dövründə inşa edilməsi" variantı qəbul edilmişdi. Halbuki sasanilərin Hun ölkəsində (Kür – Dərbənd arası) heç bir hakimiyyəti olmamış, əksinə, hunlar tez-tez sasanilərin ərazilərinə basqınlar etmişlər.
79. O dövrə qədər Şirvan ölkəsinin paytaxtı Beş Barmaq yaxınlığındakı Şirvan şəhəri olmuş, sonradan paytaxt Şamaxıya köçürülmüşdür.
80. Tərəkəmə camaatın dörd məkanı – qışlaq, binə, bustan, yaylaq.
81. Yezid ibn Məzyədin nəvəsi Heysəm ibn Xalid Ərəb Xilafətinin zəiflə-məsindən yararlanaraq özünü Şirvanşah elan etmiş və ərəb Məzyədilər IX-XI əsrlərdə Şirvan ölkəsini idarə etmişlər.
82. Əbu Mənsur Vəhsudan (10201059) o dövrdə indiki Cənubi Azərbay-can ərazisini əhatə etmiş Rəvvadilər dövlətinin hakimi olmuşdur.

83. Xilafətin süqutundan sonra Şirvan, Aran, Azərbaycanda yaranmış dövlətlərdə hakimiyyətdə olan qeyri-türk hakimlər, müstəqillik rəmzi kimi, Xilafət (ərəb) dilindən imtina etdilər. Yerli əhalinin milli hisslərini oyatmaqdan ehtiyat edən hökmdarlar türk dilini də dövlət dili kimi qəbul etmədilər. Neytral və o dövrdə mədəni dil sayılan fars dilini dövlət dili seçdilər. Bu dil XX əsrə qədər Şirvanda nüfuzunu itirmədi.
84. Şəddadilər dövləti – Kür-Araz aralığından Şəkiyə qədər ərazidə, 971 – 1088-ci ilərdə, təxminən yüz il mövcud olmuş dövlət.
85. İbn ül-Əsirin verdiyi məlumata görə, bir qədər sonra, Vəhsudan ilə Əbülheyca Azərbaycanda qalmış oğuzlara qarşı birləşmiş və bir məclis-də silahlı qarşıdurma baş vermişdir.
86. Büveyhi – indiki İran ərazisində 932 – 1055-ci illərdə mövcud olmuş dövlət. 1055-ci ildə Səlcuqlu Sultan Toğrul tərəfindən bu dövlətin mövcudluğuna son qoyulmuşdur.
87. Fəna Xosrov – Rey hakimliyinə 1029-cu ildə Qəznəvi hökmdarı Sultan Mahmud tərəfindən son qoyulmuş Büveyhi Məcdüddövlənin oğlu.
88. Təbəristan – indiki İranın Mazandaran vilayəti
89. Əbül Fəzl Beyhakiyə görə, Sultan Mahmud ilə vəziri Xacə Əbu ün-Nəsr Əhməd süd qardaşları olmuş, uşaq vaxtı bir məktəbdə oxumuşlar.
90. Səraxs – Türkmənistanın cənubunda şəhər.
91. Bu döyüş Səraxs yaxınlığında, 1038-ci il may ayının ikinci yarısında, hicri-qəməri təqvimi ilə 429-cu il şaban ayında baş vermişdi.
92. Mənbələrdə Herat şəhərinin o dövrdə silah-sursatın ən bol yeri olduğu qeyd edilmişdir.
93. Məlikül-mülük – mülklərə malik, məliklər məliki.
94. Toğrul bəy gəlişindən bir neçə gün əvvəl əmisi oğlu və yaxud ögey qardaşı İbrahim Yınalı üç yüz atlı ilə Nişapura göndərmişdi.
95. Əbül Fəzl Suri – Sultan Məsud dövründə Xorasan hakimi olmuşdur.
96. Amillər – vergi məmurları.
97. Dirhəm – tərkibində təxminən 3qr təmiz gümüş olan pul.
98. Dinar – tərkibində təxminən 3-4 qr təmiz qızıl olan pul.

99. Surinin vergidən əlavə sultana bir hədiyyəsi (1034-cü ildə) dörd milyon dirhəm olub.
100. Nəbiz – xurmadan, əncirdən və s. meyvələrdən çəkilmiş spirtli içki.
101. Pəncab (Pənc)-indiki Tacikistan ilə Əfqanıstanın sərhədlərində çay.
102. Termez-indiki Tacikistan ərazisində, Əfqanıstan ilə sərhəddə şəhər.
103. Yatuq – oğuzlar yaylaq-qışlaq arası köçəri həyatdan oturaq həyata keçmiş soydaşlarına "yatuq" (tənbəl) demişlər.
104. Bu döyüş 1039-cu ilin iyul (430-cu il ramazan-şəvval) ayında olub.
105. Əslində bu döyüşdə oğuzların itkisi çox cüzi olmuş, sultan ordusunu təqibə təhrik etmək üçün nizamlı şəkildə geri çəkilmişlər.
106. Cəbəl – Həmədan bölgəsi
107. Nədim – böyük sahibkarın şərab məclisində həmsöhbəti, saqi.
108. Mütrüb – musiqiçi, müğənni, rəqqas (rəqqasə).
109. Əbül Fəzl Beyhaki – Məsud Qəznəvi dövründə saray əyanı, tarixçi.
110. Sərkərdə Əbu Səhl Həmdəvi bu söhbətdən qırx gün sonra dünyasını dəyişdi.
111. Sultan Məsud Qəznəviyə təntənəli müraciətlər.
112. Mərv – indiki Türkmənistan ərazisində, Səraxsdan təxminən 150 km şimal-şərqdə şəhər.
113. Dəndənəkan döyüşündən sonra sultan Məsud Qəznəvi bir neçə məmuru, sərkərdələri edam etdirdi, lakin artıq gec idi.
114. Acı çölü – Mərvdən şimalda, indiki Türkmənistanda geniş çöl
115. Hacib Ərtəgin – qəznəvi ordusunun sərkərdələrindən biri
116. Beyhakiyə görə, bu sərkərdənin qorxudan ödü dağılmışdı.
117. Xarəzmşah İsmayıl Xəndan Altuntaş oğlu, Börü-Təginin qardaşı
118. Ər-Taş Yınal – İbrahim Yınalın qardaşı
119. Fərsəx-təxminən 6 kilometrə bərabər uzunluq ölçüsü Şah Məlik təqibdən yayınmaq üçün 3000 km-dən çox bir məsafə qət etmişdi.

120. O ərəfədə sultan Məsud Qəznəvi sui-qəsd nəticəsində öldürülmüşd
121. Davud Çağrı bəyin əmri ilə ailəsinin, ümumiyyətlə oğuzların qatı düşməni şah Məlik 1042-ci ildə edam edilmişdir.
122. Son dövrlərdə də müşahidələr göstərir ki yaşlı oğuz qadınları, övlad və nəvələrini hansısa təhlükəli işdən çəkindirmək üçün, eləcə də matəm mərasimlərində iki əlləri ilə öz dizlərinə vurur, yanaqlarını dartırlar.
123. Risalə – məktub
124. Şiroğuz (Hun) dövləti, ərəb xilafəti Şirvan ərazisini işğal etməzdən bir qədər əvvəl, türk tayfaları arasında olan çəkişmələr nəticəsində süquta uğramışdı. Kür çayı ilə Dərbənd arasındakı bu dövlət “Alban tarixi”ndə “Hun dövləti”, Tonyuquq abidəsində “Sir budunu” adlandırılıb.
125. Sultan Məhəmməd Toğrul Rey şəhərinə gələndə (1042-ci il) Arslan Yabqunun elatı Rey ilə Zəncan arasında ordugah qurmuşdu.
126. Mosul – müasir İraqın şimalında şəhər
127. Diyarbəkir – indiki Türkiyənin cənub-şərqində şəhər
128. Hillə – Bağdaddan cənubda şəhər
129. Sultan Toğrul ilə Arslan elatının böyük bəyləri arasında olan münasibət barəsində mənbələrin (ibn ül-Əzrağın və ibn ül-Əsirin) verdiyi məlumat tam ziddiyyət təşkil edir.
130. Cəzirə – müasir Cizrə, Türkiyənin cənub-şərqində şəhər.
131. Nəsrüddövlə Əhməd ibn Mərkan, Diyarbəkir hakimi.
132. Kırvaş ibn Ükeyl – Mosul hakimi
133. Hillə hakimi Dübeys ibn Məzyəd ül-Əsədi
134. Taxta büt dinindən olanlar – taxtadan düzəldilmiş xaçlara sitayiş etdiklərinə görə xaçpərəstlərə o dövrdə verilən adlardan biri.
135. Mənbələrin verdiyi məlumata əsasən, Arslan Yabqunun elatı Mosulu və Diyarbəkiri 1043-cü ildə almış və 1044-cü ilin aprel ayına qədər bu iki şəhəri, ətraf ərazilərini tabeçiliyində saxlamışdır.
136. 1031 – 1075-ci illərdə Bağdad xəlifəsi olmuş Qaim Abbasi ibn Qadir. Davud Çağrı bəyin kürəkəni, Alp Arslanın yeznəsi. Sonra isə sultan Toğrulun qayınatası olmuşdur.
137. Təxminən 600 km uzunluğunda məsafə

138. Dəclə çayı –Türkiyə ərazisindən başlayıb, İraq ərazisindən keçərək, ölkənin cənubunda Fərat çayı ilə birləşib Fars körfəzinə tökülən çay.
139. Cəlalüddövlə – Bağdad ərazisində Büveyhi hökmdarı
140. Bağdad xəlifəsi Abbasi Qaim, Büveyhi hökmdarı Cəlalüddövlə və Diyarbəkir valisi Nəsrüddövlə ayrılıqda sultan Toğrula Arslan elatından şikayət etmişlər, sultan da tezliklə bu elatı cəzalandıracağını yazmışdır və aydın məsələdir ki, heç bir cəza tətbiq edilməmişdir.
141. Şirvanşah Qubad ibn Yezid (1043 – 1049)
142. Mənbələrdə, tarix ədəbiyyatında (V.Minorskiy, S.Aşurbəyli, R.Oğuztürk Dağlı və s.), oğuzların gəlişi ilə əlaqədar olan bu hadisənin hicri 435-ci (1044 – 1045) ildə baş verdiyi qeyd edilir.
143. Yezidiyyə – indiki Şamaxı şəhəri. Bu şəhərin adı əvvəl də, sonra da "Şamaxı" olmuşdur. Qısa bir müddət ərzində Şirvanşah Yezidin şərəfinə "Yezidiyyə" adlandırılmışdır.
144. Səlcuqlu Sultan Məhəmməd Toğrulun vəziri Amidülmülk
145. "Nizamiyyə" – Sultan Toğrulun Nişapurda və başqa şəhərlərdə tikdirdiyi mədrəsələrə verilən ad.
146. Bundan üç və ya dörd il sonra (1048-ci ildə) İbrahim Yınalın başçılığı ilə oğuzlar (Pasin ovalığında) Bizans qoşunlarını ağır məğlubiyyətə uğratdılar.
147. Qışlaq, binə, bustan, yaylaq – ilin fəsillərindən asılı olaraq ardıcıl dörd tərəkəmə yurdu
148. Sayad-Xızının (indiki Xızı rayonu) beş mahalı – Göyxan, Gədik, Qomişər (Buğa), Quşçu, Xızı-Beşbarmaq mahalları.
149. İsalu – Sayad-Xızının Qomişər mahalında isalu-əfşar tayfasının yurdu. İsalu-əfşar (usalu-əfşar) tayfasından olan sultan İmamqulunun 1636-cı ildə məşhur alim, səyyah Adam Olearini Göyxan mahalında qonaq etməsi faktı və bu mahalda bir dağın, bir karvansaranın "isalu" adlanması göstərir ki, bu əfşar nəsli əvvəlldən Sayad-Xızının həm Göyxan, həm də Qomişər mahalında yaşamışdır.
150. Qomişər mahalının Qarabulaq kəndi.
151. Qazılu (Qazıkənd) – sovetlər dövründə adı "Qasımkənd" kimi yazılıb. Qədim adı "Qazılu"dur. Mirzəlilu, qazılu (qazılıq), əlişarlu kimi əfşar tayfalarının yurdudur.

152. Dağlu (Dağlı, Qara Dağlı) – “dağ oğlu”, yəni Dağ xanın oğlu. Belə qısaltma oğuzlar üçün xarakterikdir (məsələn: musaoğlu-musalu, isaoğlu-isalu və s.).
153. Tarixçi alban – Musa Kələnkətikli.
154. Xursan – yerli əhalinin “Xızır qayası” adlandırdığı dağa fars tarixçiləri “Xusr sanq” (Xursan), ermənilər “Xosr vem” – yəni “Xızır qayası” demişlər.
155. Töz – simvol. Qədimdə oğuzların altı ağacının (boy, tayfa) yırtıcı quşların (şahin, qartal, dovşancıl, uç, çağrı, sunqur) adı ilə altı tözü olmuşdur.
156. Tuğ (bayraq). Tamğa (dağ, möhür). Sayı 24 olan hər oğuz boyunun bayrağı və sənədlərə, heyvanlara, çadırlara, əşyalara nişan üçün dağı olmuşdur.
157. Sovetlərin məkrli siyasəti nəticəsində Xızı başdan-başa xarabalığa çevrildi.
158. Patriarx – Bizans (Rum) kilsəsinin başçısı, ölkənin dini rəhbəri
159. Kerularios Mixail – 1043-1058-ci illərdə Bizans kilsəsinin patriarxı, rəhbəri
160. Mitropolit – patriarxa tabe olan dini vəzifə, şəxs
161. IX Konstantin Monomakos – 1042-1055-ci illərdə Bizans imperatoru
162. İanə – nəzir, burada: kilsəyə verilən dini vergi
163. Aleksi Studit – Kerularios Mixaildən əvvəl Bizans kilsəsinin patriarxı olmuş, IX Konstantinlə dul Zoyanın kəbinini kəsmişdir.
164. IX Konstantin, kəbin kəsdiyinə görə patriarxa 80 litr (təxminən 25 kq) qızıl vermişdir.
165. İncilə görə (Matta, fəsil 5, bənd 32), dul qadınla kəbin zinaya bərabərdir.
166. IX Konstantinlə kəbin kəsdirərkən Zoyanın yaşı 60-dan ötmüşdü, əri ondan 20 il cavan idi.
167. Patriarx Studit Aleksi 1043-cü ildə öləndən sonra onun əmlakı, 2500 litr (təxminən 800 kq) qızılı müsadirə edilib dövlət xəzinəsinə verilmişdir.
168. Liturgiya – xaçpərəstlərin əsas dini ayini
169. Yalanisidor dekretaliyaları – ortodoks (köhnə dində olan) xaçpərəstlərin iddiasına görə, heç bir sübut olmadan, Sevilyalı

İsidora (VII əsr) aid edilən, IX əsrdə yenidən saxtalaşdırılan sənədlər, Roma papalarına aid fərman və göstərişlər.
170. Bu hadisələrdən bir neçə il əvvəl Van ərazisi Bizans imperiyası tərəfindən işğal edilmişdi.
171. Gürcü çarı IV Baqratla (1027-1072) düşmənçilik edən, ona tabe olmayan, Kldekari və Trialeti ərazisində hakimliyini sürən gürcü zadəganı IV Liparit
172. Katakalon – yunan əsilli Bizans sərkərdəsi
173. Yerusəlim – Aralıq dənizinin şərqində şəhər. Bu şəhər tək Allaha inanan hər üç din (yəhudi, xaçpərəst, müsəlman) üçün müqəddəs sayılır.
174. İki xəlifə – Misirdə Fatimilər xəlifəsi, Bağdadda Abbasi xəlifəsi
175. Xaçpərəstlərin o dövrdə müsəlmanlara, bəzən təhqir mənasında, verdikləri (sarasin, bütpərəst, maqometan və s.) adlardan biri.
176. Zab çayı (Zap suyu, Böyük Zab) – Türkiyənin şərqindən, İraq ərazisindən axan çay, Dəclə çayının sol qolu.
177. Həsən bəy – Musa Bəyqunun oğlu, sultan Toğrulun əmisi oğlu.
178. Qulac – ölçü, açılmış qol uzunluğu, barmaqların ucundan boyun hissəsinə qədər.
179. Məmlük – müsəlman (türk, ərəb, kürd, fars) dövlətlərində xidmət edən türk döyüşçü. Qəznəvi və Səlcuq dövlətlərində məmlüklərdən ibarət qoşunlarda kürd, erməni, fars və ərəb əsilli döyüşçülər də xidmət edirdilər.
180. Kutalmış bəy – Arslan Yabqunun oğlu, sultan Toğrulun əmisi oğlu.
181. Hələ sultan Mahmud Qəznəvinin dövründə, türk-məmlük qoşunlarının tərkibində ermənilər də xidmət edirdilər.
182. Bu hadisələrdən bir neçə il əvvəl Vanı işğal etmiş Rum ölkəsinin rəhbərləri, müsəlman ölkələriylə sərhədlərini möhkəmlətmək üçün, etibar etmədikləri erməniləri Van ərazisindən Aralıq dənizi sahillərinə, Kilikiya ərazisinə sürgün edirdilər.
183. Pasin (Pasinlər) ovası – Türkiyə ərazisində, Ərzurum şəhəri yaxınlığında düzənlik, ovalıq

184. IX əsrdə müsəlman tacirlər üçün İstanbulda inşa edilmiş məscid sonralar baxımsızlıq ucbatından pis vəziyyətə düşmüş, qapısı bağlanmışdı. Pasin döyüşündən sonra Bizans imperatoru məscidi təmir etdirmək və sultan Toğrulun adına xütbə oxutdurmaq məcburiyyətində qalmışdı.
185. Təkbir – Allahu əkbər!
186. Miladdan öncə XIII əsrdən başlayaraq, yunan tayfaları Egey dənizindən keçərək Anadolu ərazisinə gəlməyə başlamış və tədricən işğal edərək məskunlaşmışdılar. Oğuzların Anadolunu alması və burada məskunlaşması sadəcə baba yurduna qayıdışdır.
187. Tarqan – düşməni dayandırmaq və yaxud onun hərəkətini məhdud etmək üçün daşlardan, kötüklərdən və s. yaradılmış süni maneə.
188. 1055-ci ildə xəlifə Qaim Abbasi sultan Toğrulu Bağdada dəvət etdi, “yeddi iqlim sənə tabedir” işarəsi ilə ona üst-üstə yeddi xalat bağışladı.
189. Alp Arslanla birgə qardaşları (Davud Çağrı bəyin övladları) – Kirman hakimi Kavurd bəy və Yaquti bəy də gəlmişdilər.
190. Süleyman bəy – Davud Çağrı bəyin böyük oğlu. Sultan Toğrul Süleyman bəyi vəliəhdi (varisi) elan etmişdi.
191. 1044-cü ildə (17-18 yaşlarında) Alp Arslan qəznəvi Məvdud Məsud oğlunun ordusunu darmadağın etmişdi.
192. Davud Çağrı bəy bu hadisədən təxminən iki ay sonra, 1059-cu ildə (avqust-sentyabr ayında), yetmiş yaşında vəfat etdi.
193. İbrahim Yınal və qardaşı Ər-Taşın iki oğlu edam edildilər. Əsilzadə türk olduqlarına görə qanları axıdılmadı, onları yayın kirişi ilə boğdular.
194. 1063-cü ildə (yanvar) sultan Məhəmməd Toğrul Bağdad xəlifəsi əl-Qaim Biəmrullahın qızı ilə evləndi.
195. Damğa (dağ, möhür) – hər oğuz tayfasının məxsus damğası olmuş və fərqləndirmək üçün çadırlara, heyvanata, sənədlərə öz damğasını vurmuşdur. Damğası olmayan tayfadan Yabqu (kral, sultan) seçilməzdi.
196. Toğrul bəy 1063-cü il 4 sentyabrda, (455-ci il, 8 ramazan, cümə) vəfat etmiş, Rey şəhərində dəfn edilmişdir. Türbəsi indi də mövcuddur.

197. Qars – Türkiyənin şimal-şərqində şəhər. Azərbaycanda, Sayad-Xızıda Qars adlı kənd var. “Qars” qədim şir-oğuzlara aid toponimdir.
198. Bizansın şərqini və Gürcüstanı Alp Arslan 1064-cü ildə fəth etdi.
199. Əbu-Fəth – fəthlər atası
200. Hələ Şəddadi Şavur (1050-1067) dövründə Arran Səlcuqlu dövlətinin tərkibinə qatılmışdı. Şəddadi Fəzl artıq Səlcuqlu dövlətinin vassalı idi.
201. Şirvanşah Fəribürz hədiyyələrlə sultan Alp Arslanın hüzuruna gələrək daxili müstəqilliyini qoruyub saxlaya bilmişdi.
202. Çarşı – örtülü bazar
203. Mənsur bəy Kutalmış oğlu
204. Süleyman bəy Kutalmış oğlu
205. Konstantinopol (indiki İstanbul) – 330-cu il 11may tarixində ilk xaçpərəst Roma imperatoru I Konstantin (müqəddəs Konstantin) bu şəhəri Roma imperiyasının paytaxtı etmiş, Roma imperiyasının süqutundan sonra, 395-ci ildən Bizansın paytaxtı olmuş, 1204-cü ildə, dördüncü xaç yürüşü zamanı avropalılar tərəfindən işğal edilmiş, 1261-ci ildən yenə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Fateh Sultan Mehmet tərəfindən fəth edilmiş, 1453-cü il 29 may tarixindən Osmanlı dövlətinin paytaxtı olmuşdur. 1923-cü ildən Türkiyə Cümhuriyyətinin tərkibindədir.
206. Roman Diogen – 1067-1071-ci illərdə Bizans imperatoru.
207. Məsih – peyğəmbər, xilaskar, İsa
208. Uzlar, peçeneqlər – oğuz tayfaları. XI əsrin ikinci yarısında Dunay çayı sahillərinə kütləvi şəkildə (600 min nəfərdən çox) köç etmiş və şimal tərəfdən, döyüşlərlə irəliləyərək, Konstantinopola qədər gəlmişlər.
209. Ellada – Yunanıstan
210. Kappadokiya – Türkiyənin Kayseri şəhəri ətraflarının Bizans imperiyası dövründəki adı.
211. Konstantin Dukas – 1059-1067-ci illərdə Bizans iperatoru.
212. 1067-ci ildə, hərb məsələlərində zəif olan Konstantin Dukas öldükdən sonra Roman Diogen ölkə hərbçilərinin təkidi ilə Konstantinin dul arvadını almış və Bizansın imperatoru olmuşdur.
213. Mixail – Mixail VII Dukas Parapinak, Yevdokiyanın birinci ərindən olan oğlu, 1071-1078-ci illərdə Bizans imperatoru.

214. Müqəddəs Üçlük – xaçpərəstlər çaşqınlıq ucbatından İsa peyğəmbəri Allahın oğlu sanırlar. Onların inancına görə "Müqəddəs Üçlük" adı altında müqəddəs ata, müqəddəs ana (həzrəti Məryəm) və müqəddəs oğul (həzrəti İsa peyğəmbər) başa düşülür.
215. Pont (Pontiya) – indiki Sivas şəhəri əhatəsinin Bizans dövründəki adı.
216. Axilles – yunan əfsanələrində Troya döyüşləri qəhrəmanı. Axillesin bədəninə ox, qılınc təsir etməzdi, yalnız dabanları zəif idi.
217. Hektor – Troya şəhərini işğal etməyə gəlmiş yunanlara qarşı vuruşan əfsanəvi qəhrəman. Əfsanəyə görə Axilles tərəfindən öldürülüb. Ölümündən qabaq Axillesin də tezliklə öləcəyini söyləyir.
218. Apollon – yunan əfsanəsində Zevsin oğlu, yerin, göyün gözəlliklərini özündə cəmləşdirmiş obrazdır.
219. Homer – qədim yunan şairi, Troya müharibəsindən bəhs edən "İlliada" əsərinin müəllifi. Bu müharibə yunanların Anadoluya ilk gəlişi ilə bağlı idi.
220. Sebastia – Türkiyənin Sivas şəhərinin əvvəlki adı.
221. Hələb – Suriyanın şimal-qərbində şəhər.
222. İsmaili təriqəti – şiəliyin bir qolu hesab edilsə də imamətləri yarımçıqdır, belə ki, imam Cəfər Sadiqdən sonra Museyi Kazımı deyil, İsmaili imam kimi qəbul etmişlər.
223. Fatimilər – 909-1171-ci illərdə, Tunis, Misir, Suriya, Fələstin, Mərakeş, Siciliya, Əlcəzair ərazilərində mövcud olmuş, ismaili xəlifələr tərəfindən idarə edilmiş xilafət.
224. Məad əl-Müstənsir – Fatimi xəlifəsi (1036-1094)
225. Şam şəhəri – indiki Dəməşq şəhəri.
226. Xəlifə Qaim sultan Alp Arslanın yeznəsi, Davud Çağrı bəyin kürəkəni idi. Alp Arslan xəlifə Qaimin qaynı idi.
227. Xədicə Arslan xatun – xəlifə Qaimin arvadı, sultan Alp Arslanın bacısı, Davud Çağrı bəyin qızı.
228. Diyarbəkir valisi, Mervanî əmiri Nizamüddin
229. Mervanî əmiri olmaq üçün Nizamüddin və qardaşı Səid uzun müddət mübarizə aparmışlar. Alp Arslanın vəziri Nizamülmülk Səidi həbs edib zindana saldı, Nizamüddini Diyarbəkirə əmir təyin etdi.

230. İttihad – birlik, birləşmə
231. İntibah – dirçəliş, yüksəlmək
232. Uzlar xırda elatlara parçalanaraq Balkan yarımadasının müxtəlif yerlərində, əsasən Makedoniyada məskunlaşdılar.
233. Bir bu it südü ilə böyüyənə bax!
234. Oğuz geyimindədir, oxları da var.
235. Bu soyu murdar olan özünü bizə bənzədir.
236. Kişiliyi, bəyliyi bir tükə dəyməz.
237. Vurasan ki, gözündən qığılcım çıxsın!
238. Bozqır – boz (sonsuz, əbədi, ucsuz-bucaqsız), qır (kır, düz, düzənlik, səhra) – burada: böyük düzənlik.
239. İmam Əli
240. Zülfüqar – imam Əlinin qılıncı
241. Fidyə – müsəlman qanununa əsasən, əsirin azad edilməsi üçün ödənilən vergi. Roman Diogen azadlığa buraxıldığına görə 1,5 milyon qızıl pul ödəməli, Bizans isə Səlcuq dövlətinə hər il 360 min qızıl pul verməli idi. Roman Diogeni öldürməklə rumlular bu şərtləri yerinə yetirməkdən boyun qaçırdılar.
242. Toqat – Türkiyənin şimalında şəhər
243. Aleksi Komnenos I (Aleksey Komnin) – Bizans hökmdarı ( 1080-1118 )
244. II Urban – Ed de Şatiyon de Lajeri, 159-cu Roma Papası, 1088-ci il 12 mart tarixində, 46 yaşında Papa seçilmiş, 1099-cu ildə ölmüşdür.
245. Ortodoks Bizans kilsəsi ilə Vatikan arasında yaranmış soyuq münasibət nəzərdə tutulur.
246. 1095-ci ilin mart ayında Bızans hökmdarı I Komnenos II Urbana elçi göndərərək türklərə qarşı kömək istədi.
247. Məlikşah – Alp Arslanın oğlu, Səlcuq imperiyasının ən qüdrətli sultanı ( 1072 – 1092 )
248. Monte-Vatikan – keçmiş “müqəddəs Konstantin”, indiki “müqəddəs Pyotr” kilsəsinin yerləşdiyi təpə. Müqəddəs Konstantin kilsəsi – 67-ci ildə çarmıxa çəkilmiş apostol Pyotrun dəfn edildiyi təpədə, IV əsrdə, Romanın ilk xaçpərəst imperatoru Konstantinin əmri ilə tikilmiş kilsə. XVI əsrdə bu kilsə söküldü, yerində “müqəddəs Pyotr” kilsəsi tikildi.
249. Xalkedonçuluq – xristian təriqətidir. Digər xristian təriqətlərinə nisbətən həqiqətə daha yaxındır. Onlar doğru olaraq, həzrəti İsanı Allahın göndərdiyi elçi, peyğəmbər sanırlar. IV əsrdən başlayaraq

digər xristian təriqətçiləri bu təriqətdə olanları kütləvi şəkildə edam edirdilər, diri-diri yandırırdılar.

250. Pyaçenza – İtaliyada, Milandan cənub-şərqdə şəhər. 1095-ci ilin mart ayında, Roma Papasının rəhbərliyi altında, Avropa kilsə xadimlərinin Pyaçenza yığıncağında Bizans imperatoru Komnenosun elçiləri II Urbana müraciət edərək kömək istəmişlər.

251. Bulon – Fransanın şimalında, La-Manş körfəzi sahilində şəhər.

252. Hersoq Qotfrid – 1096-1099-cu illərdə xaç yürüşlərinə rəhbərlik edənlərdən biri, Fransanın Bulon şəhərindən olan zadəgan.

253. Balduin – hersoq Qotfridin qardaşı. İşğaldan sonra Yerusəlimin kralı olmuş I Balduin (1100-1118).

254. Klermon – Fransada, Parisin şimal-şərqində kiçik şəhər.

255. Böyük yığıncaq – 1095-ci ilin noyabr ayında, Fransanın Klermon şəhərində, Papa II Urbanın rəhbərliyi ilə keçirilmiş Avropa xaçpərəstlərinin yığıncağı.

256. Müqəddəs çağırış – Papa II Urbanın Klermon şəhərində tarixi çağırışı. Bu çağırışdan sonra "Xaç yürüşləri" başladı.

257. Amyenli Pyotr – Fransada, Parisin şimalında yerləşən Amyen şəhərindən olan müqəddəs ata Pyotr, ilk xaç (Kəndli Xaç) yürüşünün (1096-cı il) rəhbərlərindən biri. Bu yürüşün başlanğıcında xaçlılar Ruan və Köln şəhərlərində yəhudiləri (körpələrə də aman vermədən) kütləvi şəkildə qırdılar, Anadoluda isə səlcuq türkləri bu ordunu tamam məhv etdilər.

258. O dövrdə Yerusəlim Misir Fatimi dövlətinin tərkibində idi.

259. Valter – Xaç yürüşləri cəngavəri. Birinci məğlubiyyətdən sonra, Amyenli Pyotr xaç ordusunu atıb qaçdı, orduya Valter rəhbərlik etdi. Bosfor boğazının şərq sahilində, indiki İstanbul yaxınlığında, ordusu ilə birlikdə, Qılınc Arslanın qoşunları tərəfindən məhv edildi. Bu döyüşdə bədəninə yeddi-səkkiz ox sancılmış Valter də öldürüldü.

Hun dövlət. xəritəsi – səh. 216

# ŞEİRLƏR, QƏZƏLLƏR

## XALQIN SƏHƏRİ

### İyirmi yanvar

Sovetlər ölkəsi – şərdən törənən bir zülmət,
İnsan sümükləri üstündə qurulmuş dövlət!
Beşikdə ikən azad yurdumu udmuş bu ilan,
Dinimi, adətimi eylədi bətnində nihan.
Bu "İttifaq" deyilən qəfəsdə tapdıqca məqam,
"Pantürkist" deyib istintaqa verdikcə xitam,
Bəlkə comərdliyi boğsun deyə al qanlarda,
Bəlkə silsin deyə yaddaşları zindanlarda,
Cavada, Cavidə, gənc Müşfiqə qıymış bu ilan,
Qıvrılıb hər dəfə hayqırdı ki: " Qurban! Qurban!".
Din, Quran oldu yasaq, söküldü məscidlərimiz,
Qaldı sürgünlərə məruz neçə zahidlərimiz.
Belə bir zülmətə qərq olsa da hürriyyətimiz,
İçində yaşatdı azadlığı ər millətimiz!
İllərə, aylara, dar günlərə gərdikcə sinə,
Min-min edamlara, sürgünlərə gərdikcə sinə,
Döndü al qanlara daxildə gizli göz yaşımız...
Atadan övlada irs oldu bu qan yaddaşımız.
Qurtuluş yoxsa əgər sonucda aşkarlıqdan,
Fayda gəlməz sürəkli hiylə və qəddarlıqdan!
İstiqlal eşqi dönüb atəşə yandırdı elə,
Dəmir sütunları imperiyanın döndü külə!
Qalxdı istiqlal üçün millət Azərbaycanda,
Durdu milyonlar ilə, əl-ələ, bir meydanda.
"A-zad-lıq!" deyə yerdən göyə yüksəldi Bakı!
Bu qətiyyətlə ki, vəhdətlə ki dirçəldi Bakı,
Sökdü işğalçıların polad məhəccərlərini,
Titrətdi Moskvada Sovetin rəhbərlərini!
Durmadan əmr verdilər qıcıyıb dişlərini:
"Kommunist generallar bilirlər öz işlərini.

Dağıdıb məhv eləyin bu Azərlər ölkəsini,
Bakının birdəfəlik kəsin “Azadlıq” səsini!
Necə susdurmuşuq Estoniyanı, Litvanı biz,
Çexoslovakiyanı, hər tərəfi, hər yanı biz,
Necə ki, Polşada Varşavanı boğduq qanda,
Boğulsun öyləcə azadlıq Azərbaycanda!”
Min doqquz yüz doxsanın iyirmi yanvar gecəsi...
Tanklar altında qalan bir şəhərin faciəsi...
Yetməzdi kimsəyə... tədbirlə qurulmuşdu bu iş,
Yetmiş il təcrübələrdən keçirilmiş vərdiş!
Büsbütün yer üzündən təcrid olunmuşdu şəhər,
Belə bir məngənədən kimsəyə çatmazdı xəbər.
Xalqımız bilsə də imperiya qəddarlığını,
Çəkdi qanlı cəbhəyə yalın fədakarlığını!
“Müstəqillik!” və “Azadlıq!” deyə gəldikcə dilə,
Düzülür yollara millət daha sıx səflər ilə.
Tuşlayıb gur projektorları artıq hədəfə,
Yürüyür zəhmli tanklar şəhərdə hər tərəfə.
Atəş açdıqca aramsız yenə tanklar yürüyür,
Torpağı, divarları, yolları al qan bürüyür.
Yağdıqca hər yana odlu qurğuşundan leysan,
Yıxılır yollara hey saysız –hesabsız insan.
Gəlir piyada qoşun texnikalardan aralı,
Öldürür süngüsüylə hər nə qədər var yaralı.
Olarmı şamil edim cəllada “əsgər” adını,
Gözbəgöz atəş açıb vurur  yıxılmış qadını?!
Varmı çaqqal dişi qismində süngüsündə şərəf,
Yaralanmış gəncin köksünü seçmişsə hədəf?!
Hansı hisslərdən itirmiş ki, bu cəllad başını,
Tutulur atəşə hər təcili yardım maşını...
Bu İblis ordusunun şərdir əzəldən əməli,
Allahı inkar edən fəlsəfələrdir təməli!
Bu İblis ordusunun yumub təkəbbür gözünü,
İqtidar sahibi, güc sahibi sanmış özünü.

Olsaydı İblisə sadiqliyində bir şübhə,
Olmazdı bunca qanlı qeyri-bərabər cəbhə.
Yoxsa qırdıqca da qırmazdı silahsız xalqı,
Tırtıllar altına salmazdı günahsız xalqı.
Fani dünya ki, verir qorxağa hərdən fürsət,
Vəhşilik labüd olurmuş pozulurkən nisbət!
Nə qədər olsa da tədbirli, hiyləgər, qəddar,
Uzun olmaz yalanın dövranı, mütləq sonu var!
Puç oldu arzusu imperiya rəhbərlərinin!
Yetməzdi qüdrəti imperiya əsgərlərinin,
Müqəddəs arzuların, duyğuların qüdrətinə,
Bu şəhid köynəyi geymiş bir elin vəhdətinə!
Əbədiyyət zirehindən toxunulmuş bu libas,
Yüksələn bayraq olub yaratdı göylərlə təmas.
Elə bir qüvvədir ki, könüllərdə Haqqa inam,
Çökdürüb zülmü dizə, yaradar dövranda nizam.
Bu İblis ordusu zülmətdə boğarkən şəhəri,
Yardı zülmətləri, məhv eylədi xalqın səhəri.
Al şəfəqlər alınca iqtidarı zülmətdən,
Dinsiz, allahsız ordu dondu qaldı heyrətdən!
Sübhü doğmuş Günəşin nuruna vermiş qüdrət,
Şəhid övladlarının dəfninə qalxan millət!
Sübhə qüdrət yetişib "Tanrı" deyən dillərdən,
Şəhid məzarları üstündə qərənfillərdən!...
Yırtılınca pərdələr qalmadı pünhanda yalan!
Zülmət əsgərlərini zülmətə qaytardı zaman!

## Şəhid

Yenə qəlbimdə qarışmış ağır hüzn ilə qürur,
Bürüyür ruhumu bir sevgi, düşündükcə şüur.
Bir tərəfdən bu ağır faciənin dərdi dərin,
Bir tərəfdən də şirin duyğusu müdhiş zəfərin...
Xalqa sarsılmaz inam bəxş eləyibdirsə əgər,

Şəhidlik əzminə uyğunmu bu matəm, bu kədər?!
Ağlayıb sızlama, bədbinliyi tərk eylə könül!
Bu şəhid zirvəsinin elmini dərk eylə, könül!
Şəhidin ruhunu incitmə bu məzlumluq ilə,
Dəli dönməzliyi irs eylə nəsildən nəsilə!
Bir sübutdur özü ki, Haqq sözünün hikmətinə,
Axışır el şəhid məzarının ziyarətinə.
Şəhid ölməz! Şəhid ölməz! Dirilərdən diridir!
Ünvanı sevən könüllər, məzarı and yeridir!
Yox bəşər içrə  var olmaqda, yaşatmaqda tənin,
Ey şəhid, sən döyünən qəlbisən azad vətənin!
Bu məzardır ən müqəddəs yeri yurdun, məkanın,
Bu məzar deyil hüdudlarında vaxtın, zamanın.
Əbədiyyət yeridir! Ucalıb Dərgaha şəhid!
İnamlı könülləri bağladı Allaha şəhid!
Ey şəhid! İsminə bənd oldusa qan yaddaşımız,
Tanrıdan qeyrisinin önündə enməz başımız!
Bu məzar daşları cərgəylə düzülmüş şühəda,
Ən gözəl neməti Azadlıq üçün verdi fəda!
Bu fədakarlığı dərk etmiş əgər bir millət,
Əbədiyyən daha Azadlığa qalmaz həsrət!
O azadlıq Günəşindən ki nurlanıb vətənim,
Qürub etməz! Yer alıb çünki bayrağımda mənim!
Ey Vətən! Daimidir bunca müqəddəs zəfərin,
Daha zülmətlərə qərq olmayacaqdır səhərin!
Ulu türk çeşməsi bağrında qaynayan məkanım,
Səadətindən alır qüdrəti türküm, Turanım!
İgid övlad nəsib etmiş sənə Haqq xilqətdən,
Səni Allah qorusun hər cürə pis niyyətdən!

## VƏTƏN SEVGİSİ

O, mənim canımda, o, qanımdadır,
İrsi nemətimdir vətən sevgisi!
Əslimdən aldım ki, nəslimə verim,
Ulu adətimdir vətən sevgisi!

* * *

Hər bir tərəddüdüm onunla bitmiş,
Hər çətin anımda imdada yetmiş!
Ruhumu zirvələr fatehi etmiş,
Səbrim, zəhmətimdir vətən sevgisi!

* * *

Sevgimlə dərk edir qəlbimin gözü,
Onunla seçirəm əyridən düzü!
Yurdun istehkamı, millətin üzü,
Mədəniyyətimdir vətən sevgisi!

* * *

Paklığından gəldi qəlbimə iman,
Hifz etsin yurdumu uca Yaradan!
Vətəndir Cənnətə yol açan məkan,
Əbədiyyətimdir vətən sevgisi!

* * *

Səmalardan aydın, saf sudan duru,
Hər cəsur ürəyin fəxri, qüruru,
Qolumun təpəri, gözümün nuru,
Söz kəramətimdir vətən sevgisi!

## KÖNLÜM

Tanrını unutma, vətənini sev,
Yüksələk göylərə biz qoşa könlüm!
Həmd olsun Tanrıya, doğrunu seçdin,
Sevgisiz dönərdin bir daşa könlüm!

* * *

Zərrə yer ayırma şeytanlar üçün,
Yaz, yarat dərk edən insanlar üçün,
Əbədisən bütün dövranlar üçün,
Sınağı zəfərlə vur başa, könlüm!

* * *

Bu yoxsul dünyada axtarma cənnət,
Yollarda qalarsan sıxdıqca qürbət.
Ev üçün, el üçün çəkilən zəhmət,
Dərgahda da gələr, bil, xoşa könlüm!

* * *

Göylərdə xəyalım, yerdə ayağım,
Kəbə qibləgahım, vətən dayağım,
Rəsul müjdəsinə oldu sorağım,
Sən bələdçim oldun birbaşa könlüm!

* * *

Bir olan Tanrıya ibadətinlə,
Vətənə, xalqına sədaqətinlə,
Oğuz ordususan söz sənətinlə,
Yenilməz başbuğsan, xan, paşa könlüm!

* * *

Təqva hikmətindən alıb iqtidar,
Sənət zirvəsində tutmuşam qərar,
Səni dərk etməyin öz məqamı var,
Məchul da deyilsən sirdaşa könlüm!

## QARDAŞ

Qışlaqdan, binədən, bustandan keçək,
Dırmaşaq birbaşa yaylağa, qardaş.
Ən böyük dağlıyam, mən Qara Dağlı,
"Böyük" söyləmərəm hər dağa, qardaş.

* * *

İnanma ki bir el qazansın vəhdət,
Öz ziyalısına etmirsə hörmət,
O eli ki, boğar böylə rəzalət,
Çətin bir də qalxsın ayağa, qardaş!

* * *

Rüşvət təhsilini alarsa ələ,
O camaat dönüb olacaq kölə.
Tanrıdan elinə diləklər dilə,
Sahib dur müqəddəs ocağa, qardaş!

* * *

Yalançı alimi, şairi gərək,
Məhşər ayağına el çəkə tək-tək.
Həqiqi alimin nazını da çək,
Üfürmə nur verən çırağa, qardaş!

* * *

Bir cənnət guşəsi olar cahan da,
Haram dövr etməsə damarda, qanda.
Ərləri ismətsiz olan məkanda,
Hicab bacı olmaz papağa, qardaş.

* * *

Nə qədər gəlirsə, gedirsə nəfəs,
Bir an da yaşama dünyada əbəs.

Düşməni vurmağı bacarmayan kəs,
Gömər öz nəslini torpağa, qardaş.

* * *

El-elə qovuşub qardaş olmasa,
Turan övladları sirdaş olmasa,
Bir amal uğrunda yoldaş olmasa,
Kənardan gələcək bəy, ağa, qardaş!

* * *

Müqəddəs Qədrdən nişanəsi var,
Türk, İslam rəmzidir bayrağım aşkar.
Mən sənə, Rəfail, verdim ixtiyar,
Bürün varlığınla bayrağa, qardaş.

## OLMASIN

Al sazı, dilləndir aşıq şövq ilə,
Söylə, sözün bəlağətsiz olmasın!
Yarat könüllərdə iman şöləsi,
Eylə dua – hidayətsiz olmasın!

* * *

Bu fani dünya yaranandan bəri,
Var satılan, satan bir də müştəri.
Satdısa həvvarisi peyğəmbəri,
Etibarın nəhayətsiz olmasın.

* * *

Zülmət içrə gözəl də fərq eyləməz,
Gün olmasa qızıl da bərq eyləməz.
Min deyənin bir qəmə qərq eyləməz,
Bir yeyənin ədalətsiz olmasın!

* * *

Hər göz üçün pərdə deyildir niqab,
Papaqsız ellərdə yasaqdır hicab.
Uzaqlaşar rəiyyətdən iztirab,
Ağa bəylər kəramətsiz olmasın!

* * *

Dost Yaradandır, bilir aqil dəqiq,
Xəlq olunandan çətin olsun rəfiq,
Dost ola bilməz, tapılar müttəfiq,
Müttəfiqin zəmanətsiz olmasın.

* * *

Bir bulaq üstündə ki, gördün səfa,
Deyil ki, mütləq suyu versin şəfa.

Öylə də hər kəsdə bulunmaz vəfa,
İnandığın sədaqətsiz olmasın.

* * *

Gəl Rəfail Oğuztürkü sal yada,
Tək Allahı səsləyibdir imdada,
Görmədi bir nəsnə fani dünyada,
Axirətdən əlamətsiz olmasın!

## VƏSF ET, ŞAİR...

Haqqı gördünsə yararlan, yarı vəsf et, şair!
Vəhdət eşqiylə o tək dildarı vəsf et, şair,

* * *

Pak gözəllikləri hərcayi ötənlər görməz,
Dərk edənlər də susub, sən barı vəsf et, şair!

* * *

Bəxtəvərsən – sən əgər səcdəgahı dost bildin,
Dosta layiqli olub, ilqarı vəsf et, şair!

* * *

Kim bu aləmlərə vəhdətdə nizam vermişdir?!
Duyub ecazını ecazkarı vəsf et, şair!

* * *

İbrətli qoşma qoşub yaz, sazı dilləndirsin,
Bir qəzəl yaz muğam üçün, tarı vəsf et, şair!

* * *

Dəymə, qalmaz bəzək altında xəbislər pünhan,
Əməli, qəlbi gözəl aşkarı vəsf et, şair!

* * *

Rəfail, haqqı çağır, qoy uzaqlaşsın şeytan,
Az da vardırsa gözəllik, varı vəsf et, şair!

## YAXIN GƏL

Cahilliyi tərk eylə, kamal ilə yaxın gəl,
Kamilliyə həsrətli amal ilə yaxın gəl!

* * *

Haqqın yolu qarşındadır, israrla qədəm qoy,
Qəlbindəki min sorğu-sual ilə yaxın gəl!

* * *

Əl çək, bu zəiflik səni məhv eylədi, mərd ol!
Gəl, tövbə edib, nurlu camal ilə yaxın gəl!

* * *

Yol vermə ki, qəlbində iman şöləsi sönsün,
Ehtiyat etdiyin o babal ilə yaxın gəl!

* * *

Daxilində çarpışmadadır haqq ilə şeytan,
Sən haqqa tabe ol, bu vüsal ilə yaxın gəl!

* * *

Şahidlik edib Haqqa və peyğəmbərə, paklan,
Müslümlərə mənsub o cəlal ilə yaxın gəl!

* * *

Olmazsa da imkan gözəl, imanlı əməlçün,
Qəlbindəki xoş arzu-xəyal ilə yaxın gəl!

* * *

Şükr Allaha, dərgahı geniş, rəhmi də sonsuz,
Dostlarla, qohumlarla, mahal ilə yaxın gəl!

* * *

Gəl, sən də Rəfail kimi haqq elmi bəyan et,
“Sərf etmə ömrü puç!” – bu misal ilə yaxın gəl!

## DANIŞ EY DİL...

Danış ey dil ki, səni səbrim usandırdı, danış!
Ağ yalan cövlan edib xalqı inandırdı, danış!

* * *

Zülmə qultək əyilən qövmü görüb sarsılıram,
Məni adəmlərə mənsubluq utandırdı, danış!

* * *

Nəfsə bax – şöhrət üçün dinsizi zəvvar eləyib,
Yeddi yol Kəbə təvafında dolandırdı, danış!

* * *

Bəzəyib şərəfsizi vəzifə, sərvət niqabı,
Yetər artıq bu qədər haqqı yubandırdı, danış!

* * *

Baxıb insanlara İblis də şaşırmış, dədə vay!
Çirkinib çərxi-fələk dövrü dayandırdı, danış!

* * *

Sadə görkəmdə görüb şairi “sən sus” dedilər...
Kim bilir, bəlkə də söz qanmazı qandırdı? Danış!

* * *

Sən Rəfail dilisən, ey Xızır irsindən olan,
Səndə pünhan yatan ecaz məni yandırdı, danış!

## YARADAN XATİRİNƏ

Yer əgər xəlq olunubdur imtahan xatirinə,
Küfrü mədh eyləmə, ölsən belə, can xatirinə!

* * *

Yaxşının qədrini bildinsə - buyur Cənnətinə,
Əgər ki, danmayasan başqa güman xatirinə!

* * *

Bilir insan ki, Cahan məhv olacaq nəfsi ilə,
Gəl rəqabətlərə son qoymaz aman xatirinə!

* * *

Bütpərəstin bütünə söymə ədəbsizlik edib,
Dönüb Allahı söyər, söymə iman xatirinə!

* * *

Dərd verən versə verir çarə də insanlar üçün,
Et yaranmışlara hörmət Yaradan xatirinə!

* * *

Söhbət aç xalqa, tanıtdır bu oğuz nəslimizi,
Tanrı bəxşindən əmanət bu zaman xatirinə.

* * *

Yaz, Rəfail, bu vətən naminə, el naminə yaz!
Olma söz taciri əsla güzəran xatirinə!

## SAYAD-XIZI

Özü istedad üçün ruhi təməldir Xızının,
Sazı, hikmətli sözü haqqa yönəldir Xızının!

* * *

Bilsin öyrənmək istəyən bu elin tarixini,
Kökü bildiklərimizdən də əzəldir Xızının.

* * *

Bu gözəl məskəni layiqli ərənlər sevəcək,
Anlamaz dar düşüncə, sirri özəldir Xızının.

* * *

Bura türk oylağıdır, dahilərin məskənidir,
Çünki hər zərrəsi saflıqla gözəldir Xızının!

* * *

De "Rəfail nə gözəl yazdı qəzəl!" söyləyənə:
Özü başdan-başa bir dadlı qəzəldir Xızının!

## İTMƏZ

Ruh öylə müqəddəs ki, onun dövranı bitməz,
Xoş söz kimi heç nəsnə zərif qəlbi isitməz.

* * *

Hey cadu yığıb cisminə şeytan yürüyürkən,
Allahı gözəl zikr edən ünvanlara yetməz.

* * *

Təqvasız ibadətxana müşriklər üçündür,
Min bir müqəddəs ad qoyulsa fərq belə etməz.

* * *

Bədbəxt o adamdır ki, olub iblisə məftun,
Aşkar danışıb haqqı deyən dostu eşitməz.

* * *

Bir qəlbə iman şöləsi saldınsa, Rəfail,
And içmirəm, ancaq ki sənin zəhmətin itməz!

# QİSMƏT VƏ SINAQ

Soruşma: "Yaranışdan xislətimiz bəlliikən,
Nə sınaqdır bu sınaq qismətimiz bəlliikən?"

* * *

"Allaha xasdır əgər qisməti bilmək" dedilər,
Bu sual nə sualdır hikmətimiz bəlliikən?

* * *

Nə üçün aləmə Haqq mərtəbəsindən baxasan?,
Düşün insan kimi – irsiyyətimiz bəlliikən.

* * *

Bəd əməllər törədib dildə bəzək vurmaq olar,
Haqq-hesab düz çəkilər niyyətimiz bəlliikən.

* * *

Gözəl işlərdə xəbislik və bu tənbəllik ilə,
Nə mükafat dilərik zəhmətimiz bəlliikən?!

* * *

Yaramaz meyl eləmək kafirirn adətlərinə,
Dinimiz, əqidəmiz, millətimiz bəlliikən.

* * *

Ey Rəfail, puç olar axırı qeybətçilərin,
Xalq içrə nüfuzumuz, hörmətimiz bəlliikən!

## SƏNDƏN DİLƏRƏM

Xaliqim! Tövbə üçün ibrəti Səndən dilərəm,
Ağrısız ibrət üçün hikməti Səndən dilərəm.

* * *

Sevgilər məskəni et könlümü, vahid Yaradan,
Pak əməllər doğuran niyyəti Səndən dilərəm.

* * *

Bəzəklər içrə gələn nəfs ilə meydandaikən,
Məni "mən"dən qoruyan isməti Səndən dilərəm.

* * *

Ya bəsirət gözü ver, xaini dərhal tanıyım,
Ya da hər batinə xas surəti Səndən dilərəm!

* * *

Meydan olmuş bu cahan ruhuma el dərdi ilə,
Xalqa şəfqət düşünüb, vəhdəti Səndən dilərəm.

* * *

Kitaba, elmə, qələm əhlinə hörmət tükənib,
Mədəniyyətlə gələn şəfqəti Səndən dilərəm!

* * *

Rəfail Oğuztürkün istəyi haqq içrə olar,
Elə elm öyrədənə Cənnəti Səndən dilərəm!

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz** ..........................................................................
**Müəllifdən** ..................................................................

## SİZAN HƏQİQƏTLƏR
## (Oğuznamə)

Allahın adı ilə ....................................................................... 4
Əsərin yazılma səbəbi ........................................................... 6

**I hissə:**
**Səlcuq elatının iki hissəyə bölünməsi**
Sızan həqiqətlər ..................................................................... 8
Sultan Mahmudun çapar ı..................................................
Cəngi-Hisar, bəstə-Nigar ...................................................
Gənəşmə ...........................................................................
Yolda ...............................................................................
Sultan Mahmud Qəznəvi ilə baş vəzirinin söhbəti ............
Arslan Yabqu ilə Sultan Mahmud Qəznəvinin görüşü ....
İik qurban .........................................................................
Nifaq ..................................................................................
Səlcuq elatı parçalandı .......................................................

**II hissə:**
**Arslan elatı Xorasanda**
Sızan həqiqətlər ..................................................................... 49
Oğuzların Sultan Mahmud Qəznəviyə məktubu ...............
Tus valisinin fitnəsi ...........................................................
Cazibin fitnəsi baş tutdu .....................................................
Xətli xatun...........................................................................
Qəznəvi ordusuyla Arslan elatının ilk döyüşü ....................
Sultan Mahmud Qəznəvinin yuxusu ..................................

Şair nə deyir? ..........................................................................
Yenə də təkəbbür ......................................................................
Rüstəmin Musa Yabqu ilə görüşü ......................................
Tus valisi Cazibin sultana məktubu ...................................
Arslan elatının ilk və son məğlubiyyəti .............................
Sultan Mahmud Qəznəvinin ölümündən sonra .................
Yağmur bəyin öldürülməsi ................................................
Balxan oğuzlarının Arslan elatına xəbər gətirməsi ...........
Xacə əbu ün-Nəsr Əhmədin məzəmməti ..........................

**III hissə:**
**Səlcuq elatı Xorasanda**

Sızan həqiqətlər .............................................................. 106
Sayad çölündən Xorasana qədər ..................................
Səlcuq bəylərinin Sultan Məsuda məktubu ........................
Səlcuqların ilk cəhdi alınmadı ..........................................
Qəznəvi ordusunun bir hissəsi məhv edildi ........................
Səlcuqlarla Qəznəvilərin meydan savaşı ............................
Sultan Məsudun elçisi təhqir edildi ...................................
Ətrək çayın sahilində ........................................................
Çağrı bəylə Qızıl Qazinin söhbəti .....................................

**IV hissə:**
**Yenilməz Arslan elatı**

Sızan həqiqətlər .............................................................. 145
Yenə birlikdədir Arslan elatı .............................................
Qıfçaq ................................................................................
Xain Taş-Fərraşın öldürülməsi ..........................................
Yağmuroğlu və Danə bəyin əsir düşməsi ...........................
Yağmuroğlu qayıtdı ..........................................................
Semnan valisinin "hədiyyəsi" ...........................................
Əbu Səhl Həmdəvinin tədbirləri ........................................
Rey şəhərinin fəthi ............................................................
Sultanın başına and olsun .................................................

Yardı zülmətləri ............................................................
Arslan elatı Rey şəhərində ..............................................

**V hissə:**
**Qərbdən şərqə karvan**
Sızan həqiqətlər ............................................................... 186
Nə tac qoyaq nə də taxtda oturaq .....................................
Şirvandan Təbrizə, Təbrizdən Reyə ..................................
Ərəb Vəhsudanın elçisi ......................................................
Marağa şəhərində ............................................................
Təbrizim ...........................................................................
Arslan elatı Azərbaycanda ...............................................
Zəncan yaxınlığında gənəşmə .........................................
Büveyhi Fəna Xosrov ilə Qızıl Qazi bəyin görüşü ............
Arslan elatı məqsədinə yetdi ..........................................

**VI hissə:**
**Böyük insan – Davud Çağrı bəy**
Sızan həqiqətlər ............................................................... 227
Başsız qalmış ölkə ...........................................................
Sübaşının ordusu məhv edildi ...........................................
Məhəmməd Toğrul bəy, şanlı hökmdar ..............................
Sultan Məsudun fili qaçırıldı .............................................
Səlcuq oğuzlarının Səraxs gənəşməsi ................................
Herat şəhərində ................................................................
Əbu Nəsr Zəvzənin evində ziyafət .....................................
Sonrakı peşmançılıq .........................................................
Acı çölündən Dəndənəkana qədər .....................................
22 – 24 may 1040-cı il. Dəndənəkan döyüşü .....................
Böyük insan – Davud Çağrı bəy.........................................
Gözlənilməz görüş ...........................................................
Şah Məlik cəzasına çatdı ..................................................

**VII hissə:**
**Arslan elatına xüsusi tapşırıq**

Sızan həqiqətlər ............................................................... 293
Rey hökmdarı İbrahim Yınal ...........................................
Banu ilə Buğa bəyin söhbəti .............................................
Banu ilə sultan Toğrulun söhbəti .....................................
Sultan Toğrulun elçisi ilə böyük bəylərin söhbəti .............
Gözəl məqsəd ......................................................................
Diyarbəkir valisinin tədbiri ...............................................
Xəyanət nəticəsində Mənsur bəyin əsir edilməsi ..............

**VIII hissə:**
**Dağlıların Sayad-Xızıya qayıdışı**

Arslan elatının müttəfiqlər üzərində qələbəsi ................. 314
Arslan elatı Mosulu və Diyarbəkiri də fəth etdi .................
Xəlifə ordusunun məğlub edilməsi ...................................
Görüşüb, danışıb, razılaşdılar ............................................
Van hökmdarının əsir edilməsi ..........................................
Şirvanşah Qubad xəbərdar edildi .......................................
Böyük bəylərlə İbrahim Yınalın vida görüşü ....................
Ulu baba yurduna – Sayad-Xızıya qayıdış ........................
Turan danışır .......................................................................
Soruş ....................................................................................

**IX hissə:**
**Böyük Səlcuqlu dövlətinin sultanı Məhəmməd Toğrul**

Sızan həqiqətlər ............................................................... 349
Düşündürüb məni bu böyük mətləb ...................................
Bizans patriarxının düşüncələri ......................................
İmperator ilə patriarxın görüşü ......................................
Zab çayı sahilində söhbət .................................................
Ordunu xilas edərək şəhid olan sərkərdə ........................
Azərbaycan sultan Toğrulu köməyə çağırır ..................
Vəhsudanla İbrahim Yınalın görüşü .............................

Anadolu – ulu türk yurdu ...................................................
Pasin savaşında mükəmməl zəfər ..................................
Ən böyük sultan ...........................................................

**X hissə:**
**Sultan Məhəmməd Alp Arslan**
Sızan həqiqətlər ............................................................... 388
İbrahim Yınalın üsyanı ...................................................
Alp Arslan sultan oldu ...................................................
Rey şəhərində məşvərət .................................................
Konstantinopolun küçələrində ........................................
Roman Diogen ilə arvadının söhbəti ...........................
Roman Diogen Kappadokiya və Pont ərazilərində ........
İmperator erməniləri cəzalandırır ....................................
Roman Diogen və sərkərdələri ....................................

**XI hissə:**
**“Arslan”ın erkəyi dişisi olmaz**
Alp Arslan Hələb şəhərində ............................................ 420
Alp Arslan Hələb hakimini əfv etdi .................................
Alp Arslanın rədd cavabı .................................................
Xəlifə Qaim Abbasiyə xəbər çatdı ..................................
Xədicə Arslan xatun .......................................................
Alp Arslanla Diyarbəkir valisinin söhbəti ......................

**XII hissə:**
**İslam ordusunun mükəmməl qələbəsi**
Ahlat yaxınlığında gənəşmə ............................................ 445
Diogenin niyyəti ..........................................................
Uz süvarilərinin düşərgəsində .........................................
Zəfərin təməli vəhdətdir .................................................
Malazgird savaşında ilk qarşıdurmalar ............................
Döyüşə türk oğlu Alp Arslan gedir ..................................
Mükəmməl zəfər ...........................................................

Alp Arslan əsir edilmiş imperatoru azad buraxdı ...........
Xaç yürüşlərinin başlanması haqqında ............................
Haqq Tanrım ..................................................................
Gecə bir aypara yardı zülməti ..........................................

## Şeirlər, qəzəllər

Xalqın səhəri (kiçik həcmli poema) ................................
Vətən sevgisi ..................................................................
Könlüm ..........................................................................
Qardaş ...........................................................................
Olmasın .........................................................................
Vəsf et, şair ...................................................................
Yaxın gəl .......................................................................
Danış ey dil ....................................................................
Yaradan xatirinə ............................................................
Sayad-Xızı .....................................................................
Söylədik ........................................................................
Qismət və sınaq .............................................................
Səndən dilərəm ..............................................................